**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**ŞƏHLA MƏHƏMMƏD QIZI RZAYEVA**
**LEYLA ZAKİR QIZI ƏLİYEVA**

# İQTİSADİ FİKİR
# T A R İ X İ

***Dərs vəsaiti***

Azərbaycan Dövlət İqtisad Universitetinin Ellmi-Metodiki Şurasının 25 dekabr 2017-ci il saylı protokoluna (protokol 02) əsasən çapa tövsiyə olunur.

**BAKI – 2018**

**Elmi pedaktor:** i.e.d., prof. **Əliyev Ü.Q.**

**Rəyçilər:** i.e.d., prof. **Alıyev İ.H.**
i.e.n., dos. **Əlləzov Q.S.**
i.e.n., dos. **Əliyeva A.M.**
i.e.n., dos. **Məmmədov A.B.**

**Rzayeva Ş.M., Əliyeva L.Z. İqtisadi fikir tarixi. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. – 2018. - 388 səh.**

© Rzayeva Ş.M., Əliyeva L.Z. - 2018
© İqtisad Universiteti - 2018

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| **GİRİŞ** ............................................................ | | **4** |
| **Mövzu 1.** | **İqtisadi fikir tarixinin predmeti, metodu və strukturu. Qədim dövrün iqtisadi təlimləri**................................ | **5** |
| **Mövzu 2.** | **Şərqdə iqtisadi fikirlərin yaranması...** | **35** |
| **Mövzu 3.** | **Azərbaycanda iqtisadi fikrin təşəkkülü və formalaşması**........................ | **48** |
| **Mövzu 4.** | **Qərbi Avropada iqtisadi təlimlərin meydana gəlməsi. Merkantilizm**......... | **66** |
| **Mövzu 5.** | **Klassik siyasi iqtisad məktəbinin meydana gəlməsi. Fiziokratizm**.......... | **79** |
| **Mövzu 6.** | **Adam Smitin iqtisadi təlimi**............... | **99** |
| **Mövzu 7.** | **David Rikardonun iqtisadi təlimi**....... | **112** |
| **Mövzu 8.** | **Klassik siyasi iqtisadi məktəbinin davamı və tənqidi**................................ | **123** |
| **Mövzu 9.** | **Karl Marksın iqtisadi təlimi**.............. | **156** |
| **Mövzu 10.** | **Alman tarixi məktəbləri**...................... | **178** |
| **Mövzu 11.** | **Marjinalizm və neoklassik istiqamət..** | **192** |
| **Mövzu 12.** | **C.M.Keynsin iqtisadi nəzəriyyəsi**........ | **226** |
| **Mövzu 13.** | **Neoliberalizm. Monetarizm**............... | **253** |
| **Mövzu 14.** | **İnstitusional-sosioloji istiqamət**......... | **275** |
| **Mövzu 15.** | **Müasir dövrün iqtisadi nəzəriyyələri.** | **368** |
| **İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT**...................... | | **384** |

# GİRİŞ

Azərbaycanda aparılan uzunmüddətli uğurlu iqtisadi siyasətin hazırkı mərhələsində, təkamüllü iqtisadi inkişafa təkan verən cərəyanların, məktəblərin və konsepsiyaların şərh olunması, tarixi inkişafın ayrı-ayrı dövrlərində irəli sürülən ümumbəşəri iqtisadi dəyərlərin mənimsənilməsi, inkişaf qanunauyğunluqlarının öyrənilməsində "İqtisadi fikir tarixi" fənninin xüsusi yeri vardır. Bu fənn ümumdünya iqtisad elminin mühüm tərkib hissəsi olmaqla onun inkişafında iqtisadi bilikləri təsnif edir.

Təqdim olunan bu dərs vəsaitinin yazılmasında məqsəd iqtisadi fikir və baxışların meydana gəlməsindən müasir dövrə qədər olan nəzəriyyələrin inkişafı tarixini, eyni zamanda mütəfəkkir iqtisadçı alimlərin fikirlərini, tərcümeyi-hallarını konkret dövrün ictimai inkişafına xas qanunauyğunluqlarla əlaqədar öyrənməklə, onların ümumbəşəri dəyərlərin əsasında durması səbəblərini oxuculara çatdırmaqdır.

Dərs vəsaitində "İqtisadi fikir tarixi" fənni ilə bağlı mövzularla yanaşı, həmin mövzuların daha yaxşı mənimsənilməsi üçün testlər, sxemlər, cədvəllər, şəkillər və düsturlar verilmişdir.

"İqtisadi fikir tarixi"nə dair tərtib olunmuş dərs vəsaiti tələbələr, magistrlər, aspirantlar, eləcə də iqtisad elmi ilə maraqlanan oxucular üçün nəzərdə tutulur.

# MÖVZU 1. İQTİSADİ FİKİR TARİXİNİN PREDMETİ, METODU VƏ STRUKTURU. QƏDİM DÖVRÜN İQTİSADİ TƏLİMLƏRİ

**1. İqtisadiyyat təsərrüfatın səmərəli fəaliyyəti haqqında elmdir**
**2. İqtisadi fikir tarixinin predmeti, metodu və inkişaf mərhələləri**
**3. İqtisadi fikir tarixinin strukturu və qədim dövrün iqtisadi təlimləri**

## İqtisadiyyat təsərrüfatın səmərəli fəaliyyəti haqqında elmdir

**"İqtisadiyyat"** termini ilk dəfə **"Oykonomiya"** adı altında qədim yunan alimi **Ksenofont** (b.e.ə. 430-355-ci illər) tərəfindən işlənmiş, sonralar Aristotel tərəfindən geniş yayılmışdır. "İqtisadiyyat" sözü ərəbcə "qəsədə" ("yönəltmək", "qənaət etmək, "çatmağa çalışmaq") sözündən əmələ gəlmiş, bu sözdən müxtəlif mənalarda işlənən "qasid", "məqsəd", "qəsd" sözləri yaranmışdır. "İqtisad" sözü ərəb dilində "qənaətçilik", "təsərrüfat" mənasında işlədilir. "Təsərrüfat" sözü ərəbcə "sərf", "məsrəf", "təsrif" sözləri ilə eynidir. "İqtisadiyyat" sözü "iqtisad" sözünün cəm halıdır. "İqtisadiyyat" sözü forma baxımından da fərqlənir. Nəzəri və tətbiqi iqtisadiyyat bütün iqtisad elmlərinin deyil, təsərrüfat həyatının ən mühüm proseslərinin dərk olunması və tənzimlənməsi üçün xüsusilə aktual olan istiqamətlərin özünəməxsus sintezidir.

Azərbaycanın görkəmli iqtisadçı alimi **Q.Əlləzov** "İqtisad elminin nəzəri-metodoloji əsaslarının tarixi inkişafı" adlı monoqrafiyasında qeyd edir ki, "İqtisadiyyat" həm də elmdir, təsərrüfat, iqtisadi fəaliyyət, sərvət, onun mənşəyi, bölgüsü və istehlakı, iqtisadi münasibətlər haqqında biliklər sistemidir. Əgər iqtisadi ədəbiyyatda iqtisadiyyat ilk əvvəl "ev təsərrü-

fatını idarəetmək məharəti" kimi xarakterizə olunmuşsa və ona ev təsərrüfatı qanunları haqqında elm kimi baxılıbsa, sonralar da onu "Xalqlar sərvətinin təbiəti və səbəbi" (A.Smit), "Bölgünü idarə edən qanunlar" (D.Rikardo), "Kapitalizmin inkişaf qanunları" (K.Marks), "İstehsal və mübadilə qanunları" (F.Engels) və "İstehlak qanunları" (S.Sismondi) haqqında elm adlandırmışlar. Onun predmetinə isə bilavasitə (S.Sismondi istisna olmaqla) iqtisadi fəaliyyət prosesində insanlar arasında yaranan münasibətləri daxil etmişlər.[1]

"İqtisadiyyat" anlayışında səviyyə bölgüsü mövcuddur. Bu bölgüyə aiddir: makroiqtisadiyyat, mikroiqtisadiyyat, mezoiqtisadiyyat və meqoiqtisadiyyat. **Makroiqtisadiyyat** ölkənin iqtisadiyyatının bütövlükdə götürülməsi deməkdir. İqtisadiyyatın mürəkkəb, ierarxik şəkildə təşkil olunmuş sistemi kimi çıxış etməsidir. **Mikroiqtisadiyyat** iqtisad elminin bölməsi kimi qəbul edilə bilər, kiçik miqyaslı iqtisadi proseslərin, subyektlərin, hadisələrinin (yəni müəssisə, firma, şirkət, xidmət bölmələri, sahibkarlıq qurumları, fermer təsərrüfatı və s.) öyrənilməsi ilə məşğuldur. **Mezoiqtisadiyyat** makroiqtisadiyyatda bir-biri ilə üzvü surətdə bağlı olan sahələr kompleksini, birliyini bildirən anlayışdır. Məsələn, aqrar - sənaye kompleksi, hərbi-sənaye kompleksi, infrastruktur və s. **Meqoiqtisadiyyat** isə əsası beynəlxalq əmək bölgüsü olan dünya iqtisadiyyatını bildirən anlayışdır.

İqtisadiyyat ictimai elm qrupunun tərkib hissəsidir. İqtisadi biliklər sisteminin yaradılması bilavasitə siyasi iqtisadın elm kimi meydana gəlməsi ilə bağlıdır. İqtisadi biliklərin mənbələri quldarlıq cəmiyyəti dövrünə, qədim Misir papirusları üzərində yazılmış mətnlərə, Babilistan padşahı **Hammurapinin** (b.e.ə. 1792-1750-ci illər) qanunlarının daş üzərində yazıldığı dövrə, qədim hind vedlərinə -dini məcmuələrinə (b.e.ə. II minilliyin sonu - I minilliyin əvvəli) aiddir. Müasir siyasi iqtisadın nəzəri

---

[1]Bax: Qəzənfər Əlləzov. İqtisad elminin nəzəri-metodoloji əsaslarının tarixi inkişafı. Bakı-2009, səh. 11.

ilkin müddəaları, ilk növbədə Antik dövrün mütəfəkkiri Aristotelin (b.e.ə. 384-322) "Politika" əsəri ilə bağlıdır. O, bir sıra mühüm iqtisadi problemləri, o cümlədən əmtəə, pul, kapitalın ilkin formalarını öz zəmanəsi üçün dərindən təhlil edilmişdir. Aristotel "Nikomaxın etikası" adlı əsərində iki əsas əmtəə münasibətinin, əmək və tələbatın mövcud olmasını göstərərək onların təbiəti barədə diskussiyaların istiqamətlərini bir neçə əsr qabaqcadan müəyyən etmişdir. İlk siyasi iqtisad məktəbi-merkantilizm XV əsrin axırlarından XVIII əsrin ortalarınadək ilkin kapital yığımı dövründə yaranmış və inkişaf etmişdir. Bu istiqamət siyasi iqtisad tarixinin başlanğıcı hesab edilir, çünki o, tədavül sferasındakı iqtisadi hadisələrin zahiri tərəflərini təsvir etməklə kifayətlənirdi. Siyasi iqtisad elminin adı fransız merkantilisti A.Monkretyenin (1575-1621) "Siyasi iqtisad traktatı" əsərindən (1615) götürülmüşdür. XVII əsrin ikinci yarısından XIX əsrin ortalarınadək inkişaf etmiş və ilk növbədə, U.Petti (1623-1687), F.Kene (1694-1774), A.Türqo (1727-1781), A.Smit (1723-1790), D.Rikardo (1772-1823), S. Sismondi (1773-1842) kimi böyük alimlərlə təmsil olunmuş klassik siyasi iqtisadın inkişafına mühüm töhfələr vermişdir.

Neoklassik istiqamətin əsaslarının işlənib hazırlanmasına ingilis iqtisadçısı T.R.Maltus (1766-1834), eləcə də iqtisadçı-riyaziyyatçılar riyazi tədqiqat metodlarının köməyi ilə iqtisadiyyatın fəaliyyətinin bazar mexanizmini və istehlakın iqtisadi rolunu məxsusi təhlil etməyin əsasını qoymuş alman iqtisadçısı G.H.Qossen (1810-1858) və sosial-iqtisadi hadisələrin təhlilinin riyazi metodlarını tətbiq edən, fransız alimi A.O.Kurno (1801-1877) da mühüm töhfələr vermişlər. Qossen son faydalılıq nəzəriyyəsinin formalaşmasında ilk addımları atmış, daha sonra bu nəzəriyyə onun baniləri olan iqtisadçı-riyaziyyatçıların - ingilis U.S.Cevons (1835-1882), isveçrəli L.Valras (1834-1910), italiyalı V.Pareto (1848-1923), eləcə də Avstriya məktəbini təmsil edən nəzəriyyəçilərin-K.Menger (1840-1921), Y.Bem-Baverk (1864-1914) və F.Vizerin (1851-1926)

əsərlərində inkişaf etdirilmişdir. Son hədd faydalılığı konsepsiyasının nəzəriyyəçiləri qiymət əmələgəlməsinın "istehlakçı versiyası"nı yaratmışlar.

Neoklassik iqtiqamətin inkişafı Kembric məktəbinin banisi, ingilis iqtisadçısı A.Marşallın (1842-1924) əsərlərində başa çatmışdır. O, bazar iqtisadiyyatının əsas mexanizmini - "iqtisadi araşdırmaların özəyi olan, onlara vəhdət və ardıcıllıq kəsb etdirən tələb və təklifin nisbətləri"ni əsas götürərək iqtisadi baxışlar sistemini işləyib hazırlamışdır.

A.Smitdən sonra klassik istiqamət D.Rikardo və C.St.Milin (1806-1873), sinfi mövqedən K.Marksın (1818-1883) və onun davamçıları R.Hilferdinq (1877-1941), K.Kautski (1854-1938), G.Plexanov (1856-1918), R.Lüksemburq (1871-1918), V.Lenin (1870-1924) və bir sıra başqa alim və siyasətçilərin əsərlərində inkişaf etdirilmişdir. XX əsrin axırlarında bu istiqamət, ilk növbədə, xüsusi marksist iqtisadi tədqiqatlarda, radikal siyasi iqtisad nəzəriyyəçilərinin, sosial institusional məktəbin və postkeysçi nümayəndələrin əsərlərində öz əksini tapmışdır.

Keynsçilik məktəbinin banisi C.M.Keynsin (1883-1946) nəzəriyyəsi neoklassik və klassik istiqamətlər arasında müəyyən mənada orta mövqe tutur. Keyns öz təhlilində psixoloji metoddan və neoklassik məktəbin limit təhlilindən, eləcə də klassik məktəbin bir sıra nümayəndələrinin fikirlərindən istifadə etmişdir. M.Keynsin başlıca və yeni ideyası odur ki, bazar iqtisadi münasibətlər sistemi özünü tənzimləyən deyil, maksimum məşğulluq və iqtisadi artım imkanını yalnız dövlətin iqtisadiyyata aktiv müdaxiləsi təmin edə bilər.

İnstitusionalistlər demək olar ki, iqtisadi nəzəriyyənin neoklassik istiqamətinin alternatividir. Onlar maddi amillərlə yanaşı, mənəvi, əxlaqi, hüquqi və digər amilləri də iqtisadiyyatın hərəkətverici qüvvəsi hesab edirdilər. Başqa sözlə, sosial-iqtisadi inkişafın həm iqtisadi, həm də qeyri-iqtisadi problemlərini təhlilin əsas predmeti hesab edir, makroiqtisadi təhlilə

geniş yer verirdilər. Onların əsas ideyası: 1) iqtisadiyyat üzərində "sosial nəzarət"; 2) "Xalq" və "tənzimlənən" - "Sənaye cəmiyyəti", sonra sosializmə konvergensiya vasitəsilə kapitalizmin transformasiyası idi.

Müasir elm və texnika nə qədər inkişaf etmiş olsa da, biz həmişə şəxsiyyətlərin həyatını və əsərlərini unutmamalıyıq və unuda da bilmərik. Onların kəşfləri, nəzəriyyələri, ideyaları olmasaydı və həqiqi elmi axtarışlara qiymət verilməsəydi, müasir dünya da mövcud olmazdı[2].

## İqtisadi fikirlər tarixinin predmeti, metodu və inkişaf mərhələləri

İqtisadi fikir tarixinin predmeti ayrı-ayrı iqtisadçıların, nəzəri məktəblərin, cərəyan və istiqamətlərin iqtisadi ideyalarının, konsepsiyalarının meydana gəlməsi, inkişafı, bir-birini əvəz etməsi proseslərinin tarixi gedişatının öyrənilməsi hesab edilir. İqtisadi fikir tarixi iqtisadi biliklərin özünün tarixi inkişafının mahiyyətini əks etdirir. Bu onun dünya iqtisad elminin təkamülünün ilkin mərhələlərini və qanunauyğunluqlarını müəyyən edir, iqtisadi bilikləri sistemləşdirir. İqtisadi fikir tarixi nəzəriyyənin bütün mövcudluğu ərzində yaranmış iqtisadi ideyaları, konsepsiyaları və nəzəriyyələri öyrənir. Bir çox görkəmli iqtisadçılar və tarixi cərəyanlar özlərindən əvvəlkilərə tənqidi yanaşır və özünəməxsus konsepsiyaları və ideyaları irəli sürürlər. Məsələn, özündən əvvəlki iqtisadi fikir və konsepsiyaları tənqidi istiqamətdə və öz alternativ ideyaları ilə Alman tarixi məktəbi, o cümlədən institusional sosioloji istiqamət XIX əsrin axırı və XX əsrin əvvəllərində özünü göstərdi. K.Marks da özündən əvvəlki çox görkəmli iqtisadçıların iqtisadi fikirlərinə tənqidi yanaşaraq, özünün "izafi dəyər nəzəriyyəsini" yaratmış, M.Blauq isə "Perspektivdə iqtisadi fikir"

---

[2] Bax: Ş.S.Qafarov. Pulun diktaturası. Bakı, 2014, səh. 95

kitabında keçmişdən çox, nəzəriyyənin indiki vəziyyətinə fikir vermişdir.

İqtisadi fikir tarixi kursunda xüsusi yeri dünya iqtisad elminin formalaşmasında və inkişafında mühüm rolu olan klassik siyasi iqtisad tutur. Siyasi iqtisadın, ümumiyyətlə iqtisadiyyatın elmi sisteminin yaradılması klassik siyasi iqtisadın nümayəndələrinə məxsusdur. İqtisadi azadlığın prinsipləri və əmək - dəyər nəzəriyyəsi də klassik siyasi iqtisad tərəfindən yaradılmışdır.

İqtisadi fikir tarixi metodoloji cəhətdən iqtisadi təhlillərin proqressiv metodlarının məcmusuna əsaslanır. Bu metodlar aşağıdakılardır. Elmi abstraksiya, yəni müşahidə edilən hadisələrdə mühüm olan tərəflər aşkara çıxarılır və nəzəri ümumiləşdirmələr aparılır. Elmi abstraksiya iqtisadi hadisələrin təfəkkürdə ümumiləşdirilməsi və onların anlayışlar, kateqoriyalar şəklində ifadə olunması metodudur. İqtisadi nəzəriyyədə tətbiq edilən digər metod analiz və sintez metodudur. Analiz metodunda iqtisadi münasibətlər vahid bir sistem halında götürülür və elmi təfəkkür yolu ilə müəyyən hissələrə, tərəflərə ayrılır və iqtisadi sistemin hər bir tərəfi ayrılıqda təhlil edilir, sonra sintez etmək yolu ilə həmin cəhətlər və tərəflər yenə də iqtisadi sistemdə birləşdirilir. Bu proses fikrimizdə edilir. Tarixi və məntiqi metod vasitəsilə iqtisadi nəzəriyyə müəyyən etdiyi anlayışları, kateqoriyaları, onların yarandıqları tarixi ardıcıllıqla şərh edir. İnduksiya metodu "hasiletmə" mənasını daşıyır. Bu metodla toplanan faktlar əsasında nəzəri nəticələr ümumi iqtisadi prinsiplər və əməli fəaliyyət üçün tövsiyələr hazırlanır. Deduksiya-bütövlükdə nəzəriyyə və ya ayrı-ayrı nəzəri müddəalar, prinsiplər əsasında faktların müəyyən edilməsi, qurulması, əsaslandırılmasıdır.

İqtisadi fikir tarixinin metodu özünə müəyyən prinsiplər və tədqiqatın konkret yollarını daxil edir. Onları şərh edək:

**Tarixilik prinsipi** - müəyyən tarixi müddətdə konsepsiyalar, iqtisadi düşüncələr geniş miqyasda, ardıcıllıqla əhatə

edilir və onların mənbəyi və müəllifləri göstərilir. Bu prinsipdə müəyyən məktəblər, məsələn Avstriya məktəbi, yaxud görkəmli iqtisadçıların adı ilə bağlı marksizm, keynsçilik və s. tarixi aspektdə verilir.

**Məntiqi prinsip** elmi nəzəriyyənin daxili logik inkişafını qeydə alır.

**Müqayisəetmə prinsipində** nəzəriyyələr müqayisə edilir və nəticədə bu və ya digər nəzəryyənin üstünlüyü aydınlaşır.

**Eklektikçilik adlanan prinsip** geniş yayılmışdır. Bu, müxtəlif nəzəriyyələrin sintezini yaratmaqdır, hazırda bir çox istifadə olunan iqtisadi-riyazi modelləşmə metodu ilə işlərin təhlil edilməsidir.

Nəhayət, **monoqrafiya metodu** da var ki, burada müəyyən bir alimin iqtisadi fikirlərinin geniş şərhi verilir.

İqtisadi fikir tarixi öz başlanğıcını qədim dünyadan götürmüş və o vaxtdan başlayaraq iqtisadi fikir və nəzəriyyələrin sistemləşdirilməsinə cəhd göstərilir. Məlumdur ki, iqtisadiyyat, elm, texnika, mədəniyyət inkişaf edikcə iqtisadi nəzəriyyədə yeniləşmiş və təkmilləşmişdir. Bu fənnin öyrənilməsi ilə biz dünyanın və öz ölkəmizin iqtisadi inkişafının obyektiv qanunauyğunluğunu müəyyən edə bilərik.

İqtisadi fikir tarixinin başlıca mərhələləri Azərbaycanın əvəzolunmaz iqtisadçı alimi **M.X.Meybullayevin** ümumi elmi redaktəsi ilə çap olunmuş "İqtisadi təlimlər tarixi" dərsliyində aşağıdakı kimi verilmişdir:

1) Qədim dövrün iqtisadi təlimi;
2) Orta dövrdə Şərqdə və Orta Avropada iqtisadi təlimlər;
3) Bazar sisteminin qərarlaşması dövründə iqtisadi təlim;
4) Müxtəlif iqtisadi inkişaf modelləri şəraitində iqtisadi təlim;
5) Müasir və ya yüksək sənayeləşmiş dövrün iqtisadi təlimi.

Bəzi xarici ədəbiyyatda iqtisadi fikrin inkişafının üç mərhələ üzrə öyrənilməsi də tövsiyə edilir:[3]

1) Bazar iqtisadiyyatı mərhələsinə qədərki iqtisadi təlimlər (Qədim və Orta əsrlər);

2) Tənzimlənməyən bazar iqtisadiyyatı mərhələsindəki iqtisadi təlimlər (mikroiqtisadiyyat - A.Smit və D.Rikardo);

3) Tənzimlənən (sosial yönümlü) bazar iqtisadiyyatı mərhələsinin iqtisadi təlimi (makroiqtisadiyyat - C.M.Keyns).

## İqtisadi fikir tarixinin strukturu və qədim dövrün iqtisadi təlimləri

İqtisadi fikrin kökləri Qədim Şərq, Qədim Yunanıstan, Qədim Roma, İlkin xristianlıqla bağlı iqtisadi ideyalardır. İqtisadi fikrin köklərini Qədim dünya, ilk növbədə dünya sivilizasiyasınının beşiyi Qədim Şərq ölkələri mütəfəkkirlərinin təlimlərində axtarmaq lazımdır.

**Qədim Misir:** Misir Afrikanın şimal-şərqində yerləşir. Ölkənin ən mühüm su mənbəyi Nil çayıdır. Misirlilər Nil çayına böyük çay deyirdilər. Nilin gətirdiyi lilli torpaq asanlıqla şumlanırdı. Misirlilər öz ölkələrini "Qara torpaq" adlandırırdılar. Nil sahili boyunca damba adlanan bəndlər tikirdilər. Misirdə hökmdar firon adlanırdı. Ölkədə həyata keçirilən bütün tədbirlər fironun adı ilə bağlı idi. Fironu yer üzünün allahı və yaxud da "Günəş oğlu" adlandırırdılar. Fironların ən yaxın köməkçisi çati adlanan ali məmur idi. Çatilər ölkənin təsərrüfat həyatını idarə edirdilər, məhkəməyə rəhbərliyi, firon dəftərxanasına və dövlət xəzinəsinə nəzarəti həyata keçirirdilər. Misir sənətkarları mis və tuncdan çox çeşidli bəzək əşyaları və silahlar düzəldirdilər; daşdan müxtəlif bəzək əşyaları, kətandan müxtəlif növ parçalar hazırlayırdılar; qamış və papirusdan həsir və səbət hörürdülər; şüşə istehsal edir və dəridən çoxlu mə-

---

[3]Bax: M.X.Meybullayevin ümumi elmi redaktəsi ilə, "İqtisadi təlimlər tarixi" (dərslik). Bakı, 2002. səh. 15.

mulatlar hazırlayırdılar. Misirlilər Mesopotamiya və Nubiya ilə geniş ticarət əlaqələri saxlayırdılar. Şərq ölkələrindən Misirə sidr ağacı, gümüş, qalay və qullar gətirilirdi. Qədim Misir cəmiyyətində üç əsas sinif formalaşmışdı: 1) quldarlar; 2) kəndlilər; 3) qullar. Quldarlar torpaq və qullara sahib idilər. Onlar kəndliləri, sənətkarları və qulları istismar edirdilər. Kəndlilər kişik torpaq sahələrinə malik idilər. Onlar dövlətə vergi verir və hərbi xidmətə gedirdilər. Xırda əkinçilər və maldarlar "kiçiklər", qullar isə "canlı ölülər" adlanırdılar. Onlar dövlət və məbəd təsərrüfatının əsas işçi qüvvəsini təşkil edirdilər. Qullar zəbt olunmuş ölkələrdən Misirə gətirilirdi.

Misir mədəniyyətinə aşağıdakılar aid idi:

- Heroqliflərin meydana gəlməsi (e.ə. IV minillik);
- Əfsanələrin meydana gəlməsi;
- Onluq hesablanma sistemindən istifadə edilməsi;
-Düzbucaqlı, üçbucaq, trapesiya və dairənin səthinin müəyyənləşdirilməsi;
- Planetlərin ulduzlardan fərqləndirilməsi;
- Ulduzların xəritəsinin çəkilməsi;
- İlin on iki aya bölünməsi;
- Gecə və gündüzün 24 saata bölünməsi;
- Hər ayın 30 günə bölünməsi;
- Heykəltaraşlığın inkişaf etdirilməsi;
- Sarkofaqın ( qədim xalqlarda daş tabut) düzəldilməsi;
- Təbabətin inkişaf etdirilməsi;
- Rəssamlığın inkişaf etdirilməsi.

Qədim Misirin iqtisadi fikrində dövlət təsərrüfatının təşkili və idarə olunması sahəsində bir çox məsələlər öz əksini tapmışdır: Əhalinin yaşına, işinə görə siyahıya alınması; məhsuldar torpaq sahələrinin hesabatının aparılması; torpaqların kadastrının müəyyən edilməsi; iriqasiya işlərinin aparılması; çoxsaylı mədəni abidələrin tikilməsi; mürəkkəb suvarma sistemlərinin aparılması; bəşəriyyətə möcüzə kimi görünən müxtəlif təyinatlı qurğuların hazırlanması; piramidaların, ehkam-

ların tikilməsi; əmək resurslarından məqsədyönlü istifadə edilməsi; vəzifəyə görə əmlaka sahib olma; xüsusi mülkiyyətin əmələ gəlməsi və ona nəzarət qaydalarının müəyyən olunması dövlət təsərrüfatının inkişafında mühüm rol oynamışdır. Eyni zamanda dövlət təsərrüfatının yüksək səviyyədə mərkəzləşməsi, nəinki xüsusi mülkiyyəti, eləcə də əmtəə-pul münasibətlərinin inkişafını ləngitmişdir.

**Qədim Babilistan dövləti** e.ə. II minillikdə Mesopotamiyada Larsa, İsin, Mari və Babil şəhər dövlətləri yaranmışdı. Bu şəhər dövlətlərində ən qüdrətlisi Babil idi. Qədim Babilistan dövlətinin qurucusu Sumuabum (e.ə. 1894 - 1881), ən qüdrətli hökmdarı isə Hammurapi (e.ə 1792- 1750) olmuşdur. Hammurapinin hakimiyyəti illərində kanalların və yolların çəkilməsi genişlənmişdi, yeni binaların inşası artmışdı, əkin sahələri və bağçılıq genişlənmişdi, sənətkarlıq və ticarət inkişaf etmişdi, qanunlar külliyyatı tərtib edilmişdi (282 bənddən, giriş və nəticədən ibarət bu qanunlar hökmdar hakimiyyətini möhkəmləndirməklə yanaşı ölkənin idarə olunmasında, təsərrüfat həyatının, insanların davranış qaydalarının müəyyən hüquqi sistemini, quldarların mənafeyini və mülkiyyətini qoruyurdu).

Qədim Babilistanın iqtisadi fikri üçün xarakterik olan tərəflər:

- dövlətin təsərrüfat həyatına nəzarət etməsi;
- xüsusi mülkiyyətin qorunması;
- sələmçiliyin həddinin müəyyən edilməsi;
- borc ödənişlərinin yerinə yetirilməsi;
- muzdlu əməkdən istifadə olunması ilə bağlı olmuşdur.

**Qədim Hindistanın iqtisadi fikri** öz əksini Kautilya (e.ə.IV) tərəfindən yazılmış "Artxaşastra" traktatında tapmışdır. "Artxaşastra" traktatında aşağıdakı məsələlərə geniş yer verilmişdir:

- maddi qazancın əldə olunması;
- dövlətin möhkəmləndirilməsi;
- vergi yığmanın təkmilləşdirilməsi;

-ətraf ərazilərin yeni vergi verənlərə görə zəbt edilməsi;
- gəlirlərin artırılması;
- xərclərin azaldılması;
- ticarətin aparılması;
- hökmdarın xəzinəsinin doldurulması.

"Artxaşastra" traktatında hökmdara dörd elmin öyrənilməsi zəruri hesab edilir:

1. dini təlim; 2. fəlsəfə; 3. idarəetmə; 4. iqtisadiyyat.

Qədim Hind “Manu qanunları”ında (e.ə.IV –III əsrlər) ictimai əməyin, hökmranlıq və asılılıq münasibətlərinin mövcudluğu qeyd olunur.

**Qədim Çin dövlətinin iqtisadi fikrində** Konfutsi (e.ə. 552 - 479) və Kollektiv traktat olan "Quan-tsızı" (e.ə. IV- III) mühüm yer tutur.

Qədim Çin iqtisadi fikri üçün xarakterik olan tərəflər:
- sərvətin artırılması;
- sərvətin bərabər bölgüsü;
- istehlakın nizamlaşdırılması;
- vergilərin nizamlanması;
-kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsi;
- patriarxal-ailə münasibətlərinin nizamlanması;
- insanların mənəvi zənginləşdirilməsi;
- sosial-iqtisadi proseslərə təbii hüquq nəzəriyyəsi mövqeyindən baxılması.

"Quan-tsızı" traktatında sərvətin bərabər bölgüsü yolu ilə "dövlətin varlı və xalqın razı olması" ideyası və iqtisadiyyatın əmtəə qiymətlərinin tənzimlənməsi vasitəsi ilə sabitləşdirməsi, natural təsərrüfatın özbaşınalığından qorunması problemi diqqət mərkəzində olmuşdur. Traktatda öz dövrü üçün iqtisadiyyatın dövlət tənzimlənməsinin bütöv bir sistemi işlənib hazırlanmışdır.

Qədim Çin mütəfəkkirlərindən olan Konfutsinin (e.ə. 552 - 479) fikirləri olduqca maraqlı və fərqli idi. O, əsərlərində

zehni əməyin "ali təbəqənin", fiziki əməyin isə "ikinci təbəqənin" qulların və ya qara camaatın qisməti olduğunu söyləyirdi. Xüsusilə o dövrdə belə təhsilə olduqca böyük qiymət verilirdi.

Konfutsinin ictimai baxışlarında mükəmməl (ideal) insan və xalqın varlanması ideyası xüsusi yer tutmuşdu. Konfutsi dövlətin yüksək mənəvi prinsiplər əsasında idarə edilməsini tövsiyə edirdi.

İqtisadi fikrin sonrakı inkişafı Qədim Yunanıstanla bağlıdır. Qədim Yunan mütəfəkkirləri **Ksenofontun, Platonun, Aristotelin** baxışlarını müasir iqtisadi fikrin nəzəri müddəaları kimi səciyyələndirmək olar.

Əmək bölgüsü ideyası Platonun əsərlərində daha geniş şərh edilmişdir. Platonun fikrincə qul danışan alətdir. O, fiziki əməyə nifrət edirdi. Onun ideal dövlətində idarə edənlər filosoflar və hərbiçilər fiziki əməklə məşğul olmamalıdırlar, bu fiziki əmək üçüncü təbəqənin qismətidir. Platonun şagirdi olan Aristotel müəlliminin idealist fəlsəfi baxışlarını tənqid etsə də, cəmiyyətin və onun təsirindən qurtara bilməmişdir. Aristotelə görə iqtisadiyyat ev təsərrüfatı, quldar malikanəsinin siyasəti isə dövlətin idarə edilməsi ilə məşğul olmalıdır. Aristotel əmtəə-pul münasibətlərini daha geniş tədqiq etmiş və ən böyük xidməti isə əmtəənin ikili xarakterini istehlak dəyəri və mübadilə dəyərini fərqləndirməkdən ibarətdir.

Qədim Roma mütəfəkkirləri **Varron, Böyük Katon, Kolumella, Seneka** və s.-nin fikirləri Qədim Yunan iqtisadçılarının fikirlərinin davamı idi. Burada hər şey köləliyin zəruriliyi ilə əsaslandırılır, lakin bu fikirlərdə artıq quldarlığın tənəzzülü və dağılması əks olunur. Bu iqtisadçılar arasında köləliliyi daha çox tənqid edən və yazmış olduğu əsərlərlə bunun qarşısını almağa çalışan Seneka olmuşdur.

İqtisadi həyatın müxtəlif cəhətlərini əks etdirən iqtisadi fikirlərə nəinki dünyəvi şəxsiyyətlərin yaradıcılığında, həmçinin müxtəlif dini kitablarda da rast gəlmək mümkündür.

Xristianlığın əsas dini kitabı olan İncildə dövrün əsas istehsal sahəsi olan kənd təsərrüfatı ilə əlaqədar olan fikirlər daha çoxdur. "Az əkən az da bicəcək, çox əkən isə çox da biçəcək", "Ədalətli qiymət prinsipi", məhsulların fərdi deyil, sosial qiymətləndirilməsi, mülkiyyət, sərvət, bir çox başqa iqtisadi problemlərə xristian alimləri (Foma Akvinski, Uilyam Okkam) tərəfindən bu və ya digər dərəcədə toxunulmuşdur.

İqtisad elminin bərqərar olması ilə bağlı olan məktəblər: *Merkantalizm, Fiziokratlar, Klassik siyasi iqtisad, Sosialist - Utopistlər, Marksizm və Marjinalizmdir.*

**Merkantilizm cərəyanı** XV-XVIII əsrlərdə Qərbi Avropa ölkələrində iqtisadi siyasətin və iqtisadi fikrin əsas cərəyanı olmuşdur. Merkantilizm sözü italyan sözü olub tacir, ticarət deməkdir. Merkantilizm cərəyanının mahiyyəti əsasən əmtəə və pul tədavül dairəsini, sərvətin pul formasını və onun artırılması yollarını təhlil və tədqiq etməkdən ibarətdir. Nümayəndələri: **Antuan Monkretyen** (1575-1621), **Tomas Man** (1571-1641), **Vilyam Staffo**r (1554-1612), **Qaspar Skaruffi** (1519-1584) və s.

Merkantilist cərəyanı iki istiqamətdə formalaşmışdı: 1) Erkən merkantilizm (XV-XVI əsr); 2) İnkişaf etmiş merkantilizm (XVII-XVIII əsr). Erkən merkantilizmin əsasında ixrac olunan əmtəələrə maksimum yüksək qiymət qoymaq, əmtəələrin idxalını məhdudlaşdırmaq, qızıl və gümüşün ölkədən çıxarılmasına yol verməmək, pul balansı sistemi, pul sərvətinin yalnız qanunvericilik yolu ilə artırılması dayanırdı. İnkişaf etmiş merkantilizmin əsasında isə aktiv ticarət balansı, nisbətən aşağı qiymətlə xarici bazarı cəlb etmək, ölkədə aktiv ticarət balansını saxlamaqla əmtəələrin (zinət əşyalarından başqa) ixracına imkan verməmək, ixracın nisbətən üstünlüyü vasitəsilə ölkəyə pul toplamaq və pulun miqdar nəzəriyyəsi dayanırdı.

Antuan Monkretyen 1615-ci ildə Fransa kralı XIII Lüdoviqə həsr etdiyi "Siyasi iqtisad" traktatı adı ilə məşhurdur. Bu

əsərdə ilk dəfə olaraq siyasi iqtisad terminindən istifadə edilmişdir.

**Fiziokratlar cərəyanı** – XVIII əsrdə Fransada meydana gəlmişdi. Fiziokrat sözü iki yunan sözündən "fizis" və "kratos" sözlərinin birləşməsindən ibarət olub "Təbiətin hakimiyyəti" deməkdir.

Fiziokratlar cərəyanının mahiyyəti, merkantilistlərdən fərqli olaraq sərvətin mənbəyini ticarətə deyil, əkinçilikdə görməsi, xalis məhsul haqqında təlimin yaranması, təkrar istehsal prosesinin, məhsuldar və qeyri-məhsuldar əməyin və ictimai kapitalın dövranının təhlilinin verilməsi idi. Fiziokratlar cərəyanının nümayəndələri bunlardır: **Fransua Kene** (1694-1774), **Viktor Mirabo** (1715-1789), **Dyupen de Nemu** (1739-1817), **Jak Türqo** (1727-1781) və s.

İlk dəfə olaraq 1758 –ci ildə Fransua Kene "İqtisad cədvəl" tərtib etmişdi. Bu cədvəl natural və dəyər elementləri arasında müəyyən balans nisbətlərinin müəyyənləşdirmək məqsədilə yaradılmışdı.

**Klassik məktəb** XVII-XVIII əsrlərdə Avropada, xüsusilə İngiltərədə formalaşmışdı. Klassik məktəbin nümayəndələri bunlardır: **Uilyam Petti** (1623-1687), **Adam Smit** (1723-1790), **David Rikardo** (1772-1823) və s.

**U.Petti** "Vergilər və rüsumlar haqqında traktat" (1662), "Pul haqqında düşüncələr" (1682) əsərlərinin müəllifidir. O, əmək-dəyər nəzəriyyəsinin əsasını qoymuşdur.

**Adam Smit** 1776-ci ildə "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında traktat" yazmışdır. A.Smit təliminin əsas ideyası liberalizm, dövlətin iqtisadiyyata minimum müdaxiləsi, tələb və təklifdən asılı olaraq yaranan azad qiymətlər əsasında bazar özünütənzimlənməsi idi. Bu iqtisadi tənzimləyiciləri o, "görünməz əl" adlandırılmışdı. Onun tədqiqatı nəticəsində siyasi iqtisad elmə, iqtisadi biliklər sisteminə çevrilmişdir.

**David Rikardo** 1817-ci ildə "Siyasi iqtisadın və vergiqoymanın əsasları" traktatını yazmışdır. O, iqtisad elminin pul

tədavülünü, kredit, vergi, beynəlxalq əmək bölgüsü, dünya ticarəti kimi konkret sahələri üzrə qiymətli nəzəri və əməli əhəmiyyətli fikirlər söyləmişdi.

Klassik siyasi iqtisadın ən böyük çatışmazlığı təsərrüfat həyatında dövlətin rolunun nəzərə almamaları idi.

**Utopik sosialistlər** XVIII-XIX əsrlərdə Avropada formalaşmışdı. Utopik sosialistlər cərəyanının nümayəndələri bunlardır: Anri Klod, Sen-Simon, Şarl Fürye, Tomazo Kampanello və başqaları.

Utopik sosialistlər məktəbi əsasən kapitalizmi tənqid edərək, istehsalın, bölgü və istehlakın dəyişdirilməsi, şəxsi mülkiyyətin qaldırılması, ədalətli ictimai sistemin qurulması tələbi ilə çıxış edirdilər.

**Marksizm cərəyanı** XIX əsrdə formalaşmışdı. Marksizm məktəbinin nümayəndələri bunlardır: **Karl Marks** (1818-1883), **Fridrix Engels** (1820-1895). Mərkəzdən idarə olunan dövlət tipli iqtisadiyyata söykənərək istehsal vasitələri üzərində xüsusi mülkiyyətin olmadığı cəmiyyət qurmaq cəhdi bu məktəbin adı ilə bağlıdır. Marks və Engels kapitalizmin kommunizm ilə əvəz olunması nəzəriyyəsini əsaslandırmağa çalışmışdılar.

K.Marks iqtisadi təhlilinin əsasında əməyin ikili xarakteri və izafi dəyər nəzəriyyəsi dururdu. K.Marksın əsas əsərləri aşağıdakılardır: "Fəlsəfənin yoxsulluğu" (1846), "Muzdlu əmək və kapital" (1849), "Siyasi iqtisadın tənqidinə dair" (1859), "Kapital" I cild (1867); II cild (1885); III cild (1894).

**Marjinalizm cərəyanı** XIX əsrin ikinci yarısında yaranmışdı. Marjinal sözü ingilis sözü olub son hədd deməkdir. Marjinalizm cərəyanının nümayəndələri bunlardır: **Karl Menger** (1840-1921), **Fridrix Fon Vizer** (1851-1914), **Yevgeni Bem-Baverk** (1864-1914), **Uilyam Stenli Cevons** (1835-1910). Marjinalizm əsasında istehlaka üstünlük verən, iqtisadi hadisə və proseslərin izahında son həddə, son kəmiyyətə əsas-

lanan nəzəriyyə durur. Marjinalizmin əsas prinsipi faydalılığın azalmasıdır.

Marjinalizmin əsas kateqoriyaları: son hədd məhsuldarlığı, son hədd faydalılığı, son hədd xərcləri və s. Marjinalizmin kəmiyyət təhlilində iqtisadi – riyazi metod və modellərindən istifadə edilir.

Müasir iqtisadi nəzəriyyənin əsas istiqamətləri aşağıdakılardır: Neoklassik, Monetarizm, Neioliberalizm, Keynsçilik, İnstitusional – sosioloji istiqamət.

**Neoklassik istiqamət** – XIX əsrin sonunda və XX əsrin əvvəllərində yaranmışdır. Qərb iqtisadi ədəbiyyatında bu istiqamət "yeni klassik ekonomiks" adı almışdır.

Kembric universitetinin aparıcı professoru olan Alfred Marşall müasir iqtisad elminin əsasını qoyanlardan biri sayılır. Görkəmli iqtisadçının əsas elmi əsəri 1890-cı ildə nəşr olunmuş "İqtisad elminin prinsipləri" kitabıdır. Marşalın tədqiqat sahələri arasında rəqabət şəraitində tələb və təklifin tarazlığını təmin edən qiymətin müəyyən olunması xüsusilə seçilir. Ümumiyyətlə, tələb və təklif qanunauyğunluqları Marşalın əsas tədqiqat sahəsi hesab olunur.

**Monetarizm cərəyanı** – XX əsrin ikinci yarısında formalaşmışdı. Monetarizm cərəyanının banisi iqtisadiyyat üzrə Nobel mükafatı laureatı olan **Milton Fridmendir**. Monetaristlər iqtisadiyyatı idarəetməni hər şeydən öncə pul kütləsi, pulun emissiyası, dövriyyədə və ehtiyatda olan pulun miqdarına dövlət nəzarətində, dövlət büdcəsinin balanslaşdırılmasına nail olmaqla və yüksək bank faizlərinin müəyyənləşdirilməsində görürlər.

**Neoliberalizm cərəyanının** nümayəndələri **Fridrix Fon Xayek** (1899-1992), **Valter Oyken** (1891-1950), **Lüdoviq Erxard** (1897-1977) olmuşlar. Neoliberalizm dövlətin iqtisadiyyatın tənzimi probleminə müstəqil baxışlar sistemi kimi XX əsrin 30-cu illərində Keynsçilərlə eyni vaxtda meydana gəlmişdir. Keynsçilərdən fərli olaraq nisbətən passiv dövlət tənzimi

ilə əlaqədar tədbirlərin (dövlətin iqtisadiyyata müdaxiləsini minimuma endirmək, özəl sahibkarlığı isə inkişaf etdirməklə iqtisadiyyatı böhrandan çıxartmaq, əhalinin rifah halını yaxşılaşdırmaq) tədbirlərinin həyata keçirilməsi tərəfdarıdırlar.

**Keynsçilik cərəyanının** əsasını **Con Meynard Keyns** (1883-1946) qoymuşdur. Keynsçilik məktəbi XX əsrin 30-cu illərində formalaşmışdı. 1936-cı ildə "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" kitabını çap etdirmişdi. Keynsçilik iqtisadiyyatın bazar mexanizmi vasitəsilə özünü tənzim etməsi haqqında neoklassik nəzəriyyəni qəbul etmir və göstərir ki, təbii inkişaf edən bazar iqtisadiyyatlı sistem ideal sistem deyil, bu sistemə iqtisadi sarsıntılar xasdır. C.M.Keyns bazar iqtisadiyyatını saxlayıb, yalnız onu dövlət tənzimlənməsi ilə idarə olunmasını təklif edirdi. Keynsçilik dövlət tənzimlənməsi sisteminə əsaslanan makroiqtisadi nəzəriyyədir.

**İnstitusional-sosiaoloji istiqamət** XX əsrin 20-30-cu illərində ABŞ-da formalaşmışdı. İnstitusional-sosioloji məktəbin ilk nümayəndələri bunlardır: **Torsteyn Veblen** (1857-1929), **Con R.Kommons** (1862-1945), **Uesli Mitçell** (1874-1948) və s.

İnstitusionalizm sözü latın sözü olub "İnstitut" sözündən əmələ gəlmişdir. Bu kateqoriyanın mahiyyəti həm hüquqi normalar, həm də onlar arasındakı əlaqələrin qurulması qaydalarını təşkil edir. Bu əlaqələrin qurulması, hüquq subyektləri arasındakı münasibətlərə dayanıqlı xarakter vermək məqsədi ilə müvafiq təşkilatı strukturların və nəzarət orqanlarının yaradılmasına təkan verir. "İnstitut" anlayışı dedikdə: dövlət, həmkarlar ittifaqı, həm rəqabət, inhisar, vergilər, hüquqi normalar və s. başa düşülür.

İnstitusionalizmin tərkibində bir-birindən fərqlənən üç istiqamət mövcuddur:

1) Sosial- psixoloji - T.Veblen;
2) Sosial- hüquqi - R.Kommons;
3) Empirik və ya konyunktur – statistik- K.Mitçell.

Müasir iqtisadi fikirlərin istiqamətləri, cərəyanları, məktəbləri və başqa müxtəlif düşüncələr sosial istiqamətli bazar iqtisadiyyatının problemlərinin nəzəri və praktiki həllinə yönəlmişdir.

Kembric Universitetinin professoru C.Robinsonun sözlərinə görə "İqtisadi fikir tarixini öyrənməkdə məqsəd ondan ibarət deyil ki, iqtisadi suallara hazır cavablar alasan, məqsəd odur ki, bəzi iqtisadçıların nəzəri tələsinə düşməməyi öyrənəsən".

Nobel mükafatı laureatı, Fransa iqtisadçısı M.Alle deyir: "Öz fikrinə tənqidi, başqalarının fikrinə hörmətlə yanaşmaq elmin tərəqqisinin real çıxış nöqtəsidir".

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1. İqtisadi təlimlər tarixi nəyi öyrənir?**

A) Ayrı-ayrı dövrlərin iqtisadi tarixini
B) Cəmiyyətin iqtisadi münasibətlərini
C)) İqtisadi həyatda və sosial sferada baş verən dəyişikliklərlə əlaqədar sistemlərin birinin digəri ilə əvəz olunmasının qanunauyğunluqlarını və dövrləşmə prosesi ilə bağlı olan insanlar arasındakı davranış qaydalarının məntiqini
D) Tarixi inkişafın ayrı-ayrı dövrlərində irəli sürülən ümumbəşəri iqtisadi dəyərlərin mənimsənilməsini
E) Maddi nemətlərin istehsalı zamanı insanlar arasındakı münasibətləri

**2. İqtisad elminin tarixi:**

A) İqtisadçıların iqtisadiyyatın fəaliyyət mexanizmini başa düşmək cəhətdən tarixidir
B) Məktəb və istiqamətlərin nəzəri və praktiki hakimiyyətinin fasiləsiz yığımının xronoloji şərhidir

C) İqtisadi fikir, nəzəriyyə və konsepsiyaların yaranmasının, inkişafının bir ideya və metodologiyadan digərinə keçidin tarixi prosesidir
D) İqtisadiyyatın əsas prinsiplərinin axtarılıb tapılmasıdır
E)) Bunların hamısı

**3. İqtisadi fikir və konsepsiyalar hansı zərurətdən yaranmışdır:**
A) Təsərrüfatın səmərəli təşkili və idarə olunması
B) Maddi və maliyyə vəsaitlərindən səmərəli istifadə
C) Əmtəə-pul münasibətlərinin izah edilməsi zərurəti
D) Tədqiqatçı-iqtisadçıların siyasi marağı
E)) Bunların hamısı doğrudur

**4. İqtisadi nəzəriyyələrin meydana gəlməsi üçün səciyyəvidir:**
A) Təsərrüfatın səmərəli təşkili və idarə olunması
B) Maddi və maliyyə vəsaitlərindən səmərəli istifadə
C) Əmtəə-pul münasibətlərinin izah edilməsi zərurəti
D) Tədqiqatçı-iqtisadçıların siyasi marağı
E)) Bunların hamısı doğrudur

**5. Metodologiya nədir?**
A) Elmin fəlsəfəsidir
B) Tədqiqatın məntiqi nəticəsidir
C) İlkin şərt və çıxış növbəsi ilə nəticə arasındakı qarşılıqlı əlaqənin öyrənilməsidir
D)Ədədlə yaradılmış nəzəriyyələrin məntiqi qiymətləndirilməsidir
E)) Bunların hamısı doğrudur

**6. Aristotelə görə:**
A) Filosof və hərbiçiləri məhsuldar əməkdən azad etmək lazımdır
B)) Əmlak fərqi saxlanılmalıdır, lakin o, nə həddən artıq varlanmağa, nə də kasıblığa səbəb olmamalıdır
C) Elm əməlsiz, əməl isə elmsiz mümkün deyil
D) Özün-özünü dərk et!

E) Hər adam təbii qabiliyyətinə uyğun olan payı almalıdır

**7. Sokrata görə:**

A) Filosof və hərbiçiləri məhsuldar əməkdən azad etmək lazımdır

B) Əmlak fərqi saxlanılmalıdır

C) Elm əməlsiz, əməl isə elmsiz mümkün deyil

D)) Özün-özünü dərk et!

E) Hər adam təbii qabiliyyətinə uyğun olan payı almalıdır

**8. Qədim Yunanıstan və Qədim Roma üçün ümumi cəhət:**

A) Bərabərlik, ədalətlilik, xüsusi mülkiyyət məsələləri

B) Xarici ticarət, dövlət gəlirləri haqqında ideyalar

C))Qul əməyindən istifadə və onunla əlaqədar olaraq əmələ gələn iqtisadi münasibətlər

D) Ekvivalent mübadilə, dəyər, qiymət, mənfəət haqqında fikir

E) Bunların hamısı

**9. Qədim Roma üçün xarakterik əlamət:**

A) Bərabərlik, ədalətlilik, xüsusi mülkiyyət məsələləri

B) Xarici ticarət, dövlət gəlirləri haqqında ideyalar

C)) Qul əməyindən istifadə və onunla əlaqədar olaraq əmələ gələn iqtisadi münasibətlər

D) Ekvivalent mübadilə, dəyər, qiymət, mənfəət haqqında fikir

E) Bunların hamısı

**10. Kolumella nəyə xüsusi diqqət verirdi:**

A) Qul təsərrüfatının ekvivalent inkişafına

B) Eyni millətdən olan qulların üstünlük təşkil etməsinə

C) Qulların təbii təkrar istehsalının qadağa olunmasına

D)) Qul əməyinin ixtisaslaşmasına

E) Bunların hamısı doğrudur

**11. Varron nəyə xüsusi diqqət verirdi:**

A) Qul təsərrüfatının ekvivalent inkişafına

B)) Eyni millətdən olan qulların üstünlük təşkil etməməsinə

C) Qulların təbii təkrar istehsalının qadağa olunmasına

D) Qul əməyinin ixtisaslaşmasına

E) Bunların hamısı doğrudur

**12. Kim dövlətin gücünü əhalinin rifahında, müdafiə qüdrətində və dövlətə etibar etməyində görürdü?**

A) Aristotel
B)İbn Xəldun
C))Konfutsi
D) Makiavelli
E) Platon

**13. "Pul yalnız iki-dəyər ölçüsü və tədavül vasitəsi funksiyasını yerinə yetirməlidir" fikri kimə məxsusdur:**

A) Aristotelə
B) İbn Xəlduna
C) Konfutsiyə
D) Makiavelliyə
E)) Platona

**14. İqtisadi nəzəriyyənin inkişafında bazis rolunu oynayan təlim**:

A) Qədim dövrün iqtisadi təlimləri
B) Marksist siyasi iqtisad
C))Merkantilizm
D) Ekonomiks
E)Klassik siyasi iqtisad

**15. İqtisad elminin metodologiyasında mühüm dəyişiklik edən təlim:**

A) Qədim dövrün iqtisadi təlimləri
B) Marksist siyasi iqtisad
C) Merkantilizm
D) Ekonomiks
E)) Klassik siyasi iqtisad

**16. Aristotel və F. Kene pulu necə izah edirdilər?**

A) Mübadilə vasitəsidir
B)) İnsanlar arasında olan sövdələşmənin nəticəsidir
C) Qeyri-məhsuldar əmtəədir
D) Kortəbii meydana gələn əmtəədir
E) Tədiyyə vasitəsidir

**17. Qədim Misirdə əmək resurslarından məqsədyönlü istifadə nəyə səbəb olmuşdu?**

A) İrriqasiya işlərinin aparılmasına
B)) Qul və ondan istifadə fikirlərinin geniş yayılmasına

C) Məhsuldar torpaq sahələrinin hesabatının aparılmasına
D) Əhalinin yaşına, işinə görə siyahıya alınmasına
E) Vəzifəyə görə əmlaka sahibolmaya

**18. Qədim Misirdə dövlət təsərrüfatının mərkəzləşdirilməsinin mənfi tərəfi nədir?**
A)İrriqasiya işlərinin aparılması
B))Əmtəə-pul münasibətlərinin inkişafının ləngiməsi
C) Məhsuldar torpaq sahələrinin hesabatının aparılması
D) Əhalinin yaşına, işinə görə siyahıya alınması
E) Vəzifəyə görə əmlaka sahib olma

**19. Qədim Misirdə sələmçiliyin meydana gəlməsinin səbəbi nə olmuşdur**:
A) Əyan mülkiyyətinin əmələ gəlməsi
B) Əmtəə-pul münasibətlərinin inkişafı
C) Dövlət təsərrüfatının idarə olunma sistemi
D))Qul əməyindən borcların verilməsi və alınmasında istifadə
E) Təsərrüfatın natural xarakter daşıması

**20. Misirdə dövlət təsərrüfatının yüksək səviyyədə mərkəzləşməsi hansı iqtisadi münasibətlərin inkişafına mənfi təsir göstərmirdi:**
A) Xüsusi mülkiyyətə
B) Əmtəə-pul münasibətlərinə
C) Əmək resurslarının bölgüsünə
D) Əmək resurslarından çevik istifadə olunmasına
E)) Bunların hamısına

**21. Aşağıda adları qeyd olunan əsərlərdən hansı Qədim Misirə aid deyil:**
A) "İpuserin kəlamları"
B) "Nefertinin peyğəmbərliyi"
C) "Çobanın nağılları"
D) "Nəsihətlər"
E)) "Əkinçilik haqqında"

**22. "Oykonomiya" anlayışını elmi dövriyyəyə kim gətirmişdir?**
A) Aristotel
B) F.Akvinski
D) A.Smit
E)) Ksenofont

C) A.Monkretyen

**23. Aşağıda adları qeyd olunan əsərlərdən hansı Qədim Misirə aiddir:**
A) "İpuserin kəlamları"
B) "Nefertinin peyğəmbərliyi"
C) "Çobanın nağılları"
D) "Nəsihətlər"
E)) Bunların hamısı
**24. "Arxaşastra" traktatında hansı elmin öyrənilməsi nəzərdə tutulmamışdı**?
A) Dini təlim
B) Fəlsəfə
C) İdarəetmə
D) İqtisadiyyat
E)) Məntiq
**25. "Arxaşastra" traktatında hansı qadağalar qoyulurdu**?
A) Tacirlərin öz aralarında məhsulların ucuz və ya baha satılmasına görə razılığa gəlmələrinə
B) Məhsulların qaçaqmalçılıq yolu ilə daşınmasına
C) Məhsulların istehsal olunduğu yerlərdə satılmasına
D) Məhsulların bazarda satılmasına
E)) Bunların hamısı
**26. "Arxaşastra" traktatında aşağıdakılardan hansına üstünlük verilirdi:**
A) İdeal dövlətin idarə edilməsi üzrə ümumi təkliflərin verilməsinə
B) Əsas diqqətin təsərrüfatına və dövlət başçısının siyasətinin verilməsinə
C) Düzgün idarəçilik vasitəsi ilə dövlət sərvətinin artırılmasına
D) Dövlət əmlakının oğurlanması ilə mübarizə aparılmasına
E)) Bunların hamısına
**27. "Ən sadiq adamlar və ən məşhur əsgərlər əkinçilər arasından çıxır" kəlamının müəllifi kimdir?**
A) Demokrit
B) Sokrat
C)) Katon
D) Platon
E) Aristotel

**28. "Ən sadiq insanların ictimai funksiyası onların təbii qabiliyyətinə görə müəyyən olunur":**
A) Demokrit
B) Aristotel
C) Katon
D)) Platon
E) Sokrat
**29. Aşağıda adları qeyd olunan əsərlərdən hansı Aristotelə aiddir:**
A) "Siyasətnamə"
B) "Dövlət"
C) "Qanunlar"
D) "Ev qurumu"
E)) "Nikomaxun etikası"
**30. Aşağıda adları qeyd olunan əsərlərdən hansı Aristotelə aid deyil:**
A) "Praktika"
B) "Afina siyasəti"
C)) "Qanunlar"
D) "Nikomaxun etikası"
E) Bunların hamısı
**31.Qədim Babilistana aid deyil:**
A) Sələmçiliyin həddinin müəyyən olunması
B) Muzdlu əməkdən istifadə olunması
C) Dövlətin təsərrüfata nəzarəti
D)) Qul əməyindən borcların alınıb-verilməsində istifadə
E) Xüsusi mülkiyyətin qorunması
**32. Qədim Babilistana aid deyil:**
A) Sələmçiliyin həddinin müəyyən olunması
B) Muzdlu əməkdən istifadə olunması
C) Dövlətin təsərrüfata nəzarəti
D)) Əhalinin yaşına  və işinə görə siyahıya alınması
E) Xüsusi mülkiyyətin qorunması
**33. Qədim Babilistana aiddir:**
A) Sələmçiliyin həddinin müəyyən olunması
B) Muzdlu əməkdən istifadə olunması
C) Dövlətin təsərrüfata nəzarəti
D) Xüsusi mülkiyyətin qorunması
E)) Bunların hamısı

**34. "Quan-tszı" traktında qeyd olunur ki**:
A) Allah dünyanın ilkin səbəbidir
B) Yoxsulluğun əsas səbəbi aşağılarla yuxarılar arasında çəkişmələrdir
C)) İqtisadiyyat əmtəə qiymətləri vasitəsilə sabitləşdirilməlidir
D) Əkinçilərlə sənətkarlar arasında mübadilə olmalıdır
E) Dövlət xərclərində qənaətcil olmalıdır

**35. "Quan-tszı" traktında qeyd olunur ki**:
A) Allah dünyanın ilkin səbəbidir
B) Yoxsulluğun əsas səbəbi aşağıdakılarla yuxarılar arasında çəkişmələrdir
C)) Xalq bilikli adamlar üçün gəlir, tacirlər üçün isə mənfəət yaradır
D) Əkinçilərlə sənətkarlar arasında mübadilə olmalıdır
E) Dövlət xərclərində qənaətcil olmalı

**36. "Men-tszı" traktında qeyd olunur ki**:
A) Allah dünyanın ilkin səbəbidir
B) Yoxsulluğun əsas səbəbi aşağıdakılarla yuxarılar arasında çəkişmələrdir
C) İqtisadiyyat əmtəə qiymətləri vasitəsilə sabitləşdirilməlidir
D)) Əkinçilərlə sənətkarlar arasında mübadilə olmalıdır
E) Dövlət xərclərində qənaətcil olmalı

**37. Qədim Hindistana aiddir:**
A) Kreditlərin verilməsi, öhdəliklərin qəbul olunması
B) Müvəqqəti istifadə etmək və sərəncam vermək yolu ilə əmlakın icarəyə verilməsi
C) Emalatxanalarda muzdlu əməkdən istifadə olunması
D) Tacirlərin öz aralarında məhsulların ucuz və ya baha satılmasına görə razılığa gəlmələri
E)) Bunların hamısı doğrudur

**38. Qədim Hindistana aid deyil:**
A) Kreditlərin verilməsi, öhdəliklərin qəbul olunması
B) Müvəqqəti istifadə etmək və sərəncam vermək yolu ilə əmlakın icarəyə verilməsi

C) Emalatxanalarda muzdlu əməkdən istifadə olunması
D) Tacirlərin öz aralarında məhsulların ucuz və ya baha satılmasına görə razılığa gəlmələri
E)) Qul əməyinin hər cür sərvətin mənbəyinin təşkil olunmasının əsaslandırılması

**39. Platon hesab edirdi ki, dövlət üç təbəqədən ibarət olmalıdır:**

**A**)) Hökmdar və filosoflardan, hərbiçilər və əkinçilərdən, sənətkarlar və tacirlərdən
B) Torpaq mülkiyyətçilərindən, məhsuldar sinifdən, bəhrəsiz sinifdən
C) Kapitalistlərdən, proletariatdan, xırda burjuaziyadan
D) Fəhlələrdən, kəndlilərdən, sənətkarlardan
E) Fironlardan, kahinlərdən, zadəganlardan

**40. İqtisadi nəzəriyyələr sistemində metodoloji əhəmiyyət kəsb edən nəzəriyyə hansıdır:**

A) Faydalılıq nəzəriyyəsi
B) Təkrar –istehsal nəzəriyyəsi
D) Bölgü nəzəriyyəsi
C) Reallaşma nəzəriyyəsi
E)) Dəyər (qiymət) nəzəriyyəsi

**41. Aristotelin iqtisadi görüşləri elə dövrdə formalaşmışdır ki:**

A) Həmin şəraitdə icma quruluşu dağılmağa, quldarlıq inkişaf etməyə başlamışdır
B) Həmin dövrdə polis dövlət quruluşu əmələ gəlmiş, ziddiyyətlər kəskinləşmişdir
C)) Həmin şəraitdə quldarlıq cəmiyyəti dərin böhranlara, polisey dövlət qurumu tənəzzülə məruz qalmışdır
D) Həmin dövrdə dövlət təsərrüfatının möhkəmlənməsi, onun ölkənin iqtisadi həyatına olan müdaxiləsi güclənmişdir
E) Həmin dövrdə torpaq sahələrinin bir qrup adamların əlində cəmlənməsi, əhalinin bir qrupunun isə var-yoxdan çıxmasına səbəb olmuşdur

**42. Aristotelin yaşadığı dövrün xarakterik xüsusiyyəti odur ki:**
A) Həmin şəraitdə icma quruluşu dağılmağa, quldarlıq inkişaf etməyə başlamışdır
B) Həmin dövrdə polis dövlət quruluşu əmələ gəlmiş, ziddiyyətlər kəskinləşmişdir
C)) Həmin şəraitdə quldarlıq cəmiyyəti dərin böhranlara, polisey dövlət qurumu tənəzzülə məruz qalmışdır
D) Həmin dövrdə dövlət təsərrüfatının möhkəmlənməsi, onun ölkənin iqtisadi həyatına olan müdaxiləsi güclənmişdir
E) Həmin dövrdə torpaq sahələrinin bir qrup adamların əlində cəmlənməsi, əhalinin bir qrupunun isə var-yoxdan çıxmasına səbəb olmuşdur
**43. Qədim Roma iqtisadi fikrində ilk dəfə Varron hansı problemi qarşıya qoymuşdur:**
A) Torpaqlardan təyinatına görə istifadə olunmasını
B)) Mövsümü işlərdə muzdlu işçilərin əməyindən istifadə olunmalı
C) Quldarlıq təsərrüfatının natural xüsusiyyətlərindən kənarlaşması
D) Təsərrüfatların bazar istiqamətlərində aparılması
E) Torpaq sahələrinin icarəyə verilməsinə icazə verilməsi
**44. Qədim Roma iqtisadi fikrində ilk dəfə Katon hansı problemi qarşıya qoymuşdur:**
A) Torpaqlardan təyinatına görə istifadə olunmasını
B)) Yaxşı mülkədar olmaq naminə əlavə hesab olunanların hamısının satılmasını
C) Quldarlıq təsərrüfatının natural xüsusiyyətlərindən kənarlaşmasını
D) Təsərrüfatların bazar istiqamətlərində aparılmasını
E) Torpaq sahələrinin icarəyə verilməsinə icazə verilməsini
**45. Qədim Roma iqtisadi fikrinə aid deyil:**
A) Əlavə məhsulların bazar vasitəsi ilə reallaşması

B) Gəlir əldə edilməsinin sürətlənməsi üçün istehsalın ixtisaslaşdırılması
C) Əkinçiliyin inkişafı əsasında torpaqların səmərəli istifadə olunması
D) Bir millətdən olan qullardan çox almaq olmaz
E)) Tacirlərin öz aralarında məhsulları ucuz və ya baha satmasına görə razılığa gəlmələri

**46. Qədim Roma iqtisadi fikrinə aid deyil:**

A) Əlavə məhsulların bazar vasitəsi ilə reallaşması
B) Gəlir əldə edilməsinin sürətlənməsi üçün istehsalın ixtisaslaşdırılması
C) Əkinçiliyin inkişafı əsasında torpaqların səmərəli istifadə olunması
D) Bir millətdən olan qullardan çox almaq olmaz
E)) Məbəd mülkiyyət torpaq sahələrinin qulluqda olanlara verilməsi

**47. Qədim Roma iqtisadi fikrinə aiddir:**

A) Əlavə məhsulların bazar vasitəsilə reallaşması
B) Gəlir əldə edilməsinin sürətlənməsi üçün istehsalın ixtisaslaşdırılması
C) Əkinçiliyin inkişafı əsasında torpaqların səmərəli istifadə olunması
D) Bir millətdən olan qullardan çox almaq olmaz
E)) Bunların hamısı

**48. İqtisadi təlimlər tarixinin metodoloji əsasını nə təşkil edir:**

A)) Yeni iqtisadi nəzəriyyələrin mahiyyətinin daha dərindən mənimsənilməsi üçün keçmiş nəzəriyyələrin öyrənilməsi dialektikası
B) Cəmiyyətin iqtisadi münasibətlərinin inkişafı
C) Cəmiyyətin siyasi quruluşu
D) İqtisadi formasiyalar və onların bir-biri ilə əvəz olunması
E) Tələbatların artması qanunları

**49. Aristotel xrematistikanı necə izah edirdi?**
A) Əkinçilik kimi
B) Xırda ticarət kimi
C) Sənətkarlıq kimi
D) Natural təsərrüfat kimi
E)) Varidat, sərvət əldə etmək və pul toplamaq kimi

**50. " Təbii hüquq nəzəriyyəsi" hansı ölkədə yaranmışdır?**
A) İtaliyada
B)) Çində
C) Hindistanda
D) Yaponiyada
E) Monqolustanda

**51. Xammurapinin islahatlarında qulların borc verilməsi hansı müddəti əhatə edirdi?**
A) Beş il
B) İki il
C) Dörd il
D)) Üç il
E) Altı il

**52. İqtisadi nəzəriyyənin ilkin inkişaf mərhələlərini tarixi ardıcıllıqla göstərin:**
A)) Qədim dövr, orta əsrlər, merkantilizm, fiziokratizm
B) Fiziokratizm, klassik məktəb, marksizm, merkantilizm
C) Merkantilizm, fiziokratizm, klassik məktəb, marksizm
D) Merkantilizm, marksizm, klassik məktəb, fiziokratizm
E) Klassik məktəb, marksizm, merkantilizm, fiziokratizm

**53. İqtisadi nəzəriyyənin inkişafının əsas istiqamətlərindən biri yanlışdır**:
A)) Qədim dövrün iqtisadi təlimləri
B) Marksist siyasi iqtisad
C) Merkantilizm
D) Ekonomiks
E) Klassik siyasi iqtisad

**54. Bazar iqtisadiyyatı dövrünün iqtisadçıları nəyə üstünlük verirdilər?**
A)) Əmtəə-pul münasibətlərinə
B) Sələm kapitalına
C) Natural təsərrüfat münasibətlərinə

D) Ticarət kapitalına
E) Sənaye kapitalına

**55. "Arxaşastra" traktatında kimlərin vergilərdən azad olunması göstərilirdi?**

A) Hökmdarların
B)) Dini təlimin ən aparıcı nümayəndələrinin
C) Tacirlərin
D) Nəzarətçi məmurların
E) Muzdlu əməklə məşğul olanların

**56. "Özün-özünü dərk et" tezisinin müəllifi kimdir?**

A) Demokrit
B)) Sokrat
C) Ksenefont
D) Platon
E) Aristotel

**57. Aşağıda adları qeyd olunan əsərlərdən hansı Platona aiddir:**

A) "Siyasət"
B) "Afina siyasəti"
C)) "Qanunlar"
D) "Ev qurumu"
E) "Nikomaxun etikası"

**58. Qədim Hindistanda mənfəətin əldə olunmasının ən geniş yayılmış üsullarından biri nədir:**

A) Kreditlərin verilməsinə görə öhdəliklərin qəbul olunması
B) Vergi qoyuluşunun təşkili sahəsində əmlakdan istifadə
C)) Müvəqqəti istifadə etmək və sərəncam vermək yolu ilə əmlakın icarəyə verilməsi
D) Emalatxanalarda muzdlu əməkdən istifadə olunması
E) Tacirlərin öz aralarında məhsulların ucuz və ya baha satılmasına görə razılığa gəlmələri

**59. Aristotel xrematistikanı necə izah edir?**

A) Əkinçilik kimi
B) Natural təsərrüfat kimi
C) Xırda ticarət kimi
D)) Varidat, sərvət əldə etmək və pul toplamaq kimi
E) Sənətkarlıq kimi

# MÖVZU 2. ŞƏRQDƏ İQTİSADİ FİKİRLƏRİN YARANMASI

**1. İslam mənəvi-dini dəyərlər sisteminin formalaşması və onun Şərqdə iqtisadi fikrin təşəkkülünə təsiri**
**2. İslamda əmlak, mülkiyyət və maliyyə münasibətləri**
**3. İbn Xəldunun iqtisadi görüşləri**

İslamın meydana gəlməsi, onun ümumbəşəri dinə çevrilməsi, müxtəlif dillərdə danışan milyarddan yuxarı yer kürəsi əhalisinin mənəvi əqidəsinin saflaşmasına, mədəni səviyyəsinin yüksəldilməsinə, əxlaqi, etik normalarının təmizlənməsinə səbəb olmuşdur. Digər tərəfdən islam insanların elmi dünya görüşlərinin formalaşmasına, zəruri həyati problemlərin həllində çoxşaxəli istiqamətlərin mövcud olmasına gətirib çıxardı.

Qurani-Kərimin göndərilməsinə işarə edilən ayədə göstərilir ki, "...elmlə ətraflı izah etdiyimiz kitab gətirdik" (7. Əl-əraf surəsi, ayə 52)[4] İslamın ən böyük möcüzəsi insanları, ətrafda baş verən bütün hadisələri elm və hikmətlə, ağıl və məntiqlə müşahidə etməyə istiqamətləndirməsidir. "Biz onlarla (Peyğəmbərlər nəzərdə tutulur) birlikdə kitab və ədalət tərəzisi nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətli rəftar etsinlər". (57. Əlhədid (Dəmir) surəsi, ayə 25 ).

İslamda əmlak və mülkiyyət münasibətləri olduqca dərin, səlis və məntiqi-elmi ardıcıllıqla, mənimsənilmə, istifadə olunma və sərəncamvermə ilə bağlı prinsiplərlə müəyyənləşdirilmişdir. Şəriət vasitəsilə tənzimlənən əmlak və mülkiyyət hüquqları həm sahibolma prinsipini, həm sərəncamvermə, həm də istifadəetmə üsulunu əsaslandırır. Halallıq çərçivəsində əmlakın əldə olunması və ondan faydalı istifadə olunması mülkiyyətdən istifadə olunması hüququ üçün tutarlı əsas yaratmışdır.

---

[4]Göstərilən surələrdəki ayələr. Z.Bünyadovun və V.Məmmədliyevin tərcümə etdiyi "Qurandan" götürülmüşdür. Bakı, 1991.

Mülkiyyətin, eləcə də əmlakın formalaşması əsasında faydalı fəaliyyətin, həmçinin əmək sərvətinin vacib cəhəti kimi üstünlüyə malik olması əsas şərt kimi çıxış edir. İslamda xüsusi mülkiyyətin aparıcı rola malik olması, onun sahibinin faydalanması ilə yanaşı, sərəncamdakı bütün istehsal və xidmət təyinatlı vasitələrdən istifadəni də təkid edir. İslamda mülkiyyət münasibətlərinin inkişafında, eləcə də xüsusi mülkiyyətin mütərəqqi formasının saxlanılmasında, müxtəlif fəaliyyət növlərinin əmələ gəlməsində icarənin mühüm rolu vardır. İcarə və onunla bağlı münasibətlərin inkişafı şəraitində xüsusi mülkiyyətin toxunulmazlığını təmin edən mühüm istiqamətlərdən biridir. İcarə və onun vasitəsilə əldə olunan gəlirin çox mütərəqqi bir istiqamət olduğu göstərilir.

İslam iqtisadi prinsiplərinə görə, icarə münasibətlərində iki xüsusiyyət nəzərə alınmalıdır: birincisi, əmlakın və ya mülkiyyətin konkret sahibi olsun, ikincisi, qarşılıqlı razılaşma və anlaşma olsun. Hər iki şəraitdə qarşılıqlı faydalanma prinsipi əsas götürülür. Əgər tərəflərin hər biri belə şəraitdə faydalanmazsa, onda icarə məqbul hesab olunmur. Əgər tərəflər bir-birinin faydalana biləcək imkanlarının məhdudluğunu və ya yoxsulluğunu əvvəlcədən bilib icarə münasibətlərinə girərsə, o, batil hesab olunur. Lakin əgər istifadə olunan şəraitdə əmlakdan, heyvanlardan və s. yaxşı istifadə olunmayıbsa, o halda o, icarəhaqqını ödəməlidir. Çünki sazişin və ya müqavilələrin bağlanması ağıllı, sağlam düşüncəli adamlar arasında aparıldığından risk etmək dərəcəsi nəzərdə tutulur.

Nəzərə almaq lazımdır ki, islamda icarə münasibətləri barəsində danışarkən burada yalnız əmlak, mülkiyyət və müəyyən mal nəzərə alınmır, eyni zamanda bu, müəyyən fərdi işlərin görülməsi ilə bağlıdır. Əgər hər hansı bir şəxs peşə sahibi ilə razılaşıb, işi görəcəyi yerə gətirsə, lakin onu zəruri olan materialla təmin edə bilməsə, o, boş qalsa, iş görməsə belə haqqı ödənilməlidir.

Dünyada ən demokratik, ən bəyənilən prinsiplərdən hesab olunan müsəlman bölgü sistemi, əmlak və mülkiyyətlə bağlı meydana gələn münasibətlərin konkretləşməsinə çox ciddi və düzgün təsir göstərir.

Belə ki, əmlakın bölgüsü islamda vərəsəlik hüququ vasitəsilə çox dəqiq həyata keçirilir. Bu, bir tərəfdən əmlakın hərəkətə gətirilməsi ilə, digər tərəfdən onunla bağlı olanların hamısının mənafeyinin qorunması, eləcə də ondan faydalı istifadə olunması ilə əlaqədardır. Burada hüquqi və iqtisadi münasibətlər qovuşaraq mənəvi, əxlaqi və sosial münasibətlərin inkişaf etməsinə səbəb olur.

Məlumdur ki, islam dünyasında torpaq və ondan istifadə məsələsinə olduqca zəruri, toxunulmaz və müqəddəs bir nemət kimi baxılır. Bir tərəfdən torpaq, yalnız Ulu Yaradanın mülkiyyəti kimi qəbul edilir, digər tərəfdən ona təsərrüfat obyekti kimi sahibolma prinsipləri müəyyənləşdirilir. Şübhəsiz ki, mütləq mənada torpaq Allahındır. Lakin istifadəsinə, sahib olmasına, sərəncan verməsinə görə torpaq nisbi mənada mülkiyyət obyektinə çevrilir.

İslamda torpaqla bağlı fikirlər qeyd olunmuşdur. Ümumiyyətlə, müxtəlif səbəblərdən asılı olmayaraq torpağı becərməyən, suvarmayan, yararlı hala salmayan, icarə verməyənlər son dərəcədə pislənirlər. Bu çox vacib °ərtdir ki, torpaq sahəsi mülkiyyət formasından asılı olmayaraq mütləq istifadə olunmalıdır. Hər şəraitdə o, yararlı vəziyyətə salınmalıdır. Belə şəraitdə ilkin olaraq torpaqdan hamının ehtiyacının ödənilməsi prosesi baş verir, digər tərəfdən, faydalı fəaliyyət göstərilməsi imkanı yaranır, eləcə də məhsuldar istifadə olunması zəruriləşir.

İslamda mənfəət əldə etməyin mühüm mənbəyinin ticarətdə olduğu qeyd olunur. Lakin şəriət əldə ediləcək mənfəəti elə tənzimləyir ki, başqasının payı havayı mənimsənilməsin. Alqı-satqı zamanı mənfəətin əldə olunmasına çağıran islam, iqtisadiyyatın çevikliyinə əsas verən iki mühüm şərti formalaşdırmışdır: birincisi, azad sahibkarlığı, ikincisi, xüsusi mül-

kiyyəti. Ona görə də islamda ticarət iqtisadi fəaliyyətin mühüm sahəsi olmaqla yanaşı, eyni zamanda davranış qaydalarını müəyyən edən sfera kimi diqqəti cəlb etməlidir.

İslamda birmənalı olaraq faizin alınması və verilməsi Qurani-Kərimdə göstərilən ayələrə uyğun qadağalar edilmişdir. "Allah alış-verişi halal, sələm almağı isə haram (qadağan) etmişdir..." .[5] "Allah sələmi məhv edər, sədəqələri isə artırar" (2. Əl-Bəqərə surəsi, ayə 2.76). Çünki mənfəət o halda mənimsənilə bilər ki, onun əldə olunmasında mübadilə və istehsal prosesi baş vermişdir.

İslam bank sistemi bu və ya digər layihənin reallaşması üçün faizsiz kreditləşməsini həyata keçirir. Bununla yanaşı, xarici ticarət əməliyyatlarını maliyyələşdirməklə əldə olunan mənfəətdə iştirak edir. İstər faizsiz kreditləşmənin, istərsə də mənfəətdə iştirakda əldə olunan pay əməliyyatların sonunda müəyyənləşdirilir. Beləliklə, o əvvəlcədən müəyyən edimiş faizdən, ribadan, sələmdən tam uzaqlaşa bilir.

İslam dünyasında iqtisadiyyatın tənzimlənməsinin xüsusi üsullarından biri vergi sisteminin tətbiqidir. İslamda vergi sisteminin formalaşması prosesi Qurani Kərimdə göstərilən ayələr və Peyğəmbərin (s.a.s.) əmrləri əsasında getmişdir.

İslam dünyasında tətbiq olunan vergi formalarının sayında fərq olsa da, lakin onların bir ümumi hüquqi bazası və işlək mexanizmi mövcuddur. Bu da şəriətdir ki, onun əsasında verginin tətbiq olunma üsulları, vergiyə cəlb olunan əhalinin qrup və təsnifatı, alınacaq verginin məbləği, miqyası və müddəti müəyyən edilir.

Şəriət vergiyə cəlb olunmasının aşağıdakı formalarını müəyyən etmişdir:

1.Xüms - əldə olunan qənimət və ya qazancın, eləcə də ona bərabər tutulan illik gəlirin beşdə bir hissəsi.

2.Zəkat - halik həddi və vaxtı müəyyən olunmuş malın qırxda bir və ya 2.5 hissəsi.

---

[5] Bax: M.X.Meybullayev. İslam iqtisadiyyatı. Bakı, 2001, səh.188.

3.Zəkatəl - orucluğun başa çatması ilə ehtiyacını ödəyənlərin hər birinə 3 kq. buğdaya, xurmaya, qarğıdalıya və s. bərabər tutulan məbləğ (fitrə).

4.Cizyə - müsəlman dövlətlərində yaşayan qeyri-müsəlmanlardan alınan çan vergisi.

5. Xərac və üşr - torpaq vergisi, müəyyən edilmiş hədd əsasında məhsulun onda bir hissəsi.[6]

Müasir dövrün ən ciddi problemlərindən biri məşğulluğun təmin olunmasıdır. Bu problem islam ölkələri üçün daha aktualdır. İslam mənəviyyatı bir tərəfdən bütün insanların çalışmasını, səy göstərməsini, işləməsini təkidlə tələb edir, çünki işsizliyin artmasını mənəvi dəyərlərin itirilməsinin əsas səbəbi kimi dəyərləndirir.

Yoxsulluğun istər mikro, istərsə də makro səviyyədə aradan qaldırılması eyni mahiyyət daşımadığından ona müxtəlif səpkilərdə yanaşmaq lazımdır. Belə ki, islam iqtisadiyyatında yoxsulluğun aradan qaldırılmasının əsas istiqaməti möhkəm təməlli ailənin qurulması çərçivəsində təsərrüfatçılığın aparılması ilə müəyyənləşdirilir. Ailə-ev təsərrüfatı faydalı davranış qaydalarının özəyində durur, xüsusi mülkiyyəti möhkəmləndirir. Xüsusi mülkiyyətin həddi və hüdudu, eləcə də mənəvi dəyərlərin mənimsənilməsi səviyyəsindən asılı olaraq formalaşan islam ailəsi ilk öncə ev təsərrüfatının səmərəsini əsas meyar götürməlidir.

İslamda yoxsulluğun aradan qaldırılmasının mühüm istiqamətlərindən biri də qənaətçilik və israfçılığa yol verməməkdir. İslamda israfçılığa yol vermək xoşa gəlməyən hal kimi qiymətləndirilir. Fəaliyyətin hansı sahəsində olursa olsun, israfçılığa yol vermək birmənalı olaraq ömür-günü boş, hədər və faydasız yerə sərf etmək kimi bir şeydir. İsrafçılığa istər şəxsi, istərsə də dövlət işlərində son qoymağa dəyərli və əhəmiyyətli iş kimi baxılır.

---

[6] Bax: M.X.Meybullayev. İslam iqtisadiyyatı. Bakı, 2001, səh. 201.

İslam iqtisadiyyatının məqsədi mənəvi dəyərlər əsasında cəmiyyət üzvlərinin ehtiyacını ödəyən məhsul və xidmətlər istehsalı və bölgüsünü həyata keçirməkdən ibarət olduğundan, iqtisadiyyat "səmərəli tələb" prinsipi ilə deyil, "ehtiyacların səmərəli ödənilməsi" prinsipi əsasında qurulur. Burada bütün əmək qabiliyyətli əhalinin faydalı məşğuliyyətinin təmin olunması vacib istiqamət kimi nəzərdə tutulur.

## İbn Xəldunun iqtisadi görüşləri

Şərqin və Ərəb dünyasının böyük mütəfəkkirlərindən biri də **İbn Xəldun** olmuşdur. O, sosioloq, tarixçi, filosof kimi yaşayıb-yaratmış, dünya elminə, mədəniyyətə böyük töhfələr vermiş ulu bir şəxsiyyətdir.

Əsl adı **Məhəmməd Əbdürrəhman olan İbn Xəldun** 1332-ci ildə Tunisdə doğulmuş, nüfuzlu bir ailənin övladı olduğu üçün gözəl təhsil almışdır. Onun sosial-iqtisadi baxışları "Müqəddimə" adlı 3 cildlik əsərdə öz əksini tapmışdır. O, "Müqəddimə"nin birinci cildində Şərq və Qərb ölkələrinin əsas tarixi mərhələlərinin təhlilinə əsaslanaraq göstərir ki, tarixən ilk əmək bölgüsü və mübadilə qədim Şərqdə, mədəniyyətlərin və böyük dövlətlərin təşəkkül tapdığı ölkələrdə baş vermişdir. Bütün dünyada istehsalın həlledici sahəsi olan əkinçilik və suvarma sistemləri qədim Şumerlərdə, Mesopatamiyada, Misirdə, Çində, Türküstan və s. ölkələrdə inkişaf etmişdir. Bu fikir F.Engelsin "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" (1884-cü il) əsərində də etiraf edilmişdir: "Bəzi ən qabaqcıl tayfalarda-arilərdə, semitlərdə, bəlkə də artıq turanlılarda da başlıca əmək sahəsi əvvəlcə mal-qaranı əhliləşdirmək və yalnız sonralar onu artırmaq və ona baxmaq olmuşdur. Çoban tayfalar qalan barbarlar kütləsindən ayrıldılar, bu birinci böyük ictimai əmək bölgüsü idi. Çoban tayfalar nəinki qalan barbarlardan çox istehsal edirdilər, həmçinin onların istehsal etdikləri yaşayış vasitələri də başqa idi. Onlara nisbətən bu tayfaların nəinki

südü, süd məhsulları və əti xeyli çox idi, habelə onların əlində dəri, yun, qəzil var idi. Xammal kütləsi artdıqca daha da çox iplik və parça olurdu. Bunun sayəsində ilk dəfə olaraq müstəqil mübadilə mümkün oldu.[7]

İbn Xəldun iqtisadi fəaliyyətlər mövzusunda liberal bir yanaşmaya sahibdir. O, şəxsi təşəbbüskarlığı müdafiə edir və dövlətin iqtisadi həyata müdaxilə etməsinə qarşı çıxır. İbn Xəlduna görə iqtisadi hadisələrin də özünəməxsus qanunları var və bunlara təzyiq göstərmək iqtisadiyyata ağır zərbə vura bilər.

İbn-Xəlduna görə dövlətin vəzifəsi iqtisadi həyatın bir nizam içində inkişaf etməsini təmin etməkdir. Dövlətin iqtisadiyyata ədalətli olmayan müdaxilələri, haqsız vergiyə cəlb olunma ya da mülkiyyəti mənimsəmə iqtisadiyyata mənfi təsir göstərir və dövləti varlığını davam etdirməsi üçün lazımlı vergilərdən məhrum edir. Belə olduqda dövlətin gəlirləri azalır və əslində etməli olduğu ədaləti qoruma, müdafiə və diplomatik fəaliyyət kimi vəzifələrini yerinə yetirə bilməyəcək vəziyyətə gəlir və çökür.

İbn Xəldun ictimai sərvət bolluğunun yaradılmasında bütün hallarda dəyərin əməklə ölçülməsinə əsaslanır, onu ərəb Şərqi və Məğrib ölkələrinin keçdikləri **i**qtisadi inkişafdan bir nəticə kimi hasil edir. Onun fikrincə, iqtisadi inkişaf nəticəsində yaranan bolluğun, zinət və çiçəklənmənin səbəbi insanların ictimai, həyatlarının az və ya çox dərəcədə inkişafındadır: "Bütün bu deyilənlərin səbəbi tam qəti müəyyən edilmişdir ki, insan özünə lazım olan həyat vasitələrini təklikdə əldə etmək iqtidarında deyildir. Həyat üçün zəruri olan şeyləri onlar birləşərək, həm də çox adamlar üçün istehsal edirlər. Məsələn, taxıldan alınan ərzaq payını əldə etmək üçün insanlar təkbaşına fəaliyyət göstərmir. Əgər altı və ya on adam onu əldə etməkdə iştirak edirsə, onlardan bir qismi dəmirçi və ya ağac ustası kimi alət hazırlayır, üçüncülər öküzlərə qulluq edir, dördüncülər torpağı becərir, beşinci qrup adamlar sünbülləri toplayır və digər

[7] İbn Xəldun. "Müqəddimə". Ankara, 1977, I cild, səh.303.

əkinçilik işlərini yerinə yetirirlər. Lakin onların hamısı bu işləri öz aralarında bölüşdürərək, birlikdə görürlər və onların əməyi sayəsində müəyyən miqdarda ərzaq əldə edilir və onda məlum olur ki, əldə edilən məhsul onlara lazım olandan, yəni birləşmiş adamların əməyinin kəmiyyəti işləyən adamların tələbatlarını ödəmək üçün zəruri olan miqdardan çoxdur".

İbn Xəldun isə öz iqtisadi təlimində kauzal yaşamaya istinad edərək dəyər substansiyasının əsasında əməyin durduğunu əsaslandırmışdır. Lakin dəyər substansiyasını aşkar edən İbn Xəldun yaşadığı tarixi şəraitə görə, dəyərlə qiymət arasındakı fərqləri ayırd edə bilmir və burada da kəşf etdiyi dəyər qanununun əsl mahiyyətindən bir qədər uzaqlaşmış olurdu.[8]

Müasir əmək-dəyər nəzəriyyəsi fonunda nə qədər təəccüblü görünsə də, o, bu sahədə irəli sürdüyü və öz dövrünün ictimai-iqtisadi inkişafının faktlarına əsaslandığı bu fikirləri ilə Aristoteldən sonra iqtisadi fikir tarixində özünəməxsus yer tutmuş, problemin qoyuluşu və onu həll etməyə istiqamətləndirdiyi tədqiqatları ilə əmək-dəyər nəzəriyyəsinin elmi yaradıcıları olan klassik siyasi iqtisadın baniləri A.Smit və D.Rikardonu (XVII əsrin sonu XIX əvvəlləri) dörd yüz il qabaqlamışdır. Keçmiş sovet tədqiqatçıları da ötəri olsa da, dəyər forması haqqında təlimin yaradılmasında onun xidmətlərini qeyd etmişlər. Onların fikrincə, ilk elmi iqtisadi kateqoriyaların yaradılması Aristotel və İbn Xəldunun adı ilə bağlıdır.

---

[8] İbn Xəldun. Müqəddimə, II cild, səh.275.

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1. İslamın müqəddəs kitabı "Qurani-Kərim"də nəyə icazə verilmir:**
A) Azadlıq və bərabərliyə
B) Xüsusi mülkiyyət və azad sahibkarlığa
C)) Sələmçiliyə, faiz almaq məqsədi ilə borc verməyə
D) Alqı-satqıya, ticarətlə məşğul olmağa
E) Xüsusi mülkiyyətə, azad sahibkarlığa

**2. İslamın iqtisadi fikirlərinin əsasında nə dururdu:**
A) Azadlıq və bərabərlik
B) Xüsusi mülkiyyət və azad sahibkarlığa
C) Əhaliyə vergi qoyulması, dövlətin varlandırılması
D) Alqı-satqı, ticarətlə məşğul olmaq
E)) Bunların hamısı

**3. Həddi və vaxtı müəyyən olunmuş malın qırxdan bir hissəsi hansı vergidir?**
A) Fitrə
B)) Zəkat
C) Xüms
D) Xərac
E) Cizyə

**4. O həm də fiskal funksiyanı yerinə yetirir:**
A) Fitrə
B)) Zəkat
C) Xüms
D) Xərac
E) Cizyə

**5. Əldə olunan qənimət, qazanc və illik gəlirin beşdə bir hissəsi hansı vergi növüdür?**
A) Zəkat
B) Xərac
C) Fitrə
D) Cizyə
E)) Xüms

**6. "Qurani- Kərim"də öz əksini tapmışdır:**
A) Sələm kapitalının inkişafına hədd qoyulması
B) Ekvivalent mal mübadiləsi
C) Sələm faizinin qadağan edilməsi

D) Ədalətli tənzimləmə tədbirləri
E)) Bunların hamısı

**7. Müsəlman dövlətlərində yaşayan qeyri-müsəlmanlardan alınan can vergisi hansıdır?**

A) Xərac
B) Fitrə
C) Xüms
D) Zəkat
E)) Cizyə

**8. Orucluğun başa çatması ilə ehtiyacı olanların hər birinə 3 kq buğdaya, xurmaya, qarğıdalıya və s. bərabər tutulan məbləğ hansı vergidir?**

A)) Fitrə
B) Xərac
C) Zəkat
D) Xüms
E) Cizyə

**9. Aşağıdakılardan hansı torpaq vergisidir?**

A) Cizyə
B) Fitrə
C)) Xərac
D) Zəkat
E) Xüms

**10. İslamın müqəddəs kitabı olan "Qurani-Kərim"də hansı fəaliyyət qadağan edilir?**

A) Azadlıq və bərabərlik
B) Yoxsulluq və onun aradan qaldırılması
C) Xüsusi mülkiyyət və azad sahibkarlıq məsələləri
D)) Borc verib faiz almaq, sələmçilik
E) Alqı-satqı, ticarətlə məşğul olmaq

**11. İbn Xəldunun xidmətlərindən biri ondan ibarətdir ki:**

A) O, pulun dəyəri ilə əmtəənin dəyəri arasındakı əlaqəni düzgün dərk etmişdir
B) O, həmçinin mürəkkəb, əqli əməyi sadə və fiziki əməkdən yüksək qiymətləndirmişdir
C)) Nəsillərin yaşadığı şərait nemətlərin əldə olunması vasitələrindən asılı olaraq fərqlənir
D) Özünün əsas nəzəriyyəsini-bölgü nəzəriyyəsini əmək-dəyər nəzəriyyəsinin əsasında qurmuşdur
E) O, sənətkar əməyini cəmiyyət üçün faydalı saymışdır

**12. İbn Xəlduna görə:**

A) O, pulun dəyəri ilə əmtəənin dəyəri arasındakı əlaqəni düzgün dərk etmişdir

B) O, həmçinin mürəkkəb, əqli əməyi sadə və fiziki əməkdən yüksək qiymətləndirmişdir

C)) Cəmiyyətin tarixi inkişafı maddi nemətlərin istehsalından, bölgüsündən və istehlakından asılıdır

D) Özünün əsas nəzəriyyəsini-bölgü nəzəriyyəsini əmək-dəyər nəzəriyyəsinin əsasında qurmuşdur

E) O, sənətkar əməyini cəmiyyət üçün faydalı saymışdır

**13. Nəsillərin yaşadığı şərait nemətlərin əldə olunması vasitələrindən asılı olaraq fərqlənir. "Nə ki, təbiidir, o dəyişilməzdir" tezisinin müəllifi kimdir?**

A) N.Tusi

B) Aristotel

C) İbn Sina

D)) İbn Xəldun

E) N.Gəncəvi

**14. İbn Xəldunun xidmətlərindən biri odur ki:**

A)) Dövlət idarəetmə sistemi ilə iqtisadiyyat arasındakı vəhdətin elmi şərhini vermişdir

B) Dövlət büdcəsinin aktiv balansı ideyasını inkişaf etdirmişdir

C) Dövlət başçısının şəxsiyyətinə xüsusi diqqət yetirirdi

D) Mərkəzləşdirilmiş feodal dövləti yaratmaq siyasətini iqtisadi amillərlə əlaqələndirirdi

E) Bunların hamısı

**15. İbn Xəldunun elmi nailiyyətlərini müəyyən edin:**

A)) Tarixi tərəqqinin dövrləşməsini, "cəmiyyətin sosial fizikasını", onda gedən fərqlənmənin maddi əsaslarının göstərilməsi

B) Dövlət büdcəsinin aktiv balansı ideyasını inkişaf etdirməsi

C) Dövlət başçısının şəxsiyyətinə xüsusi diqqət yetirməsi

D) Mərkəzləşdirilmiş feodal dövləti yaratmaq siyasətini iqtisadi amillərlə əlaqələndirməsi

E) Bunların hamısı

**16. Orta əsrlərin iqtisadi fikri hansı iqtisadi münasibətlərin təsiri altında formalaşmışdır:**
A) Natural xarakter daşıyan feodal iqtisadiyyatının mövcudluğu
B) Dini ideologiyanın hökmranlıq etməsi
C) İqtisadi biliklərin teoloji xarakter daşıması
D) Hadisə və proseslərə sxolastik yanaşma
E)) Bunların hamısı doğrudur
**17. Feodal dövrünün iqtisadi fikrinin formalaşması və inkişafına təsir göstərən amil:**
A) Natural xarakter daşıyan feodal iqtisadiyyatının mövcudluğu
B) Dini ideologiyanın hökmranlıq edilməsi
C) İqtisadi biliklərin teleoloji xarakter daşıması
D) Hadisə və proseslərə sxolastik yanaşma
E)) Bunların hamısı doğrudur
**18. Müqəddəs dini kitabların təhlil dairəsinə daxildir:**
A) Materialist baxışların inkar olunması
B) Sələmçiliyin qeyri-təbii sayılması
C) Ruh fəlsəfəsinin əsas götürülməsi
D) Əməyin sərvətin və mülkiyyətin əsas mənbəyi olması
E)) Bunların hamısı döğrudur
**19. Müqəddəs dini kitabların təhlil dairəsinə daxil deyil:**
A) Materialist baxışların inkar olunması
B) Sələmçiliyin qeyri-təbii sayılması
C) Ruh fəlsəfəsinin əsas götürülməsi
D) Əməyin sərvətin və mülkiyyətin əsas mənbəyi olması
E)) İqtisadi biliklərin teleoloji xarakter daşımaması
**20. İslam dini iqtisadi problemlərinin mahiyyətində nə durudu:**
A) Tarazlıq prinsipi
B) Sələmçilik prinsipi
C)) Nadirlik prinsipi
D) Faydalılıq prinsipi
E) Aşkarlıq prinsipi
**21. "Qurani-Kərim"də ən ali davranış:**

A) Tarazlıq prinsipi
B) Sələmçilik prinsipi
C) Nadirlik prinsipi
D) Faydalılıq prinsipi
E)) İnsan azadlığı

**22. “Qurani-Kərim”də ən ali davranış:**

A) Tarazlıq prinsipi
B) Sələmçilik prinsipi
C) Nadirlik prinsipi
D) Faydalılıq prinsipi
E)) Aşkarlıq prinsipi

**23. İbn Xəldunun "Müqəddimə" əsəri nədən bəhs edirdi?**

A) Maya dəyərindən
B)) İqtisadi amillərdən
C) Mənfəətdən
D) Tədavül xərclərindən
E) Rentadan

**24. İbn Xəldun "Müqəddimə" əsərində Şərqin inkişafını neçə mərhələyə bölürdü?**

A) Altı
B) Dörd
C) Beş
D) Yeddi
E)) Üç

**25. Orta əsrlərdə hansı mütəfəkkirlər iqtisadi məsələlərə aid əsər yazmamışdır:**

A) N.Gəncəvi, N.Tusi
B) N.Tusi, M.Fizuli
C) Nizam-al Mülk, N.Tusi
D) İbn Xəldun, Ş.İ.Xətai
E)) İbn Xəldun, N.Vəzirov

# MÖVZU 3. AZƏRBAYCANDA İQTİSADİ FİKRİN TƏŞƏKKÜL TAPMASI

**1. Azərbaycanda iqtisadi fikrin yaranması və formalaşması prosesi**

**2. Azərbaycanda orta əsrlərin iqtisadi fikir və ideyaları**

**3. XV-XX əsrlərdə Azərbaycanda iqtisadi fikir**

Azərbaycan xalqının iqtisadi fikrinin öyrənilməsində ilkin mənbələr kimi qədim mifologiya, folklor və dastanlar, bədii əsərlər, fəlsəfi traktatlar, dini cərəyan və hərəkatlar, dövri mətbuat müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan xalqının qədim yazılı iqtisadi fikirləri bizim eradan əvvəl X-VII əsrlərdə meydana gəlmişdir.

Zərdüştlüyün (zoroastrizmin) qanunlar toplusu olan **"Avesta**" Azərbaycanın tarixi, sosial, iqtisadi, siyasi və mənəvi həyatının öyrənilməsi üçün mühüm mənbədir. Burada o dövrün məhsuldar qüvvələri və istehsal münasibətlərinin vəziyyəti əks olunmuşdur. Əkinçilik və suvarma işlərinin köməyi ilə maddi istehsalın inkişafına xüsusi yer verilmişdir. "Avesta"da həyatın ədalət qanunları əsasında qurulmasına, torpağa məhəbbətə, onun münbitliyinin artırılmasına, məhsuldarlığın yüksəldilməsinə böyük əhəmiyyət verilmişdir.

**Manihəçilik (III əsr), Məzdəkizm (V-VI əsr), Xürrəmilər (VIII-X əsrlər)** hərəkatının iqtisadi məzmunu hamı üçün mülkiyyət hüququ yaratmaq, torpağın kəndlilər arasında ədalətli bölgüsünü təmun etmək, xalqı feodallara və əcnəbilərin zülmünə qarşı mübarizəyə çağırmaqdır.

**İslam dininin yaranması (VII)**, onun qəbul edilməsi bütün Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının sosial-iqtisadi fikrinə öz dərin təsirini göstərmişdir.

Külli miqdarda iqtisadi fikirlərlə zəngin olan **"Qurani-Kərim"in** ayələri sonrakı mütəfəkkirlərin iqtisadi baxışlarının

əsas ideya mənbəyi olmuşdur. "Qurani-Kərim"də torpaq üzərində mülkiyyət münasibətləri, ticarət, ticarət kapitalının inkişafı, qul əməyi, vergi sistemi və onun növlərinə aid qiymətli fikir və ideyalar xüsusi yer tutmuş, sələm kapitalının inkişafına hədd qoyulması, sələm faizinin qadağan edilməsi, maddi nemətlərin müsəlman icmasının üzvləri arasında bölüşdürülməsi üsulu, ədalətli tənzimləmə tədbirləri öz əksini tapmış, ekvivalent mal mübadiləsi, pul tədavülü, mübadilə, rəqabət, azadlıq, ədalət, bərabərlik və s. ifadələr şərh edilmişdir.

Azərbaycan xalqının sosial-iqtisadi fikirlərinin toplandığı ən zəngin mənbələrindən biri **"Dədə Qorqud" qəhrəmanlıq dastanıdır.** Son elmi məlumata görə, bu dastan VI-IX əsrlərdə tam təşəkkül tapmış, ilk dəfə X əsrdə qələmə alınmışdır. "Dədə Qorqud" abidəsində oğuzların ibtidai dövründən (eramızın III-IV əsrlərindən) başlamış VI-VIII əsrlərin real hadisələrinə qədər böyük bir dövrün ictimai həyatı, təsərrüfat ukladı təsvir olunur. "Dədə Qorqud" dastanında oğuz icmalarının iqtisadi əsası olan icma mülkiyyəti, feodal münasibətləri haqqında maraqlı mülahizələr vardır. Dastanda Azərbaycan oğuzlarının həyatında pulun rolu, feodal rentası elementləri, ticarət rüsumu, natural, yaxud əmtəə təsərrüfatının üstünlüyü, nemətlərin təkrar istehsalının genişləndirilməsi, oğuz qəbilələrinin yaşadığı iqtisadi və sosial həyat şəraiti, qoyunçuluq, atçılıq, quşçuluq, ovçuluq, bunlarla əlaqədar məhsullar haqqında məlumatlar verilir.

Orta əsr Azərbaycan sosial-iqtisadi şəraitini səciyyələndirən yazılı mənbələr içərisində XI əsrin məşhur tarixi abidəsi olan **"Siyasətnamə"** mühüm yer tutur. Onun müəllifi Səlcuq sultanının vəziri **Xacə Nizamülmülk Həsən İbn Əlidir.** 51 fəsildən ibarət olan bu kitabda dövlət hakimiyyətinin iqtisadi siyasətinin praktik vəzifələri əsaslandırılır, səlcuqilər dövrünün ictimai-siyasi, dövlət quruluşu haqqında qiymətli məlumatlar verilir. "Siyasətnamə" əsərində kəndlilərdən vergi tutulması qaydaları, vergi yığanlar üzərində daim nəzarət, qanundan kənarlaşmamaq haqqında müddəalar geniş yer tutur.

Özü torpaq mülkiyyətçisi olduğundan feodal-təhkimçilik münasibətlərini müdafiə mövqeyində qalır, sərvət haqqında məsələni qoruyur, lakin onu iqtisadi deyil, fəlsəfi-etik baxımdan nəzərdən keçirir. O, feodal cəmiyyətinin nöqsanlarını göstərir, mərkəzləşdirilmiş dövləti ideal siyasi quruluş hesab edirdi.

Azərbaycanda orta əsrlərin iqtisadi fikri özünün ən yüksək səviyyəsinə - XII əsrdə çatır. Azərbaycan xalqının mədəniyyəti və ictimai fikrinin parlaq siması olan **Nizami Gəncəvi** (1141-1209) bu dövrdə yaşamışdır. Nizami öz dövrünün və bütün dövrlərin elə bir mütəfəkkiridir ki, yaradıcılığında ədəbiyyat, fəlsəfə, astronomiya, təbiət, tarix və iqtisadiyyat elmləri sintez olunmuşdur. Nizamini peşəkar iqtisadçı hesab etmək məqbul sayılmasa da, onun iqtisadi baxışları dərinliyi və yetkinliyi ilə diqqəti cəlb edir.

N.Gəncəvi özünün fəlsəfi, sosial-iqtisadi fikirlərini əsasən məşhur beş əsərinin birləşdiyi **"Xəmsə"**sində əks etdirmişdir. O, təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını, onların dərk edilməsinin əhəmiyyəti haqqında nəzəri fikirləri poetik formada vermişdir. Onun əsərlərində feodal mülkiyyəti, ondan irəli gələn ziddiyyətlər, vergi sistemi, torpaq mülkiyyəti, sosial ədalət və bərabərlilik ideyaları xüsusi yer tutur. N.Gəncəvi istehsal, əmək prosesi, bölgü və istehlak, əməyin cəmiyyətin həyatında rolu, elmi biliyin, təhsilin cəmiyyətin ən mühüm sərvəti, əmək bölgüsünün isə sərvətin artmasının əsas amili hesab edirdi. Onun əsərlərində cəmiyyətin inkişafında ticarətin mütərəqqi rolu, mübadilə prosesində ədalətin gözlənilməsi, tələb və təklifin qiymətin dəyişməsinə təsiri məsələlərinin şərhi xüsusi əhəmiyyət kəsb edir. "Xəmsə"də pulun mənşəyi, yaranma tarixi, qızıl və gümüşün pula çevrilməsi məsələləri poetik şərh edilir. Onun fikrincə pul insanın tələbatının ödənilməsinə xidmət edən vasitədir. Mülkiyyətin ümumiliyini və bölgüdəki bərabərlik ideyalarını irəli sürməklə, Nizami Gəncəvi hakim və məhkum, ağa və qul, zalım və məzlum, varlı və yoxsul olmayan quruluş yaratmağı nəzərdə tutmuş, təbiəti, cəmiyyəti və

insanı öyrənməyi başlıca vəzifə hesab etməklə insanın insanla, insanın cəmiyyətlə, cəmiyyətin isə təbiətlə ahəngdar inkişafının mümkünlüyü ideyasını əsaslandırmış, bütün elmlərin insana, cəmiyyətə xidmət göstərməsi zəruriliyi və digər iqtisadi ideyaları ilə iqtisadi fikir tariximizi zənginləşdirmişdir.

Orta əsrlər Azərbaycanın iqtisadi fikir tarixində ensiklopedik biliyə malik olan görkəmli şair, astronom, riyaziyyatçı, filosof və iqtisadçısı **Nəsrəddin Tusi** (1201-1274) xüsusi yer tutur. N.Tusi 70-dən çox elmi əsərin müəllifidir. Onun məşhur **"Əxlaqi-Nasiri"** (1232-1233) və **"Dövlət maliyyəsi haqqında traktatlar"** əsərləri iqtisadi fikir baxımından diqqəti cəlb edir. N.Tusi antik sələflərinin fikirlərini sintezləşdirib ictimai əmək bölgüsü, pulun mənşəyi, ekvivalent mübadilə, əməyin ictimai funksiyası, cəmiyyətin inkişafının iqtisadi əsasları, əhalinin var-yoxdan çıxmasının və dövlət xəzinəsinin tükənməsinin səbəbləri haqqında daha dərin elmi mülahizələr irəli sürmüşdür. Məsələn, N.Tusi klassik formada əmək-dəyər nəzəriyyəsi yaratmasa da, onun əməyin müxtəlif növlərinin bərabərləşdirilməsinin əsasında iş vaxtının müəyyən kəmiyyətinin durduğunun iddia etməsi olduqca diqqətəlayiq bir faktdır. Onun əsərlərində əməyin ictimai funksiyası, əməyin sərvətin mənbəyi olması, əməyin müxtəlif növlərinin mənəvi qiymətləndirilməsi, cəmiyyətin sosial strukturu ilə əlaqədar məsələlərinin izahı mühüm əhəmiyyət kəsb edir. “Dövlət maliyyəsi haqqında traktat”da əksini tapan maliyyə, dövlət xəzinəsinin gəlir və xərclərinin müəyyən edilməsində uçot və nəzarət, istehsal, bölgü, istehlak, istehsal və istehlak arasında qarşılıqlı əlaqə, təkrar istehsal haqqında fikirləri çox əhəmiyyətlidir. O, verginin növlərini sayır, feodal mülkiyyətçilərinin yalnız izafi deyil, hətta zəruri məhsulun əhəmiyyətli hissəsini mənimsədiklərini və nəticədə kəndli təsərrüfatlarının tam tənəzzülünü, dövlət xəzinəsinin kəskin azalmasını aydın izah edir. O, vergi sisteminin yaxşılaşdırılmasını tövsiyə edir. N.Tusi dövlət büdcəsinin aktiv balansı ideyasını inkişaf etdirir.

Görkəmli şair və mütəfəkkir **İmadəddin Nəsiminin** sosial-iqtisadi baxışlarının əsasını insan konsepsiyası təşkil edir. XIV əsrin axırlarında mütərəqqi bir hadisə kimi Azərbaycanda geniş yayılan hürufiliyin görkəmli nümayəndəsi olan Nəsimi insanı dünyada ən qiymətli sərvət hesab edir. "Hər şey insana, onun rifah və səadətinə xidmət etməlidir" kimi öz dövrü üçün, şübhəsiz olduqca cəsarətli və mütərəqqi olan bir ideya uğrunda mübarizə aparır. O, qəzəllərində maddi dəyərlər yaradan insanların bütün fəaliyyətini qiymətli sərvət hesab edir, hökmran olan istehsal münasibətlərinin hər cür təzahür formalarına qarşı çıxaraq feodal cəmiyyətinin yalnız qəddarlığını və zorakılığını deyil, həm də onların səbəblərini də göstərir. Nəsiminin insan konsepsiyası insanın özünü dərk etməyə, təbiət və cəmiyyətin inkişafı qanunlarına yiyələnməyə, sosial-iqtisadi ədalətsizliyi aradan qaldırmaq üçün əməli işlər görməyə səsləyir.

**Şah İsmayıl Xətainin** sosial-iqtisadi baxışları mənsub olduğu sinfin mövqeyi və dövrünün sosial-iqtisadi xüsusiyyətlərinin təsiri ilə formalaşmışdır. Onun sosial-iqtisadi baxışları başçılıq etdiyi Səfəvi feodal dövlətinin iqtisadi siyasətində öz ifadəsini tapmışdır. Onun baxışlarında parçalanmış və zəif düşmüş Azərbaycan əyalətlərini vahid bir dövlətdə birləşdirmək siyasəti, ölkə daxilində sosial münaqişələrin ləğvi, vergi islahatları yolu ilə siniflərin mənafelərinin balanslaşdırılması, ticarət yolları təhlükəsizliyinin təmin edilməsi və ölkə daxilində və xaricində ticarətin inkişafı üçün şəraitin yaradılması məsələləri xüsusi yer tutur.

Böyük şair, dahi mütəfəkkir, görkəmli filosof və alim **Məhəmməd Fizulinin** sosial-iqtisadi baxışları onun elmi və fəlsəfi xarakterli **"Leyli və Məcnun" poemasında, "Rindü-Zahid" əsərində, "Şikayətnamə"** adlı məktubunda və "Mətləül-etiqad" əsərində ifadə olunmuşdur.

Fizuli əsərlərində insanlar arasında həyat nemətlərinin qeyri-bərabər bölgüsünə xüsusi diqqət yetirmiş, sosial-iqtisadi qaydaları pisləmişdir.

Azərbaycanda ictimai fikir tarixində **Abbasqulu Ağa Bakıxanov** (1794-1848)yaradıcılığı xüsusi yer tutur. A.Bakıxanov cəmiyyətin inkişafı prosesini idealist mövqedən nəzərdən keçirmiş və bu prosesin əsas məzmununu cəmiyyətin üstqurumunun dəyişilməsi ilə əlaqələndirirdi. O, cəmiyyətin inkişaf qanunauyğunluqlarını aydınlaşdırmağa çalışmış, şahların ədalətsizliyinin əleyhinə olduğunu, insanların yaşayışının əsas şərti kimi əməyin rolunu şərh etmişdir. **"Gülüstani-İrəm", "Təhrib-al-Əxlaqi", "Nəsihətnamə"** və digər əsərlərində əməyə, elmə məhəbbət hissi təbliğ etmişdir. O, **"Ümumi coğrafiya"** əsərində Azərbaycanın tərəqqisinin əsas yolunu xalq kütləsinin maariflənməsi və iqtisadi yüksəlişində görürdü.

XIX əsrin ortalarında Azərbaycan raznoçin ziyalılarının (zadəganlara mənsub olmayan, qeyri-siniflərdən çıxmış ziyalıların) sosial-iqtisadi fikirləri geniş yayılır. Raznoçinlər bütün sosial bəlaların səbəbi kimi feodal quruluşunun iqtisadi və mənəvi dayaqlarını məhv etmək məsələsini qoyur və xalqı buna çağırırdılar. Azərbaycan iqtisadi fikrinin bu cərəyanının tanınmış nümayəndələri sırasına **Mirzə Şəfi Vazeh (1794-1852), S.Ə.Şirvani** (1835-1888), **H.Zərdabi** (1837-1907), **N.Vəzirov** (1854-1926) daxildir. Azərbaycan iqtisadi fikir tarixinə vətən sənayesinin inkişaf etdirilməsi, kooperativ biliklər və kənd təsərrüfatı banklarının təşkili, istehsal və stimullaşdırma metodlarının yaxşılaşdırılması, işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi ideyaları ilk dəfə olaraq bu mütəfəkkirlər tərəfindən gətirilmişdir.

**H.Zərdabinin** başçılığı ilə nəşr olunan iqtisadi təmayüllü **"Əkinçi"** (1875-1877) qəzetinin Azərbaycan iqtisad elminin terminoloji əsasının yaradılmasında və bu elmin inkişafında misilsiz əhəmiyyəti olmuşdur. Azərbaycan ədəbiyyatında "siyasi iqtisad" anlayışı və onun şərhinə ilk dəfə olaraq məhz bu qəzetin səhifələrində rast gəlirik. "Əkinçi"də istehsala müasir əmək alətlərinin, istehsal vasitələrinin tətbiqinin əhəmiyyəti, istehsalın təkmilləşdirilməsi, elmi-texniki nailiyyətlərin isteh-

sala tətbiqinin zəruriliyi haqqında əhəmiyyətli fikirlər söyləmişdir. O, fiziokratların ideyalarını müdafiə edirdi, kənd təsərrüfatına məhsuldar qüvvələrin inkişafı və onun istehsalının təşkili metodları və formaları məsələlərini nəzərdən keçirmiş, vaxtı sərvət hesab etmiş, qənaətin cəmiyyətin inkişafında böyük rol oynadığını qeyd etmişdir.

**Q.B.Zakirin (1884-1897)** yaradıcılığına yerli feodalların özbaşınalığına, çar çinovniklərinin zorakılığına, işsizliyə, riyakarlığa nifrət bəsləmək xarakterikdir. O, sosial-iqtisadi ədalətsizliyə qarşı kəskin çıxış edir, kəndli kütləsinin sinfi mənafeyi olan sosial satirasının ideya istiqamətini müəyyən edir və sosial yoxsulluğun kökünü aydınlaşdırmağa çalışırdı.

XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində Azərbaycanın demokratik iqtisadi fikirli nümayəndələri sırasına **Mirzə Fətəli Axundov** (1812-1878), **Mirzə Ələkbər Sabir** (1862-1911), **Cəlil Məmmədquluzadə** (1866-1932), **Üzeyir Hacıbəyli** (1885-1948) və digər görkəmli mütəfəkkirlər daxildir. **M.F.Axundov** dövrünün çox görkəmli filosofu, ictimai xadimi və mütəfəkkiri idi. Əsərlərində iqtisadi məsələlərə geniş yer vermişdir. Xalqın inkişafı üçün zəruri olan müxtəlif tələbatların ödənilməsi məsələlərinə həsr etdiyi "İnsan tələbatları haqqında" məqaləsində tələbatların növlərini göstərmiş, tələbatların ödənilməsini məhsuldar qüvvələrin inkişafı ilə əlaqələndirilmişdir. **M.F.Axundov** maddi dəyərlərin yaranmasında xalq kütlələrinin rolunu qeyd etmiş, sərvətin bölgüsünə xüsusi diqqət yetirmiş,  əməyi sərvətin mənbəyi hesab etmişdi.

**M.Ə.Sabirin** dünyagörüşünün formalaşması XIX əsrin əvvəllərində Azərbaycanda baş verən mürəkkəb sosial-iqtisadi şəraitlə, kapitalist münasibətlərinin sürətli inkişafı ilə əlaqədardır. Onun sosial-iqtisadi baxışlarının mənbəyi mütərəqqi Azərbaycan və şərq ədəbiyyatı, qabaqcıl rus ictimai fikri olmuşdur. Onun əsərlərində pul fetişizmi, ticarət mənfəəti, sələm kapitalı, fəhlə və kəndlilərin ağır vəziyyəti və s. məsələlər mühüm yer tutur. O, dövrün sosial-iqtisadi məsələlərini, xüsusən

muzdlu əməyin mahiyyətini, istehsalçıların istehsal vasitələrindən məhrum olmasını, varlı və yoxsullar arasında ziddiyyəti satira dili ilə kəskin tənqid etmiş və onların mahiyyətini, səbəblərini də göstərmişdir.

**C.Məmmədquluzadə** Azərbaycan demokratizminin ideya mərkəzi olan "Molla Nəsrəddin" jurnalının əsasını qoymuş, bu jurnalın redaktoru olmuşdur. C.Məmmədquluzadənin rəhbərliyi altında jurnal sosial tərəqqi, siyasi və iqtisadi müstəqillik, demokratik respublika uğrunda ardıcıl mübarizə aparmışdır.

Azərbaycanın demokratik sosial-iqtisadi fikrinin digər görkəmli nümayəndəsi, məşhur bəstəkar **Ü.Hacıbəyli** də imperializmin müstəmləkə siyasətinin irticaçı, təcavüzkar xarakterini açıb göstərirdi. Ü.Hacıbəylinin bütün ictimai fəaliyyəti millətinin tərəqqisinə mane olan hər nə varsa, hamısını dəf etmək kimi bir müqəddəs məqsəd üzərində qurulmuşdur.

*Azərbaycan xalqının iqtisadi fikir tarixində Azərbaycan Demokratik Respublikasının (28 may 1918-ci ildən 27 aprel 1920-ci ilədək) iqtisadi platforması xüsusi əhəmiyyət kəsb edir.*

*XX əsrin əvvəllərində Azərbaycan iqtisadi fikir tarixində marksizm mərhələsi mühüm yer tutur.* Azərbaycanda marksizmin iqtisadi ideyalarının yaranmasının əsas mənbəyi **K.Marks (1818-1883)** və **F. Engels (1820-1895)** olmuşdur.

XX əsrdə yaradılmış tədris ocaqları, tədqiqat mərkəzləri, iqtisadi təmayüllü çap orqanlarının geniş şəbəkəsi Azərbaycanın iqtisadi fikir tarixinin inkişafını sürətləndirmiş və daha da zənginləşdirmişdir. Azərbaycanda iqtisadi fikrin yayılmasında **H.Dadaşov, Q.Sultanov, Ə.Fərəcov, M.Ağayev, Ə.Qasımov, T.Vəliyev, A.Həsənov, M.X.Meybullayev, F.Nəsrullayev, Z.Səmədzadə, T.Quliyev** və başqalarının böyük rolu olmuşdur. Azərbaycan iqtisadçıları tərəfindən sahə və sahələrarası iqtisad elmlərinin yaranması, məhsuldar qüvvələrin inkişafı, kənd təsərrüfatı, neft iqtisadiyyatı, nəqliyyat, iqtisadi əlaqələr, təkrar istehsala dair tədqiqatlar aparılmış, məqalələr, kitablar

dərc olunmuşdur. Görkəmli alim **Ə.Sumbatzadənin** "XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı" adlı əsərində kənd təsərrüfatının bütün sahələrində əmtəə istehsalı və muzdlu əməyin tətbiq olunması ilə kapitalizmin mövcud olması fikri çox əhəmiyyətlidir, həmçinin Azərbaycan xalqını köçəri adlandıranlara cavab olaraq bunu Azərbaycanın təbii-coğrafi şəraiti əsasında izah etmişdir.

XX əsrin 50-60-cı illərində Azərbaycanın iqtisadçıları arasında iqtisadi qanunların tədqiqi ilə bağlı araşdırmalar aparılmışdır ki, bunlara da **B.Axundovun** "Tələbatın artması qanunu"nu aid edə bilərik.

Müasir dövrdə (1990-2018) Azərbaycanın iqtisadi fikirlərindəki dəyişiklik yenidən milli müstəqilliyin qazanması ilə onun ictimai-siyasi həyatında baş verən yeniləşmə, keçid mərhələsi ilə xarakterik olmuşdur. Bu dövrdə başlıca məsələləri iqtisad elminin diferensiyasiyası yeni iqtisadi sistemin, bazar sisteminin formalaşması üçün iqtisadi islahatların həyata keçirilməsi, milli və azad iqtisadiyyatın formalaşması, ölkə iqtisadiyyatının strukturundakı dəyişikliklər, istehsalın səmərəliliyi, əmək ehtiyatları, demoqrafiya, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, makroiqtisadi sabitlik yeni idarəetmə sisteminin yaradılması beynəlxalq iqtisadi siyasətin yenidən qurulması, sosial proseslərin tənzimlənməsi, qeyri-istehsal sahələrinin inkişafı və s. məsələlər aktual olmuşdur.

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1. N.Tusi "İctimaiyyət"i necə izah edirdi?**

A)) İctimai əməklə birləşən və istehsalı ən kamil təşkil edən insanlar münasibəti sistemidir

B) Qəbilələr toplusudur

C) Ayrı-ayrı ailələr qrupudur

D) Şəhər təsərrüfatıdır

E) Kənd təsərrüfatıdır
**2. İqtisad elminin predmetini xarakterizə edən təriflərdən N.Tusiyə aid olanını seçin:**
A)) İctimai əməklə birləşən və istehsalı ən kamil təşkil edən insanlar münasibəti sistemidir
B) Ayrı-ayrı iqtisadi subyektlərin davranışını öyrənən elmdir
C) İqtisadiyyatın vahid sistem kimi fəaliyyətini öyrənən elmdir
D) İstehsal münasibətlərini və onların inkişaf qanunauyğunluqlarını öyrənən elmdir
E) Dövlətdən asılı olan xalqın maddi rifahını öyrənən elmdir
**3. Cəmiyyətin iqtisadi quruluşu, iqtisadi münasibətləri haqqında mükəmməl nəzəriyyə yaradan ilk Şərq mütəfəkkiri kim olmuşdur?**
A) N.Gəncəvi
B) N.Tusi
C)) Əl Fərabi
D) İbn Sina
E) İbn Xəldun
**4. Cəmiyyətin iqtisadi quruluşu, iqtisadi münasibətləri haqqında mükəmməl nəzəriyyə yaradan ilk Azərbaycan mütəfəkkiri kim olmuşdur?**
A) Ş.İ.Xətai
B)) N.Tusi
C) Əl Fərabi
D) İbn Sina
E) İbn Xəldun
**5. Azərbaycanda ilkin iqtisadi fikir və təsəvvürlər nədə öz əksini tapmışdır:**
A) "Əxlaqi-Nasir"də
B)) "Avesta"da
C) "Kitabi-Dədə Qorqud"da
D) "Müqəddimə"də
E) "Siyasətnamə"də
**6. Azərbaycanın tarix, sosial, iqtisadi, siyasi və mənəvi həyatını öyrənən mənbə:**
A) "Əxlaqi-Nasir"
B)) "Avesta"
C) "Kitabi-Dədə Qorqud"
D) "Müqəddimə"
E) "Siyasətnamə"
**7. “Müqəddimə” əsərinin müəllifi kimdir?**
A) Fəzlullah Rəşid-əd-Din
D)) İbn- Xəldun

B) İ. Nəsimi E) Həsənoğlu
C) Nizam-al-Mülkin

**8. "Mətləül-Etiqad"əsərinin müəllifi kimdir?**

A)) M.Fizuli D) İbn- Xəldun
B) İ. Nəsimi E) N. Gəncəvi
C) Nizam-al-Mülk

**9. H.Zərdabinin fikrinə görə:**

A)) Tələbin səviyyəsi əmtəələrin qiymət səviyyəsini müəyyən edir
B) Əmtəələrin qiymət səviyyəsi tələbin səviyyəsini müəyyən edir
C) Təklifin səviyyəsi tələbin səviyyəsini müəyyən edir
D) Tələb və təklif əmtəələrin qiymət səviyyəsini müəyyən edir
E) Əmtəələrin qiymət səviyyəsi əhalinin yaşayış səviyyəsini müəyyən edir

**10. N.Tusi iqtisad elminin hansı metodlarından istifadə etmişdir:**

A) Elmi abstraksiya və induktiv təfəkkür metodu
B) Müqayisəli təhlil
C) Elmi - abstraksiya və deduktiv təfəkkür metodu
D) Tarixi-məntiqi metod
E)) Bunların hamısı

**11. N.Tusi iqtisad elminin hansı metodlarından istifadə etməmişdir:**

A) Elmi abstraksiya və induktiv təfəkkür metodu
B) Müqayisəli təhlil
C) Elmi abstraksiya və deduktiv təfəkkür metodu
D)) İqtisadi -riyazi üsullar
E) Tarixi-məntiqi metod

**12. Aşağıdakı fikirlərdən hansı N.Tusiyə aiddir:**

A)) Elm əməlsiz, əməl isə elmsiz mümkün deyildir
B) İctimai qanunların özü “təbii qaydalar” qanunlardır
C) Pul qeyri-faydalı sərvətdir

D) Malik olduğundan razı olmayanı dövlətli hesab etmək olmaz
E) Görünməmiş mənfəət vicdanın itirilməsinə gətirib çıxarır

**13. "Siyasətnamə" əsərinin müəllifi kimdir?**
A) Fəzullah Rəşid-əd-Din
B) İ.Nəsimi
C)) Nizam-al-Mülkin
D) İbn- Xəldun
E) Həsənoğlu

**14. " Elm əməlsiz, əməl isə elmsiz mümkün deyil"- fikrinin müəllifi kimdir?**
A)) N.Tusi
B) Aristotel
C) İbn Sina
D) İbn -Xəldun
E) N.Gəncəvi

**15. Aşağıdakı fikirlərdən hansı Demokritə aiddir:**
A) Elm əməlsiz, əməl isə elmsiz mümkün deyildir
B) İctimai qanunların özü "təbii qaydalar" qanunlardır
C) Pul qeyri-faydalı sərvətdir
D) Malik olduğundan razı olmayanı dövlətli hesab etmək olmaz
E)) Görünməmiş mənfəət vicdanın itirilməsinə gətirib çıxarır

**16. Aşağıdakı əsərlərdən hansı Nizam-al Mülkə məxsusdur:**
A)) "Siyasətnamə"
B) "Müqəddimə"
C) "Maliyyə haqqında traktat"
D) "Qanunlar"
E) "Siyasət"

**17. Aşağıdakı əsərlərdən hansı N.Tusiyə məxsusdur:**
A) "Siyasətnamə"
B) "Müqəddimə"
C)) "Maliyyə haqqında traktat"
D) "Qanunlar"
E) "Siyasət"

**18. XIX əsrin ikinci yarısında Azərbaycanın iqtisadi fikrinin formalaşmasında mühüm əhəmiyyət kəsb edən cərəyan hansı olmuşdur?**
A) Merkantilizm
B) Fiziokratizm
C) Rasionalizm
D))Marksizm
E) İdealizm

**19. XIX əsrin ikinci yarısında Azərbaycanın iqtisadi fikrinin formalaşmasında mühüm əhəmiyyət kəsb etməyən cərəyan hansı olmuşdur?**
A) Merkantilizm
B) Fiziokratizm
C) Rasionalizm
D) İdealizm
E)) Bunların hamısı
**20. Avestanın əsas müddəalarından biri yanlışdır:**
A) Həyatın xeyriyyəçilik və ədalət qanunları əsasında qurulması xüsusi yer tutur
B) Əkinçilik və suvarma işlərinin köməyi ilə maddi istehsalın inkişafı xüsusi yer tutur
C) Dövrün məhsuldar qüvvələri və istehsal münasibətlərinin vəziyyəti əks olunmuşdur
D) Torpağa məhəbbət, onun münbitliyinin artırılmasına, məhsuldarlığın yüksəldilməsinə böyük əhəmiyyət verilməsi
E)) Orada ekvivalent mal mübadiləsi, pul tədavülü, mübadilə, rəqabət və s. ifadələr şərh edilir
**21. Avestanın əsas müddəalarından biri yanlışdır:**
A) Həyatın xeyriyyəçilik və ədalət qanunları əsasında qurulması xüsusi yer tutur
B) Əkinçilik və suvarma işlərinin köməyi ilə maddi istehsalın inkişafı xüsusi yer tutur
C)Dövrün məhsuldar qüvvələri və istehsal münasibətlərinin vəziyyəti əks olunmuşdur
D)Torpağa məhəbbət, onun münbitliyinin artırılmasına, məhsuldarlığın yüksəldilməsinə böyük əhəmiyyət verilməsi
E)) Bütün insanlar üçün mülkiyyət hüququnun yaradılması
**22. "Zərdüşlüyün qanunlar" toplusuna aid olan fikri seçin:**
A) Həyatın xeyriyyəçilik və ədalət qanunları əsasında qurulması xüsusi yer tutur
B) Əkinçilik və suvarma işlərinin köməyi ilə maddi istehsalın inkişafı xüsusi yer tutur
C) Dövrün məhsuldar qüvvələri və istehsal münasibətlərinin vəziyyəti əks olunmuşdur

D) Torpağa məhəbbət, onun münbütlüyünün artırılmasına, məhsuldarlığın yüksəldilməsinə böyük əhəmiyyət verilməsi
E)) Bunların hamısı
**23. Aşağıdakılardan hansı Nizami Gəncəvinin iqtisadi baxışlarından biridir:**
A) Onun əsərlərində cəmiyyətin inkişafında ticarətin mütərəqqi rolu, tacirlərin və sələmçilərin acgözlüyü, hərisliyi öz əksini tapmışdı
B) Onun əsərlərində pul, onun rolu, mübadilə prosesində ədalətin gözlənilməsi xüsusi rol oynamışdı
C) Onun əsərlərində əməyin ictimai funksiyası öz əksini tapmışdı
D) Onun əsərlərində təbiəti, cəmiyyəti və insanı öyrənməyi başlıca vəzifə hesab etməklə insanın insanla, insanın cəmiyyətlə, cəmiyyətin isə təbiətlə ahəngdar inkişafının mümkün olması ideyası irəli sürülmüşdü
E)) Bunların hamısı
**24. Nizami Gəncəvinin "Xəmsə"sində öz əksini tapmış fikir:**
A) Feodal cəmiyyətinin nöqsanlarının göstərilməsi, mərkəzləşdirilmiş dövləti ideal siyasi quruluş hesab etməsi
B)) Cəmiyyətin inkişafında ticarətin mütərəqqi rolu, tacirlərin və sələmçilərin acgözlüyünün, hərisliyinin öz əksini tapması
C) Pul, onun rolu, mübadilə prosesində ədalətin gözlənilməsi
D) Əməyin ictimai funksiyası tapması
E) Maddi dəyərlər yaradan insanların bütün fəaliyyətinin sərvət hesab etməsi
**25. Aşağıdakı fikirlərdən hansı N.Tusiyə aiddir:**
A) O, ticarət azadlığını müdafiə etmişdir
B))Dövlət büdcəsinin aktiv balansı ideyasını inkişaf etdirmişdir
C) Qeyri-bərabərlik təbiətindən irəli gəlir və onu aradan qaldırmaq mümkün deyil
D) İqtisadi inkişafın yolu natural təsərrüfatdır
E) Cəmiyyətdə sərvət yalnız pul formasında çıxış edir

**26. N.Tusinin iqtisad elminə gətirdiyi yenilik:**
A) O, ticarət azadlığını müdafiə etmişdir
B)) O, ictimai əmək bölgüsü və məhsul istehsalı arasında əlaqəni əsaslandırmağa çalışmışdır
C) Qeyri-bərabərlik təbiətindən irəli gəlir və onu aradan qaldırmaq mümkün deyil
D) İqtisadi inkişafın yolu natural təsərrüfatdır
E) Cəmiyyətdə sərvət yalnız pul formasında çıxış edir
**27. Aşağıdakı fikirlərdən hansı M.Fizuliyə aiddir:**
A)) O, dövlət başçısının şəxsiyyətinə xüsusi diqqət yetirir. Onun idealı ədalətli, mərhəmətli, vətəndaşlara qayğı keyfiyyətlərinə malik hökumətdir
B) O, sosial ədalətsizliyə, onunla əlaqədar fikirlərə əsaslanan feodal rejiminə qarşı üsyan edirdi
C) O, feodal quruluşunu tənqid etsə də onun dağılmasının əleyhinə idi
D) O, elmi biliyin, təhsilin cəmiyyətin ən mühüm sərvəti, əmək bölgüsünün isə sərvətin artmasının əsas amili hesab edirdi
E) O, sərvət haqqında məsələni qoyur, lakin onu iqtisadi deyil, fəlsəfi, etik baxışdan nəzərdən keçirir
**28. Aşağıdakı fikirlərdən hansı İ.Nəsimiyə aiddir:**
A) O, dövlət başçısının şəxsiyyətinə xüsusi diqqət yetirir. Onun idealı ədalətli, mərhəmətli, vətəndaşlara qayğı keyfiyyətlərinə malik hökumətdir
B) O, sosial ədalətsizliyə, onunla əlaqədar fikirlərə əsaslanan feodal rejiminə qarşı üsyan edirdi
C)) O, feodal quruluşunu tənqid etsə də onun dağılmasının əleyhinə idi
D) O, elmi biliyin, təhsilin cəmiyyətin ən mühüm sərvəti, əmək bölgüsünün isə sərvətin artmasının əsas amili hesab edirdi
E) O, sərvət haqqında məsələni qoyur, lakin onu iqtisadi deyil, fəlsəfi, etik baxışdan nəzərdən keçirir
**29. Aşağıdakı fikirlərdən hansı Nizam-al Mülkə aiddir:**
A) Ölkə daxilində sosial münaqişələrin ləğvi

B) Vergi islahatları yolu ilə siniflərin mənafelərinin balanslaşdırılması
C) Ticarət yollarının təhlükəsizliyinin təmin edilməsi
D) Ölkə daxilində və xaricində ticarətin inkişafı üçün şəraitin yaradılması
E))Mərkəzləşdirilmiş dövləti ideal siyasi quruluş hesab etməsi

**30. Səfəvi feodal dövlətinin iqtisadi siyasətdə öz ifadəsini tapmış fikir:**

A) Ölkə daxilində sosial münaqişələrin ləğvi
B) Vergi islahatları yolu ilə siniflərin mənafelərinin balanslaşdırılması
C) Ticarət yollarının təhlükəsizliyinin təmin edilməsi
D) Ölkə daxilində və xaricində ticarətin inkişafı üçün şəraitin yaradılması
E)) Bunların hamısı

**31. Azərbaycan xalqının iqtisadi fikirləri haqqında ilk məlumatı hansı mənbədən alırıq?**

A) Nağıllardan
B)) "Avesta"dan
C) Məzdəkizmdən
D) "Qurani-Kərim"dən
E) Xürrəmilər hərəkatından

**32. N.Tusi iqtisad elminə hansı tərifi vermişdir:**

A) Məhsuldar qüvvələrlə istehsal münasibətlərinin vəhdətini öyrənən elm
B)) İstehsalı ən kamil təşkil edən insanlar münasibəti sistemini öyrənən elm
C) Məhdud resurslar şəraitində insanların davranışını öyrənən elm
D) İnsanların hüdudsuz tələbatını öyrənən elm
E) Bunların hamısı

**33. Aşağıdakılardan hansı Nizam al-Mülkin iqtisadi baxışlarından biridir:**

A)) Onun əsərlərində feodal cəmiyyətinin nöqsanları göstərilir, mərkəzləşdirilmiş dövlət ideal siyasi quruluş hesab edilirdi

B) Onun əsərlərində cəmiyyətin inkişafında ticarətin mütərəqqi rolu, tacirlərin və sələmçilərin acgözlüyü, hərisliyi öz əksini tapmışdı
C) Onun əsərlərində pul, onun rolu, mübadilə prosesində ədalətin gözlənilməsi xüsusi rol oynamışdı
D) Onun əsərlərində əməyin ictimai funksiyası öz əksini tapmışdı
E) Onun əsərlərində təbiəti, cəmiyyəti və insanı öyrənməyi başlıca vəzifə hesab etməklə insanın insanla, insanın cəmiyyətlə, cəmiyyətin isə təbiətlə ahəngdar inkişafının mümkün olması ideyası irəli sürülmüşdü

**34. Aşağıdakı fikirlərdən hansı N.Tusiyə aiddir:**
A) O, ticarət azadlığını müdafiə etmişdir
B)) O, pulun dəyəri ilə əmtəələrin dəyəri arasındakı əlaqəni düzgün dərk etmişdir
C) Qeyri-bərabərlik təbiətindən irəli gəlir və onu aradan qaldırmaq mümkün deyil
D) İqtisadi inkişafın yolu natural təsərrüfatdır
E) Cəmiyyətdə sərvət yalnız pul formasında çıxış edir

**35. Aşağıdakı fikirlərdən hansı N.Gəncəviyə aiddir:**
A) O, dövlət başçısının şəxsiyyətinə xüsusi diqqət yetirir. Onun idealı ədalətli, mərhəmətli, vətəndaşlara qayğı keyfiyyətlərinə malik hökumətdir
B) O, sosial ədalətsizliyə, onunla əlaqədar fikirlərə əsaslanan feodal rejiminə qarşı üsyan edirdi
C) O, feodal quruluşunu tənqid etsə də onun dağılmasının əleyhinə idi
D)) O, elmi biliyin, təhsilin cəmiyyətin ən mühüm sərvəti, əmək bölgüsünün isə sərvətin artmasının əsas amili hesab edirdi
E) O, sərvət haqqında məsələni qoyur, lakin onu iqtisadi deyil, fəlsəfi, etik baxışdan nəzərdən keçirir

**36. Aşağıdakı fikirlərdən hansı Ş.İ.Xətaiyə aid deyil:**
A) Ölkə daxilində sosial münaqişələrin ləğvi
B) Vergi islahatları yolu ilə siniflərin mənafelərinin balanslaşdırılması

C) Ticarət yollarının təhlükəsizliyinin təmin edilməsi
D) Ölkə daxilində və xaricində ticarətin inkişafı üçün şəraitin yaradılması
E)) Onun əsərlərində dövlət idarəsi məsələsi nəzərdən keçirilir və belə nəticəyə gəlir ki, hər bir istehsalçı öz qabiliyyətinə görə müəyyən növ iş üzrə ixtisaslaşmalıdır

**37. Orta əsrlərdə hansı iqtisadçılar iqtisadi məsələlərə aid əsər yazmışdır:**

A) N.Gəncəvi, N.Tusi
B) N.Tusi, M.Fizuli
C) İbn Xəldun, İ.Nəsimi
D) İbn Xəldun, N.Vəzirov
E)) İbn Xəldun, N.Tusi

**38. Orta əsrlərdə hansı iqtisadçılar iqtisadi məsələlərə aid əsər yazmışdır:**

A) N.Gəncəvi, N.Tusi
B) N.Tusi, M.Fizuli
C) İbn Xəldun, Ş.İ.Xətai
D) İbn Xəldun, İ.Nəsimi
E)) Nizam-al Mülk, N.Tusi

**39. Aşağıdakı iqtisadçı alimlərdən hansı Azərbaycan iqtisadi fikir tarixini tədqiq etmişdir?**

A)) T.Vəliyev, A.Həsənov
B) Z.Səmədzadə, Z.Bünyadov
C) A.Bakıxanov, H.Zərdabi
D) M.Axundov, N.Vəzirov
E) Bunların hamısı

**40. Azərbaycanın kapitalizm formasiyasına keçməməsi fikrinin qeyri-elmi olmasını tarixi faktlarla əsaslandıran alim:**

A) T.Vəliyev
B) A.Bakıxanov
C) M.Axundov
D) Z.Səmədzadə
E)) Ə.Sumbatzadə

# MÖVZU 4. QƏRBİ AVROPADA İQTİSADİ TƏLİMLƏRİN MEYDANA GƏLMƏSİ. MERKANTİLİZM

**1. Qərbi Avropada iqtisadi təlimlərin meydana gəlməsi**

**2. Merkantilizmin yaranması və mahiyyəti**

**3. Merkantilizmin inkişafında iki mərhələ: monetar və "ticarət balansı" nəzəriyyəsi**

**Foma Akvinski** (1225 - 1274) orta əsr dövründə Qərbi Avropanın ən məşhur dini və elmi xadimlərindən biri idi. İtaliyada rahiblik etmiş bu şəxs kilsənin qanunlarına əsaslanaraq yaşadığı dövrə uyğun sosial-iqtisadi münasibətlər haqqında yeni fikirlər irəli sürmüşdü. Onun fikirlərinin əksəriyyəti ilkin kanon məktəbinin banisi olan müqəddəs **Avqustin Blajenin** (353-430) ideyalarına əsaslanırdı. Bu ideyaların mahiyyətində oxşar cəhət kimi cəmiyyətin sosial-iqtisadi quruluşunun əsasında dini-etik münasibətlərin durduğu qeyd olunurdu. Bu prinsiplə cəmiyyətin təsərrüfat həyatında yüz illiklər boyu qaydalara əsaslanan "ədalətli qiymət" ideyası üstünlük təşkil edirdi. Ədalətli qiymət ideyasında mübadilənin ekvivalent və proporsional şəkildə aparılması tövsiyə edilirdi. F.Akvinski eyni zamanda dövrünün tələblərindan irəli gələn qeyri-bərabərliklərin aradan qaldırılması üçün yeni qaydaların tətbiq olmasını göstərirdi. O, özünün "İlahiyyət məcmuəsi" əsərində sərvətin təbii və süni olmasını qeyd etmiş, təsərrüfatçılıq həyatının pul əldə edilməsi naminə aparılmasına mənfi münasibət bəsləmiş, pul, pul törədə bilməz fikrini əsas götürmüşdür. F.Akvinski "pul, pul törədə bilməz" fikrində Aristotellə razılaşmış, lakin Aristotelin fikrinə nisbətən irəli getmiş və pulun artmasını əmtəə-pul münasibətlərində görmüşdü. Gəlir əldə etmək naminə ticarət etməyi F.Akvinski, ümumiyyətlə abırsızlıq hesab edirdi. Lakin bununla yanaşı o göstərirdi ki, əgər ticarətdən

əldə olunan gəlir, ticarətçilərin yaşaması üçün yegənə mənbədirsə, bu halda onu məqbul hesab etmək olar və ya əldə olunan pul halal məqsədlər üçün xərclənərsə (kasıblara yardım etmək, dini və digər ictimai işlərin görülməsinə yönəldilirsə) bu halda o, qənaətbəxş hesab edilə bilər. Ticarət gəlirinə tacir əgər malı təkrar satmazdan əvvəl yaxşılaşdırarsa, ona əmək haqqının verilməsi kimi baxılmalıdır. F.Akvinski faizə dair baxışlarında prinsipial mövqedə duraraq göstərirdi ki, istifadə üçün borc verilən puldan haqq almaq olmaz. Çünki pul mübadilə üçün yaradılmışdır. Lakin kreditor pulu borc verməklə, həmin puldan istifadə etmə mənfəətindən özünü məhrum edir. Kreditor həmin pul vasitəsilə ev tikdirə, münbit torpaq sahəsi əldə edə bilərdi. Bundan başqa borc alan pulun qaytarılmasını ləngidərsə, borc verənə böyük ziyan dəyə bilər. Digər tərəfdən bu halda borc götürən əldə etdiyi gəlirdən kreditora müəyyən məbləğ verməlidir. Bu da müəyyən mənada faiz verməni əsaslandırır. F.Akvinskinin iqtisadi ideyalarında əmək bölgüsü, mübadilə, ədalətli qiymət, pul, ticarət mənfəəti və sələm faizi ilə bağlı iqtisadi fikirlər mövcud idi. Bu fikirlər ilkin kanonist fikirlərdən fərqlənirdi. Bu fərqləri aşağıdakı şəkildə qeyd etmək olar.

İlkin kanonistlərə görə əməyin əqli və fiziki növləri bərabər səviyyəlidir. Ona görə də bu cəhətlər insanların cəmiyyətdə tutduqları mövqelərinə təsir etməlidir. Lakin Akvinski qeyd edirdi ki, insanların peşəsinə görə bölgüsü ilahi hökmdən doğur.

**Sərvət** haqqında ilkin kanonistlər qeyd edirdilər ki, insan əməyi ilə qızıl və gümüş daxil olmaqla maddi nemətlər sərvət formasında yaradılır. Qızıl və gümüşün natural formada yığılması (yəni "süni sərvət") günah hesab olunur. Akvinski qeyd edirdi ki, qızıl və gümüş mülkiyyətin artırılan hissəsidir və sərvətin dəyişməz mənbəyidir.

**Mübadilə** - ilə əlaqədar ilkin kanonistlər göstərirdilər ki, mübadilə proporsional olaraq həyata keçirilir və insanların iradəsinin sərbəst nəticəsidir. Lakin Akvinski qeyd edirdi ki,

mübadilə subyektiv proses kimi hər şəraitdə bərabər faydanın əldə olunmasını təmin etmir. Çünki çox hallarda birisinin ziyan görməsinə səbəb olur.

**Ədalətli qiymətlə** - əlaqədar ilkin kanonistlər göstərirdilər ki, əmtəəyə qiymətin qoyulması, onun istehsal prosesində sərf olunan əməkdən və material məsrəflərindən asılı olaraq müəyyən edilməlidir. Çünki belə şəraitdə ədalətli qiymət əmələ gəlir. Lakin F.Akvinski məsrəf prinsipi ilə müəyyən edilən "ədalətli qiymət"i düzgün hesab etmirdi. Çünki hər bir satıcı öz məhsulunu elə qiymətə satmağa cəhd göstərəcəkdir ki, həmin pulun miqdarı cəmiyyətdəki mövqeyinə ziyan toxundurmasın.

**Pulla əlaqədar** olaraq ilkin kanonistlər göstərirdilər ki, bu insanların təbii kriteriyası bazarda mübadilə əməliyyatlarının rahat və sürətli həyata keçirilməsi üçün mövcuddur. Eyni zamanda bu monentlərin daxili qiymətindən irəli gəlir. F.Akvinski qeyd edirdi ki, pulun qiymətliliyi daxili bazarda metalın çəkisindən asılı deyil, dövlətin müəyyən etdiyi səviyyə ilə müəyyənləşdirilməlidir.

**Ticarət mənfəəti** və **sələm faizi** haqqında ilkin kanonistlər qeyd edirdilər ki, bu iri ticarət və borc əməliyyatlarından əldə olunduğuna görə əsas məqsədə çevrilir, ona görə də allaha xoş gəlməz hal kimi və günah əməl kimi nəzərdə tutulmalıdır. Lakin Akvinski qeyd edirdi ki, tacirlərin və sələm verənlərin iri həcmli gəlirlərini o vaxt qənaətbəxş hesab etmək olar ki, onlar əmək sərf etmək yolu ilə, eləcə də nəqliyyat və digər xərclərlə həm də müəyyən risklə əlaqədar olur. Belə fəaliyyət səxavətli hesab olunmalıdır.

**Merkantilizm (ing. merkantilist)** - ilkin kapital yığımı dövründə yeni yaranmaqda olan ticarət - sənaye burjuaziyasının iqtisadi nəzəriyyəsini və iqtisadi siyasətini özündə əks etdirən ilk siyasi iqtisad məktəbidir.

Merkantilizm XV əsrdə yaranmış və ayrı-ayrı elementləri XVIII əsrdə təzahür etmişdir. A.Smit özünün "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı əsas əsərində

(1776) merkantilizmi tənqid etmişdir. Merkantilizm, əsasən, Qərbi Avropa ölkələrində - İngiltərə, Fransa, İspaniya, İtaliya və Portuqaliyada geniş yayılmışdır. Merkantilizmin ən görkəmli nümayəndələri və onların əsas əsərləri aşağıdakılardır: İngiltərədə - **Uilyam Stafford**, "Həmvətənlərimizin bəzi şikayətlərinin tənqidi şərhi" (1581); **Tomas Man**, "İngiltərənin xarici ticarətdə sərvəti və ya bizim xarici ticarət balansımız sərvətimizin tənzimləyicisidir" (1664); **Ceyms Stüart**, "Siyasi iqtisadın əsasları barədə tədqiqat" (1767); İtaliyada **Antonio Serra**, "Qiymətli metal mədənlərindən məhrum olan kralların qızıl və gümüşlə təchiz edilməsi vasitələri barədə qısa traktat" (1613); **Fransada Antuan de Monkretyen**, "Krala və kraliçaya həsr edilmiş siyasi iqtisad traktatı" (1615), "Siyasi iqtisad" termininə ilk dəfə bu əsərdə rast gəlmək olar); **Jan Batist Kolber**, "Məktublar, sənədlər və xatirələr", 8 cilddə (1861 - 1882).

Merkanlizm nəzəriyyəsinin bəzi elementlərindən I Pyotrun müasiri olmuş rus iqtisadçısı **İ.T.Posoşkovun** "Xəsislik və varlılıq haqqında kitab" əsərində istifadə olunmuşdur.

Hər cür sahibkarlığın başlanğıcını, çıxış nöqtəsini pul təşkil edir. Bu pul da, sahibkar onun vasitəsilə fəhlə tutduqda, emal üçün və ya yenidən satmaq üçün əmtəə satın aldıqda pul kapitalına çevrilir. Bu fakt merkantilizmin əsasında durur. Ölkəyə pulun – qiymətli metalın cəlb edilməsi merkantilizmin məğzini və məqsədini təşkil etmişdir.[9]

Erkən merkantilizm dövründə bu tədbirlər primitiv idi. Xarici ölkə tacirlərini mövcud ölkənin hüdudları daxilində onların əmtəələrinin satılmasından alınan bütün qazancı yerindəcə xərcləməyə məcbur edirdilər və hətta bunun üçün xüsusi nəzarətçilər, çox vaxt da "gizli nəzarətçilər” təyin edirdilər. Bir sözlə, qızılın və gümüşün xaricə daşınması qadağan edilirdi.

Sonralar – XVII və XVIII əsrlərdə Avropa dövlətləri daha çevik və əməli siyasətə keçdilər. Ölkə başçıları və onların

[9]Bax: A.V.Anikin. Elmin gəncliyi. Bakı: Gənclik, 1987, səh. 38.

müşavirləri başa düşmüşdülər ki, ölkəyə pulu cəlb etməyin ən etibarlı üsulu ixracat mallarının istehsalını inkişaf etdirmək və ixracatın idxal üzərində üstünlük təşkil etməsinə nail olmaqdır. Buna görə də dövlət hakimiyyəti sənaye istehsalını geniş tətbiq etməyə, manufakturalara köməklik göstərməyə başladılar.

Merkantilizmin siyasətindəki bu iki mərhələ onun iqtisadi nəzəriyyəsinin də inkişafındakı iki mərhələyə uyğun gəlir. Həmçinin monetar sistem adlanan erkən merkantilizm pulu ölkədə saxlamaq üçün yalnız inzibati tədbirlər işlənib hazırlayırdı. İnkişaf etmiş merkantilizm isə millətin varlanması mənbələrini sərvətin primitiv qaydada toplanılmasında deyil, xarici ticarətin inkişaf etdirilməsində və aktiv ticarət balansında (idxal üzərində ixracatın artırılmasında) axtarırdı. İnkişaf etmiş merkantilizmə sələflərin "ifrat inzibatçılığı" yad idi. Onlar öz təsəvvürlərinə görə yalnız təbii hüquq prinsiplərinə uyğun olan dövlət müdaxiləsini bəyənirdilər. Təbii hüquq fəlsəfəsi XVII – XVIII əsrlərdə siyasi iqtisadın inkişafına çox mühüm təsir göstərmişdir. Müəyyən dərəcədə bu elm özü təbii hüquq ideyaları çərçivəsində inkişaf edirdi. Öz mənşəyini Aristoteldən və digər antik mütəfəkkirlərdən götürən bu ideyalar yeni dövrdə yeni məzmun alırdı. Təbii hüquq filosofları öz nəzəriyyələrini abstrakt "insan təbiətindən" və onun "təbii" hüquqlarından götürürdülər. Bu hüquqlar çox cəhətdən dünyəvi və kilsə istibdadına zidd olduğundan təbii hüquq fəlsəfəsi mühüm mütərəqqi elementlərə malik idi.

Filosoflar və onların ardınca gedən merkantilizm nəzəriyyəçiləri dövlətə insanın təbii hüquqlarını təmin etməyə qadir olan təşkilat kimi baxırdılar. Bu hüquqlara mülkiyyət və təhlükəsizlik də daxil idi.

Merkantilizm siyasətində ən mühüm aspektlər ilk növbədə ixrac yönümlü milli sənayenin hər vasitə ilə təqdir edilməsi, ucuz xammal idxalı, idxal edilən sənaye məhsullarına himayəçi tariflər tətbiq edilməsi, əməkhaqqının artımının məhdudlaşdırılması, fəhlələrin əməkhaqqının qanunverici tədbirlər vasi-

təsi, həm də demoqrafik siyasətin köməyi ilə məhdudlaşdırmaq idi.

İqtisadi siyasətə yanaşmada kifayət qədər fərqlərə baxmayaraq bütün merkantilistlər azad ticarət və iqtisadi qüvvələrin köləlikdən, əsarətdən tam azad edilməsi ideyasını müdafiə etmirdilər, proteksionizm siyasətinin tərəfdarları kimi çıxış edirdilər.

## Testlər

*(Qeyd: )) bu işarə düzgün cavabı göstərir)*

**1. Aşağıdakı fikirlərdən A.Monkretyenə aid olanı seçin:**
A)İnsanlar nemətlərin nəinki çatışmamasından, hətta artıqlığından da məhv ola bilərlər
B)) Dövləti qızıl və gümüşün miqdarı yox, "həyat və geyim üçün lazım olan predmetlərin olması" varlı edə bilər
C) "Ucuz almaq, baha satmaq" nəzəriyyəsi ölkənin özünün əleyhinə çevrilə bilər
D) İnsanların xoşbəxtliyi sərvətdədir, sərvət isə əməkdədir
E) Bunların hamısı
**2. İlkin merkantilistlər sərvətin hansı yolla artırılmasını əsas götürürdülər?**
A) Xarici investisiyaların artımı
B)) Qızıl və gümüşün ölkədən çıxarılmasına imkan verməmək
C) İdxalın ixracdan üstünlüyü
D) İstehsalın üstünlüyü
E) Xərclərin azaldılması
**3. İlkin merkantilistlərə aid olan fikri müəyyənləşdirin:**
A) Xarici investisiyaların artımı
B) İstehsalın üstünlüyü
C)) Əmtəə idxalını məhdudlaşdırmaq
D) Himayəçilik siyasəti
E) İdxalın ixracdan üstünlüyü

**4. Merkantilistlərin tədqiqat metodu hansıdır:**
A) Təhlil və sintez
B) İnduktiv və deduktiv
C) Məntiqi ardıcıllığın gözlənilməsi
D)) Təsvir etmək və təsnifləşdirmək
E) Bunların hamısı
**5. Merkantilistlərin tədqiqat metodu hansıdır:**
A) Təhlil və sintez
B) İnduktiv və deduktiv
C) Məntiqi ardıcıllığın gözlənilməsi
D)) Kauzal və empirik
E) Bunların hamısı
**6. Merkantilistlər nəyi əsas götürürdülər:**
A) Dövlətin rolunun təhlilini, proteksionizmin tədqiqini
B) İstehsal olunmuş nemətlərin istehlakını
C) Ekvivalent mübadiləni
D)) Qeyri-ekvivalent mübadiləni
E) Millətin mənafeyini
**7. Yetkin merkantilistlər nəyi əsas götürürdülər:**
A) Dövlətin rolunun təhlilini, proteksionizmin tədqiqini
B) İstehsal olunmuş nemətlərin istehlakını
C) Ekvivalent mübadiləni
D)) Nisbətən aşağı qiymətlə xarici bazarı cəlb etmək
E) Millətin mənafeyini
**8. İqtisad elmi öz başlanğıcını hansı məktəbdən götürür**:
A)) Merkantilizm
B) Fiziokratlar nəzəriyyəsi
C) Marjinalizm
D) Klassik siyasi iqtisad
E) Monetarizm
**9. Akvinski insanların ictimai statusunu necə müəyyən edirdi:**
A) Mülkiyyətə münasibətinə görə
B) Mənəvi-etik prinsiplərə görə
C) Milli mənsubiyyətinə görə
D) Kübar cəmiyyətdəki mövqeyinə görə

E)) Fiziki və əqli əmək arasındakı fərqə görə

**10. Kanonistlər insanların ictimai statusunu necə müəyyən edirdi:**

A) Mülkiyyətə münasibətinə görə

B) Mənəvi-etik prinsiplərə görə

C) Milli mənsubiyyətinə görə

D)) Kübar cəmiyyətdəki mövqeyinə görə

E) Fiziki və əqli əmək arasındakı fərqə görə

**11. Aşağıdakılardan hansı ilkin Merkantilistlərin tədqiqatına aid deyil:**

A)) Aktiv ticarət balansı ideyasını irəli sürmək

B) İxrac olunan əmtəələrə maksimum yüksək qiymət qoymaq

C) Əmtəələrin idxalını məhdudlaşdırmaq

D) Qızıl və gümüşün ölkədən çıxarılmasına imkan verməmək

E) Ticarətçilərin mənafeyini ifadə etmək

**12. Aşağıdakılardan hansı ilkin Merkantilistlərin tədqiqatına aid deyil:**

A)) İxracın nisbətən üstünlüyü vasitəsi ilə ölkəyə pul toplamaq

B) İxrac olunan əmtəələrə maksimum yüksək qiymət qoymaq

C) Əmtəələrin idxalını məhdudlaşdırmaq

D) Qızıl və gümüşün ölkədən çıxarılmasına imkan verməmək

E) Ticarətçilərin mənafeyini ifadə etmək

**13. Aşağıdakılardan hansı yetkin Merkantilistlərin tədqiqat obyektinə aid deyil:**

A) Ticarət balansı ideyasının irəli sürülməsi

B) Miqdar nəzəriyyəsinin irəli sürülməsi

C) Monetarizm nəzəriyyəsinin irəli sürülməsi

D)) Xalis məhsul haqqında təlimin yaranması

E) Nisbətən aşağı qiymətlə xarici bazarların cəlb edilməsi

**14. Aşağıdakılardan hansı yetkin Merkantilistlərin tədqiqat obyektinə aid deyil:**

A) Ticarət balansı ideyasının irəli sürülməsi

B) Miqdar nəzəriyyəsinin irəli sürülməsi

C) Monetarizm nəzəriyyəsinin irəli sürülməsi

D)) Əmtəələrin idxalını məhdudlaşdırmaq
E) Nisbətən aşağı qiymətlə xarici bazarların cəlb edilməsi

**15. Merkantilistlərin xarakterik xüsusiyyətinə aid deyil:**

A)) Xalis məhsulun renta ilə eyniləşdirilməsi
B) Milli dövlətlərin meydana gəlməsi prosesinin iqtisadi-nəzəri əsaslandırılması hallarının olması
C) "Siyasi iqtisad"  anlayışının elmi dövriyyəyə gətirilməsi
D) Bazar münasibətlərinin formalaşması və  inkişaf etmiş Avropa ölkələrində onun klassik siyasi iqtisadla əvəz olunması spesifikliyini əsaslandırmışlar
E) Cəmiyyətin sərvətinin pulla, qızılla eyniləşdirilməsi

**16. Merkantilistlərin xarakterik xüsusiyyətinə aid deyil:**

A)) Pul kapitalının qeyri -məhsuldarlığı
B) Milli dövlətlərin meydana gəlməsi prosesinin iqtisadi-nəzəri əsaslandırılması hallarının olması
C) "Siyasi iqtisad"  anlayışının elmi dövriyyəyə gətirilməsi
D) Bazar münasibətlərinin formalaşması və  inkişaf etmiş Avropa ölkələrində onun klassik siyasi iqtisadla əvəz olunması spesifikliyinin əsaslandırmışlar?
E) Cəmiyyətin sərvətinin pulla, qızılla eyniləşdirilməsi

**17. Aşağıdakılardan hansı Merkantilistlərin nöqsanı deyil:**

A) Onlar mübadiləni öz təbiətinə görə qeyri-ekvivalent sayırdılar
B)  Onların nəzəriyyəsində izafi dəyər ticarət mənfəəti formasında təzahür edir
C) Onlar cəmiyyətin sərvətini pulla eyniləşdirirdilər
D) Onlar kapital yığımını mübadilənin, xarici ticarətin törəməsi kimi başa düşürdülər
E)) Aktiv ticarət balansı ideyasını irəli sürmüşdülər

**18. Aşağıdakılardan hansı Merkantilistlərin nöqsanıdır:**

A) Onlar mübadiləni öz təbiətinə görə qeyri-ekvivalent sayırdılar
B)  Onların nəzəriyyəsində izafi dəyər ticarət mənfəəti formasında təzahür edir

C) Onlar cəmiyyətin sərvətini pulla eyniləşdirirdilər
D) Onlar kapital yığımını mübadilənin, xarici ticarətin törəməsi kimi başa düşürdülər
E)) Bunların hamısı

**19. Kanonistlərin baxışlarında xüsusi yer tutmuşdur:**
A) Qiymətin əsas mənbəyi kimi faydalılıq
B) "Ədalətli qiymət" ideyası
C) Pul kapitalının qeyri-məhsuldarlığı
D) Faydalılıq+nadirlik
E)) Hamısı düzdür

**20. Kanonistlərin tədqiqat obyektinə aid deyil:**
A) Qiymətin əsas mənbəyi kimi faydalılıq
B) "ədalətli qiymət" ideyası
C) Pul kapitalının qeyri-məhsuldarlığı
D) Faydalılıq+nadirlik
E)) Mənfəət əldə etmək məqsədilə ticarətin genişləndirilməsi

**21. F.Akvinskinin fikirlərindən biri yanlışdır:**
A) Pul pul törədə bilmir, onun qazanc əldə etmək üçün istifadə edilməsi mümkün deyil
B)) Puldan gəlir əldə etmək və ya faiz götürməklə əməksiz və torpaqsız varlı olmaq olar
C) O, təbii və bazar qiymətləri arasında əsaslı fərq olduğunu söyləmişdir
D) O, fiziki və əqli əmək arasında fərq qoyub, insanların ictimai statusunun onunla müəyyən edildiyini güman etmişdir
E) O, sosial bərabərliyə cəhd göstərməyi çox ciddi mühakimə etmişdir

**22. F.Akvinskinin fikirlərindən biri yanlışdır:**
A) Pul pul törədə bilmir, ondan qazanc əldə etmək üçün istifadə edilməsi mümkün deyil
B)) Əməyin kəmiyyətini zəruri yaşayış vasitələrinin dəyərinə bərabər tutmuşdur
C) O, təbii və bazar qiymətləri arasında əsaslı fərq olduğunu söyləmişdir

D) O, fiziki və əqli əmək arasında fərq qoyub, insanların ictimai statusunun onunla müəyyən edildiyini güman etmişdir
E) O, sosial bərabərliyə cəhd göstərməyi çox ciddi mühakimə etmişdir

**23. Aşağıdakılardan hansı yetkin ingilis merkantilizminə aid olmayan prinsipdir:**
A) Xammalın ixracına qadağan edilməsi
B) Hazır məmulatların ixrac olunması
C) Xarici ölkələrin sənaye mallarına yüksək gömrük rüsumlarının qoyulması
D) Donanmaya böyük diqqət yetirilməsi
E)) Manufaktura inkişafına himayədarlıq

**24. Merkantilistlər sərvətin hansı yolla artırılmasını əsas götürürdülər?**
A) Xarici investisiyaların artımı
B) Xərclərin azaldılması
C) İstehsalın üstünlüyü
D) İdxalın ixracdan üstünlüyü
E)) İxracın idxaldan üstünlüyü

**25. Merkantilistlər iqtisadiyyatın hansı sahəsini öyrənirdilər?**
A) İstehsal sferasını
B) Kənd təsərrüfatını
C) Pul tədavülünü
D) Sənayeni
E)) Tədavül sferasını

**26. Himayəçilik siyasətini ilk dəfə kim təklif etmişdir:**
A) Fiziokratlar
B) İlkin merkantilistlər
C) Marjinalistlər
D)) Yetkin merkantilistlər
E) Neoklasiklər

**27. Hansı elmi istiqamət dövlətin əsas məqsədini ticarətin həvəsləndirilməsi və daxili bazarın müdafiə edilməsində görürdü?**
A) Burjua siyasi iqtisad
B) Proletar siyasi iqtisad
C) Fiziokratlar
D)) Merkantilizm
E) Marjinalizm

**28. Ticarət burjuaziyasının mənafeyini ifadə edən iqtisadi nəzəriyyəyə aiddir**:

A)) Merkantilizm
B) Fiziokratlar nəzəriyyəsi
C) Marjinalizm
D) Klassik siyasi iqtisad
E) Monetarizm

**29. F.Akvinskinin "ədalətli qiymət" nəzəriyyəsində əmtəə dəyərinin əsasında nə dururdu:**

A) İstehsal xərcləri
B) Əmək məsrəfləri
C)) İstehsal xərcləri, həm də kübar ailələrin yaşayış təminatı
D) Tədavül xərcləri
E) Mənəvi-etik prinsiplər

**30. Aşağıdakılardan hansı ilkin Merkantilistlərin tədqiqatına aid deyil:**

A)) Xarici bazarı cəlb etmək
B) İxrac olunan əmtəələrə maksimum yüksək qiymət qoymaq
C) Əmtəələrin idxalını məhdudlaşdirmaq
D) Qızıl və gümüşün ölkədən çıxarılmasına imkan verməmək
E) Ticarətçilərin mənafeyini ifadə etmək

**31. Aşağıdakılardan hansı yetkin Merkantilistlərin tədqiqat obyektinə aid deyil:**

A) Ticarət balansı ideyasının irəli sürülməsi
B) Miqdar nəzəriyyəsinin irəli sürülməsi
C) Monetarizm nəzəriyyəsinin irəli sürülməsi
D)) Ticarətçilərin mənafeyini ifadə etməsi
E) Nisbətən aşağı qiymətlə xarici bazarların cəlb edilməsi

**32. Tarixən birinci olan iqtisadi nəzəriyyə məktəbi:**

A)) Merkantilizm
B) Keynsçilik
C) Klassik siyasi iqtisad
D) Fiziokratlar
E) Neoliberalizm

**33. Merkantilistlərin xarakterik xüsusiyyətinə aid deyil:**

A)) Cəmiyyətdə tarazlıq vəziyyətinin saxlanılmasında azad rəqabətin rolu

B) Milli dövlətlərin meydana gəlməsi prosesinin iqtisadi-nəzəri əsaslandırılması
C) "Siyasi iqtisad" anlayışının elmi dövriyyəyə gətirilməsi
D) Bazar münasibətlərinin formalaşması və inkişaf etmiş Avropa ölkələrində onun klassik siyasi iqtisadla əvəz olunmasının spesifikliyinin əsaslandırılması
E) Cəmiyyətin sərvətinin pulla, qızılla eyniləşdirilməsi

**34. "Siyasi iqtisad" termininin müəllifi kimdir?**
A) Aristotel
B) F.Akvinski
C)) A.Monkretyen
D) A.Smit
E) K.Marks

**35. Aşağıdakılardan hansı Merkantilistlərin nöqsanı deyil:**
A) Onlar mübadiləni öz təbiətinə görə qeyri-ekvivalent sayırdılar
B) Onların nəzəriyyəsində izafi dəyər ticarət mənfəəti formasında təzahür edir
C) Onlar cəmiyyətin sərvətini pulla eyniləşdirirdilər
D) Onlar kapital yığımını mübadilənin, xarici ticarətin törəməsi kimi başa düşürdülər
E)) Onlar bazar iqtisadiyyatı münasibətlərinin formalaşmasının klassik siyasi iqtisadla əvəz olunması spesifikliyini əsaslandırırdılar

**36. F.Akvinskinin fikirlərindən biri yanlışdır:**
A) Pul pul törədə bilmir, onun qazanc əldə etmək üçün istifadə edilməsi mümkün deyil
B)) O, "ədalətli qiymət" altında istehsal xərclərinə bərabər olan qiyməti başa düşmüşdür
C) O, təbii və bazar qiymətləri arasında əsaslı fərq olduğunu söyləmişdir
D) O, fiziki və əqli əmək arasında fərq qoyub, insanların ictimai statusunun onunla müəyyən edildiyini güman etmişdir
E) O, sosial bərabərliyə cəhd göstərməyi çox ciddi mühakimə etmişdir

# MÖVZU 5. KLASSİK İQTİSADİ MƏKTƏBİN MEYDANA GƏLMƏSİ

**1. U.Petti klassik iqtisad elminin banisi kimi**
**2. P.Bualgilber Fransada klassik iqtisad elminin yaradıcısıdır**
**3. F.Kene fiziokratlar məktəbinin banisi kimi**
**4. A.Türqo tərəfindən fiziokratizmin inkişaf etdirilməsi**

Dünya iqtisadi fikir tarixində mütərəqqi istiqamət olan klassik məktəb öz dövrünü yaşamış feodal qaydalarına qarşı yönəldilən nəzəri silah kimi kapitalizmin inkişafının manufaktura dövründə, XVII əsrin ikinci yarısında yaranmış və maşınlı sənaye dövrünə keçərək əməklə kapital arasında ziddiyyətlərin inkişafı ilə XIX əsrin sonu, XX əsrin əvvəlində öz ömrünü başa çatdırmışdır.

Böyük Britaniyada bu məktəbin əsası **U. Pettinin** (1623-1687) ilk iri əsəri olan "Vergilər və rüsumlar haqqında traktat" (1662) ilə başlamış, İngilis klassik məktəbi öz inkişafını **D.Rikardonun** (1772-1823) əsərləri ilə başa çatdırmışdır. Onun əsas əsəri olan "Siyasi iqtisadın və vergiqoymanın əsasları" 1817-ci ildə dərc olunmuşdu. Fransada klassik məktəbin banisi **P.Buagilber** (1646-1714) olmuşdur. **A.Smitin** "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında traktat" əsəri ilə özünün inkişafını və ardıcıl ifadəsini tapmışdır.

Klassik məktəb bir sıra nailiyyətlərlə xarakterizə olunur. Onun nümayəndələri ilk dəfə həm Avstriya məktəbindən əvvəl mövcud olan marjinalizm nəzəriyyəsinə, həm də onu əvəz edən neoklassik məktəbə xas olan təsviredici metodun əksinə olaraq iqtisadi hadisələrin mahiyyətinə nüfuz etmək üçün abstrakt metodu işləyib hazırlayıb və tətbiq etmişlər. Bu metod klassik məktəbə kapitalizmin iqtisadi qanunlarının obyektiv xarakterinin dərk olunmasına və təsərrüfat təcrübəsində istifadə edilməsi zəruriliyinə imkan verdi. Klassik məktəb əmək-dəyər

nəzəriyyəsinin əsasını qoydu ki, buna uyğun olaraq əmtəələrin dəyəri onların istehsalına sərf olunan ictimai zəruri əməklə müəyyən olunur. Dəyərin vahid mənbəyi kimi cəmiyyətin iqtisadiyyatının fundamental əsasını-əməyi nəzərdən keçirərək, klassik məktəb bu nəticəyə gəldi ki, cəmiyyətin bütün siniflərinin gəlirləri olan əməkhaqqı, mənfəət, renta, faiz və s. muzdlu fəhlələrin sərf edilmiş əməyinin yalnız müxtəlif ifadələridir.

Bu məktəbin prinsipial nəticələri aşağıdakılardan ibarətdir: iqtisadiyyatın inkişafında rəqabəti zəruri etməsi; iqtisadiyyatın həmişə müvazinətli olması; iqtisadiyyatın özünün qeyri-müvazinəti aradan qaldırması; iqtisadiyyatın inkişafını təmin edən istehsal amillərindən tam istifadə olunması; ümumi və xalis gəlir anlayışlarının elmi xarakteristikasının verilməsi; iqtisadiyyatın əməkhaqqı, qiymət, faiz dərəcəsi kimi iqtisadi alətlərdən istifadə etməklə özünü tənzimləməsi. Klassik məktəbə görə, əhalinin tam məşğulluğu təmin edilir. İqtisadiyyatı pul və real sektora bölən klassik məktəbin nümayəndələri qeyd edirdilər ki, bu sektorlar bir-birindən asılı deyil .

Bununla belə, klassik məktəb qeyri-ardıcıllıqla, ziddiyyətlərlə xarakterizə olunur. Kapitalizmin daxili qanunauyğunluqlarına nüfuz etməklə yanaşı, o, bəzən iqtisadi hadisələrin xarici görünüşünün təsvir edilməsi və iqtisadi hadisələrin təzahür formalarının, xarici funksional asılılıqlarının öyrənilməsi ilə məhdudlaşırdı. Buna görə, klassik məktəb konsepsiyasının xələfləri bir-biri ilə rəqabət aparan iqtisadi fikir cərəyanlarına ayrılırlar: bir tərəfdən K.Marksın iqtisadi nəzəriyyəsi, digər tərəfdən neoklassik məktəb.

C.M.Keynisin baxışlarına görə klassik məktəb real iqtisadi prosesləri obyektiv əks etdirməyin ideal, mücərrəd modelidir.

Klassik siyasi iqtisadının banisi **Uilyam Petti** olmuşdu. Petti merkatilistlərdən fərqli olaraq, sərvətin mənbəyini tədavüldə deyil, istehsalda görürdü. Pettini əmək-dəyər nəzəriyyəsinin yaradıcısı hesab etmək olar. O, əmtəənin, torpağın qiy-

mətinin, əməkhaqqı və rentanı əmək-dəyər nəzəriyyəsi əsasında aydınlaşdırmışdır. U.Petti izafi dəyərin yaranma mənbəyini izah etməyə çalışaraq, ümumi izafi dəyər kimi rentanı göstərirdi. Rentanın növləri kimi torpaq rentası, pul rentası (borc faizi), differensial rentanı fərqləndirirdi. O hesab edirdi ki, əməkhaqqının yüksəldilməsi kapitalistin xeyrinə deyil və əməkhaqqı fəhlənin minimum yaşayışını təmin etməlidir. O burjuaziya cəmiyyətini təbii və əbədi hesab edirdi. A.Smit və D.Rikardo əsərlərində onun baxışlarından istifadə etmişlər.

U.Pettinin əsərləri içərisində 1662-ci ildə nəşr olunmuş "Vergilər və rüsumlar haqqında traktat" kitabı xüsusi qeyd olunur. Sonrakı illərdə alimin "Siyasi hesab" (1676), "Müdriklərə söz" (1664), "İrlandiyanın siyasi anatomiyası" (1672), "Pulların müxtəlifliyi" (1682) kitabları nəşr olunmuşdur. Onun iqtisad elminə daha böyük töhfəsi isə milli sərvətin və vergiqoyma üçün lazımı bazanın müəyyən edilməsi yolu ilə milli gəlirlərin qiymətləndirilməsinə xidmət edən "Siyasi hesab" adlı əsəridir. Məhz bu əsərə görə onu statistikanın banisi adlandırırlar. Pettinin əsərləri ilə müqayisədə onun şəxsi həyatı daha maraqlı idi. O, 1623-cü ildə kasıb bir dərzinin ailəsində anadan olmuşdur. Yerli məktəbdə o, yunan və latın dillərini öyrənmişdir. 14 yaşında ikən açıq dənizə gəmi şagirdi kimi yollanan gənc Normandiyanın sahillərində endirildi və burada o, ayağını sındırdı. Orada Petti Kanedə kollecə daxil oldu. Həkimlik ixtisasına yiyələnmək üçün Hollandiyaya, daha sonra Parisə yollandı. O, Parisdə qalarkən anatomiya sahəsində məşhur filosof Tomas Qobsla tanış oldu.

1647-ci ildə Petti İngiltərəyə dönərək Oksford Universitetinə daxil olur. Az bir vaxtda tibb elimləri doktoru elmi dərəcəsini alaraq, London tibb kollecinə işə qəbul olunur, bundan sonra Breysnous kollecinin vitse-rektoru və anatomiya elminin professoru olur. Kralla parlament arasında vətəndaş müharibəsinin qızğın anında, 1651-ci ildə Petti Kromvelin ingilis ordusunda baş həkim vəzifəsində xidmət etmək məqsədilə İngiltərə-

dən İrlandiyaya köçür. İrlandiyaya gəlişindən iki il sonra Kromvelin ordusunda əsgərlərin yerləşdirilməsi məqsədilə irlandiyalı üsyançıların müsadirə edilmiş sərvətlərinin hesaba alınması kimi çətin tapşırığı uğurla yerinə yetirdiyinə görə mükafatlandırılaraq ona müxtəlif torpaqların əldə edilməsinə imkan verən imtiyazlar verilir, bu yolla onun əhəmiyyətli dərəcədə sərvətə malik olmasının əsası qoyulur.

U.Petti 1659-cu ildə İngiltərəyə qayıdaraq Kral cəmiyyətinin yaradıcılarından hesab edilən parlamentin üzvü və II Karlın məsləhətçisi seçilir. Kral ona 1661-ci ildə alicənab rütbəsi təqdim edir. Daha sonra o, kitablar yazmağa başlayır və bir sıra kəşflər edir.

U.Petti, II Yakob taxtdan getməsindən bir il sonra 1687-ci ildə vəfat etmişdir.

Fransada klassik burjua siyasi-iqtisadının yaradıcısı **Pyer Buagilber** 1646-cı ildə Raunda zadəgan ailəsində anadan olmuşdur. Onun siyasi və iqtisadi baxışları "XIV Lüdovikin krallığı dövründə Fransa haqqında təvsilat", "Fransanın pərakəndə ticarəti", "Sərvətin, pulun və verginin təbiəti haqqında düşüncələr" əsərlərində öz əksini tapmışdır.

P.Buagilber də Petti kimi iqtisadi qanunauyğunluqları tədavüldə deyil, istehsalda axtarır. O, azad ticarət siyasətinə tərəfdar kimi dövlətin iqtisadi həyata qarışmasının əleyhinə çıxış edir və xırda burjua mövqeyindən azad sahibkarlığı müdafiə edirdi.

Əmək-dəyər nəzəriyyəsinin banisi Fransada P.Buagilberdir. O bazar qiymətlərinin arxasında "həqiqi", yaxud "ədalətli" dəyər axtarırdı, bunun kəmiyyətini əmək məsrəfi ilə müəyyən edirdi.

P.Buagilber tərəfindən qiymətlər qanununun, yəni mahiyyət etibarilə dəyər qanununun xalq təsərrüfatının proporsionallığının ifadəsi kimi başa düşülməsi iqtisadi fikir tarixində tamamilə yeni fikir idi. P.Buagilberin fikrincə "optimal qiymətlər" rəqabət azadlığı şəraitində kortəbii surətdə təşəkkül tapacaqdır.

P.Buagilber dövlətin iqtisadi funksiyalarını inkar etmirdi. O, belə güman edurdi ki, dövlət, xüsusilə də məqsədəuyğun vergi siyasətini tətbiq etməklə ölkədə təklif və tələbin yüksək səviyyəsinə kömək edə bilər.

P.Buagilber "böhranları" təsərrüfatın daxili qanunauyğunluqlarından daha çox dövlət siyasətində səhvlərlə əlaqələndirirdi. Onun konsepsiyası nəticə etibarilə azad rəqabət şəraitində böhranların mümkün olması ideyasından ibarətdir.

## Fiziokratizm

**Fiziokratlar (yun. physis - təbiət, kratos - hakimiyyət)** - XVIII əsrdə yaranmış iqtisadi təlim olmaqla, başlıca ideyasını təbii ahəngdən qaynaqlanan liberalizm təşkil edir. Onlar sərvətin mənbəyi olaraq əkinçilikdə sərf olunan əməyi qəbul edirdilər. Görkəmli nümayəndələri **F.Kene, A.R.Türqo, V.Mirabodur.**

**F.Kene** 1694-cü ildə xırda torpaq sahibinin ailəsində anadan olmuş və onun heç bir rəsmi təhsili olmamışdır, lakin onun müstəqil şəkildə tibb öyrənməsi o qədər uğurlu olmuşdu ki, həkim kimi fəaliyyət göstərmiş və hətta bir neçə tibbə həsr olunmuş iş yazaraq tibb üzrə dərəcə almışdır. Lakin bundan əvvəl Versala köçmüş və madam de Pompadurun himayəsi altında Kral XV Lyudovikin həkim-məsləhətçisi vəzifəsinə təyin olunmuşdur.

Onun ilk iqtisadiyyat üzrə nəşri 60 yaşında "Ensiklopediyaya" 1756-cı və 1757-ci ildə məqalə şəklində üzə çıxmışdır. Kenenin iqtisadi proqramı onun "Əkinçilik dövlətinin iqtisadi siyasətinin ümumi prinsipləri" (1758) adlı əsərində verilmişdir. Kene kənd təsərrüfatını vahid məhsuldar qüvvə elan edərək, əkinçiliyi özünün tədqiqat obyektinə çevirmişdi. Mübadilənin ekvivalentliyi haqqında fiziokratik müddəasını əsas götürərək, Kene merkantilistlərin sərvətin mübadilədən doğduğu barədə fikirlərini tənqid etmişdir. Onun fikrincə, mübadilə həqiqətən

heç nə istehsal etmir. "Təbii hüquq" (1765) əsərində Kene "təbii qayda" konsepsiyasını ifadə etmişdir ki, burada ictimai inkişafın qanunauyğunluqları və obyektivlik ideyasını irəli sürmüş və cəmiyyəti canlı ictimai mexanizm kimi, iqtisadi həyatı isə daxili qanunauyğunluqlara malik olan təbii proses kimi nəzərdən keçirmişdir. Kene siyasi iqtisad tarixində istehsal və satışın daima təkrar olunması kimi "təkrar istehsal" anlayışını ilk dəfə tətbiq etmiş və özü də ondan istifadə etmişdir. O, təkraristehsal prosesinin təsvir edilməsini "İqtisadi cədvəl"də (1758) vermişdir. Burada pul axınları ilə ifadə olunan gəlir-xərc cədvəli şəklində ziqzaqabənzər diaqram təsvir olunmuşdur.

Beləliklə, Kenenin "İqtisadi cədvəl"i iqtisadi fikir tarixinə həm də bütün ölkənin iqtisadi inkişafını təmin edən əsas xalq təsərrüfatı proporsiyalarını aşkarlayan ilk makroiqtisadi model kimi daxil olmuşdur.

Fiziokratların doktrinasının ən yaxşı izahı **F.Kene** və onun tələbəsi **Markiz de Mirabo** (1715-1789) tərəfindən yazılmış "Kənd fəlsəfəsi" (1763) kitabında öz əksini tapmışdır. Lakin istiqamətin adı Kenenin digər tələbəsi **Dü Pon de Nemur** (1739-1817) tərəfindən redaktə olunmuş "Fiziokratiya" (1768) əsərində verilmişdir.

Fiziokrat iqtisadi nəzəriyyəsinin liderlərindən biri də "Sərvətin yaranması və bölüşdürülməsi haqqında düşüncələr" (1776) əsəri ilə A.Smitdə böyük maraq oyadan Jak Türqo idi.

**Ann Raber Jak Türqo** 1727-ci ildə Parisdə anadan olmuşdur. O, mənşəcə dövlət xidməti sahəsində əsrlərlə ənənəsi olan qədim normand zadəgan ailəsindən idi. Türqonun bacarıq və qabiliyyəti gənc yaşlarından müəllimlərini və yoldaşlarını heyran qoyurdu. O, altı dili yaxşı bilir, çoxlu elmlər öyrənir, nadir yaddaşa malik idi. Türqo hələ 22 yaşında ikən kağız pul haqqında fikir dərinliyinə malik gözəl əsər yazmışdı.

A.R.Jak Türqo F.Kene kimi gəlirlərin konkret formaları olan "əməkhaqqı", "renta" və "faizdən" bəhs etmişdir. Həmçi-

nin, onlar "mənfəəti" də qəbul etmiş və özlərinə məxsus onun şərhini vermişlər. Türqo əməkhaqqını yaşayış minimumu ilə, mənfəəti faizlə, faizi isə renta ilə izah etməyə çalışmışdır. O, faizi rentanın törəmə forması hesab edirdi.[10]

A.R.Jak Türqo F.Kenenin əhalinin sinfi quruluşuna dair təlimini inkişaf etdirmişdir. Kene təlimində göstərilir ki, fiziokratlar sistemində cəmiyyət üç sinifdən: məhsuldar sinifdən (əkinçilər), torpaq sahiblərindən və bəhrəsiz (bütün yerdə qalanlar) sinifdən ibarətdir. Türqo bu sxemə gözəl bir əlavə edir. Sonuncu sinif Türqoda "necə deyərlər, iki dərəcəyə: manufakturaçı sahibkarlara, fabrikçi ağalara bölünür; bütün bunlar iri kapital sahibləridir. Bu kapitalı onlar öz avanslarının hesabına iş verərək mənfəət əldə etmək üçün istifadə edirlər. İkinci dərəcə öz əllərindən başqa heç bir şeyləri olmayan sadə sənətkarlardan ibarətdir; onlar da sahibkarlara avans olaraq yalnız öz gündəlik əməklərini verirlər və onların mənfəəti əmək haqqı almaqdan ibarət olur"[11].

Beş sinifdən ibarət olan bu cəmiyyət modeli cəmiyyəti üç sinfə bölən Kene modelinə nisbətən həqiqətə daha yaxındır. Türqonun digər bir nailiyyəti isə Kenedə olduğuna nisbətən kapitalın daha dərin və səmərəli təhlilindən ibarətdir.

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1. Klassik siyasi iqtisadın ilk nəzəri cərəyanı:**

A) Merkantilizm
D)) Fiziokratlar
B) Keynsçilik
E) Neoliberalizm
C) Marksizm

---

[10] F.Əliyev, T.Əliyev. Ev təsərrüfatları gəlirlərinin formalaşması və ondan istifadənin sosial-iqtisadi problemləri (Azərbaycan Respublikası materialları əsasında). "Elm və təhsil", Bakı-2011,səh.17.

[11] А.Р.Ж.Тюрго. Избранные экономические произведения. М. 1961, стр.129.

**2. Klassik siyasi iqtisadın nəzəri cərəyanına aid olmayanı müəyyənləşdirin:**
A) Merkantilizm D) Neoliberalizm
B) Keynsçilik E)) Bunların hamısı
C) Marksizm
**3. Əkinçilik bütün peşələrin anasıdır- tezisinin müəllifi kimdir?**
A) Aristotel D) A.Smit
B)) U.Petti E) Ksenofont
C) A.Monkretyen
**4. Fiziokratlar merkantilistlərin hansı anlayış haqqında fikirlərini təkrar etmişlər:**
A) Kapital D) Sərvət
B)) Əməkhaqqı E) Tədavül
C) Pul
**5. Fiziokratlar bazar qiymətini nə ilə müəyyən edirdilər:**
A) İstehsal olunmuş məhsulun nadirliyi ilə
B) İstehsal olunmuş məhsulun bolluğu ilə
C) Rəqabət ilə
D) Tələb və təklifin nisbəti ilə
E)) Bunların hamısı
**6. U.Petti təbii qiyməti nə ilə ölçürdü?**
A)) Əmək məsrəfləri ilə D) Nadirlik prinsipi ilə
B) İstehsal xərcləri ilə E) Əməyin miqdarı ilə
C) Faydalılıq həddi ilə
**7. U.Pettiyə görə dəyəri nə yaradır?**
A)) Əmək məsrəfləri D) Nadirlik prinsipi
B) İstehsal xərcləri E) Qənaətcillik
C) Faydalılıq həddi
**8. U.Petti süni qiyməti nə ilə ölçürdü?**
A) Əmək məsrəfləri ilə D) Nadirlik prinsipi ilə
B) İstehsal xərcləri ilə E)) Əmtəənin bazar qiyməti ilə
C) Faydalılıq həddi ilə

**9. Fiziokratların "xalis məhsulu" həm təbiətin bəxş etdiyi nemət, həm də muzdlu fəhlənin izafi əməyi tərəfindən yaradılan məhsul kimi izah etməsinin səbəbi nə idi:**
A) İzafi dəyəri renta ilə eyniləşdirmələri
B) Maddi nemətlərin artmasını təbiətin özü ilə əlaqələndirmələri
C)) Dəyərin mahiyyətini başa düşməmələri
D) Kənd təsərrüfatını xalis məhsul gətirən yeganə sahə hesab etmələri
E) Bunların hamısı

**10. Kim pul təklifinin artırılmasının ölkənin rifah səviyyəsinə səbəb olacağına inanırdı?**
A)) U.Petti
B) A.Smit
C) F.Kene
D) D.Rikardo
E) P.Buagilber

**11. Aşağıdakı fikirlərdən U.Pettiyə aid olanı seçin:**
A)) İnsanların həbs cəzasını pul cəriməsi ilə əvəz etmək lazımdır, imkanı olmayanları qula çevirmək, onları işləməyə məcbur etmək lazımdır
B) Pul yığımı ölü yükdür, onu artırmaq üçün hərəkətə gətirmək lazımdır
C) İnsanların xoşbəxtliyi sərvətdədir, sərvət isə əməkdədir
D) Pul, pul törədə bilmir, onun qazanc əldə etmək üçün istifadə edilməsi mümkün deyil
E) Pul təbii ədaləti və əmtəə mübadiləsinin ekvivalentliyini pozur

**12. K.Marks kimi "müasir siyasi iqtisadın" əsl banisi adlandırmışdır:**
A) A.Smiti
B) D.Rikardonu
C) J.B.Seyi
D) K.Marksı
E)) F.Keneni

**13. Kim sənayenin tənəzzülünün əsas səbəbini kəndlilərin yoxsulluğunda görürdü:**
A) U.Petti
B) K.Marks
D) F.Kene
E) A.Smit

C)) P.Buagilber

**14. Klassik məktəb üçün xarakterikdir:**

A) Xalis məhsul təliminin yaranması
B) Təkrar istehsal sxeminin verilməsi
C) Monetarizm nəzəriyyəsinin irəli sürülməsi
D)) Kapitalist istehsalının daxili qanunauyğunluqlarının aydınlaşdırmaları
E) İqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyi

**15. Klassik məktəb üçün xarakterikdir:**

A) Xalis məhsul təlimin yaranması
B) Təkrar istehsalın sxeminin verilməsi
C) Monetarizm nəzəriyyəsinin irəli sürülməsi
D)) İqtisadiyyata dövlətin minimal qarışması
E) İqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyi

**16. İlk dəfə hansı iqtisadi məktəb kənd təsərrüfatında təkrar istehsal və gəlirin bölgüsünü tədqiq etmişdir?**

A) Merkantilizm
B) Keynsçilik
C))Fiziokratlar
D) Monetarizm
E) Marksizm

**17. İlk dəfə hansı iqtisadi məktəb kapitalın təhlilini vermişdir:**

A) Merkantilizm
B) Keynsçilik
C)) Fiziokratizm
D) Monetarizm
E) Marksizm

**18. Klassik siyasi iqtisadın təkamülünün I mərhələsinin nümayəndələri kimlərdir:**

A) D.Rikardo, A.Smit
B)) P.Buagilber, U.Petti
C) T.R.Maltus, K.Marks
D) J.B.Sey, A.Smit
E) C.S.Mill, K.Marks

**19. Klassik siyasi iqtisadın təkamülünün II mərhələsinin nümayəndələri kimlərdir:**

A)) D.Rikardo, A.Smit
B) P.Buagilber, U.Petti
C) T.R.Maltus, K.Marks
D) J.B.Sey, A.Smit
E) C.S.Mill, K.Marks

**20. Klassik məktəbin xüsusiyyətlərinə aid deyil:**
A) İqtisadi liberalizm
B) İqtisadiyyatın öz-özünü tənzimləməməsi
C))İzafi dəyərin ticarət mənfəəti formasında təzahür etməsi
D) Əmək dəyər nəzəriyyəsi
E) Azad rəqabət

**21. Klassik məktəbin xüsusiyyətlərinə aiddir:**
A) İqtisadi liberalizm
B) Azad rəqabət
C) İqtisadiyyatın öz-özünü tənzimləməməsi
D) Əmək dəyər nəzəriyyəsi
E)) Bunların hamısı

**22. İqtisadi artımın dövlət tənzimlənməsi nəzəriyyələrinə aid deyildir:**
A) Neoklassik
B) Keynsçilik
C) Neokeynsçilik
D) Monetarist
E)) Fiziokratizm

**23. Kapitalist istehsalının ilk sistematik konsepsiyası:**
A) Neoklassik
B) Merkantilizm
C) Neokeynsçilik
D) Monetarist
E)) Fiziokratizm

**24. Klassik məktəbin iqtisadiyyatın tənzimlənməsi haqqında təlimi nəyə əsaslanır?**
A)) İqtisadiyyatın öz-özünü tənzimləməsinə
B) Pul-kredit siyasətinə
C) Dövlət tərəfindən iqtisadiyyatın idarə edilməsinə
D) Sosial sahənin izahına
E) Fiskal siyasətə

**25. Hansı metodoloji prinsip sayəsində fiziokratlar siyasi-iqtisadı fəlsəfə və təbiətşünaslıqla birləşdirə bilmişlər:**
A)) Deduktiv metod
B) İnduktiv-analitik
C) Təsviri empirik
D) Elmi abstraksiya
E) Kauzal

**26. Kim ilk dəfə yoxsul kəndlilərin mənafeyini müdafiə etmişdir:**
A) A.Smit
B))P.Buagilber
C) K.Marks
D) D.Rikardo
E) J.B.Sey
**27. Kim siniflərin daha konkret xarakteristikasını vermiş və "Bəhrəsiz sinfi" sinfi sahibkar kapitalistlərə və muzdlu işçilərə bölərək daha da inkişaf etdirmişdir:**
A)A.Smit
B) P.Buagilber
C) K.Marks
D) F.Kene
E)) A.R.Türqo
**28. Hansı məktəbin nümayəndələri ilk dəfə iqtisad elminin predmetini istehsal münasibətləri ilə əlaqələndirmişlər:**
A) Merkantilistlər
B)) Klassik məktəb
C) Marksistlər
D) Keynsçilər
E) Marjinalistlər
**29. Siyasi iqtisad elmi hansı məktəbin sayəsində liberal iqtisadiyyatın problemlərini öyrənən həqiqi elmi sistemə çevrilmişdir:**
A) Merkantilistlər
B)) Klassik məktəb
C) Marksistlər
D) Keynsçilər
E) Marjinalistlər
**30. Fiziokratların fikrincə, dövlətin funksiyasına aid deyil:**
A)) Dövlətin iqtisadiyyata müdaxilə etməsi
B) Mülkiyyətin müdafiəsi
C) Ümumi təhsil
D) İctimai xarakter daşıyan müəssisələrin saxlanılması
E) İnsan azadlığının qorunması
**31. Fiziokratların fikrincə, dövlətin funksiyasına aiddir:**
A) Dövlətin iqtisadiyyata müdaxilə etməməsi
B) Mülkiyyətin müdafiəsi
C)) İctimai xarakter daşıyan müəssisələrin saxlanılması
D) İnsan azadlığının qorunması
E) Bunların hamısı

**32. Hansı məktəb ilk dəfə sərvətə istehlak dəyərlərinin məcmusu kimi baxmışdır**:
A) Merkantilizm D) Klassik siyasi iqtisad
B)) Fiziokratlar nəzəriyyəsi E) Monetarizm
C) Marjinalizm
**33. Klassik məktəbin baxışı hansıdır:**
A) Xarici ticarətlə və ölkəyə pulun gəlməsi ilə əlaqədar olan fəaliyyət
B) Sərvətin yaradıldığı istehsal sferasının öyrənilməməsi
C)) Kapitalist istehsal üsulu və ona xas olan istehsal və mübadilə münasibətləri
D) Sərvətin mənbəyinin kənd təsərrüfatı əməyi olduğu istehsal sferasını öyrənmək
E) Ümumi və xalis gəlir anlayışlarının elmi xarakteristikalarının verilməsi
**34. Fiziokratların baxışı hansıdır:**
A) Xarici ticarətlə və ölkəyə pulun gəlməsi ilə əlaqədar olan fəaliyyət
B) Sərvətin yaradıldığı istehsal sferasının öyrənilməməsi
C) Kapitalist istehsal üsulu və ona xas olan istehsal və mübadilə münasibətləri
D) Sərvətin mənbəyinin kənd təsərrüfatı əməyi olduğu istehsal sferasını öyrənmək
E)) Xalis məhsul anlayışının elmi xarakteristikalarının verilməsi
**35. U.Pettiyə aid olan elmi nailiyyəti müəyyən edin:**
A) Əmək-dəyər nəzəriyyəsinin əsasının qoyulması
B) Əkinçilik məhsulunun dəyərindən istehsal xərclərini çıxdıqdan sonra, qalan hissənin rentaya aid edilməsi
C) "Pul rentası" olan borc faizinin torpaq rentası əsasından nəzərdən keçirilməsi
D) Differensial rentanı torpaq sahələrinin münbitliyinin müxtəlifliyi, onların bazara yaxınlığı və ya uzaqlığı ilə əlaqələndirilməsi
E)) Bunların hamısı

**36. Kim pulun yalnız mübadilə vasitəsi funksiyasını yerinə yetirdiyini qeyd etmişdir:**

A) A.Smit
B)U.Petti
C) K.Marks
D)) P. Buagilber
E) S. Sismondi

**37. "Laisser faire, laisser passer" ifadəsini ilk dəfə kim işlətmişdir:**

A) A.Smit
B) U.Petti
C)) V.Qurne
D) P. Buagilber
E) S. Sismondi

**38. Klassik siyasi iqtisad məktəbinin tədqiqat obyektinə aiddir?**

A) Tədavül sferasının öyrənilməsi
B)) Əmək -dəyər nəzəriyyəsinin əsasının qoyulması
C) İstehsal sferası kimi kənd təsərrüfatının qəbul olunması
D) Ticarətin üstünlüyünün ön plana keçirilməsi
E) Kapital yığımını xarici ticarətin törəməsi kimi izah etmələri

**39. Klassik nəzəriyyənin əsasını təşkil edən fikir?**

A) Tədavül sferasının öyrənilməsi
B)) İqtisadi liberalizm
C) İstehsal sferası kimi kənd təsərrüfatının qəbul olunması
D) Ticarətin üstünlüyünün ön plana keçirilməsi
E) Kapital yığımını xarici ticarətin törəməsi kimi izah etmələri

**40. Aşağıdakı fikirlərdən hansı A.Türqoya məxsusdur**:

A) Torpağın qiyməti kapitallaşmış rentadır
B) Torpaq rentası, torpağın becərilməsinə sərf edilmiş əmək məhsulunda birinci çıxılmalıdır
C) Mübadilə dəyəri renta ödənməyən torpaq üzərində istehsalda istifadə edilən əmək miqdarı ilə müəyyən olunur
D) Azad rəqabətin əsasında yaranan həqiqi qiymət iqtisadi müvazinətin əsasıdır
E)) Dövlət iqtisadiyyata müdaxilə etməməlidir

**41. Aşağıdakı fikirlərdən hansı fiziokratları xarakterizə edir:**

A)) Onlar "Laisser faire" tərəfdarı olmuşlar

B) Onlar bir tərəfdən iqtisadi hadisə və proseslərə analitik yanaşmış, digər tərəfdən təsviredicilik etmişlər
C) Onlar iqtisadi hadisələrə və hər bir tədbirə cəmiyyətin məhsuldar qüvvələrinin və millətin sərvətinin inkişafı nöqteyi-nəzərdən yanaşmışlar
D) Onlar iqtisadiyyatın insanların iradəsindən asılı olmayan obyektiv qanunların fəaliyyət göstərdiyi bir sistem olması haqqında təlim işləyib hazırlamışlar
E) Onlar siyasi iqtisada həm pozitiv və həm də normativ elm kimi baxmışlar

**42. Aşağıdakı fikirlərdən hansı fiziokratları xarakterizə edir:**

A)) Onlar xalis məhsula vergi qoyulmasının tərəfdarı olmuşlar
B) Onlar bir tərəfdən iqtisadi hadisə və proseslərə analitik yanaşmış, digər tərəfdən təsvirçilik etmişlər
C) Onlar iqtisadi hadisələrə və hər bir tədbirə cəmiyyətin məhsuldar qüvvələrinin və millətin sərvətinin inkişafı nöqteyi-nəzərdən yanaşmışlar
D) Onlar iqtisadiyyatın insanların iradəsindən asılı olmayan obyektiv qanunların fəaliyyət göstərdiyi bir sistem olması haqqında təlim işləyib hazırlamışlar
E) Onlar siyasi iqtisada həm pozitiv və həm də normativ elm kimi baxmışlar

**43. Hansı iqtisadi nəzəriyyə belə nəticəyə gəlir ki, bazarlar uzunmüddətli dövrdə artım tempindən kənarlaşma tendensiyasını özləri tənzimləyirlər:**

A) Keyns nəzəriyyəsi
B) Monetar nəzəriyyə
C))Klassik nəzəriyyə
D) Təklif nəzəriyyəsi
E) Marjinalist nəzəriyyə

**44. P.Buagilberin vergi islahatı kimin xeyrinə idi?**

A)) Yoxsulların
B) Əyanların
C) Kilsənin
D) Vergi yığanların
E) Varlı maliyyəçilərin

**45. U.Pettinin iqtisadi görüşləri elə dövrdə formalaşmışdır ki:**
A) Həmin dövrdə dünya bazarının yaranması və beynəlxalq ticarətin genişlənməsi baş vermişdir
B)) Həmin dövrdə liberal bazar sistemli kapitalist iqtisadiyyatı təşəkkül tapmışdır
C) Həmin dövrdə ilkin kapital yığımı prosesi başa çatmışdır
D) Həmin dövrdə sənaye çevrilişi təzəcə başlamışdı
E) Həmin dövrdə istehsalın manifaktura forması üstünlük təşkil etmişdir
**46. U.Pettinin iqtisadi görüşləri elə dövrdə formalaşmışdır ki:**
A) Həmin dövrdə dünya bazarının yaranması və beynəlxalq ticarətin genişlənməsi baş vermişdir
B)) Həmin dövrdə feodalizmin dağılması başa çatmışdır
C) Həmin dövrdə ilkin kapital yığımı prosesi başa çatmışdır
D) Həmin dövrdə sənaye çevrilişi təzəcə başlamışdı
E) Həmin dövrdə istehsalın manifaktura forması üstünlük təşkil etmişdir
**47. U.Pettinin iqtisadi görüşləri elə dövrdə formalaşmışdır ki:**
A) Həmin dövrdə dünya bazarının yaranması və beynəlxalq ticarətin genişlənməsi baş vermişdir
B))Həmin dövrdə ticarət mənfəəti kapitala çevrilmişdir
C) Həmin dövrdə ilkin kapital yığımı prosesi başa çatmışdır
D) Həmin dövrdə sənaye çevrilişi təzəcə başlamışdır
E) Həmin dövrdə istehsalın manifaktura forması üstünlük təşkil etmişdir
**48. P.Bualgilberin iqtisadi görüşləri elə dövrdə formalaşmışdır ki:**
A) Bu dövrdə burjuaziya təsərrüfatın bütün sahələrində hakim qüvvəyə çevrilmişdir
B) Bu dövrdə iqtisadi və siyasi dəyişikliklər merkantilist siyasətini tutarsız etmişdir

C) Həmin dövrdə burjuaziyanın mənafeyi məhsuldar qüvvələrin və iqtisadi inkişafın mənafeyinə uyğun gəlirdi
D)) Bu döovrdə kənd təsərrüfatının inkişafı üçün stimul yox idi
E) Bu dövrdə feodalizmin dağılması başa çatmış və liberal bazar sistemli kapitalist iqtisadiyyatı təşəkkül tapmışdı

**49. P.Bualgilberin iqtisadi görüşləri elə dövrdə formalaşmışdır ki:**
A) Bu dövrdə burjuaziya təsərrüfatın bütün sahələrində hakim qüvvəyə çevrilmişdir
B) Bu dövrdə iqtisadi və siyasi dəyişikliklər merkantilist siyasətini tutarsız etmişdir
C)Həmin dövrdə burjuaziyanın mənafeyi, məhsuldar qüvvələrin və iqtisadi inkişafın mənafeyinə uyğun gəlirdi
D)) Bu dövrdə feodal sistemi öz əhəmiyyətini saxlayırdı
E) Bu dövrdə feodalizmin dağılması başa çatmış və liberal bazr sistemli kapitalist iqtisadiyyatı təşəkkül tapmışdır

**50. Klassik siyasi iqtisad əməkhaqqını nə ilə əlaqələndirirdi?**
A) Fizioloji minimum ilə
B) Yoxsulluq səviyyəsi ilə
C)) Yaşayış minimumu ilə
D) Əmək məhsuldarlığı ilə
E) Həyat səviyyəsinin yaxşılaşdırılması ilə

**51. A.Türqo hansı fikirləri ilə F.Kenedən fərqlənmişdir:**
A)) Sənaye və ticarət mənfəətinin qəbul edilməsi
B) Milli sərvətin artırılmasının xalis məhsulla müəyyən olunması
C) Yalnız əkinçilikdə xalis məhsulun yaradılması
D) Fiziokratların dəyər nəzəriyyəsinin olmaması
E) Sərvətin yalnız maddi tərəfinə diqqət yetirilməsi

**52. F.Kene fermerləri cəmiyyətin hansı sinfinə aid edirdi?**
A) Mülkiyyətçi sinfə
B) Fəhlə sinfinə
C) Qeyri-məhsuldar, səmərəsiz sinfə
D) Bəhrəhiz sinfə

E)) Məhsuldar sinfə

**53. F.Kenenin fikrincə "Xalis məhsul" harada yaranır?**

A) Ticarətdə D) Sənayedə

B) Sənətkarlıqda E)) Kənd təsərrüfatında

C) Tədavüldə

**54. Aşağıdakı nəzəriyyələrdən hansı həm makro, həm də mikroiqtisadiyyatı öyrənir:**

A) Neoklassik D)) Klassik nəzəriyyə

B) Marksist E) Bunların heç biri

C) Keynsçi

**55. Klassik məktəb sərvətin mənbəyini nədə görürdü?**

A) Qızıl və gümüşdə

B)) Ümumiyyətlə istehsalda

C) Kənd təsərrüfatı istehsalında

D) Sənaye istehsalında

E) Xarici ticarətdə

**56. Klassik siyasi iqtisadın təkamülünün III mərhələsinin nümayəndələri kimlərdir:**

A) D.Rikardo, J.B.Sey, T.R.Maltus

B) C.Mill, J.B.Sey, A.Smit

C) A.Smit, D.Rikardo, U.Petti

D) C.S.Mill, K.Marks, A.Smit

E)) J.B.Sey, T.R.Maltus, K.Marks

**57. Kim torpağı "sərvətin anası" adlandırmışdı:**

A) A.Smit D) D.Rikardo

B)) U.Petti E) J.B.Sey

C) K.Marks

**58. Rentanı təbii qüvvələrin bəxşişi hesab edirdilər:**

A) Merkantilistlər D) Keynsçilər

B)) Fiziokratlar E) Marjinalistlər

C) Marksistlər

**59. Fiziokratların fikrincə, dövlətin funksiyasına aid deyil:**

A)) Ticarətin tənzimlənməsi

B) Mülkiyyətin müdafiəsi

C) İqtisadi liberalizm

D) İctimai xarakter daşıyan müəssisələrin saxlanılması
E) Bütün sadalananlar aiddir

**60. Kimin təlimində izafi məhsul torpaq rentası və faiz formasıda çıxış etmişdir:**

A) A.Smit
B)) U.Petti
C) K.Marks
D) T.R.Maltus
E) S.Sismondi

**61. Klassik siyasi iqtisad məktəbinin tədqiqat predmeti nədən ibarət idi?**

A) Tədavül sferası
B) Ticarətin üstünlüyü
C)) İstehsal sferası
D) Əmtəələrin reallaşdırılması
E) Tədavül və istehsal sferası

**62. U.Pettinin tədqiqatının nəticəsində:**

A) İqtisadiyyat tam sistem, biliyin əsas sahəsi kimi müəyyən edilmişdir
B) Siyasi iqtisad elmə, iqtisadi biliklər sisteminə çevrilmişdir
C) Siyasi iqtisada pozitiv və normativ elm kimi baxmışdır
D)) "Maddi faiz nəzəriyyəsi" yaranmışdır
E) Materialist dialektik metod tətbiq olunmuşdur

**63. A.Türqoya görə kapital:**

A) Toplanmış, maddiləşmiş əməkdir
B) Əşya deyil, ictimai münasibətdir
C) Başqa nemət və xidmətlər istehsalına sərf olunan nemətlər ehtiyatıdır
D))Yığım yolu ilə əmələ gəlir
E) İnsanın əmtəə və xidmətlər istehsalında istifadə olunan biliyi və təcrübəsi, enerjisidir

**64. Təkrar istehsal nəzəriyyəsinin müəllifi kimdir?**

A) U.Petti
B) K.Marks
C) F.Akvinski
D)) F.Kene
E) A.Smit

**65. Aşağıdakı əsərlərdən hansı P.Buagilberə aiddir:**

A) Fransa haqqında təfsilat

B) Fransanın günahlandırılması
C) Fransanın pərakəndə ticarəti
D) Sərvətin, pulun və verginin təbiəti
E)) Bunların hamısı

**66. U.Pettinin iqtisad elminin metodologiyasına gətirdiyi yenilik:**
A)) Elmi abstraksiya, kauzal
B) Statistik-iqtisad metodu
C) Müqayisəli təhlil metodu
D) Eksperiment metodu
E) İqtisadi təhlil metodu

**67. Klassik məktəbin xüsusiyyətlərinə aid deyil:**
A) İqtisadi liberalizm
B) İqtisadiyyatın öz-özünü tənzimləməməsi
C)) İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi
D) Əmək - dəyər nəzəriyyəsi
E) Azad rəqabət

**68. Əmək-dəyər nəzəriyyəsinin əsasını kim qoymuşdur:**
A)) U.Petti
B) A.Smit
C) D.Rikardo
D) K.Marks
E) J.B.Sey

**69. F. Akvinski və F. Kene pulu necə izah edirdilər?**
A) Mübadilə vasitəsidir
B) İnsanlar arasında olan sövdələşmənin nəticəsidir
C)) Qeyri-məhsuldar əmtəədir
D) Kortəbii meydana gələn əmtəədir
E) Tədiyyə vasitəsidir

**70. Xalqın sərvətinin, onun artımının əmək bölgüsünün inkişafından asılılığını əsaslandıran iqtisadçı kimdir?**
A) U.Petti
B) K.Marks
C) F.Akvinki
D) F.Kene
E)) A.Smit

# MÖVZU 6. A.SMİTİN İQTİSADİ TƏLİMİ

**1. A.Smit klassik siyasi iqtisadın yaradıcısı kimi**
**2. A.Smitin iqtisad elminin inkişafındakı xidmətləri**
**3. A.Smitin qısa tərcümeyi-halı**

**Böyük iqtisadçı, Şotland Adam Smit** iqtisad elminə verdiyi töhfəsinə görə bütün müasir iqtisadçı alimlərin hamısına bərabər sayıla bilər. Onun **"Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqatlar" (1776-cı il)** kitabı Adam Smit adını həmişəlik olaraq iqtisadi fikir tarixinə yazmışdır. Hesab edilir ki, bu kitab iqtisad elminin bir müstəqil elm kimi formalaşmasının əsasını qoymuşdur.

Adam Smit 1723-cü ildə Fert-of Fort körfəzi ilə Edinburqdan ayrılan, Kerkoldi adlanan kiçik Şotland şəhərciyində anadan olmuşdur. O, doğulmasına bir neçə ay qalmış çox da varlı olmayan, gömrük məmuru olan atası vəfat etmişdir. Şotlandiya daxilində yaşadığı bütün müddət ərzində anasının yanında yaşamışdır (onun vəfatına kimi-1784-cü il). O, evli olmamışdır. A.Smit 14 yaşında Qlazqo Universitetinə daxil olmuş və 17 yaşında oranı adi humanitar elmlər üzrə diplomla bitirmişdir. Daha sonra təqaüd alaraq təhsilini Oksfordda davam etdirmişdir. Şotlandiyaya qayıtmaqla, Adam Smit 1751-ci ildə Qlazko Universitetində məntiq üzrə professor vəzifəsində işləmiş, sonra daha önəmli olan etika professoru vəzifəsinə layiq görülmüşdür.

1759-cu ildə onun reputasiyasını möhkəmləndirən **"Mənəvi hisslər nəzəriyyəsi"** əsərini yazdıqdan sonra o, gənc hersoqu Avropa boyunca səyahəti zamanı müşayiət etmək məqsədilə 1763-cü ildə kafedradakı vəzifəsini buraxmışdır. O, Fransada səyahəti zamanı dövrün bir sıra tanınmış incəsənət və elm xadimləri Fransua Kene, Ann Robert Jak Türqo, Jan Jak Russo ilə tanış olmuşdur. Adam Smit 1776-cı ildə Kerkoldiyə dönərək, "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında

tədqiqatlar" əsərini yazmağa başlamış və bu kitab üzə çıxdıqdan sonra, Şotlandiyanın gömrük komissarı vəzifəsinə təyin edilmişdir.

Bir iqtisadçı kimi A.Smit əvvəlki yüzillik ərzində alimlərin ideyalarını ümumiləşdirmiş, iqtisad elminin kateqoriyalar sistemini, metodlarını, prinsiplərini işləyib hazırlamış, İngiltərə və digər ölkələrdə, XIX əsrdə inkişafa əhəmiyyətli təsir göstərmişdir. Smitin bəzi müddəaları öz əhəmiyyətini hələ də saxlayır. Həm marksizm, həm də qeyri-marksizm elmində Smit klassik siyasi iqtisadın ən görkəmli nümayəndəsi hesab olunur. Klassiklərın arasında Smitin rolunun şərhində başlıca fərq ondan ibarətdir ki, marksizm Smit təlimini, ilk növbədə, K.Marksın iqtisadi sisteminə, xüsusilə onun əmək-dəyər nəzəriyyəsinə və izafi dəyər nəzəriyyəsinə gedən yolda elmin inkişafında mərhələ kimi nəzərdən keçirir. Qeyri-marksizm elmi isə onu daha geniş və daha az ideologiyalaşmış mövqelərdən izah edir.

A.Smit əmək-dəyər nəzəriyyəsinin ən sadə postulatlarını qəbul edir və göstərir ki, o, əmtəə mübadiləsini yalnız cəmiyyətin primitiv halında tənzimləyir. Halbuki istehsal alətləri fondu kimi dərk olunan kapital əmək prosesində zəif rol oynayır. Kapitalizm şəraiti üçün Smit əmtəə dəyərinin formalaşmasında, eləcə də bölüşdürülən məhsulda istehsal amillərinin paylarının müəyyən kapitalın və əməyin birgə iştirakı ideyasına meyil edir. Smitə görə cəmiyyət üç əsas sinifdən – kapitalistlərdən, muzdlu fəhlələrdən və torpaq sahiblərindən ibarətdir. Özü də o, torpaq sahiblərinin, əməyi qeyri - məhsuldar əhali qruplarının, ev qulluqçularının və dövlət idarəetməsinə qədər olan ictimai qulluq sferası işçilərinin ictimai əməyinə son dərəcə tənqidi yanaşırdı.

A.Smit iqtisadi sistemin qurulmasının əsas prinsiplərini araşdıraraq, maddi istehsal məhsullarını millətin sərvətinin əsası olması qənaətinə gəlmişdir. Dövlətin, ölkənin iqtisadiyyatı-

na tamamilə qarışmaması prinsipini millətin sərvətinin şərti kimi qiymətləndirmişdi.[12]

A.Smit izah edirdi ki, istehsalın məqsədi istehlakçıları təmin etməkdir. O, deyirdi ki, könüllü mübadilədə insanlar öz xüsusi maraqlarını güdməklə istehlakçıların maraqlarına xidmət edirlər. Onlar istehlakçılara daha çox fayda verə biləcəkləri işlər və biznes sahələri üzrə işləyərkən daha yaxşı necə ixtisaslaşmağı müəyyən edirlər.

Lakin mübadilədə qazanılan uğurlar da insanları yeni məhsullar istehsal etməyə, yeni işlər görməyə, istehsalın yeni yollarını axtarmağa ruhlandırır. Smit deyirdi ki, biz iqtisadiyyatın "gözəgörünməz əli" ilə idarə olunmaqla, dövlətin maddi sərvətini artırır və bu zaman bazardakı istehlakçılara daha yaxşı xidmət etmək üçün öz fərdi maraqlarımızdan, istedad və qabiliyyətimizdən istifadə edirik. Adam Smit öz iti gözü ilə görmüşdü ki, könüllü mübadilə insanların fəaliyyətini necə təşkil edə və əlaqələndirə bilər. Hətta bu gün də onun gördükləri diqqətəlayiqdir.

A.Smit muzdlu fəhlələrə rəğbətlə yanaşaraq qeyd edirdi ki, əgər cəmiyyətin böyük bir hissəsi kasıb və bədbəxtdirsə, o inkişaf edib xoşbəxt ola bilməz. Ədalətsizlikdir ki, öz əməyi ilə bütün cəmiyyəti dolandıran adamlar dilənçi həyatı keçirsinlər. A.Smit insanı ideallaşdırmış, o insanın qüsurlarını və zəif cəhətlərini görür və yazırdı: "İnsanların hamısında bu cəhət eynidir, onlar daimi olaraq öz vəziyyətini yaxşılaşdırmağa çalışır - elə bundan da ictimai, milli və həmçinin şəxsi sərvətlər əmələ gəlir". O özünün əvvəlki sələflərindən fərqli olaraq başa düşməyə və sübut etməyə çalışırdı ki, milli sərvətlər yalnız kənd təsərrüfatı və ticarətdə deyil, iqtisadiyyatda da mövcud olan istehsal sferasının bütün növlərində yaradılır. Böyük şotland alimi göstərirdi ki, əmtəə mübadiləsi yalnız o halda baş tutur ki, bu sövdələşmə hər iki tərəf üçün fayda gətirsin.

---

[12]Bax. Ümüdvar Əliyev. İqtisadi elminin aktual problemləri. Bakı, 2013.-səh.6.

A.Smitin tədqiqat metodologiyasında iqtisadiyyatın liberallaşması, onun əsaslarını bazar iqtisadi münasibətlərinin təşkil etməsi mühüm yer tutur. O hesab edirdi ki, tərəqqinin başlıca hərəkətverici qüvvəsi azad rəqabət vasitəsilə istehsal iştirakçılarının daha tez reallaşan xüsusi marağıdır. Bir qayda olaraq, rəqabətin məhdudlaşması, habelə inhisar iqtisadi artıma və əhalinin maddi vəziyyətinin yaxşılaşmasına mane olur. Smit dövlətin iqtisadi rolunu inkar etmir, lakin "oyun qaydaları" üzərində onun nəzarət funksiyalarının məhdudlaşdırılması təklifini irəli sürürdü.

A.Smitin xidmətləri, həmçinin, vergiqoymanın, bank sisteminin, xarici ticarət siyasətinin və s. səmərəli prinsiplərinin işlənib hazırlanmasında əhəmiyyətlidir.

A. Smit Edinburqda 1970-ci ilin iyul ayında, 68 yaşında vəfat etmişdir.

## Testlər

*(Qeyd: " ))" - bu işarə düzgün cavabı göstərir)*

**1. A.Smitə görə hansı sahəyə tətbiq olunan kapital daha çox dəyər yaradır?**

A)) Əkinçilik
B) Ticarət
C) Sənaye
D) Xidmət
E) İctimai iaşə

**2. A.Smitin tədqiqatının nəticəsində:**

A) İqtisadiyyat tam sistem, biliyin əsas sahəsi kimi müəyyən edilmişdir
B)) Siyasi iqtisad elmə, iqtisadi biliklər sisteminə çevrilmişdir
C) Pulun miqdar nəzəriyyəsinə üstünlük verilmişdir
D) Kapitalın elmi təhlili verilmişdir
E) Materialist dialektik metod tətbiq olunmuşdur

**3. A. Smit "görünməyən əl"i necə izah edirdi?**

A) İqtisadiyyatı cəmiyyətin mənafeyi baxımından dövlət idarəçilik mexanizmi kimi

B)) Azad rəqabət şəraitində obyektiv iqtisadi qanunlara əsaslanan sahibkarların fəaliyyəti kimi
C) İlahi tərəfindən irəlicədən müəyyən edilən təsərrüfat mexanizmi kimi
D) Dəyərin qiymətlə əlaqəsi kimi
E) Qiymətin tənzimlənməsi kimi

**4. A. Smit dəyər nəzəriyyəsini necə izah edirdi?**

A) Cəmiyyətin mənafeyi baxımından iqtisadiyyatın dövlət idarəçilik mexanizmi kimi
B) Azad rəqabət şəraitində obyektiv iqtisadi qanunlara əsaslanan sahibkarların fəaliyyəti kimi
C) İlahi tərəfindən irəlicədən müəyyən edilən təsərrüfat mexanizmi kimi
D)) Dəyərin qiymətlə əlaqəsi kimi
E) Qiymətin tənzimlənməsi kimi

**5. A.Smitin tədqiqatının çıxış nöqtəsi:**

A) Görünməz əl nəzəriyyəsi
B) Əmək - dəyər nəzəriyyəsi
C)) Əmək bölgüsü
D) Yeniliklərin tətbiqi
E) İqtisadi ehtiyatların məhdudluğu

**6. Aşağıdakıların hansı A.Smitin tədqiqat obyektinə aiddir:**

A) Görünməz əl nəzəriyyəsi
D) Əmək - dəyər nəzəriyyəsi
B) Əmək bölgüsü
C) İnsan eqoizmi
E)) Bunların hamısı

**7. Aşagıdakılardan hansı A. Smitin tədqiqat obyektinə aid deyil?**

A) Siyasi iqtisadın elmə, iqtisadi biliklər sisteminə çevrilməsi
B) İnsanların mürəkkəb təsərrüfat fəaliyyətini idarə edən "iqtisadi insan" ideyasının elmi dövriyyəyə gətirməsi
C) "Görünməz əl" anlayışlar ideyasının elmi dövriyyəyə gətirməsi

D) Xalqın sərvətinin, onun artımının əmək bölgüsünün inkişafından asılılığının əsaslandırılması
E))Təbii və bazar qiymətlərinin fərqləndirilməsi

**8. Aşagıdakılardan hansı A. Smitin tədqiqat obyektinə aid deyil?**

A) Siyasi iqtisadın elmə, iqtisadi biliklər sisteminə çevrilməsi
B) İnsanların mürəkkəb təsərrüfat fəaliyyətini idarə edən "iqtisadi insan" ideyasının elmi dövriyyəyə gətirməsi
C) "Görünməz əl" ideyasının elmi dövriyyəyə gətirməsi
D) Xalqın sərvətinin, onun artımının əmək bölgüsünün inkişafından asılılığının əsaslandırılması
E)) Kapital yığımı ümumi qanununun kəşfi

**9. Aşagıdakılardan hansı A.Smitin tədqiqat obyektinə aiddir:**

A) Siyasi iqtisadın elmə, iqtisadi biliklər sisteminə çevrilməsi
B) İnsanların mürəkkəb təsərrüfat fəaliyyətini idarə edən "iqtisadi insan" ideyasının elmi dövriyyəyə gətirməsi
C) "Görünməz əl" anlayışlar ideyasının elmi dövriyyəyə gətirməsi
D) Xalqın sərvətinin, onun artımının əmək bölgüsünün inkişafından asılılığının əsaslandırılması
E)) Bunların hamısı

**10. Aşağıdakılardan hansı A.Smitin tədqiqat obyektinə aiddir:**

A)) Sərvətin pulla eyniləşdirilməsinin inkarı
B) Pulun miqdar nəzəriyyəsinə üstünlük verilməsi
C) Materialist dialektik metodun tətbiqi
D) Təbii və bazar qiymətlərinin fərqləndirilməsi
E) İqtisadiyyatın tam sistem kimi müəyyən edilməsi

**11. Aşağıdakılardan hansı A.Smitin tədqiqat obyektinə aiddir:**

A) Sərvətin pulla eyniləşdirilməsi
B) Pulun miqdar nəzəriyyəsinə üstünlük verilməsi
C)) Kapitalizmdə gəlirin dəqiq təsnifatının verilməsi

D) Təbii və bazar qiymətlərinin fərqləndirilməsi
E) İqtisadiyyatın tam sistem kimi müəyyən edilməsi

**12. Kim əməkhaqqına əməyin təbii qiyməti kimi baxmış, onun kəmiyyətini zəruri yaşayış vasitələrinin dəyərinə bərabər tutmuşdur?**

A) P. Prudon
B)) A.Smit
C) D.Rikardo
D) J.B.Sey
E) C.Mill

**13. A.Smit əmək bölgüsünü necə izah edirdi:**

A)) Sərvəti artmağın başlıca amili kimi
B) İstehsal xərcləri kimi
C) İstehsal xərclərinin faydalılığı kimi
D) Əmək haqqının, mənfəət və torpaq rentasının cəmi kimi
E) İstehsalın əsas amili kimi

**14. A.Smit əməkhaqqını necə izah edirdi:**

A) Sərvəti artmağın başlıca amili kimi
B))Əməyin təbii qiyməti kimi
C) İstehsal xərcləri kimi
D) İstehsalın əsas amili kimi
E) İstehsal xərclərinin faydalılığı kimi

**15. Aşağıdakı fikirlərdən hansı A.Smitin "Xalqların sərvəti" əsərinin tədqiqat obyektinə aiddir?**

A) Vergiqoymanın prinsipləri
B) Dövlət gəlirlərinin mənbəyi
C) Kapitalizmin inkişafının tarixi şəraiti
D) Əvvəlki iqtisadi məktəblərin tənqidi
E)) Bunların hamısı

**16. Aşağıdakı əlamətləri ilə səciyyələnən "iqtisadi insan" modelinin banisi kimdir:-iqtisadi davranışının səbəblərində şəxsi maraqların müəyyənləşdirici rolu:-iqtisadi subyektin öz işlərində səriştəliyi:-bazar iqtisadiyyatında insanın təsərrüfat fəaliyyətinin əsas səbəbi-rifahın qeyri-pul amilləri nəzərə alınmaqla gəlirin maksimumlaşdırılması:**

A) A.Marşall
D))A.Smit

B) C.Bentam E) Bunların hamısı
C) C.Mill

**17. A.Smit dəyərin ölçüsü kimi nəyi əsas götürmüşdü:**

A))Əmtəənin istehsalı üçün zəruri olan iş vaxtını

B) Bütün cəmiyyətin tələbatı ilə bu tələbatı ödəməyə kifayət edən əməyin miqdarı arasındakı nisbəti kimi

C) Pis istehsal şəraitində əmtəə istehsalına sərf olunan iş vaxtını

D) Əmtəə istehsalına sərf olunan iqtisadi məsrəfləri

E) Nemətin iqtisadi faydalılığı ilə

**18. A.Smit mənfəəti necə izah edirdi:**

A)) Bütün avans olunmuş kapitalın bölməsi kimi

B) Bütün cəmiyyətin tələbatı ilə bu tələbatı ödəməyə kifayət edən əməyin miqdarı ilə

C) Pis istehsal şəraitində əmtəə istehsalına sərf olunan iş vaxtı ilə

D) Əmtəə istehsalına sərf olunan iqtisadi məsrəflərin cəmi kimi

E) Nemətin iqtisadi faydalılığı ilə

**19. A.Smitin əmək-dəyər nəzəriyyəsinin ziddiyyəti ondadır ki:**

A))O əməklə kapital arasındakı mübadilə prosesini və əmtəələrin reallaşmasında əmələ gələn gəlirlərin təhlilini əmək-dəyər mövqeyində apara bilməmişdir

B) O bölgünün cəmiyyətin maddi sərvətinin artması üçün daha əlverişli sosial şəraitin yaratdığını duymuşdur

C) O dəyərin mütləq və nisbi formada olduğunu göstərmişdir

D) O dəyərin bilavasitə mənbəyini yalnız bir müəyyən konkret əmək olduğunu göstərmişdir

E) O qızıl, gümüş və digər qiymətli metallar istehsalına sərf olunan konkret əməyi ümumi əmək kimi vermişdir

**20. A.Smitin ilk böyük əsəri hansı olmuşdur?**

A) "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat"

B)) "Əxlaqi hisslər nəzəriyyəsi"

C) "Siyasi iqtisadın və vergiqoymanın əsasları"

D) "Pul haqqında müxtəlif düşüncələr"
E) "Vergilər və rüsumlar haqqında traktat"

**21. A.Smit elə bir dövrdə yaşamışdır ki:**

A) Həmin dövrdə iri torpaq mülkiyyətçilərinin mənafeyi müdafiə olunmuşdu
B) Həmin dövrdə burjuaziyanın mənafeyi iqtisadi inkişafın mənafeyinə uyğun gəlirdi
C) Liberal bazar sistemli kapitalist iqtisadiyyatı təşəkkül tapmışdı
D))İlkin kapital yığımının tarixi prosesi yenicə başa çatmışdı
E) Qərbi Avropa ölkələrinin sosial-iqtisadi həyatında böyük dəyişikliklər baş vermişdi

**22. A.Smit elə bir dövrdə yaşamışdır ki:**

A) Həmin dövrdə iri torpaq mülkiyyətçilərinin mənafeyi müdafiə olunmuşdu
B) Həmin dövrdə burjuaziyanın mənafeyi iqtisadi inkişafın mənafeyinə uyğun gəlirdi
C) Liberal bazar sistemli kapitalist iqtisadiyyatı təşəkkül tapmışdı
D))Sənaye çevrilişinə təzəcə başlamışdır
E)Qərbi Avropa ölkələrinin sosial-iqtisadi həyatında böyük dəyişikliklər baş vermişdi

**23. A.Smit elə bir dövrdə yaşamışdır ki:**

A) Həmin dövrdə iri torpaq mülkiyyətçilərinin mənafeyi müdafiə olunmuşdu
B) Həmin dövrdə burjuaziyanın mənafeyi iqtisadi inkişafın mənafeyinə uyğun gəlirdi
C) Liberal bazar sistemli kapitalist iqtisadiyyatı təşəkkül tapmışdı
D))Bu dövrdə burjuaziya təsərrüfatın bütün sahələrində hakim qüvvəyə çevrilmişdir
E)Qərbi Avropa ölkələrinin sosial-iqtisadi həyatında böyük dəyişikliklər baş vermişdi

**24. A.Smitin mühüm xidməti odur ki,**
A)) O kapitalizmdə gəlirin dəqiq təsnifatını vermişdir
B) O pis istehsal şəraitindəki əmək məsrəflərini dəyərin tənzimləyicisi hesab etmişdir
C) O mənfəəti  artıq dəyər adlandırmış, onun fəhlə tərəfindən yaradıldığını və kapitalist tərəfindən mənimsənildiyini qeyd etmişdir
D) O təbii azadlıq sistemində siniflər arasında azalması mümkün olmayan mənafe çatışmazlığını əlaqələndirmişdir
E) O əməyin kapitalist tərəfindən istismar olunduğu fikrini irəli sürmüşdür
**25. A.Smit hesab edirdi  ki;**
A)) İqtisadi tərəqqi dövründə əməkhaqqı artmalıdır, çünki inkişaf etməkdə olan iqtisadiyyatda əməyə böyük tələbat var
B) Pis istehsal şəraitindəki əmək məsrəfləri dəyəri tənzimləyir
C) Mənfəət  artıq dəyərdir o,  fəhlə tərəfindən yaradılır və kapitalist tərəfindən mənimsənilir
D) Təbii azadlıq sistemində siniflər arasında azalması mümkün olmayan mənafe çatışmamazlığı var
E) Əmək kapitalist tərəfindən istismar olunur
**26. A.Smitə görə:**
A) Yüksək əməkhaqqı əmək məhsuldarlığının mühüm stimuludur
B) Əgər mənfəət və əməkhaqqı qiymətə münasibətə görə birincidirsə, renta isə ona münasibətdə ikincidir
C) Renta qiymət ilə əməkhaqqı və mənfəətin fərqidir
D) Həqiqi sərvətin hər cür artımı onda tətbiq olunan əməyin miqdarının hər cür artımı, dolayısı torpaqdan əldə olunan rentanın yüksəlməsinə gətirib çıxarır
E)) Bunların hamısı
**27. Klassik iqtisadın nümayəndəsi A.Smitə görə kapital:**
A)) Toplanmış, maddiləşmiş əməkdir
B) Əşya deyil, ictimai münasibətdir

C) Başqa nemət və xidmətlər istehsalına sərf olunan nemətlər ehtiyatıdır
D) Puldur
E) İnsanın əmtəə və xidmətlər istehsalında istifadə olunan biliyi və təcrübəsi, enerjisidir

**28. Azadlıq şəraitində fəaliyyət göstərən iqtisadiyyatın elmi sistemini ilk dəfə kim yaratmışdır:**
A) K.Marks
B) D.Rikardo
C) A.Marşall
D)) A.Smit
E) U.Petti

**29. A.Smitin bazar haqqında təliminin əsas müddəası:**
A)) "Görünməz əl" nəzəriyyəsi
B) Əmək - dəyər nəzəriyyəsi
C) Əmək bölgüsü
D) Yeniliklərin tətbiqi
E) İqtisadi ehtiyatların məhdudluğu

**30. Aşağıdakı əsərlərdən hansı A.Smitə aiddir:**
A) "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat"
B) "Əxlaqi hisslər nəzəriyyəsi"
C) "Pul tədavülün böyük təkəridir, mübadilə və ticarətdə böyük vasitədir"
D)) Bunların hamısı
E) Bunların heç biri

**31. A.Smit dəyəri necə izah edirdi:**
A) Tələb və təklif ilə
B) İstehsal xərcləri ilə
C) İstehsal xərclərinin faydalılığı tələbi ilə
D)) Əmək haqqının, mənfəət və torpaq rentasının cəmi ilə
E) İstehsalın üç amili ilə

**32. A.Smitin mühüm xidməti odur ki,**
A)) O ümumiləşdirilmiş abstrakt əsas və dövriyyə kapitalı anlayışını irəli sürür. Bu iki növ kapital arasındakı fərqi o, dövriyyə kapitalının tədavül vasitəsilə mənfəət, əsas kapitalın isə tədavülsüz mənfəət gətirməsində görür

B) Pis istehsal şəraitindəki əmək məsrəflərini dəyərin tənzimləyicisi hesab edir
C) O mənfəəti artıq dəyər adlandırmış onun fəhlə tərəfindən yaradıldığını və kapitalist tərəfindən mənimsənildiyini qeyd edir
D) Təbii azadlıq sistemində siniflər arasında azalması mümkün olmayan mənafe çatışmazlığı mümkündür. Bu cəmiyyəti xaosa sürükləyir
E) Əməyin kapitalist tərəfindən istismar olunduğu fikrini irəli sürür

**33."Bazarın görünməz əli" ifadəsi kimə aiddir?**
A) C.M.Keynsə
B) M.Fridmenə
C) A.Marşalla
D)) A.Smitə
E) D.Rikardoya

**34. A.Smit siyasi iqtisadın vəzifəsini nədə görürdü?**
A)) Dövlətə və yaxud cəmiyyətə ictimai tələbat üçün lazımı qədər gəlir gətirməkdə
B) Dövlətdən asılı olan xalqın maddi rifah halında
C) İqtisadi fəaliyyət prosesində insanlar arasında yaranan münasibətlərdə
D) Məhsuldar qüvvələrin səviyyəsindən asılı olan istehsal münasibətlərində
E) Məhdud resurslar şəraitində sonsuz tələbatların ödənilməsində

**35. A.Smit mənfəəti necə izah etmişdir:**
A) Kapitalın qazancı kimi
B)) Avans olunmuş kapitalın törəməsi kimi
C) Mənfəəti izafi dəyərin çevrilmiş forması kimi
D) İzafi dəyərin mənfəətə bərabər olması kimi
E) Fəhlənin öz dəyərindən artıq yaratdığı dəyər kimi

**36. Əmək-dəyər nəzəriyyəsinin ilk müəllifi kim olmuşdur:**
A)) A.Smit
B) K.Menger
C) D.Rikardo
D)K.Marks
E)J.B.Sey

**37. Aşağıdakılardan hansı A.Smitin pul haqqındakı fikirlərinə aiddir**:
A) Pulun tədavül sürəti
B) Pula tələb və onu müəyyən edən amillər
C)) Pulun mübadilə funksiyası
D) Kağız pulun qızıla dəyişdirilə bilməsi
E) Qızılın beynəlxalq hərəkətinin mexanizmi
**38. Xalqın sərvətinin, onun artımının əmək bölgüsünün inkişafından asılılığını əsaslandıran iqtisadçı kimdir?**
A) U.Petti
B) K.Marks
C) F.Akvinski
D) F.Kene
E)) A.Smit
**39. İqtisad elminin tədqiqat obyekti barədə fikirlərdən A.Smitə aid olanı seçin:**
A) İqtisad elmi fərdi və ictimai fəaliyyətlərin, rifahın maddi əsaslarının yaradılması və istehlakı ilə sıx əlaqədə olan sferanı öyrənir
B)) İqtisad elmi xalqı yaşayış vasitələrini əldə etmək ilə təmin etməlidir
C) İqtisad elmi insanın maddi nemətlərə olan münasibətini izah edir
D) İqtisadiyyat qanunlara, qaydalara və normalara müvafiq olaraq idarə olunan təsərrüfat sistemidir
E) İqtisadiyyat istehsal və mübadilə qanunlarını öyrənən elmdir
**40. Kim iqtisadi hadisələrə və hər bir tədbirə məhsuldar qüvvələrin və millətin sərvətinin inkişaf nöqteyi-nəzərdən yanaşmışdır:**
A) K.Marks
B) D.Rikardo
C) A.Marşall
D))A.Smit
E) U.Petti

## MÖVZU 7. D.RİKARDONUN İQTİSADİ TƏLİMİ

**1. D.Rikardo klassik iqtisad elmi sisteminin başa çatdırıcısı kimi**
**2. D.Rikardonun iqtisad elminin inkişafında xidmətləri**
**3. D.Rikardonun qısa tərcümeyi-halı**

İngilis klassik siyasi iqtisadının nümayəndəsi, siyasi iqtisadda əmək-dəyər nəzəriyyəsinin banilərində biri olan **David Rikardo** 1772-ci ildə Hollandiyadan miqrasiya etmiş ispan yəhudisi ailəsində anadan olmuşdur və ailənin üçüncü uşağı idi. Davidin 12 yaşı olanda atası onu Amsterdama dayısının yanına göndərir. O burada iki il ticarət məktəbində təhsil alır və 14 yaşında atasının yanına qayıtdıqdan sonra ona birja və ticarət əməliyyatlarında kömək edir. 21 yaşında olarkən o, valideynlərinin istəklərinin əksinə olaraq xristian qızı ilə evlənmiş, valideynləri dərhal onu vərəsəlikdən məhrum etmişlər. Çarəsizlikdən sonralar o özünü müstəqil şəkildə saxlamaq üçün qiymətli kağızlarla spekulyasiya və kredit müqavilələrinin bağlanmasında vasitəçilik etməklə varlanmışdır.

David Rikardo London Səhm Birjasında müvəffəqiyyət qazanmış İngiltərə sakini idi. Onun sərvəti ona imkan vermişdir ki, Parlamentdə İcmalar Palatasında işləsin və əsərlər yazsın. Onun ən məşhur əsəri **"Siyasi iqtisad və vergi qoyuluşunun prinsipləri"dir (1817)** və bu əsər onu Adam Smitdən sonra klassik iqtisadiyyatda ən nüfuzlu bir şəxsiyyət kimi tanıtmışdır.

D.Rikardo iqtisadiyyatı mürəkkəb bir sistem kimi tədqiq etməyə və əsas müvazinət şərtlərini müəyyən etməyə çalışmışdır. Bu, Rikardoda belə bir inamla bağlı idi ki, iqtisadiyyatda obyektiv qanunlar fəaliyyət göstərir və əsas meyillər kimi bu qanunların fəaliyyətini təmin edən mexanizmlər mövcuddur. İqtisad elmində elmi tədqiqat metodlarının işlənməsində,

pul tədavülü, kredit, torpaq rentası, beynəlxalq iqtisadi münasibətlər, vergilər kimi konkret sahələrin inkişafında Rikardonun əsərləri böyük rol oynamışdır.

D.Rikardonun fikrincə, dəyər hər hansı əmtəənin istehsalına yönəlmiş əməyin nəticəsi ilə deyil, əlverişsiz şəraitdə istehsal olunmuş eyni əmtəəyə sərf edilən əməklə ölçülməlidir. Bu isə kənd təsərrüfatında qiymətəmələgəlmənin əsasını təşkil edir. Rikardo əmtəənin əmək vasitələrinin yaratması haqqında əvvəllər mövcud olmuş baxışları tənqid edir və bildirirdi ki, əmək vasitələri özləri köhnə əməyin nəticəsində yaradılmışdır və o da öz dəyərini yeni yaradılmış əmtəənin üzərinə keçirir. *Eyni zamanda, Rikardonun "Müqayisəli üstünlüklər nəzəriyyəsi"nin banisi kimi xarici ticarətin və beynəlxalq əmək bölgüsünün inkişafında əvəzsiz xidmətləri olmuşdur.* Öz əsərlərində Rikardo göstərmişdir ki, azad ticarət, onun müqayisəli üstünlük adlandırdığı prinsip əsasında daha çox faydaya malikdir. Rikardo bu prinsipi izah edərkən, Portuqaliya və İngiltərəni misal çəkmişdir; bu ölkələrin hər ikisi şərab və parça istehsal edir. O, aşağıdakı mülahizələr vasitəsilə hər iki ölkənin üstünlüyünü nəzərdən keçirir:

Şərabın "x" barreli parçanın "y" yardına bərabərdir (və deməli, rahat bir tərzdə mübadilə edilir).

Portuqaliyada fəhlələrdən 80 nəfəri bir ildə "x" barrel şərab istehsal edir. Bu qədər barrel şərab istehsal etmək üçün 120 ingilis fəhləsi bu işlə məşgul olmalıdır.

Portuqaliyada 90 fəhlə bir ildə "y" yard parça istehsal edə bilər. "Y" yard parça istehsal etmək üçün 100 ingilis fəhləsi lazımdır.

Biz görə bilərik ki, - Rikardo yazır - Portuqaliyada şərab və parça İngiltərədə olduğundan daha effektiv istehsal edildiyinə baxmayaraq, Portuqaliya şərab istehsalında ixtisaslaşmalı və İngiltərənin parçasını idxal etməlidir. Bu ona görədir ki, İngiltərə ilə ticarət etməklə Portuqaliya 80 fəhlə həcmində

parça əldə edə bilər ki, bu həcmdə parça Portuqaliyada 100 fəhlə həcmində məsrəflər tələb edərdi.

Bu sövdələşmədən, həmçinin İngiltərə də fayda götürür. Parça istehsalında ixtisaslaşmaqla, o, 100 fəhlə məsrəfi həcmində şərab əldə edir və bu qədər şərab İngiltərədə istehsal edilsəydi, 120 fəhlə qədər məsrəflər tələb olunardı.

1819-1823-cü illərdə ingilis parlamentinin üzvü olduğu dövrdə özünün inqilabi baxışlarını tətbiq etməyə başlamış, parlament tribunasından həmişə azad ticarətin müdafiəsinə qalxmış, proteksionizmin əleyhinə çıxış etmişdir.

Parlamentin üzvü kimi, Rikardo hökumətə təzyiq göstərirdi ki, ticarət maneələri siyasətindən əl çəksin. Bu məqsədə çata bilmədiyinə baxmayaraq, onun səyləri 1840-cı illərdə bəhrə verdi və İngiltərə azad ticarət siyasətini qəbul etmiş birinci sənaye dövləti oldu. Bundan sonra 70 il ərzində iqtisadi yüksəliş baş verdi və bu müddət ərzində dünyanın ən varlı sənaye dövləti oldu.

Rikardo böyük ailə başçısına, ailəcanlı adama xas olan bütün yüksək keyfiyyətlərə malik idi. Rikardonun nəinki uşaqları, eyni zamanda kiçik qardaş və bacıları, hətta həyat yoldaşının qohumları da ona alicənab, qayğıkeş və ədalətli bir insan kimi baxırdılar.

D.Rikardonun renta nəzəriyyəsi bu gün də əhəmiyyətini itirməmişdir. Bu nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, torpaq sahəsinin məhdudluğu, keyfiyyətcə və məkanca eyni olmaması pis torpaq sahələrindən də istifadə olunması zərurəti yaradır. Pis torpaq sahələrinə nisbətən yaxşı və orta torpaq sahələrindən əldə olunan gəliri D. Rikardo renta adlandırır və onu qiymətə daxil etmir.[13]

D.Rikardo 1823-cü ildə, 51 yaşında beyin soyuqdəyməsindən vəfat etmişdi.

---

[13]Bax: Əliyeva A.M. Qiyabi ali təhsil alanlar üçün "İqtisadi təlimlər tarixinin öyrənilməsi"nə dair metodik vəsait. Bakı, 2001, səh.21.

## Testlər

*(Qeyd: " ))"- bu işarə düzgün cavabı göstərir)*

**1. A.Smit və D.Rikardo göstərmişdilər ki, kapitalizm üçün əsas problem**:
A) Satış problemidir
B) Kəsirli istehlak nəzəriyyəsidir
C)) İstehsalın artımını təmin edən yığımdır
D) Əhali artıqlığıdır
E) Durğunluq problemidir

**2. Kimin nəzəriyyəsi klassik siyasi iqtisadın zirvəsi hesab olunur?**
A) C.M.Keynsin
B) M.Fridmenın
C) A.Marşallın
D) A.Smitin
E))D.Rikardonun

**3. Klassik iqtisadın nümayəndəsi D.Rikardoya görə kapital:**
A) Toplanmış, maddiləşmiş əməkdir
B) Əşya deyil, ictimai münasibətdir
C) Başqa nemət və xidmətlər istehsalına sərf olunan nemətlər ehtiyatıdır
D)) İstehsal vasitələridir
E) İnsanın əmtəə və xidmətlər istehsalında istifadə olunan biliyi və təcrübəsi, enerjisidir

**4. D.Rikardonun əmək-dəyər nəzəriyyəsinin əsas xüsusiyyəti ondan ibarətdir ki;**
A) O əməklə kapital arasındakı mübadilə prosesini və əmtəələrin reallaşmasında əmələ gələn gəlirlərin təhlilini əmək-dəyər mövqeyində apara bilməmişdir
B) O bölgünün cəmiyyətin maddi sərvətinin artması üçün daha əlverişli sosial şəraitin yaratdığını duymuşdur
C)) O dəyərin mütləq və nisbi formada olduğunu göstərmiş və öz qarşısına əmtəənin mütləq dəyərini deyil, nisbi dəyərinin dəyişikliklərinin təsirini öyrənmək məqsədini qoymuşdur

D) O dəyərin bilavasitə mənbəyini yalnız bir müəyyən konkret əmək olduğunu göstərmişdir
E) O dəyərin mənbəyini, qızıl, gümüş və digər qiymətli metallar istehsalına sərf olunan konkret əməyi, ümumi əmək kimi vermişdir
**5. Aşağıdakı fikirlərdən hansı D.Rikardoya məxsusdur**:
A) Torpağın qiyməti kapitallaşmış rentadır
B) Torpaq rentası, torpağın becərilməsinə sərf edilmiş əmək məhsulunda birinci çıxılmalıdır
C)) Mübadilə dəyəri renta ödənməyən torpaq üzərində istehsalda istifadə edilən əmək miqdarı ilə müəyyən olunur
D) Azad rəqabətin əsasında yaranan həqiqi qiymət iqtisadi müvazinətin əsasıdır
E) Dövlət iqtisadiyyata müdaxilə etməməlidir
**6. D.Rikardo dəyəri nəyin əsasında müəyyən edirdi?**
A)) Əmək məsrəfinin
B) Qıtlıq dərəcəsinin
C) Xərclər nəzəriyyəsinin
D) Müqayisəli xərclər nəzəriyyəsinin
E) Faydalılıq nəzəriyyəsinin
**7. D.Rikardo dəyəri nəyin əsasında müəyyən edirdi?**
A)) Əmək-dəyər  nəzəriyyəsi
B) Reallaşma nəzəriyyəsi
C) Xərclər nəzəriyyəsi
D) Müqayisəli xərclər nəzəriyyəsi
E) Faydalılıq nəzəriyyəsi
**8. D.Rikardo bölgünü nəyin əsasında müəyyən edirdi?**
A) Əmək məsrəfinin
B)) Əmək-dəyər nəzəriyyəsinin
C) Xərclər nəzəriyyəsinin
D) Müqayisəli xərclər nəzəriyyəsinin
E) Faydalılıq nəzəriyyəsinin

**9. D.Rikardonun hansı fikirləri iqtisad elminin qızıl fonduna daxil olmuşdur:**
A) Əmək - dəyər nəzəriyyəsi
B) Əmək haqqı nəzəriyyəsi
C) Pulun miqdar nəzəriyyəsi
D) Vergi və vergiqoyma məsələləri
E))Torpaq rentası ilə bağlı fikirlər
**10. Aşağıdakı nəzəriyyələrdən D.Rikardoya aid olanını seçin:**
A) Əmək - dəyər nəzəriyyəsi
B) Vergi və vergiqoyma məsələləri
C) Pulun miqdar nəzəriyyəsi
D) Torpaq rentası ilə bağlı fikirlər
E))Bunların hamısı
**11. D.Rikardoya görə, rentanın kəmiyyəti nədən asılıdır?**
A) Kənd təsərrüfatına çəkilən əmək məsrəflərindən
B))Kənd təsərrüfatı istehsalına cəlb olunmuş torpaqlardakı məhsuldarlıq fərqindən
C) Torpağın məhsuldarlığının azalması qanunundan
D) Orta mənfəət normasından
E) Torpaqlara çəkilən əmək məsrəflərindən
**12. Aşağıdakılardan hansı D.Rikardonun tədqiqat obyektinə aiddir:**
A) "İqtisadi insan" anlayışının elmi dövriyyəyə gətirməsi
B) Xalqın sərvətinin əmək bölgüsünün inkişafından asılılığının əsaslandırılması
C) Sərvətin pulla eyniləşdirilməsinin inkarı
D) Kapitalizmdə gəlirin dəqiq təsnifatının verilməsi: əməkhaqqı, mənfəət, renta
E)) Diferensial rentanın mövcudluğunu qəbul etmiş, mütləq rentanı isə inkar etmişdir
**13. Aşağıdakılardan hansı D.Rikardonun tədqiqat obyektinə aiddir:**
A) "İqtisadi insan" anlayışının bazar subyekti kimi öyrənilməsi

B) Sərvətin pulla eyniləşdirilməsinin inkarı
C) Müqayisəli istehsal xərcləri təliminin yaranması
D) Differensial rentanın mövcudluğunu qəbul etmiş, mütləq rentanı isə inkar etmişdir
E))Bunların hamısı

**14. Aşağıdakılardan hansı D.Rikardonun tədqiqat obyektinə aiddir:**
A) "İqtisadi insan" anlayışının elmi dövriyyəyə gətirməsi
B) Xalqın sərvətinin əmək bölgüsünün inkişafından asılılığının əsaslandırılması
C) Sərvətin pulla eyniləşdirilməsinin inkarı
D) Kapitalizmdə gəlirin dəqiq təsnifatının verilməsi: əmək-haqqı, mənfəət, renta
E)) Pulun miqdar nəzəriyyəsinə üstünlük verilməsi

**15. Aşağıdakılardan hansı D.Rikardonun tədqiqat obyektinə aid deyil:**
A) Pulun miqdar nəzəriyyəsinə üstünlük verilməsi
B) Təbii və bazar qiymətlərinin fərqləndirilməsi
C) Müqayisəli istehsal xərcləri təliminin yaranması
D))Əmtəənin dəyərinə kapitalın dəyərinin daxil edilməsi
E) İqtisadiyyatın tam sistem kimi müəyyən edilməsi

**16. Aşağıdakılardan hansı D.Rikardonun tədqiqat obyektinə aid deyil:**
A) Pulun miqdar nəzəriyyəsinə üstünlük verilməsi
B) Təbii və bazar qiymətlərinin fərqləndirilməsi
C) Müqayisəli istehsal xərcləri təliminin yaranması
D))Əmək-dəyər nəzəriyyəsinin əsasının qoyulması
E) İqtisadiyyatın tam sistem kimi müəyyən edilməsi

**17. Aşağıdakılardan hansı D.Rikardonun tədqiqat obyektinə aid deyil:**
A) Pulun miqdar nəzəriyyəsinə üstünlük verilməsi
B) Təbii və bazar qiymətlərinin fərqləndirilməsi
C) Müqayisəli istehsal xərcləri təliminin yaranması
D)) Sərvətin pulla eyniləşdirilməsinin inkarı

E) İqtisadiyyatın tam sistem kimi müəyyən edilməsi

**18. D.Rikardo mənfəəti necə izah etmiş**dir:

A)) Kapitalın qazancı kimi

B) Avans olunmuş kapitalın törəməsi kimi

C)  İzafi dəyərin çevrilmiş forması kimi

D) İzafi dəyərin mənfəətə bərabər olması kimi

E) Fəhlənin öz dəyərindən artıq yaratdığı dəyər kimi

**19. D.Rikardo elə bir dövrdə yaşayıb yaratmışdır ki:**

A) Həmin dövrdə merkantilist düşüncələrdən klassik iqtisadi düşüncəyə keçid başlamışdır

B) Həmin dövrdə kapitalist istehsalının manifaktura mərhələsi yaranmışdır

C) Ticarət mənfəəti kapitala çevrilərək, sənaye istehsalına yönəlmişdir

D)Ticarət mənfəəti kapitala çevrilərək, kənd təsərrüfatının inkişafına istiqamətlənmişdir

E))Kənd təsərrüfatında xırda müstəqil kəndli təsərrüfatları öz gəlirlərini iri torpaq sahibkarlığına və kapitalist icarətçi fermer təsərrüfatlarına vermişdir

**20. D.Rikardo elə bir dövrdə yaşayıb yaratmışdır ki:**

A) Həmin dövrdə merkantilist düşüncələrdən klassik iqtisadi düşüncəyə keçid başlamışdır

B) Həmin dövrdə kapitalist istehsalının manifaktura mərhələsi yaranmışdır

C) Ticarət mənfəəti kapitala çevrilərək, sənaye istehsalına yönəlmişdir

D)Ticarət mənfəəti kapitala çevrilərək, kənd təsərrüfatının inkişafına istiqamətlənmişdir

E))Həmin dövrdə İngiltərədə sənaye inqilabı baş vermişdir

**21.Aşağıdakılardan hansı D.Rikardonun pul tədavülü haqqındakı fikirlərinə aid deyil**:

A) Pulun tədavül sürəti

B) Pula tələb və onu müəyyən edən amillər

C))Pulun yığım funksiyası

D) Kağız pulun qızıla dəyişdirilə bilməsi
E) Qızılın beynəlxalq hərəkətinin mexanizmi

**22. D.Rikardonun pul nəzəriyyəsində çatışmayan cəhət hansıdır:**

A) Əgər tədavüldə kağız pulların miqdarı artarsa, onda digər şərtlər dəyişməzsə, onlar əvvəlki pul kütləsinin ifadə etdiyi əmtəə kütləsi ekvivalentini ifadə edəcəkdir
B) Kağız pul tədavülü ilə qızıl pul tədavülü arasında prinsipial fərq qoymamışdır
C))Tədavülə tələbatdan artıq qızıl və ya gümüş pullar buraxılırsa, onlar öz dəyəri olduğundan tədavül sferasından çıxıb yığıma gedə bilir
D) Pulun dəyəri tədavüldə bərqərar olur və tədavüldəki pulların kəmiyyətindən asılıdır
E) Əgər mövcud ölkədə həddindən çox qızıl toplanarsa, onda bu ölkədə malların qiyməti artır

**23. D.Rikardonun pul nəzəriyyəsinə aid olan fikri seçin:**

A) Əgər tədavüldə kağız pulların miqdarı artarsa, onda digər şərtlər dəyişməzsə, onlar əvvəlki pul kütləsinin ifadə etdiyi əmtəə kütləsi ekvivalentini ifadə edəcəkdir
B) Kağız pul tədavülü ilə qızıl pul tədavülü arasında prinsipial fərq qoymamışdır
C))Tədavülə tələbatından artıq qızıl və ya gümüş pullar buraxılırsa, onların öz dəyəri olduğundan tədavül sferasından çıxıb yığıma gedə bilər
D) Pulun dəyəri tədavüldə bərqərar olur və tədavüldəki pulların kəmiyyətindən asılıdır
E) Əgər mövcud ölkədə həddindən çox qızıl toplanarsa, onda bu ölkədə malların qiyməti artır

**24. D.Rikardonun vergi konsepsiyasına görə nəyə vergi qoymaq mümkün deyildir:**

A) Rentaya
B)) Real əməkhaqqına
C) Kapital qoyuluşuna
D) İstehlakçılara
E) Sənayeçilərə

**25. D.Rikardo əməyin təbii qiymətini necə izah edirdi:**
A)) Əməyin təbii qiyməti işçinin dolanmasını təmin edən və öz nəticəsini azaldıb və artmadan davam etdirəcək qiymət səviyyəsidir
B) Faktiki əməkhaqqıdır və əməyə olan tələb və onun təklifinin təsiri altında dəyişir
C) Əməyin əmtəə olduğunu güman edir və əməkhaqqını əməyin təbii qiyməti adlandırır
D) Əməkhaqqı əməyin təbii qiymətidir və o yaşayış vasitələrinin dəyərinə bərabərdir
E) Bunların heç biri
**26. D.Rikardo vergiqoyma məsələsini nə ilə əlaqədə öyrənmişdi:**
A) Kapital yığımı ilə
B) Pulun miqdar nəzəriyyəsi ilə
C) Məhsul istehsalının həcmi ilə
D) Əmək-dəyər nəzəriyyəsi ilə
E)) Gəlir bölgüsü ilə
**27. D.Rikardonun sistemində vergi bazası nəyə əsaslanır:**
A) Kapital yığımına
B) Məhsul istehsalının həcminə
C) Gəlir bölgüsünə
D))Xalis məhsula
E) Əməkhaqqına
**28. D.Rikardoya görə:**
A))İqtisadi inkişafla gəlirin bölgüsü arasında çox sıx əlaqə vardır
B) Əgər mənfəət və əməkhaqqı qiymətə münasibətə görə birincidirsə, renta isə ona münasibətdə ikincidir
C) Renta qiymət ilə əməkhaqqı və mənfəətin fərqidir
D) Həqiqi sərvətin hər cür artımı onda tətbiq olunan əməyin miqdarının hər cür artımı, dolayısı torpaqdan əldə olunan rentanın yüksəlməsinə gətirib çıxarır
E) Fəhlə və torpaq mülkiyyətçiləri bütün şəraitlərdə ictimai sərvətin artmasında maraqlıdır

**29. D.Rikardoya görə əməkhaqqı nə üçün azalma meylinə malikdir?**
A) Sahibkarlar fəhlələrin əməyinin qiymətini aşağı salırlar
B)) Yüksək səviyyəli doğum tempi əmək təklifini artırır
C) Maşın və mexanizmlər fəhlələrin əməyini sıxışdırır
D) Əmək şəraitinin əlverişli olmamasına görə
E) Əməyin ixtisaslaşdırılmamasına görə
**30.D.Rikardoya görə:**
A)) Əməkhaqqının səviyyəsində dəyişmələr mübadilə dəyərinə təsir etmir, bu dəyişmə sadəcə olaraq mənfəət səviyyəsinə təsir edir
B) Əgər mənfəət və əməkhaqqı qiymətə münasibətə görə birincidirsə, renta isə ona münasibətdə ikincidir
C) Renta qiymət ilə əməkhaqqı və mənfəətin fərqidir
D) Həqiqi sərvətin hər cür artımı onda tətbiq olunan əməyin miqdarının hər cür artımı dolayısı torpaqdan əldə olunan rentanın yüksəlməsinə gətirib çıxarır
E) Fəhlə və torpaq mülkiyyətçiləri bütün şəraitlərdə ictimai sərvətin artmasında maraqlıdır
**31. İqtisad elminin əsas vəzifəsinin ictimai sərvətin bölgüsünü idarə edən qanunların müəyyən edilməsini göstərən müəllif kimdir:**
A) K.Marks
B)) D.Rikardo
C) A.Marşall
D) A.Smit
E) U.Petti
**32. D.Rikardonun iqtisad elminin metodologiyasına gətirdiyi yenilik:**
A) Elmi abstraksiya
B) Statistik-iqtisad metodu
C)) Müqayisəli təhlil metodu
D) Eksperiment metodu
E) İqtisadi təhlil metodu

# MÖVZU 8. KLASSİK İQTİSADİ MƏKTƏBİN DAVAMI VƏ TƏNQİDİ

**1. D.Rikardonun təliminə yeni baxışların yaranması**
**2. T.Maltusun metodologiyası. Onun "Əhali sakinliyi qanunu", dəyər, mənfəət, reallaşma nəzəriyyəsi**
**3. J.B.Seyin metodologiyası. Onun dəyər, istehsal amilləri, gəlirlər və "Satış nəzəriyyəsi"**
**4. S.Sismondi siyasi iqtisadın predmeti və metodu haqqında. Onun milli gəlir, böhranlar konsepsiyası**
**5. P.J.Prudonun iqtisadi nəzəriyyəsi – mülkiyyət, dəyər, pul haqqında baxışları**
**6. C.R.Mak-Kulloxun iqtisadi baxışları**
**7. F.Bastiyanın "İqtisadi ahəngdarlıq" və "Xidmət" nəzəriyyəsi**
**8. N.U.Seniorun "Son saat" və "İmtina" nəzəriyyəsi**
**9. Ceyms Milin nəzəriyyəsi. Con Milin iqtisadi baxışları**
**10. H.Ç.Kerinin "Mənafelərin ahəngdarlığı" ideyası. Dəyər və renta nəzəriyyəsi**

XVIII əsrin sonları və XIX əsrin əvvəllərində bir sıra ölkələrdə baş verən sənaye çevrilişləri köklü sosial–iqtisadi dəyişikliklərə səbəb oldu. Bu dəyişikliklər o dövrün ən inkişaf etmiş ölkələri olan İngiltərə və Fransada ayrı–ayrı sənaye sahələrinin inkişafı, aqrar iqtisadiyyatı, qiymətlərin dinamikası, pul tədavülü sahəsində konkret tədqiqatların aparılmasını zəruri edirdi. Belə bir şəraitdə iqtisadi məktəbin görkəmli nümayəndələri **A.Smit və D.Rikardonun** iqtisadi görüşlərinin davamçıları və tənqidçiləri meydana çıxmışdır. Onlar öz sələflərinin iqtisadi fikirlərinə dair öz mülahizələrini və tənqidi qeydlərini vermiş, biri digərinə alternativ olan çox sayda nəzəriyyə və konsepsiyalar yaradaraq liberal bazar münasibətləri haqqında qiymətli fikirlər söyləmişlər. Nəticədə iqtisadi fikir tarixində

müxtəlif cərəyanlar və istiqamətlər yaranmışdır. *Bunlardan İngiltərədə T.Maltusu, Ceyms Milli, Con Milli, C.R.Mak-Kulloxu, N.U.Senioru, Fransada S.Sismondini, P.J.Prudonu, J.B.Seyi, F.Bastiyanı, Amerikada isə Ç.Kerini göstərmək olar.*

Bəzi alimlər inkişaf etməkdə olan bir çox ölkələrdə yaşayış səviyyəsinin aşağı düşməsinin davam etməsinin əsas səbəbini əhali artımının iqtisadi inkişaf səviyyəsindən çox yüksək olması ilə izah edirdilər. Əgər dünyada iqtisadi inkişaf ildə orta hesabla 2% həddində götürülərsə, deməli, dünya əhalisinin yarısı elə ölkələrdə yaşayır ki, burada əhali artımı iqtisadi artımı ötüb keçmişdir

İqtisadçıların bu dediklərinin əksəriyyəti, demək olar ki, XVIII əsrin axırı XX əsrin əvvəllərində iqtisad elminə özünə-məxsus töhfəsi olan İngiltərə iqtisadçısı **Tomas Maltusun "Əhali qanunu haqqında təcrübə" (1798)** əsərində öz əksini tapmışdır. Onun arqumenti sadə və birbaşa idi: Ərzaq təchizatı torpaq və əməkdə əlavələr vasitəsilə artırıla bilər. T. Maltusun təliminə görə, ərzaq istehsalının artımı ədədi silsilə ilə, əhalinin artımı isə həndəsi silsilə ilə baş verir. Əhalinin artım səviyyəsi ilə ərzaq istehsalının artım səviyyəsi arasındakı fərqi müqayisə etməklə, Maltus belə bir qənaətə gəlmişdi ki, bəşəriyyətin böyük bir hissəsi yoxsul həyata məhkumdur. Ədədi silsilə ilə artan ərzaq istehsalı, həndəsi silsilə ilə artan əhalinin tələbatını ödəyə bilmədiyindən, pis qidalanma və xəstəliklər axırıncıların ölümünə səbəb olacaq və beləliklə, artmaqda olan ölüm hadisələri ərzaqla əhali arasında tarazlıq yaranana qədər davam edəcəkdir.

T.Maltus belə hesab edirdi ki, cəmiyyət aclığı azaltmaq məqsədilə yalnız kasıblara az sayda uşağa malik olmağı məs-ləhət görə bilər. Bu səbəbdən, o, kasıblara kömək göstərilməsi və onların yaşayış yeri ilə təmin edilməsini nəzərdə tutan qa-nunların əleyhinə çıxırdı. Öz "Əhali qanunu haqqında təcrübə" kitabından başqa o, iqtisadiyyat məsələləri üzrə bir sıra bundan az əhəmiyyət kəsb etməyən "Rentanın artması təbiyyəti üzrə

tədqiqat" (1815), "Dəyər ölçüsü: şərh və izahatlar" (1823) və "Siyasi iqtisadiyyatdın əsasları" (1820) kitablarını nəşr etdirmişdir.

T.R.Maltus (1766-1834) kəndli ailəsində anadan olmuşdur. Kembric Universitetinin kollecində təhsil almış, kolleci bitirdikdən sonra ingilis kilsəsində ruhani rütbəsini qəbul etmiş, 1807-ci ildə siyasi iqtisad professoru olmuşdur. Maltusun əsərlərinin obyektiv mənası xeyli dərəcədə torpaq sahibkarlığının mənafeyinin müdafiəsindən ibarətdir. Maltus torpaq sahəsinə əlavə əmək məsrəflərinin sərf olunub-olunmamasından asılı olmayaraq gəlirlərin azalması ideyasını da irəli sürürdü. Bunu da torpağın məhsuldarlığının azaldılması ilə əlaqələndirirdi. Bu qanunun tərəfdarları göstərirdilər ki, torpağa qoyulan bütün əlavə əmək və kapital qoyuluşu, bu qoyuluşun məhsuldarlığının aşağı düşməsi ilə müşayiət edilir, yəni bu qoyuluş özünə miqdarca bərabər olan əvvəlki qoyuluşa nisbətən getdikcə daha az məhsul verir.

Yuxarıda göstərilmiş misal tamamilə şərti vəziyyəti əks etdirir, heç də insanın təbii ehtiyatlardan istifadə etməsi problemini aradan qaldırmır. Burada bəhs olunan əmək real həyatda müəyyən istehsal vasitələri ilə birlikdə tətbiq olunur. Əgər bu birlik düzgün seçilmişsə, iş saatlarının mövcud miqdarına alınan gəlir azalmır. Texniki tərəqqinin, yəni əməyin daha artıq məhsuldar alətlərlə və yeni metodlarla təchizinin xüsusi əhəmiyyəti vardır. Mövcud torpaq sahəsi qonşu torpaq sahələri ilə birləşdirilə bilər və çox ehtimal ki, istehsalın miqyasının artması ilə əlaqədar olaraq yaxşı təşkil olunma, ixtisaslaşma texnikanın daha səmərəli təşkil edilməsi hesabına gəlir artmasına gətirib çıxardacaqdır.

T.Maltusun davamçıları gəlirlərin azalması qanununun fəaliyyət sahəsini yaradırlar. Onlar deyirlər ki, bu qanun yalnız azalan istiqamətdə fəaliyyət göstərir ki, istehsalın qalan amillərinin dəyişməz miqdarına mövcud amilin artmaqda olan kəmiyyətini əlavə etmiş olsun. İstehsalın əsas amilləri dedikdə isə

əmək, torpaq və kapital başa düşülür. Yuxarıda göstərilən misalda isə güman edilir ki, torpaq və kapital dəyişilməzdir, yalnız əməyin kəmiyyəti dəyişir. Bununla belə maltusçular indinin özündə də bu və ya başqa dərəcədə məhsuldarlığın azaldılması qanununa əsaslanırlar.

O, "Siyasi iqtisadın başlanğıcı" əsərində siyasi iqtisadın nəzəri problemlərinə toxunmuş dəyər, mənfəət, reallaşma problemlərinə xüsusi diqqət vermişdir. Maltus Rikardonun əksinə olaraq torpaq aristokratlarını müdafiə edərək Rikardonun əmək-dəyər nəzəriyyəsinin əksinə dəyəri Simitin dediyi kimi, mövcud əmtəənin alınmasında meydana çıxan əməkdə görür. A.Smit hesab edirdi ki, əmtəəyə alınan əmək onun istehsalına sərf olunan əməyə bərabərdir. Maltusa görə əməyin miqdarı onun istehsalına sərf olunan xərclərlə əlaqədardır. İstehsal xərclərinə isə canlı və maddiləşmiş əməyi və avans olunmuş kapitalı aid edirdi.

T.Maltus mənfəəti məhsul istehsalına sərf olunan əməkdə artıq hissə kimi nəzərdə tuturdu. O, əməklə bərabər əmtəənin dəyərinə mənfəəti də bilavasitə daxil edərək, mənfəəti dəyərdən müstəqil, asılı olmayan şey kimi görür və əmtəənin qiymətinə kapitalı əlavə edirdi. Mənfəətin istehsalda deyil, tədavüldə yarandığını göstərir və xalis kapitalizm cəmiyyətində onun reallaşmasını mümkün hesab etmirdi. Fəhlələr əməkhaqqı kimi istehsal olunan məhsulun bir hissəsini alırlar. Reallaşma problemi kapitalistlərin bir-birinə mübadiləsi zamanı həll edilə bilməz, çünki bunlardan hər biri qiymətlə əlaqədə xeyir götürə bilməz. Həmin dəqiqə alıcını itirə bilər. Lakin Maltus vəziyyətdən çıxış yolunu qeyri-məhsuldar siniflərdə (torpaq mülkiyyətçiləri, çinovniklər, əsgərlər) görür və göstərirdi ki, bu qeyri-istehsalçılar heç nə istehsal etməyərək əmtəə alırlar və buna görə də kapitalistlərin mənfəətini reallaşdırırlar. Bununla da Maltus kapitalistlər üçün kifayət qədər tələbin yarandığını qeyd etməklə, yüksək rentanı, vergini müdafiə edirdi. Buradan belə

çıxır ki, o, üçüncü şəxslər olmadan mənfəətin reallaşmasının qeyri-mümkünlüyü ideyasını S. Sismondidən götürmüşdür.

T.Maltusun əmək-dəyər nəzəriyyəsində Rikardonun əksinə çıxış etməsi Rikardonun tərəfdarları ilə əleyhdarları arasında canlı fikir ayrılıqlarının yaranmasına səbəb olmuşdur. Rikardonun ardıcılları öz əsərlərində onun baxışlarını sistemləşdirmiş, dəyər nəzəriyyəsinin ayrı-ayrı tərəflərini təhlil etmişdir.

**Jan Batist Sey** 1767-ci Lionda tacir ailəsində anadan olmuşdur. Yetkinlik dövründə o, Şimali Fransada pambıq parça fabrikini idarə etməli olmuşdur. Gənclik illərində Sey sığorta şirkətində çalışmış və uzun müddət jurnallar redaktə etmiş və 1830-cu ildə Parisdə "Kollec de Fransa"da siyasi iqtisad kafedrasının rəhbəri vəzifəsinə keçmişdir. Yaşadığı dövr ərzində dəfələrlə İngiltərəni ziyarət edərək, Maltus və Rikardonun bir sıra doktrinalarının tam qəbul etməsinə razılıq verməsə də, onların yaxın dostu olmuşdur.

J.B.Sey A.Smitin təlimini sistematik olaraq təhlil etmiş, onun sisteminin zəif tərəflərini ayırmağa və inkişaf etdirməyə səy göstərmişdir. Eyni zamanda o, Fransada hüquqlar sisteminin əsasını qoymuşdur.

O, iqtisadi görüşlərini "Siyasi iqtisadın traktatları", "Siyasi iqtisadın katexezisi" və altı cildlik "Siyasi iqtisad kursu" əsərlərində əks etdirmişdir. Keynsin "Ümumi nəzəriyyə" (1936) əsərində şərh edilən Sey qanununun müəllifi kimi məşhurlaşmışdır. Sey qanuna görə, rəqabətli bazarlar avtomatik şəkildə tam məşğulluğa nail ola biləcək tendensiyaya malikdir.

J.B.Sey siyasi iqtisadı üç müstəqil hissəyə bölürdü: istehsal, mülkiyyətin bölgüsü və istehlak. Bu təsnifatlaşdırma təkrar istehsalın elementləri arasında əlaqəni əks etdirirdi. İqtisadi sistemdə bölgü və istehlakı müstəqil bölmə kimi ayıraraq ən əvvəldən istehsalla yanaşı qoyurdu. O, bu əsas elementlər arasında həqiqi əlaqəni qırmışdı. Necə ki, istehsal münasibətlərinin müəyyən tipi, müəyyən bölgü və istehlak münasibətlərini yaradır.

J.B.Sey istehsal, bölgü və istehlakın spesifik formalarını tədqiq etməmiş və cəmiyyətin inkişafının müxtəlif mərhələlərində onların spesifik forma qəbul etdiyini görə bilməmişdir. İstehsal bölməsində istehsalın ictimai formalarından deyil, bütövlükdə maddi nemətlərin istehsalından danışmışdır. O, siyasi iqtisad qanunlarına əbədi qanunlar kimi baxırdı. D.Rikardonun əmək-dəyər nəzəriyyəsinə qarşı çıxırdı. Sərvətin əmtəə formasını faydalı şeylərin cəmi ilə eyniləşdirir və sərvətin qiyməti adlandırırdı.

J.B.Sey dəyər və gəlirlər haqqında nəzəriyyəsində klassik məktəbin elmi nailiyyətlərindən irəli gedərək dəyərin mənbəyinin əmək olmasının əksinə olaraq onun faydalılığı ilə ölçülməsini iddia etmişdir. Bu nəzəriyyəyə görə istehsal faydalılıq yaradır, faydalılıq isə qiymətliliyin predmetidir. Qiymətlilik isə faydalılığın ölçüsüdür. Beləliklə, Sey dəyərlə istehlak dəyərini eyniləşdirmişdir.

A.Smit göstərirdi ki, mübadilə dəyəri faydalılıqla mütləq əlaqəli deyil, faydalı şeylər aşağı dəyərə də malik ola bilərlər. Həyat üçün lazım olan predmetlərin (məsələn, hava, suyun) dəyəri yoxdur. Faydalılığın dəyərin mənbəyi kimi göstərilməsi müasir iqtisadçıların fikirlərində də əks olunur. J.B.Sey əmtəənin dəyərini onun faydalılığı ilə müəyyən edərkən gəlirlər problemini də nəzərdən keçirirdi. O, göstərirdi ki, istehsalda üç amil - əmək, kapital, torpaq iştirak edir. Bunların hər birinin dəyərin yaradılmasında öz yeri vardır. Əməkhaqqı əməyin, renta torpağın, mənfəət isə kapitalın mükafatıdır. Onun nəzəriyyəsində pul təkcə mübadilə aləti, "məhsulların dəyərini daşıyan araba" deyil, həm də məhsulların mübadilə prosesində mühüm rol oynayır. Əməkhaqqı, faiz və mənfəət əməyin təbii törəməsi hesab edilir. İstehsal vasitələrini və torpağı isə təkrar istehsalın sadə elementləri adlandırırdı. Bu xətlə sahibkar gəlirlərinin əmək versiyasını irəli sürürdü. Seyə görə, əgər faiz kapitalın törəməsidirsə, sahibkar gəliri sahibkarın əməyinin mükafatlandırılmasıdır. Seyin fikricə, yüksək əməkhaqqı onun

fəaliyyətinin sayəsində əldə olunur. Sey fərz edirdi ki, istehsalın inkişafı üçün tələbatların təşviqinə və istehlakçılara yüksək əməkhaqqı almağa kömək etmək lazımdır ki, onlar bu əməkhaqqına daha çox əmtəə (xidmət) ala bilsinlər.

J.B.Seyin digər bir nəzəriyyəsi "Satış nəzəriyyəsi" təkrar istehsalın harmonikliyini əsaslandırmağa çalışaraq, ümumi böhranların labüdlüyünü inkar edir. Seyin fikrinə görə, bütün istehsalçıların başlıca məqsədi mübadilə qiymətidir, bir əmtəəni başqa əmtəəyə mübadilə etməsidir. Burada pul müvəqqəti olaraq vasitəçi rolunu oynayır. Buradan o belə nəticə çıxarır ki, hər bir satıcı eyni zamanda alıcıdır. Tələblə təklif uyğun gəlir və heç bir həddindən artıq istehsal baş vermir. Lakin o ayrı-ayrı sahələrdə istehsalın ifrat istehsal olduğunu inkar etmir. Buna görə də çıxış yolunu ikincidərəcəli sahələrdə istehsalın hərtərəfli inkişafında görür. Satış nəzəriyyəsinin axırıncı maddəsində proteksionizmə, xarici və yerli malların ixracını çətinləşdirən amillərə qarşı çıxış edirdi. Ticarətdə tam azadlığı müdafiə edirdi. Seyin reallaşma, satış nəzəriyyəsinə görə kapitalistlər özlərinin şəxsi istehlakı üçün məhsullar istehsal edir, həmçinin öz məhsullarını başqa şəxslərin məhsulları ilə mübadilə edirlər. Əmtəələrin tədavülü ibtidai mübadiləyə əsaslanırdı. Məhsul başqa məhsulla mübadilə edildikdə alqı və satqı üst-üstə düşür. Sadə əmtəə tədavülündə alqı-satqı ilə bir yerə düşməyə də bilər. Bunlar zaman və məkanca ayrı da ola bilər. Buna görə də böhranların mümkünlüyü mücərrəddir.

J.B.Seyin satış nəzəriyyəsində dövrü böhranlar təsadüfi hadisə kimi qeydə alınırdı. İlk iqtisadi böhran 1825-ci ildə qeydə alınmışdır. Ona görə Sey öz əsərlərində böhranların labüdlüyünü görə bilmirdi.

Klassik siyasi iqtisad İngiltərədə Rikardo ilə başa çatmışdırsa, Fransada S.Sismondi ilə başa çatdı. Həmin dövrdə Fransada sənaye çevrilişi, kapitalist iri maşınlı sənayesi xırda istehsalçıları müflisləşdirərək, onları var-dövlətdən çıxarmışdı. Belə bir şəraitdə kapitalizmin tənqidçiləri yaranırdı ki, bunun da ilk

nümayəndəsi Fransada **Sismondi (Jan Şarl Monar Sismond de Sismondi)** olmuşdur.

**S.Sismondi** (1773–1843) Cenevrədə keşikçi ailəsində anadan olmuş, sənaye kapitalizmini tənqid edən ilk iqtisadçı və tarixçi kimi xırda istehsalçıların mənafelərini müdafiə etmişdi. Klassik məktəbdən fərqli olaraq iqtisadi hadisələrin öyrənilməsində abstraksiya metodunun əleyhinə olmuş, siyasi iqtisada iqtisadi münasibətlər haqqında elm kimi deyil, mənəvi, əxlaqi, insanın təbiətini, davranışını öyrənən elm kimi baxmışdır. S.Sismondi A.Smitin iqtisadi azadlıq ideyasının əleyhinə olaraq göstərmişdir ki, bütün ziddiyyətlərin mənbəyi şəxsi mənafeyin təmin olunmasına səy edilməsidir.

S.Sismondi iri sahibkarlığa qarşı qəti çıxış edərək xırda istehsalçıların tərəfində olmuş, ingilis klassik məktəbinin əksinə olaraq kapitalizmin mühüm problemlərini tənqidi cəhətdən təhlil etmiş, "Kənd təsərrüfatının vəziyyəti" (1801) və "Siyasi iqtisad" (1810) əsərlərini yazmışdır. O, inkişafında iki mərhələ keçmişdir. I mərhələdə Smitin ardınca gedərək azad sahibkarlıq prinsipini müdafiə etmiş, daha sonra o, "Siyasi iqtisadın və sərvətin əsasları" (1819) əsərində klassik məktəbin və kapitalizmin tənqidçisi kimi çıxış etmişdir.

Buna görə də Sismondinin metodologiyası ikili xarakter kəsb etmiş və bu iqtisadi proseslərin mahiyyətini açmağa maneəçilik törətmişdir.

S.Sismondi siyasi iqtisadın obyektiv iqtisadi inkişaf qanunlarını öyrənməsini inkar edərək siyasi iqtisadın predmetini xalqın sərvətinin idarə olunmasında görürdü. Sismondi Smit və Rikardonu sərvəti insandan təcrid olunmuş şəkildə təhlil etmələrində günahlandırırdı. O, qeyd edirdi ki, sərvətin məqsədi insanların tələbatının ödənilməsidir.[14]

S.Sismondi kapitalizmi tənqid etməklə bərabər, xırda istehsalı ideallaşdırmışdır. Bir tərəfdən o kapitalizmi (iri maşınlı

---

[14] Bax: Əliyev Ü.Q. İqtisad elminin aktual problemləri. Bakı -2013, səh. 8.

istehsalı) tənqid etmiş, digər tərəfdən isə xırda əmtəə istehsalını ideallaşdıraraq kapitalizmi müdafiə etmişdir.

S.Sismondi milli gəlirin izah edilməsində Smitin ehkamından uzağa gedə bilməmişdir. O, əmək-dəyər nəzəriyyəsinin mövqeyində duraraq göstərmişdir ki, əmək sərvətin yeganə mənbəyidir və dəyərin miqdarını müəyyən etmək üçün istehlak dəyəri ilə dəyər arasındakı ziddiyyətə fikir vermiş, kapitala istehsal vasitələrini özünə daxil edən istehsal ehtiyatı kimi baxmış, kapitalın təsnifatını isə Smit və Rikardonun fikirlərinə əsasən izah etmişdir. Onun mənfəət haqqında nəzəriyyəsinə görə mənfəət fəhlə əməyinin məhsulundan çıxmadır, qeyri-əmək gəlirlərinin nəticəsidir. O, rentanı təhlil edərkən ona torpağın hədiyyəsi kimi baxmış, göstərmişdir ki, pis torpaqlardan da renta götürülməlidir.

S.Sismondinin təliminin mərkəzində reallaşma və böhranlar konsepsiyası durur. O, kapitalist istehsalının məqsədini istehlakda görür və belə nəticəyə gəlir ki, istehsal istehlaka uyğun olmalıdır. İstehlakı isə gəlirlə müəyyən edir. İstehsal olunan məhsulların reallaşması üçün istehsal cəmiyyətin gəlirlərinə uyğun olmalıdır.

S.Sismondinin xidməti ondan ibarət olmuşdur ki, o istehsalla istehlak arasında ziddiyyəti görmüş, təkrar istehsal nəzəriyyəsində şəxsi istehlak probleminin mühümlüyünü və həmçinin böhranların labüdlüyünü qeyd etmişdir. Böhranlar nəzəriyyəsində böhranlardan xilas olmanın yolunu üçüncü şəxslərdə-kəndlilər, sənətkarlar, xırda istehsalçılarda görmüşdü.

S.Sismondi "Siyasi iqtisadın yeni prinsipləri" adlı əsərində azad sahibkarlığa, iqtisadiyyata və sənaye kapitalizminə dövlət müdaxiləsinin olmamasına qarşı tənqidi yanaşmasını açıq şəkildə göstərmişdir. O, belə hesab edirdi ki, yeni sənaye sistemi istehlakın tam həyata keçirilməməsi ilə yarana biləcək böhranlarla xarakterikdir. Sismondi xüsusən texniki tərəqqi ilə əlaqədar canlı əməyə olan tələbin tədricən azalmasından çox narahat idi. O, minimum əməkhaqqını sığortalamaq, aylıq

əmək saatlarının miqdarını müəyyən etmək, maksimal və minimal əmək qabiliyyətli yaş müddətlərini müəyyənləşdirmək və digər üsullardan istifadə etməklə bir sıra problemlərin həllini yalnız iqtisadiyyata dövlət müdaxiləsində görürdü.

S.Sismondiyə, həmçinin, Marksın sələfi kimi də baxmaq olar, belə ki, o, zavod - fabrik timsalında fəhlə sinfini üstünlük verilən qurban kimi qiymətləndirmiş, işçilər və təsərrüfat sahiblərinin "sinfi mübarizədə" olduğunu təsdiqləyən yeni iqtisadi termini elmə gətirmişdi.

**Prudon Pyer Jozef** (1809 - 1865) - Fransa xırda burjua siyasi iqtisadçısı, "Mülkiyyət nədir?" (1840), "İqtisadi ziddiyyətlər sistemi və ya dilənçilik fəlsəfəsi" (1846), "Vergi nəzəriyyəsi" (1861) adlı iqtisadi əsərlərin müəllifidir. Kapitalizmi tənqid edərək, onun islahatlar yolu ilə dəyişdirilməsi ideyasını irəli sürürdü. Lakin sosial məsələlərin həllini o, istehsalatda deyil, tədavül və bölgüdə axtarırdı. O, hesab edirdi ki, cəmiyyət inqilabi yolla deyil, istehsal alətlərinin mərhələli şəkildə fəhlələrin əlinə keçməsi nəticəsində dəyişdirilməlidir.

P.J.Prudon əsərlərində, əsasən, ideyalarının gücü ilə deyil, məhz onların istezalı stili ilə məhşurlaşmışdı. Onun ən məhşur "Mülkiyyət nədir?" (1840) adlı əsəri əbədi bir cavabı özündə əks edir: əsərin bir çox sətirlərində "mülkiyyət oğurluqdur" sitatı gətirilmişdir. Bu və ya digər baxışları ilə o zəmanəsinin bir çox sosioloqlarından fərqlənirdi.

P.J.Prudonun metodunun əsasını idealizm, obyektivlilik təşkil edir. İqtisadi kateqoriyaları obyektiv məzmundan kənarlaşdıraraq göstərirdi ki, iqtisadi hadisələrin əsasını dəyişməyə zərurət yoxdur. Dialektik inkişaf yaxşı ilə pisin əksliyindən, mexaniki uyğunlaşmasından ibarətdir. Ona görə də hər bir hadisənin yaxşısını saxlayıb, pisini ləğv etmək lazımdır. Buna görə də əmək bölgüsü, mülkiyyət, dəyər, kredit və digər məsələlərin izahında bu mövqedən çıxış edirdi.

P.J.Prudona görə dəyər iki bir-birinə əks olan ədəbi abstrakt kateqoriyadır. İstehlak dəyəri və mübadilə dəyəri bir-bi-

rinə əks olan meylin-boşluğun və nadirliyin ifadəsidir. Bunların arasındakı ziddiyyət ekvivalent mübadilə, süni dəyər nəticəsində aradan qaldırıla bilər. Bunun üçün o təklif edir ki, nə qədər tələb olunur o qədər də istehsal etmək lazımdır.

P.J.Prudon xırda əmtəə istehsalını ideallaşdıraraq əmtəə istehsalının pis tərəfi kimi pula qarşı çıxış etmişdir. Pulsuz əmtəə mübadiləsinin təşkilinin proqramını vermiş, mübadilə bankı (xalq) ideyasını irəli sürmüşdü. Bu bank əmtəə istehsalçılarından əmtəələri alıb əvəzinə sənəd-əmək talonları-fəhlə pulu (əməyin miqdarını göstərən sənəd) verməklə əmtəələri buraxmalıdır. Pulun ləğv edilməsi ilə Prudon kapital, qeyri-əmək gəlirlərinin və istismarın aradan qaldırılması, bərabərliyin təmin edilməsinin utopik yolunu göstərmişdir.

**Con Ramsey Mak-Kullox** 1789-cu ildə Şotlandiyada anadan olmuşdur. 25 il ərzində o, XIX əsrin "Edinburq icmalı" adlı nüfuzlu jurnalında çoxsaylı iqtisadi məqalələr nəşr etdirmişdir. O, həmçinin "Siyasi iqtisadın prinsipləri" (1825), geniş oxucu auditoriyasına malik bir sıra pamfletlərin və sonsuz sayda qəzet məqalələrinin müəllifi idi. Rikardonun sadiq tələbəsi olmasına baxmayaraq, Mak-Kulox heç vaxt sadəcə, doqmatik davamçı olmamışdır. O, Rikardo sisteminin müxtəlif çatışmazlıqlarını razılıqla qəbul etmiş, xüsusilə də siyasi məsələlərində onun bəzi mülahizələri ilə açıqcasına razılaşmırdı.

**F.Bastiya** (1801-1850) varlı fransız kommersantı ailəsində anadan olmuşdur. 40-cı illərdə azad ticarətin xeyrinə olaraq himayəçiliyə qarşı çıxmış və geniş təbliğat işləri ilə məşğul olmuşdur. Öz iqtisadi baxışlarını "İqtisadi harmoniya" adlı əsas əsərində inkişaf etdirmişdir. Burada o sosial ziddiyyətlər haqqında təlim yaratmağa cəhd göstərmiş, onun dövrünə xas olan burjua cəmiyyətini əbədi, tam mükəmməl bir cəmiyyət adlandırmışdır. İqtisadi ahənglərin mənbəyini mübadilə və məhdudlaşdırılmayan rəqabətdə görürdü.

XIX əsrin 40-50-ci illərində Fransada iqtisadi fikir nümayəndəsi olan F.Bastiya "xidmət" nəzəriyyəsinin köməyi ilə öz

xidmətlərinin bir-birinə mübadilə edən müxtəlif siniflər arasında iqtisadi ahəngdarlıq axtarmağa çalışmışdır. Göstərilmişdir ki, azad rəqabət şəraitində mübadilə bərabər, ekvivalent xarakter daşıdığından insanlar bir-birlərinə xidmətlər göstərirlər. Əldə olunan əsas gəlirlər sahibkar gəliri, borc faizi, torpaq rentası insanların göstərdikləri xidmətə görə haqdır. Bu ideyanı əsaslandırmaq üçün J.B.Seyin xidmət nəzəriyyəsinə müraciət etmişdi. Lakin Seydən fərqli olaraq göstərirdi ki, nəinki insanlar, həmçinin təbiət qüvvələri, şeylər də xidmət göstərirlər. Xidmət dedikdə, o yalnız istehsal prosesindəki real əmək məsrəflərini deyil, həm də kimsə tərəfindən qoyulan hər hansı qüvvəni və ya bu xidmətdən istifadə edənin azad olmasını başa düşürdü. Buradan da fəhlələrlə birlikdə kapitalistlərin və torpaq mülkiyyətçilərinin də dəyərin  istehsalında xidmətlərinin olduğunu qeyd edirdi. Kapitalistə xidmətinin əvəzində mənfəət əldə etməsini  kapitalistin istehlakdan imtina etməsi kimi baxırdı.

Əməklə kapital arasında ahəngdarlıq axtararaq F.Bastia Rikardonun mənfəət və əməkhaqqı nəzəriyyəsinin əksinə olaraq "kapital yığımı" qanunu yaradır. Bu qanuna görə əmək və kapital öz mənafeylərinə görə həmrəydilər. Bastiaya görə, kapitalın artması ilə fəhlələrin payı nəinki mütləq, həm də nisbi, kapitalistlərin payı isə yalnız mütləq artır. Bu nəzəriyyəni irəli sürərkən Bastia heç bir faktlara əsaslanmır. O, sadəcə olaraq mənfəət normasının aşağı düşməsi faktına əsaslanır ki, burada da mənfəət norması ilə milli gəlirdə kapitalistlərin payını qarışdırır.

F.Bastia "Xidmət nəzəriyyəsi"nin köməyi ilə kapitalistlərlə torpaq mülkiyyətçiləri arasında fərqləndirici xüsusiyyətləri açır. O, torpaq rentasını torpaq sahiblərinin xidmətinin mükafatı kimi qələmə verir. Beləliklə, kapitalla torpaq mülkiyyətçisi arasında ahəngdarlığı torpaq rentasının torpağa qoyulmuş kapitala görə faizin müxtəlifliyində görür. Bu təlimdə torpaq rentasının spesifik xüsusiyyətləri yox olur, onun mənfəətdən fərqi ayırd edilmir.

İngiltərədə **Nassau Ulyam Senior** (1790-1864) ciddi cəhdlə əmək sərf edərək öz elmi baxışlarını "Siyasi iqtisad elminin oçerkləri" (1836), "Fabrik qanunvericiliyi haqqında məktub" (1837) əsərlərində əks etdirmişdir. Belə bir kəşflərdən biri "imtina" nəzəriyyəsidir. Dəyərin mənbəyinin əmək olduğunu iddia edən Rikardonun əksinə olaraq, dəyərin istehsal xərclərini iki elementlə: əməklə və kapitalla müəyyən edirdi.

N.U.Senior əməyə fəhlənin qurbanı kimi, kapitala isə kapitalistin öz kapitalını qeyri-məhsuldar istehlak etməklə kapitalistin qurbanı kimi baxırdı. Fəhlə və kapitalist bu qurbanlarının mükafatı olaraq əməkhaqqı və mənfəət alırlar. Nəticədə kapitalizm istehsal sistemi kimi deyil, fəhlə və kapitalistlərin qurbanı sistemi kimi çıxış edir.

N.U.Seniorun digər bir nəzəriyyəsi də vardır ki, bunu da Marks öz əsərində Seniorun son saatı adlandırmışdır. İngiltərədə 30-cu illərdə 10 saatlıq iş günü uğrunda güclü çıxışlar baş verirdi. Fabrikantlar iş gününün qısaldılmasına qarşı kəskin arqumentlərə möhtac idilər ki, bunların köməyinə Senior çatdı. Onun nəzəriyyəsinə görə 11,5 saatlıq iş günündə birinci 10,5 saat ərzində avans olunmuş kapitalın dəyəri ödənilir, axırıncı saatda isə mənfəət yaradılır. Buradan da belə çıxır ki, iş gününün 10 saatlıq ixtisar edilməsi mənfəətin tam yox olmasına gətirib çıxarır. Bu nəzəriyyənin mənbələrindən biri kimi kapitalistlərin praktiki hesabatları göstərilirdi ki, burada da məhsulların satılması prosesində əvvəlcə onlar avans olunmuş kapitalın dəyərini ödəyir, sonra mənfəət əldə edirdilər. Əslində isə istehsal prosesi həm dəyərin yaradılması, həm də onun artırılması prosesidir. Seniorun son saat nəzəriyyəsi o qədər mənasız idi ki, son olaraq özü də bu nəzəriyyədən imtina etmişdir.

**Ceyms Mill** (1773-1836) - ingilis iqtisadçısı, D.Rikardonun ən görkəmli davamçısıdır. O, renta nəzəriyyəsindən siyasi nəticələr çıxarılması sahəsində öz müəllimindən daha irəli gedərək torpaq rentasının dövlət tərəfindən mənimsənil-

məsini, torpağın milliləşdirilməsini tələb edirdi. Mill "Siyasi iqtisadın elementləri" (1821) əsərində iddia edirdi ki, dəyərin mənbəyi yalnız canlı əmək deyil, həm də toplanmış və istehsal vasitələrində əşyalaşmış əmək hesab edilməlidir. Nəticədə muzdlu işçilərlə kapitalistlər arasında "Bərabər əmtəə sahibləri" münasibəti yaranır, onların hər biri istehsal edilmiş məhsuldan müvafiq pay alır.

XIX əsrin 50–60-cı illərində İngiltərənin iqtisadi inkişafı daha da yüksəlmiş, sırf iqtisadi mənafelər iqtisadi fikri daha çox cəlb etməyə başlamışdı. Bu dövrün iqtisadi baxışlarının ifadəçisi ingilis filosofu və iqtisadçısı **Con Mill** (1806–1873) olmuşdur. O, Londonda anadan olmuşdur, D. Rikardo ilə C. Bentamın dostu və tələbəsi olan Ceyms Milin oğlu idi. Onun təhsilini atası üzərinə götürərək, üç yaşında ikən yunan, səkkiz yaşında latın dilini və on yaşında siyasi iqtisadı öyrətmişdir. On dörd yaşında təhsilini başa vurmuş Mill 1838-1858-ci illərdə Ost-Hind şirkətində çalışmış, Hindistanın ingilislər tərəfindən idarə edilməsi ilə əlaqədar məsələlərin həllində iştirak etmişdir. 1865 - 1868-ci illərdə İngiltərə parlamentinin icmalar palatasının üzvü olmuş, burada mülkədar torpaqlarının kəndlilərə verilməsi və ya uzunmüddətli icarə şərtləri daxilində həmin torpaqların kəndlilərə təhkim edilməsinin tərəfdarı kimi çıxış etmişdir.

C.S.Millin ilk əsəri "Məntiqin sistemi" adlanırdı. Bundan başqa onun artıq ciddi fəlsəfəçi olduğunu sübut edən daha gənc yaşlarında yazdığı "Dövrün ruhu" (1831), "Siyasi iqtisadiyyat anlayışı və ona müvafiq tədqiqat metodları haqqında" (1836), "Bentam" (1838) və "Kolric" (1840), "Siyasi iqtisadın prinsipləri", "Azadlıq haqqında" (1859) əsərləri var idi. Onun siyasi nəzəriyyə haqqında növbəti əsərləri 1861-ci ildə işıq üzü görmüşdür - "Nümayəndəli hökumət və utilitarizm haqqında fikirlər" feminizmə həsr olunmuş ilk traktatlardan olan "Qadınların istismarı" (1869), "Ogust Kont və pozitivizm" (1865) və "Avtobioqrafiya" (1873) və bundan başqa, məntiq, riyaziyyat,

etika, psixologiya və sosiologiyaya həsr edilmiş yüzlərlə əsərlər. Toronto Universiteti artıq 15 cilddən ibarət "Con Stüsrt Millin əsərlərin kolleksiyası"-nı nəşr etmişdir. Millin başlıca əsəri "Siyasi iqtisadın prinsipləri" olmuşdur. Bu əsər 5 kitabdan ibarətdir. Bu kitablar istehsala, bölgüyə, mübadiləyə, kapitalizmin tərəqqisinə və iqtisadiyyatda dövlətin roluna həsr olmuşdur. Bu əsər XIX əsrin ortaları üçün siyasi iqtisad elminin tam şəkildə nəzərdən keçirildiyi ən yaxşı əsər nümunəsidir.

Millin əmək-dəyər nəzəriyyəsinə dair fikirləri kitabının üçüncü hissəsində verilir. Belə ki, burada Rikardonun və Smitin əmək-dəyər nəzəriyyəsinə toxunulurdu. Milldə əmək-dəyər nəzəriyyəsi heç də iqtisadi təliminin əsasını təşkil etmir, formal olaraq Mill bu nəzəriyyədən imtina etmir. Mildə dəyərin özlüyündə istehsalla əlaqəsi azalır, yalnız mübadilə tədavül sahəsinə aid hadisədir. Dəyər yalnız mövcud əmtəənin, xüsusilə pula mübadilə edilməsi üçün xarakterik olan nisbətdir. Bu nisbət bazarda müəyyənləşir.

U.Pettidən D.Rikardoya qədər klassiklər üçün məsələ bu şəkildə qoyulmuşdur: mübadilə dəyərinin və qiymətlərin son əsasını əmək xərcləri təşkil edir, bütün başqa amillərin təsiri isə yalnız həmin əsasdan bu və ya digər kənara çıxmaları əmələ gətirir. Mill faktiki olaraq qiymətlərin son əsasını kənar edir. O, əmtəələrin mübadilə dəyərini sadəcə olaraq tələb və təklifin bərabərliyi nöqtəsində müəyyən edir. Bununla da hər iki üsulu birləşdirməyə cəhd edərək əmtəə tələbini müəyyən edən xərcləri mühüm amil kimi nəzərdən keçirməyi məsləhət görür. Millin fikirləri tələb və təklif əsasında qiymətqoymanın təhlilinin rüşeymləri idi.

C.S.Mill David Rikardonun şagirdi və davamçısı olmaqla, onun mühüm nəzəriyyələrini - dəyər və əməkhaqqı təlimini qəbul edir. T.Maltusa görə, əhalinin sayının qeyri-məhdud artmasının təhlükəli olmasını da inkar etmir. Mill siyasi iqtisadı iki növə bölür: insanların iradəsindən asılı olmayıb fiziki səbəblərin təsirindən (məsələn, torpağın məhsuldarlığını müəy-

yən edən bioloji xassələrdən) asılı olan istehsal qanunlarına; psixoloji səbəblərin təsiri, insanların fikir və arzuları ilə müəyyən edilən və sosial mühitin xüsusiyyətlərindən asılı olaraq dəyişən bölgü qanunlarına. Bunun nəticəsində bölgü qanunları birinci kateqoriyaya aid qanunlar üçün səciyyəvi olan zərurilik xarakterinə malik deyildir. İqtisadi qanunların obyektiv, təbii xarakterini qəbul edən Mill bildirirdi ki, bölgü qanunları, əsasən, insanın özü tərəfindən formalaşır və buna görə də həmin qanunlar subyektivdir. Bununla əlaqədar o, sosial dəyişiklikləri gəlirlərin təkrar bölgüsü sahəsində həyata keçirilən tədbirlərin nəticəsi hesab edirdi. Sosializmə gəldikdə, Mill onun uzaq gələcəkdə, insanın mənəvi təbiətinin daha kamil olacağı dövrdə həyata keçirilə biləcəyini qəbul edir, lakin yaxın gələcəkdə ayrı-ayrı şəxslərin fəaliyyət sərbəstliyinin məhdudlaşdırılmasını və şəxsi təşəbbüsünün aradan qaldırılmasını mümkün və arzuedilən hal saymırdı.

Beləliklə, Millin dəyər nəzəriyyəsi Smitdə və Rikardoda olduğundan fərqlidir. O, dəyəri nəzərdən keçirməmişdən əvvəl bölgü və gəlirlər məsələsini şərh edir. Smit və Rikardo üçün bu büsbütün mümkün deyildir. Belə ki, söhbət məhz əməklə yaradılmış və əməklə ölçülən dəyərin bölgüsündən gedirdi. Mill isə Rikardonun ardınca yazır ki, mənfəət ondan əmələ gəlir ki, əmək daha çox dəyər istehsal edir. O, Rikardonun mövqeyində duraraq deyirdi ki, renta payı torpağın məhsuldarlığının azalması və daha pis torpaqların becərilməsinə keçirilməsi ilə müəyyən olunur. Əməkhaqqı fəhlə fondu deyilən fondla bağlıdır, mənfəət isə məhsulun dəyərinin kəmiyyətcə qalığıdır.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində Avropanın başlıca ölkələrində olduğu kimi ABŞ da geniş inkişaf tapmış sənaye inqilabı feodal istehsal münasibətəri ilə əlaqədar olan patrialxal təsərrüfat formasının məhv edilməsi və yeni istehsal münasibətlərinə əsaslanan burjua quruluşunun qələbəsi ilə nəticələndi. XVIII əsrin axırında öz müstəqilliyi uğrunda İngiltərə üzərində qələbə çalması, azad məhsuldar torpaqların və digər

təbii sərvətlərin bolluğu, geniş immiqrasya, kapitalın və texniki mədəniyyətin ixracı, qədim dünya kapitalizmin inkişafını sürətləndirdi və ölkənin iqtisadi qüdrətini möhkəmlətdi. Bütün bunlar kapitalist münasibətlərinin nisbətən ahəngdarlığı, sinfi mənafelərin həmrəyliyi ideyasını yaradırdı. Amerikanın cənubunda XIX əsrin I yarısında quldarlıq hökm sürürdü. Sənaye hələ tam möhkəmlənməmişdi. İngiltərə ilə rəqabətdə Amerika sənayesi hələ də geri qalırdı. Buradan da A.Smitin və D.Rikardonun fritrederçilik siyasətinin təbliğinə qarşı əks meyillər meydana gəlirdi.

Həmin dövrdə Amerika məktəbinin nümayəndələrindən biri **H.Ç.Keri** olmuşdur. H.Ç.Kerinin (1793-1879) siyasi iqtisadın prinsipləri, əsas iqtisadi görüşləri "Sosial elmlərin əsasları" adlı əsərində öz əksini tapmışdır. Burada XIX əsrin I yarısında Amerikanın iqtisadi inkişafının özünəməxsus xüsusiyyətləri açılır. O, Rikardonun sistemini tənqid edərək onu təbəqələr, millətlər arasında münaqişə, müharibə yaratmaqda günahlandırırdı. Buna görə də müxtəlif siniflər arasında real və təbii mənafelərin tam ahəngdarlığını sübut etməyə çalışırdı.

**H.Kerinin"Mənafelərin ahəngdarlığı"** nəzəriyyəsinin əsasında bölgü qanunu durur ki, bu qanuna görə əmək məhsuldarlığının artması ilə fəhlələrin payı mütləq və nisbi artır, kapitalistlərin payı isə mütləq artaraq nisbi aşağı düşür. O, təsdiq etməyə çalışırdı ki, əmtəənin dəyəri onun istehsalına sərf olunan faktiki əmək məsrəfləri ilə deyil, mövcud şəraitdə bu əmtəəyə çəkilən istehsal xərcləri ilə ölçülür. Ancaq əmək məsrəfinin artımı ilə məhsulların təkrar istehsalına, o cümlədən istehsal vasitələrinə sərf olunan məsrəflər azalır. Keriyə görə bu kapitalın dəyərliliyini, kapital mülkiyyətçisi tərəfindən ödənilən məhsulun faizini aşağı salır. Buna uyğun olaraq əməyin dəyərliliyini və məhsulda payını artırır.

H.Ç.Keri kapitalistlərlə torpaq mülkiyyətçiləri arasında mənafelərin ahəngdarlığını əsaslandırmağa çalışır. O, Rikardonun torpaq rentası haqqında nəzəriyyəsinə qarşı çıxan pis

torpaqların da emal olunmasının zəruriliyini irəli sürür. Amerikanın şəraitini mütləqləşdirərək hər yerdə pis torpaqlardan yaxşı torpaqlara keçilməsini irəli sürür və kapitalistlərin, fəhlələrin xeyrinə olaraq rentanı aşağı salmağı təklif edir. Ancaq torpağın istehsala cəlb olunması rentanın yaranması demək deyildir. Keri "Mənafelərin ahəngdarlığı"nı dünya istehsalının yerli mərkəzlər arasında bölgüsünü daha yaxşı təmin etməsi əsasında əldə edilməsində görürdü.

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1. J.B.Seyin qanunu öz əhəmiyyətini hansı alimin nəzəriyyəsindən sonra itirdi:**

A) K.Menger
B) A.Marşall
C) C.Klark
D)) C.Keyns
E) M.Fridmen

**2. J.B.Sey istehsal amillərini necə təsnifləşdirirdi?**

A) Əmək və kapital
B) Əmək və sahibkarlıq qabiliyyəti
C) Kapital, torpaq, sahibkarlıq qabiliyyəti
D)) Kapital, torpaq, əmək
E) Əmək və torpaq

**3. Hansılar klassik iqtisadi məktəbin davamçıları olmuşdur?**

A) S. Sismondi, U. Petti
B) T. Maltus, A. Smit
C) C.R.Mak- Kullox, P.Buagilber
D)) F. Bastiya, J.B. Sey
E) K. Marks,A. Smit

**4. T.R.Maltusa görə: doğum və ölüm normalarına təsir edən amil hansıdır:**

A) Qüsurlu yaşayış
B) Zəif sağlamlıq
C) "Mənəvi cilovlanma"
D) Yoxsulluq
E)) Bunların hamısı

**5. Sərt qiymət əsasında ümumi tarazlığın saxlanılması-bu hansı qanundur:**
A) Əmək məhsulunun əməkhaqqından üstün artması qanunu
B) Tələbatın daim artması qanunu
C) Pul tədavülü qanunu
D)) Sey qanunu
E) İzafi dəyər qanunu
**6. Aşağıdakı fikirlərdən hansı C.Millə aid deyil:**
A) O, xüsusi torpaq mülkiyyətinə qarşı çıxmış və onun milliləşdirilməsini tələb etmişdir
B) O, torpaq mülkiyyətçilərinin deyil, kapital sahiblərinin mənafelərini müdafiə etmişdir
C) İstehsal prosesində iştirak edən maşınların, xammalın, yanacağın dəyərini yığılmış əmək-kapital kimi götürmüş və onlar işləyərək dəyər yaratdığını söyləmişdir
D) Əmtəənin dəyəri kapitalistin kapital məsrəfləri, əməkhaqqına onun sərf etdiyi xərcləri və mənfəəti ilə müəyyən olunur
E))O, kapitalist münasibətlərini sadə əmək təsərrüfatı münasibətləri ilə eyniləşdirir
**7. "Təbiət və torpaq rentasının artması haqqında" tədqiqat əsərinin müəllifi kimdir"?**
A) A.Smit
B) K.Marks
C) J.B.Sey
D))T.Maltus
E) D.Rikardo
**8. Aşağıdakı nəzəriyyələrdən hansı Maltusa malikdir:**
A)) Böhran nəzəriyyəsi-yığım artıqlığı və bu əsasdan yaranan kəsirli istehlak nəzəriyyəsidir
B) Böhran tələbin həm artıqlığı, həm də çatışmazlığı üzündən baş verir
C) Bütün alıcı və satıcılar "Zənginlik zənciri" içində bir-biri ilə sıx şəkildə bağlanmışdır
D) Adamlar nemətlərin nəinki çatışmazlığından, eyni zamanda artıqlığından da ölə bilərlər

E)Ümumi böhran mümkün deyil, yalnız təsadüfi ayrı-ayrı məhsullar istehsalının böhranı labüddür

**9. C.S.Milli klassik yönümlü digər iqtisadçılardan fərqləndirən mühüm cəhət hansıdır:**

A) Fəhlə sinfinə müəyyən rəqabət ifadə etmiş

B) Pula sitayişi pisləmiş

C) Kapitalizmə tənqidi yanaşmış

D) Təkamül yolu ilə sosializmə keçməsi tərəfdarı olmuş

E)) Bunların hamısı

**10. İstehsal miqyasında qənaət haqqında anlayış kimə məxsusdur:**

A)) C.S.Millə

B) C.Millə

C) K.Marksa

D) A. Smitə

E) C.Mak-Kulloxa

**11. J.B.Seyin fikrinə görə:**

A)) Təklif müvafiq tələb yaradır

B) Tələb müvafiq təklif yaradır

C) Pul təkrar istehsalın müstəqil amilidir

D) Dövlətin iqtisadiyyata müdaxiləsi zəruridir

E) Doğumun yüksək tempi əhali artıqlığı yaradır

**12. J.B.Seyin fikrinə görə:**

A)) Dövlət iqtisadiyyata müdaxilə etməməlidir

B) Tələb müvafiq təklif yaradır

C) Pul təkrar istehsalın müstəqil amilidir

D) Dövlətin iqtisadiyyata müdaxiləsi zəruridir

E) Doğumun yüksək tempi əhali artıqlığı yaradır

**13. J.B.Sey qanunu belədir ki:**

A)) Qiymətlərin artımı təklifin çoxalmasına gətirib çıxarır

B) Təklifin, eləcə də tələbin əyrisinin hərəkətləri bazar tarazlığına gətirib çıxarır

C) Təklif özünün xüsusi tələbini yaradır

D) Əməkhaqqı və qiymət çevik hesab olunmur, ona görə də bazar tarazlığının əldə olunmasına əngəl yaradır

E) Qiymətin artımı təklifin azalmasına gətirib çıxarır

**14. J.B.Sey göstərmişdir ki:**
A)) Qiymətlərin artımı təklifin çoxalmasına gətirib çıxarır
B) Təklifin, eləcə də tələbin əyrisinin hərəkətləri bazar tarazlığına gətirib çıxarır
C) Təklif özünün xüsusi tələbini yaradır
D) Əməkhaqqı və qiymət çevik hesab olunmur, ona görə də bazar tarazlığının əldə olunmasına əngəl yaradır
E) Qiymətin artımı təklifin azalmasına gətirib çıxarır

**15. C.S.Mill mənfəət normasının azalmasına əks təsir edən amilləri müəyyən etmişdir. Onlardan biri yanlışdır:**
A) Böhran dövrində kapital itkisi
B) Texniki təkmilləşdirmə
C) Xarici ticarətin əməkhaqqına alınan məhsulların real istehsal xərclərini aşağı salanadək genişlənməsi
D) Kapital ixracı
E)) Əmək bölgüsü

**16. C.S.Mill mənfəət normasının azaldılmasına əks təsir edən amilləri müəyyən etmişdir. Onlardan biri yanlışdır:**
A) Böhran dövrində kapital itkisi
B) Texniki təkmilləşdirmə
C) Xarici ticarətin əməkhaqqına alınan məhsulların real istehsal xərclərini aşağı salanadək genişlənməsi
D )Kapital ixracı
E)) Kapital idxalı

**17. Aşağıdakı nəzəriyyələrdən hansı Maltusa malikdir:**
A)) Satış problemini iqtisadi nəzəriyyənin mərkəzinə qoymuşdur
B) Böhran tələbin həm artıqlığı, həm də çatışmazlığı üzündən baş verir
C) Bütün alıcı və satıcılar "Zənginlik zənciri" içində bir-biri ilə sıx şəkildə bağlanmışdır
D) Adamlar nemətlərin nəinki çatışmazlığından, eyni zamanda artıqlığından da ölə bilərlər

E) Ümumi böhran mümkün deyil, yalnız təsadüfi ayrı-ayrı məhsullar istehsalının böhranı labüddür

**18. Aşağıdakı nəzəriyyələrdən hansı Sismondiyə malikdir:**

A)) Böhran təsadüfi deyil, o daxili ziddiyyətlərin, yəni istehsal və istehlak arasındakı ziddiyyətin mühüm təzahürüdür

B) Böhran tələbin artıqlığı üzündən baş verir

C)Bütün alıcı və satıcılar "Zənginlik zənciri" içində bir-biri ilə sıx şəkildə bağlanmışdır

D) Adamlar nemətlərin nəinki çatışmazlığından, eyni zamanda artıqlığından da ölə bilərlər

E)Ümumi böhran mümkün deyil, yalnız təsadüfi ayrı-ayrı məhsullar istehsalının böhranı labüddür

**19. Sərvəti istehlak predmetlərində görən iqtisadçı kim olmuşdur:**

A) S.Sismondi
B) U.Cevons
C) K.Marks
D) A.Marşall
E)) P.Buagilber

**20. Böhranlar tələbin həm artıqlığı, həm də çatışmazlığı üzündən baş verir. Bu fikir kimə məxsusdur:**

A)) S.Sismondiyə
B) U.Cevonsa
C) K.Marksa
D) A.Marşalla
E) P.Buagilberə

**21. C.Millə görə:**

A) Kapitalın köməyi ilə əməklə istehsal olunan əmtəənin dəyərinə kapitalın dəyəri daxil edilməməlidir

B) Alıcı əmtəənin satıcısının təkcə əməkhaqqını deyil, həm də mənfəəti ödəməlidir

C)) Təhlil "bazarın" gücsüzlüyünün nümunəsidir

D) Cəmiyyətin inkişafının indiki vəziyyətində əsas məqsəd xüsusi mülkiyyət sisteminin devrilməsinə cəhd etmək deyil, ancaq onu yaxşılaşdırmaqdır

E) Əməkhaqqı və mənfəət bir-biri ilə əks proporsional asılılıqda olur

**22. T.Maltus göstərmişdir ki;**
A) Kapitalın köməyi ilə əməklə istehsal olunan əmtəənin dəyərinə kapitalın dəyəri daxil edilməməlidir
B)) Alıcı əmtəənin satıcısının təkcə əməkhaqqını deyil, həm də mənfəəti ödəməlidir
C) Təhlil "bazarın" gücsüzlüyünün nümunəsidir
D) Cəmiyyətin inkişafının indiki vəziyyətində əsas məqsəd xüsusi mülkiyyət sisteminin devrilməsinə cəhd etmək deyil, ancaq onu yaxşılaşdırmaqdır
E) Əməkhaqqı və mənfəət bir-biri ilə əks proporsional asılılıqda olur
**23. J.B.Seyin xidmətlərindən biri ondan ibarətdir ki:**
A) D.Rikardonun qəbul etmədiyi ümumi istehsal böhranının mümkünlüyünü qəbul edirdi
B) D.Rikardonun qəbul etdiyi ümumi istehsal böhranının mümkünlüyünü qəbul etmirdi
C) Satış problemini iqtisadi nəzəriyyənin mərkəzinə qoymuşdur
D) Əhalinin sayının dəyişməsi qanunauyğunluqlarını öyrənən ilk adam olmuşdur
E))Sərvətin mənbəyini millətin istehsal potensialında görmüşdür
**24. T.Maltusun xidmətlərindən biri ondan ibarətdir ki:**
A) D.Rikardonun qəbul etmədiyi ümumi istehsal böhranının mümkünlüyünü qəbul edirdi
B) Əmtəədə maddiləşmiş əməyin miqdarı onun istehsal xərcləri ilə şərtlənir
C) Satış problemini iqtisadi nəzəriyyənin mərkəzinə qoymuşdur
D) Əhalinin sayının dəyişməsi qanunauyğunluqlarını öyrənən ilk adam olmuşdur
E)) Bunların hamısı
**25. J.B.Seyin "Bazarlar qanunu"nun əsas mahiyyəti nədir?**
A) "Bütün alınanlar satılıb və bütün satılanlar alınıb"

B)) Daxili bazarlarda xaricidəki kimi məhsullar məhsullarla alınır
C) Alıcı əmtəənin satıcısına təkcə əmək haqqını deyil, həm də mənfəəti ödəməlidir
D) Əmtəələrin bazar qiyməti tələb və təklifin təsiri altında əmələ gəlir
E) Əmtəələrin dəyəri yalnız alıcılar tərəfindən tənzimlənir

**26. Aşağıdakı fikirlərdən hansı J.B.Seyə məxsusdur:**

A) "Bütün alınanlar satılıb və bütün satılanlar alınıb"
B))Daxili bazarlarda xaricidəki kimi məhsullar məhsullarla alınır
C) Alıcı əmtəənin satıcısına təkcə əmək haqqını deyil, həm də mənfəəti ödəməlidir
D) Əmtəələrin bazar qiyməti tələb və təklifin təsiri altında əmələ gəlir
E) Əmtəələrin dəyəri yalnız alıcılar tərəfindən tənzimlənir

**27. T.Maltusa görə:**

A)) Alıcı əmtəənin satıcısına təkcə əməkhaqqının deyil, həm də mənfəəti ödəməlidir
B) İstehsal prosesi əmtəənin dəyərinin yaradılması nöqteyi - nəzərindən ikilidir
C) Əməyin ikili xarakteri: onun konkret və abstrakt əmək olmasıdır
D) Dəyər faydalılığın ölçüsüdür
E) İctimai istehsalda üç əsas amil: əmək, torpaq və kapital fəaliyyət göstərir

**28. T.R.Maltusa görə həndəsi silsilə ilə nə artırdı?**

A) İstehsal
B) İstehlak şeyləri
C)) Əhali
D) İstehsal vasitələri
E) Bütövlükdə istehsal amilləri

**29. J.B.Seyə görə:**
A) Alıcı əmtəənin satıcısına təkcə əməkhaqqının deyil, həm də mənfəəti ödəməlidir
B) İstehsal prosesi əmtəənin dəyərinin yaradılması nöqteyi - nəzərindən ikilidir
C) Əməyin ikili xarakteri: onun konkret və abstrakt əmək olmasıdır
D) Dəyər faydalılığın ölçüsüdür
E)) İctimai istehsalda üç əsas amil: əmək, torpaq və kapital fəaliyyət göstərir
**30. T.Maltus iddia edirdi ki:**
A) Milli sərvət mahiyyət etibarilə sərvət deyildir, çünki ondan əhalinin böyük əksəriyyətinin payına cüzi bir hissə düşür
B) Əhalinin artımının gəlir çərçivəsində məhdudlaşdırmaq lazımdır
C) Xalqlar bir tərəfdən həddindən artıq xərclədiyinə və bir tərəfdən də həddindən artıq xərcləmədiyinə görə müflisləşə bilərlər
D) Yalnız fəhlələr öz gəlirindən əlavə gəlir - torpaq mülkiyyətçiləri üçün renta və kapitalist üçün mənfəət yaradır
E))Əmtəədə maddiləşmiş əməyin miqdarı onun istehsal xərcləri ilə şərtlənir
**31. T.Maltusa görə:**
A) Milli sərvət mahiyyət etibarilə sərvət deyildir, çünki ondan əhalinin böyük əksəriyyətinin payına cüzi bir hissə düşür
B) Əhalinin artımının gəlir çərçivəsində məhdudlaşdırmaq lazımdır
C) Xalqlar bir tərəfdən həddindən artıq xərclədiyinə və bir tərəfdən də həddindən artıq xərcləmədiyinə görə müflisləşə bilərlər
D) Yalnız fəhlələr öz gəlirindən əlavə gəlir - torpaq mülkiyyətçiləri üçün renta və kapitalist üçün mənfəət yaradır
E)) Əmtəədə maddiləşmiş əməyin miqdarı onun istehsal xərcləri ilə şərtlənir

**32. İqtisadi tsiklin əsas səbəbi cari gəlirlərin çox hissəsinin əmanətə, az hissəsinin isə şəxsi istehlaka yönəlməsidir. Bu hansı nəzəriyyədir?**
A) Xarici amillər nəzəriyyəsi
B) Monetar nəzəriyyə
C)) Natamam istehlak nəzəriyyəsi
D) Marksist nəzəriyyə
E) İfrat yığım nəzəriyyəsi
**33. Aşağıdakı iqtisadçılardan hansı iqtisadiyyatın dövlət müdaxiləsinin tərəfdarı olmuşdur?**
A) J.B.Sey
B)) S.Sismondi
C) D.Rikardo
D) A.Smit
E) P.Buagilber
**34. C.S.Millə görə:**
A) Kapitalın köməyi ilə əməklə istehsal olunan əmtəənin dəyərinə kapitalın dəyəri daxil edilməməlidir
B)) Qeyri-məhsuldar əmək xalis əlavə dəyər yaratmır və əməyin qeyri-məhsuldar istifadəsi ilə əldə olunan mənfəət sadəcə olaraq gəlirin yenidən bölgüsüdür
C) Əmək sərvətin yeganə mənbəyidir
D) Dəyər əməklə deyil, faydalılıqla müəyyən olunur
E) Əmtəədə maddiləşmiş əməyin miqdarı, onun istehsal xərcləri ilə şərtlənir
**35. C.S.Mill göstərmişdir ki,**
A) Kapitalın köməyi ilə əməklə istehsal olunan əmtəənin dəyərinə kapitalın dəyəri daxil edilməməlidir
B) Resursların tam məşğulluğuna əsaslanmış, o natamam məşğulluğa diqqət yönəltmişdir
C) Əmək sərvətin yeganə mənbəyidir
D) Dəyər əməklə deyil, faydalılıqla müəyyən olunur
E) Əmtəədə maddiləşmiş əməyin miqdarı, onun istehsal xərcləri ilə şərtlənir

**36. N.U.Senior D.Rikardonun davamçılarından hansı fərqli fikri söyləmişdir:**
A) Dəyər = istehsal xərcləri+mənfəət
B) Əməkhaqqı bilavasitə canlı əməyin, mənfəət isə maddiləşmiş, keçmiş əməyin haqqıdır
C)) Sahibkar gəlirinə, istehsalı idarə etdiyinə görə, kapitalistin əməkhaqqı kimi baxmışdır
D) Maşın, heyvan və yaxud təbiət qüvvələri ilə baş verən fəaliyyətin də əmək kimi zühür etdiyini qeyd edir
E) Fəhlə əməyin tam dəyərini alır, yeni yaradılmış dəyərdən onun almadığı nə varsa, bunu o deyil, onun canlı əməyi deyil, kapitalda təcəssümlənmiş keçmiş əmək yaratmışdır
**37. Aşağıdakı fikirlərdən C.R.Mak-Kulloxa aid olanı seçin:**
A) Dəyər = istehsal xərcləri+mənfəətə
B) Əməkhaqqı bilavasitə canlı əməyin, mənfəət isə maddiləşmiş, keçmiş əməyin haqqıdır
C) Sahibkar gəlirinə, istehsalı idarə etdiyinə görə, kapitalistin əməkhaqqı kimi baxmışdır
D)) Maşın, heyvan və yaxud təbiət qüvvələri ilə baş verən fəaliyyətin də əmək kimi zühür etdiyini qeyd edir
E) Fəhlə əməyin tam dəyərini alır, yeni yaradılmış dəyərdən onun almadığı nə varsa, bunu o deyil, onun canlı əməyi deyil, kapitalda təcəssümlənmiş keçmiş əmək yaratmışdır
**38. Aşağıdakı fikirlərdən hansı C.Millə aid deyil:**
A) O, xüsusi torpaq mülkiyyətinə qarşı çıxmış və onun milliləşdirilməsini tələb etmişdir
B) O, torpaq mülkiyyətçilərinin deyil, kapital sahiblərinin mənafelərini müdafiə etmişdir
C) İstehsal prosesində iştirak edən maşınların, xammalın, yanacağın dəyərini yığılmış əmək-kapital kimi götürmüş və onlar işləyərək dəyər yaratdığını söyləmişdir
D) Əmtəənin dəyəri kapitalistin kapital məsrəfləri, əməkhaqqına onun sərf etdiyi xərcləri və mənfəəti ilə müəyyən olunur

E))Dəyər ünsürlərinin və onların gəlirlərinin psixoloji izahını vermişdir

**39. Aşağıdakı fikirlərdən hansı C.Millə aiddir:**

A) O, xüsusi torpaq mülkiyyətinə qarşı çıxmış və onun milliləşdirilməsini tələb etmişdir

B) O, torpaq mülkiyyətçilərinin deyil, kapital sahiblərinin mənafelərini müdafiə etmişdir

C) İstehsal prosesində iştirak edən maşınların, xammalın, yanacağın dəyərini yığılmış əmək-kapital kimi götürmüş və onlar işləyərək dəyər yaratdığını söyləmişdir

D) Əmtəənin dəyəri kapitalistin kapital məsrəfləri, əməkhaqqına onun sərf etdiyi xərcləri və mənfəəti ilə müəyyən olunur

E))Bunların hamısı

**40. C.R.Mak-Kullox göstərmişdir ki;**

A)) Kapitalist münasibətləri sadə əmtəə təsərrüfatı münasibətləri ilə eynidir

B) Mənfəət kapitalistin öz kapitalını istehlaka sərf etməkdən "imtina" etdiyinə görə onun mükafatıdır

C) Əməkhaqqı fəhlənin öz istirahət və rahatlığından "imtina" edib işlədiyinə görə onun mükafatıdır

D) Sahibkar gəliri, idarə etdiyinə görə kapitalistin əməkhaqqıdır

E) Əməkhaqqı və mənfəət bir-biri ilə əks proporsional asılılıqda olur

**41. C.R.Mak-Kullox göstərmişdir ki;**

A)) Cəmiyyətin iqtisadi həyatı bu və ya digər xalqların milli xüsusiyyətlərindən asılı olmayaraq ümumi xarakterə malik olan iqtisadi qanunlarla tənzimlənir

B) Mənfəət kapitalistin öz kapitalını istehlaka sərf etməkdən "imtina" etdiyinə görə onun mükafatıdır

C) Əməkhaqqı fəhlənin öz istirahət və rahatlığından "imtina" edib işlədiyinə görə onun mükafatıdır

D) Sahibkar gəliri, idarə etdiyinə görə kapitalistin əmək haqqıdır

E) Əməkhaqqı və mənfəət bir-biri ilə əks proporsional asılılıqda olur

**42. P.Prudon iddia edirdi ki:**

A) Mülkiyyət resursun özü deyil, resursdan istifadəyə verilən hüquq dəsti və ya pay mülkiyyətidir

B) Mülkiyyət təyinatından asılı olaraq əşyanın faktiki tətbiq edilməsidir

C) Mülkiyyət istehsalı, bölgü, mübadilə və istehlak prosesində istehsal vasitələrinin və onların köməyi ilə hazırlanan maddi nemətlərin mənimsənilməsidir

D) Mülkiyyət kimə və hansı miqdarda məxsus olduğunu təsbit edən əmlak münasibətləridir

E)) Əmək bölgüsünün, dəyərin mənfi tərəflərini aradan qaldırmaqla, kapitalist əmtəə təsərrüfatını yaxşılaşdırmaq olar

**43. S.Sismondi siyasi iqtisada necə baxırdı:**

A) Cəmiyyətin istehsal münasibətlərini öyrənən elm kimi

B))Sərvət və onun artırılması üsulları haqqında elm kimi

C) Məhsuldar qüvvələri öyrənən elm kimi

D) Resursların nadirliyini öyrənən elm kimi

E) Bunların heç biri

**44. S.Sismondi siyasi iqtisada necə baxırdı:**

A) Cəmiyyətin istehsal münasibətlərini öyrənən elm kimi

B))Dövlətdən asılı olan xalqın maddi rifahı kimi

C) Məhsuldar qüvvələri öyrənən elm kimi

D) Resursların nadirliyini öyrənən elm kimi

E) Bunların heç biri

**45. S.Sismondi inflyasiyaya necə tərif verirdi:**

A) Pulun alıcılıq qabiliyyətinin uzun müddət aşağı düşməsi prosesi kimi

B) Məcmu tələb və məcmu təklif arasında uyğunsuzluq kimi

C) Qiymətin ümumi səviyyəsinin artması kimi

D)) Tədavül kanallarının əlavə kağız pullarla həddindən artıq doldurulmasının nəticəsi kimi

E) İqtisadiyyatın qeyri-sabitliyinin mühüm aspekti kimi

**46. Aşağıdakı fikirlərdən S.Sismondiyə aid olanı seçin:**
A) İnflyasiya pulun alıcılıq qabiliyyətinin uzun müddət aşağı düşməsi prosesidir
B) İnflyasiya məcmu tələb və məcmu təklif arasında uyğunsuzluqdur
C) İnflyasiya qiymətin ümumi səviyyəsinin artmasıdır
D)) İnflyasiya tədavül kanallarının əlavə kağız pullarla həddindən artıq doldurulmasının nəticəsidir
E) İnflyasiya iqtisadiyyatın qeyri-sabitliyinin mühüm aspektidir
**47. S.Sismondi xarici bazarlarsız əlavə dəyərin tam reallaşması üçün nə təklif edirdi:**
A) Gəlirlərin artırılmasını
B) Məhsul buraxılışının həcminin artırılmasını
C))"Üçüncü şəxs"in- (aralıq siniflər və təbəqə, xırda istehsalçılar-kəndlilər, kustarlar və sənətkarlar) mövcudluğunu
D) Əmək məhsuldarlığının artırılmasını
E) Əmək bölgüsünün dərinləşməsini
**48. S.Sismondi əmək bölgüsünü necə izah edirdi:**
A) Əmək bölgüsü və mübadilə əməyə qənaət edir
B) Əmək bölgüsü insanlar arasında onların əmək məhsullarının mübadiləsinə səbəb olur
C) Əmək bölgüsünə, onun ictimai formasından asılı olmayan mücərrəd forma kimi baxmışdır
D)) Əmək bölgüsü əmək məhsuldarlığını nə qədər artırsa, ona proporsional olan insanın əqli və fiziki qüvvələrinin, sağlamlığının və şagirdlərinin itirilməsi deməkdir
E) Bunların hamısı doğrudur
**49. P.Prudon mülkiyyəti necə izah edirdi:**
A) Resursun özü deyil, resursdan istifadəyə verilən hüquq dəsti və ya pay mülkiyyətidir
B) Təyinatından asılı olaraq əşyanın faktiki tətbiq edilməsidir

C) İstehsal, bölgü, mübadilə və istehlak prosesində istehsal vasitələrinin və onların köməyi ilə hazırlanan maddi nemətlərin mənimsənilməsidir
D)) "Mülkiyyət oğurluqdur", mülkiyyət məhvə məhkumdur, təbiətə və şüura ziddir
E) Kimə və hansı miqdarda məxsus olduğunu təsbit edən əmlak münasibətləridir

**50. T.Maltus iddia edirdi ki:**
A) Milli sərvət mahiyyət etibarilə sərvət deyildir, çünki ondan əhalinin böyük əksəriyyətinin payına cüzi bir hissə düşür
B) Əhalinin artımının gəlir çərçivəsində məhdudlaşdırmaq lazımdır
C) Xalqlar bir tərəfdən həddindən artıq xərclədiyinə və bir tərəfdən də həddindən artıq xərcləmədiyinə görə müflisləşə bilərlər
D) Yalnız fəhlələr öz gəlirindən əlavə gəlir - torpaq mülkiyyətçiləri üçün renta və kapitalist üçün mənfəət yaradır
E)) Bəşəriyyətin bütün fəlakətlərinin səbəbi əhalinin çox olmasıdır, burada ictimai quruluşun heç bir təsiri yoxdur

**51. C.Millə görə:**
A) Kapitalın köməyi ilə əməklə istehsal olunan əmtəənin dəyərinə kapitalın dəyəri daxil edilməməlidir
B) Alıcı əmtəənin satıcısının təkcə əməkhaqqını deyil, həm də mənfəəti ödəməlidir
C)) Kapitalın köməyi ilə əməklə istehsal olunan əmtəənin dəyərinə kapitalın dəyəri daxil edilməlidir
D) Cəmiyyətin inkişafının indiki vəziyyətində əsas məqsəd xüsusi mülkiyyət sisteminin devrilməsinə cəhd etmək deyil, ancaq onu yaxşılaşdırmaqdır
E) Əməkhaqqı və mənfəət bir-birsi ilə əks proporsional asılılıqda olur

**52. J.B.Seyin xidmətlərindən biri ondan ibarətdir ki:**
A) D.Rikardonun qəbul etmədiyi ümumi istehsal böhranının mümkünlüyünü qəbul edirdi

B) D.Rikardonun qəbul etdiyi ümumi istehsal böhranının mümkünlüyünü qəbul etmirdi
C)Satış problemini iqtisadi nəzəriyyənin mərkəzinə qoymuşdur
D) Əhalinin sayının dəyişməsi qanunauyğunluqlarını öyrənən ilk adam olmuşdur
E)) Bazar iqtisadiyyatında məcmuu məhsulun reallaşması kimi mühüm problemi irəli sürən ilk iqtisadçı olmuşdur

**53.Natamam istehlak nəzəriyyəsinin müəllifi kimdir?**

A)) S.Sismondi
B) U.Cevons
C) K.Marks
D) A.Marşall
E) C.Keyns

**54. Kim iqtisadi təhlildə elmi abstraksiya metodundan istifadə edilməsinə qarşı çıxmışdır:**

A) A.Smit
B)) S.Sismondi
C) K.Marks
D) A.Marşall
E) K.Menger

**55. Kim siyasi iqtisadın predmetini dövlətdən asılı olan xalqın maddi rifahı kimi müəyyən etmişdir:**

A)) S.Sismondi
B) K.Marks
C) D.Rikardo
D) C.Klark
E) A.Marşall

**56. Kim mənfəəti "artıq dəyər" adlandırmış, onun fəhlə tərəfindən yaradıldığını və kapitalist tərəfindən mənimsənildiyini qeyd etmişdir:**

A)) S.Sismondi
B) D.Kondratyev
C) K.Marks
D) K.Mitçel
E) Q.Xabler

**57. C.S.Millin beynəlxalq dəyər qanununa görə:**

A) Ölkələr daha az xərclərlə istehsal etdikləri əmtəələri ixrac edir
B))Mübadilə qiyməti tələb və təklif qanununun elə bir səviyyəsinə görə müəyyənləşir ki, bu qiymətdə hər bir ölkənin ixracı onun idxalını ödəyir

C) Ölkələr arasında mənfəətli xarici ticarətin təmin edilməsi üçün ölkələrdə daxili istehsal dəyərləri bir-birindən fərqli olmalıdır

D) Dünya bazarında əmtəə təklifi tələbin ardınca meydana gəlir

E) Xarici ticarət əmək məhsuldarlığının inkişafını stimullaşdırır

**58. O.Keriyə görə:**

A)) Cəmiyyətdə həqiqi və əsl mənafelərin hamısının tam ahəngdarlığı mövcuddur

B) Qiymətlə kəmiyyət arasında təcrübə ilə təsdiq edilən və nəzəri cəhətdən əsaslandırılması tələb olunmayan əks nisbət açıq görünür

C) Müxtəlif əmtəələr üçün tələbin elastikliyi müxtəlifdir

D) Tələb funksiyası mənfiyə meyillidir, belə ki, əmtəənin əlavə vahidinin alışından əldə olunan əlavə faydalılığın adətən aşağı düşdüyü kimi şərh edilir

E) İqtisadi davranışın əsası insan tərəfindən nemətin psixoloji qiymətləndirilməsi və bu nemətlər arasında seçim etməkdir

# MÖVZU 9. KARL MARKSIN İQTİSADİ TƏLİMİ

**1. K.Marks marksizmin banisi kimi**
**2. K.Marksın iqtisad elminin inkişafındakı xidmətləri**
**3. K.Marksın qısa tərcümeyi-halı**

XX əsrin əksər illərində dünya əhalisinin üçdə biri **Karl Marksı** tarixin ən böyük iqtisadçısı hesab etmişdir. İqtisadi təfəkkürün tanınmış tarixçisi olan Mark Blauq qeyd edirdi ki, Marksın böyük iqtisadçı olduğuna heç bir şübhə yoxdur. Blauqa görə, əgər biz hətta fundamental marksist sxemini və onun əsas nəticələrinin əksəriyyətini inkar etsək də, "Kapitalın üç cildi, xüsusilə də son iki cildində müasir iqtisadçıların öyrənə biləcəkləri bir çox maraqlı misalların olduğunu qəbul etməliyik. Müəssisələrin böyüməsi, bu böyümənin nəticəsində mülkiyyətin idarəetmədən ayrılması, kapitalizm şəraitində fəhlələrin intizam metodu kimi istifadə olunan işsizlik, iqtisadi tsikllərin nəticəsində əmək haqqının dəyişməsinin mahiyyəti, iqtisadi tsiklin ayrılmaz dövrilik xassəsi olan, gəlir normasına texniki tərəqqinin təsiri və s. Deməli, Marksın oxunması hələ də faydalıdır.

Y.Şumpeterin özünün "İqtisadi təhlilin tarixi" əsərində (1954) Marksın nəzəriyyəsini "Güclü analitik vasitə" kimi qiymətləndirməsi" və "İqtisadi prosesin təkamülünün labüd olmasını görmək... Marksın dahi iqtisadçı adlanmaq iddiasına haqqı olması" qənaətinə gəlir. Zaman keçsə də, onun "Kapital" əsəri həmişə aktuallığını saxlayacaqdır.[15]

Marksizmin banisi, klassik iqtisadçı olan Karl Makrs fəlsəfəni və ictimai elmlərin son nailiyyətlərini mənimsəyərək bu elmlərə çox yeniliklər gətirməyə nail olmuş, burjua cəmiyyətinin mahiyyətini (kapital) aşkar etmiş, ona xas ziddiyyətləri açıb göstərmək imkanına malik olmuşdur. Bütün bunlar məhsuldar qüvvələrinin hərəkətində, xüsusən elmlə istehsal vasitə-

[15]Bax: Böyük İqtisadi Ensiklopediya. Bakı, 2012, səh. 483.

lərinin münasibətində tarixi meyilləri proqnozlazdırmağa imkan vermişdir. Fəhlə sinfi ilə burjuaziya arasında münaqişələr həddinə çatan kəskin ziddiyyətləri müşahidə edən Marks burjua cəmiyyətinin inqilabi dəyişikliklərlə inkişaf edəcəyini görürdü. Lakin bir sıra ölkələr inqilabi sarsıntılarsız, iqtisadiyyatda və siyasətdə təkamül xarakterli dəyişikliklər yolu ilə sosial-iqtisadi tərəqqiyə nail ola bilmişlər. Bununla yanaşı marksizm ictimai inkişafın əsas xəttini göstərmişdir: XX əsrdə burjua cəmiyyətinin sosiallaşmasından ibarət obyektiv zərurət bütün dünyanı əhatə edən bir meylə çevrilmişdir.

Marksizm XIX əsrin 40-cı illərində yaranmışdı. Həmin dövrdə kapitalizmin iqtisadi və sosial ziddiyyətləri kəskinləşmiş, fəhlə sinfinin mütəşəkkilliyi, kapitalizmə qarşı mübarizəsi artmışdı. Kapitalist iqtisadiyyatının inkişafında mühüm irəliləyişlər, sənaye çevrilişləri baş verirdi. Məhsuldar qüvvələrin sürətli inkişafı manufakturadan maşınlı texnika tətbiqinə əsaslanan fabrik sisteminə keçidə imkan verdi. Sənaye çevrilişləri əvvəlcə İngiltərədə, sonralar Qərbi Avropanın digər ölkələrində baş verdikcə fəhlə sinfi müstəqil ictimai qüvvəyə çevrilirdi. 1831-ci ildə Fransada Lion toxucularının üsyanı, 40-cı illərdə İngiltərədə çartizm hərəkatı, 1844-cü ildə Sileziya toxucularının üsyanı göstərdi ki, kapitalizmin feodalizm üzərində mühüm üstünlüyünə baxmayaraq, proletariatla burjuaziya arasında mübarizə getdikcə kəskinləşirdi. Almaniyada bu dövrlərdə kapitalizmin inkişafı feodal münasibətlərinin mühüm dərəcədə saxlanılması ilə müşahidə olunurdu ki, burada burjua demokratik inqilabı kifayət qədər inkişaf etmədiyinə görə proletariat başlıca hərəkətverici qüvvəyə çevrilmişdi. 40-cı illərdə sinfi mübarizənin kəskinliyi proletar inqilabını nəzəriyyəsinin bu ölkədə yaranmasına səbəb oldu.

Fəhlə sinfinin inqilabi çıxışlarında və marksizmin yaranmasında əvvəlki ictimai fikrin alman klassik fəlsəfəsinin, ingilis klassik siyasi iqtisadının, fransız utopik sosialistlərinin mühüm əhəmiyyəti oldu. Marksizm özündən əvvəlki ictimai

fikrin xüsusilə, klassik siyasi iqtisadın iqtisadi təliminin qabaqcıl fikirlərini ümumiləşdirərək bütövlükdə (inqilabi təlim yaratmış) marksizmin üç tərkib hissəsi olan dialektik materialist fəlsəfə, elmi siyasi iqtisad və elmi sosializm haqqında inqilabi təlim yaratmışdır.

Karl Marks Prussiyadakı Reynlend vilayətinin Trir şəhərində (indiki Qərbi Almaniya), ictimai düşüncəyə görə xristianlığı qəbul edən yəhudi ailəsində anadan olmuşdur. O, Bonn, Berlin və Yenadakı universitetlərdə oxumuş, burada 23 yaşında fəlsəfə doktoru dərəcəsini almışdır.[16] Tələbəlik dövründə o, Hegelin konservativ nəzəriyyəsini kəskin ictimai tənqid silahına çevirən gənc hegelçilərlə ünsiyyətdə olurdu. Gənc Marksın məqalələri tezliklə onu akademik karyeradan məhrum etmiş və o, jurnalistikaya üz tutmuşdur.

**Fridrix Engels** isə 1820-ci ildə Reyn vilayətində fabrikant ailəsində anadan olmuşdur. O, 1838-ci ildə atasının təkidi ilə gimnaziyanı bitirməmiş kommersiya fəaliyyəti ilə məşğul olmuşdur. 1842-ci ildə Engels Kölndə K.Marksla tanış olmuşdur.

1843-cü ildə K. Marks "Yeni Reyn" qəzetinin bağlanmasına görə oranı tərk etmiş və Parisə gedərək "Alman – Fransız həftəliyi" jurnalın nəşrində iştirak etmişdir. Bu jurnalın 1844-cü ildə çapdan çıxan nömrəsində onların məqalələri çap olunmuşdu ki, bu da marksist inqilabi təliminin yaranmasında mühüm rol oynamışdır. 1844-cü ildə F.Engels İngiltərədən Almaniyaya gedərkən yolda Parisə dönmüş və Marksla ikinci dəfə görüşmüşdü.

Marksın inqilabi baxışlarının formalaşmasında Paris dövrünün xüsusi rolu olmuş və burada inqilabçı demokratdan – proletariatın ideoloquna çevrilmişdir. 1848-ci ildə Almaniyada inqilab baş vermiş və onlar Almaniyaya qayıdaraq inqilabi mübarizədə aktiv iştirak etmişlər. Marks 1848-ci ildə "Yeni

---

[16]Bax: Mark Blauq. Keynsə qədər 100 böyük iqtisadçı. Bakı, 2009, səh.179.

Reyn" qəzetinin redaktoru olmuş və 1849-cu ildə bu qəzetin bağlanmasına görə Almaniyanı tərk edərək, Londonda məskunlaşmış və burada həyatının sonuna kimi yaşamışdır. F.Engels silahlı üsyanda aktiv iştirak etdiyinə görə İsveçrədən Londona gəlmiş və burada yenidən Marksla görüşmüşdür. Bu dövrdən onların birgə fəaliyyətinin yeni dövrü başlamışdır.

1842-ci ildə F.Engels İngiltərədən Mançesterə gələrək proletariatın nəzəriyyəsi ilə tanış olmuş və həmin dövrdən İngiltərənin iqtisadi inkişafının və siyasi həyatının xarakteristikasının kəskin tənqidini vermişdir (1839-1843). 1842-ci ildə "Yeni Reyn" qəzetində Marks bir necə məqalə ilə çıxış etmişdi ki, bu məqalələrdə ölkədə feodalizmin qalıqları və siyasi həyat haqqında fikirlər söyləmiş, hələ ki, proletariatın mövqeyi haqqında çıxış etməmişdi. 1843-1844 -cü illərdə əhalinin zəhmətkeş təbəqəsinin mənafeyinin kəskin müdafiəçisi olmuş "Alman-Fransız" hərəkatının iki növünü: siyasi (burjua) və radikal (proletar) inqilabı fərqləndirmişdir.

1844-cü ildə K.Marks iqtisadi-fəlsəfi əlyazmalarını yazarkən Smitin və Rikardonun əsərləri ilə tanış olmuş, onların baxışlarının tənqidi təhlilini vermişdir. "Fəlsəfə yoxsulluğu" (1847) əsərində Marks yeni tarixi və iqtisadi görüşlərinin əsas cəhətlərini dəqiqləşdirmiş, siyasi iqtisadın elmi metodologiyasını əsaslandırmış, bu sahədə əsl inqilabi çevriliş etmişdir. Bu kitab o dövrdə böyük təsirə malik olan Prudonun sosialist ideyalarının tənqidi idi. O, burada əmtəə istehsalının tarixi xarakterini vermiş, siyasi iqtisadın bir-birindən fərqlənən istehsal münasibətlərini öyrənməsini qeyd etmişdir. K. Marksa görə iqtisadi kateqoriyaları heç kim yaratmır, iqtisadi kateqoriyalar ictimai istehsal münasibətlərinin nəzəri ifadəsidir, məhsulların mübadiləsi forması onların istehsal üsulundan asılıdır.

1848-ci ildə Marks və Engels birlikdə yenicə təsis olunmuş Londonun kommunist ittifaqı üçün "Kommunist partiyasının manifesti"ni dərc etdirmişlər. Bu Manifestdə inqilabi ədəbiyyatın ən çox yadda qalan belə bir sətirləri vardır.

"... Qoy hakim siniflər Kommunist inqilabından lərzəyə gəlsinlər. Proletariatın (fəhlələrin) öz zəncirlərindən başqa itirməli bir şeyi yoxdur. Onlar bütün dünyanı qazanmalıdırlar.

Bütün ölkələrin proletarları birləşin !"

Bu əsər onların elmi nəzəriyyəsi ilə inqilabi praktik fəaliyyətinin vəhdətidir. Burada kapitalizmdən əvvəlki istehsal üsullarının sinfi quruluşu kapitalizmin inkişafı və onun müxtəlif mərhələləri məhsuldar qüvvələrlə istehsal münasibətlərinin dialektik vəhdəti, onların arasındakı ziddiyyətlərin nəticəsi kimi iqtisadi böhranların dövriliyi və dağıdıcı xarakteri göstərilir.

Kapitalizmdə sənaye istehsalının inkişafı ilə proletariatın sayının artması, iri müəssisələrdə cəmləşməsi, onun şüurunun formalaşması və kapitalizmin məhvi üçün maddi və inqilabi şəraitin yetişməsi, burjuaziya üçün qəbirqazıyanın rolunu oynaması məsələləri bu əsərdə öz əksini tapmışdır.

Kommunizmdə hər cür mülkiyyətin deyil, proletar inqilabından sonra burjua mülkiyyətinin ləğvi, yüksək, mütərəqqi vergilər, kreditin, nəqliyyatın və torpaq mülkiyyətinin dövlətin əlində mərkəzləşməsi, dövlət mülkiyyətinin artması, əməyin məcmusu kimi iqtisadi tədbirlərin həyata keçirilməsi qeyd olunurdu. Burada eyni zamanda, utopik sosializmin dərin xarakteristikası verilir, sosializm cəmiyyətinin cizgiləri, siyasi və inqilabi mübarizədə proletariatın rolunun nəzərə alınması, kommunizm ideyası təbliğ edilirdi.

*XIX əsrin 40-cı illərində Marks və Engelsin əsərlərində siyasi iqtisad məsələləri:*

F.Engels "Siyasi iqtisadın tənqidinə dair qeydlər" əsərində proletariatın mövqeyindən çıxış edərək kapitalist istehsal münasibətlərini - istehsal qüvvələri üzərində xüsusi mülkiyyəti kapitalist rəqabətini pisləmiş, kortəbii bazar münasibətlərinin dağıdıcı anarxiyalı xarakterini göstərmişdir. O, qeyd edirdi ki, rəqabət sahibkarları inhisara doğru aparır, kapitalist cəmiyyətində ticarət mühüm rola malikdir, tələb və təklifin təsiri

altında bazar qiymətlərinin tərəddüd etməsi dəyər qanununun pozulmasına gətirib çıxarır.

*İzafi dəyər nəzəriyyəsinin tənqidinin əsası:*

Əgər Marks əlyazmalarında Rikardonun əmtəə-dəyər nəzəriyyəsinin mühüm əhəmiyyətini görmürdüsə, bu kitabda onu qəbul edərək dəyər nəzəriyyəsinin bir çox tərəflərində Rikardo ilə həmrəy olurdu. O, şeylərin dəyərini ictimai zəruri əmək məsrəfləri ilə müəyyən edirdi (fərdi əməklə deyil).

Marks izafi dəyər nəzəriyyəsinin bir sıra ilkin təhlilini verir, Rikardo kimi o da fəhlənin iş qüvvəsini deyil, əməyinin kapitalistə satdığını iddia edirdi. Əməkhaqqına dəyərin çevrilmiş forması kimi deyil, əməyin qiyməti kimi baxırdı. Əməkhaqqının miqdarını Rikardo kimi minimum yaşayış vasitələrində görür, əməyə kapitalist istehsalının spesifik mərhələsində əmtəə kimi baxırdı.

O da Rikardo kimi mütləq və diferensial rentanı görmürdü. Ancaq Rikardonun renta nəzəriyyəsinin əksinə olaraq məhsuldarlığın azaldılması qanununun əksinə çıxmış torpaqların milliləşdirilməsini mütərəqqi tədbir kimi qiymətləndirmişdi.

Marks "Fəlsəfə yoxsulluğu" əsərində F.Engelsin qeydlərində göstərdiyi inhisar və rəqabət haqqında fikirlərini inkişaf etdirmiş, ziddiyyətli xarakterini göstərmiş, bunların bir-birini doğurduğunu, şərtləndirdiyini qeyd etmişdir.

"Muzdlu əmək və kapital" (1849 ) əsərində əsas diqqət əməkhaqqının və kapitalın mahiyyəti, kapital yığımının fəhlə sinfinə təsiri, əmtəənin qiymətini müəyyən edən amillər, dəyər qanununun mexanizminin açılması verilmişdir.

Marks fəhlənin kapitalistə öz əməyini satır fikrini, o vaxt əməklə iş qüvvəsi arasındakı fərqi görməmiş, daha sonra isə əməyin satılması əvəzində iş qüvvəsinin satılması anlayışından istifadə etmişdir. Əməkhaqqı fəhlələrin istehsal etdiyi əmtəələrdən payı deyildir. Fəhlələrin həyat fəaliyyəti əmtəə istehsalı prosesi başlamamışdan qabaq kapitalistə satılır. Fəhlə əmtəə istehsalı prosesində özünün yaşaması xərclərindən çox dəyər

yaradır. Əməkhaqqının miqdarı dəyərdən, tələb və təklifdən asılıdır. Rəqabət şəraitində bazar qiymətlərinin yaranması, əmək məsrəflərini (əmtəə dəyərinin miqdarını müəyyən edən) istehsal xərcləri adlanır. İş qüvvəsinin istehsal xərclərini fəhlənin və onun ailəsinin yaşaması kimi göstərir, əməkhaqqı minimum yaşayış vasitələrilə müəyyən edilirdi.

Kapitala şeylər kimi baxan nəzəriyyənin əksinə olaraq Marks göstərir ki, yığılmış əmək müəyyən şəraitdə kapitala çevrilir. Kapital burjua cəmiyyətinə xas olan istehsal münasibətidir. Kapital muzdlu əməyi-muzdlu əmək isə kapitalı tələb edir.

"Siyasi iqtisadın tənqidi", 1857-1858-ci illərdə - qeydlər, əlyazmalar - "Kapital"ın I cildinin əsas problemlərini əhatə edir.

Burada izafi dəyərin nəzəri problemləri, onun mahiyyəti, izafi dəyərin norma və kütləsi, kapitalın sabit və dəyişən kapitala bölünməsi, kapitalın üzvi quruluşu, kapitalın inkişafının iqtisadi və sosial ziddiyyətləri öz əksini tapır. Bu əsər nəşr olunmaq üçün nəzərdə tutulmamışdı, bəzi mürəkkəb məsələləri aydınlaşdırmaq məqsədi güdürdü.

1857-1858-ci illərdə Karl Marks "Siyasi iqtisadın tənqidinə dair" "Kapital"a hazırlıq qeydlərindən istifadə edərək nəşr olunmaq üçün iqtisadi əsərlər yazmaq qərarına gəlir.

Burada istehsal münasibətlərinin məhsuldar qüvvələrin səviyyəsi ilə müəyyən olunması, onların arasındakı ziddiyyətlərin, vəhdətliliyin, zəruriliyinin ilk dəfə dəqiq xarakteristikasını verir. İqtisadi bazis, üstqurum, ictimai-iqtisadi formasiya anlayışlarını izah edir.

I fəsildə - "Əmtəə" - əmək dəyər nəzəriyyəsinin izahı, klassik siyasi iqtisadının müsbət və mənfi cəhətləri, mübadilə dəyəri ilə istehlak dəyəri arasındakı ziddiyyət Smit və Rikardonun əksinə olaraq əməyin ikili xarakteri məsələləri izah olunur.

II fəsildə pul, tədavül, pul tədavülünə pozitiv yanaşma və pul haqqında müxtəlif nəzəriyyələrin tənqidi "Kapital"a

nisbətən daha geniş öyrənilir. Pulun meydana gəlməsi və funksiyaları araşdırılır.

İctimai istehsalın ayrı-ayrı momentlərini izah edərək göstərir ki, başlıca yeri bölgü deyil, istehsal tutur. Siyasi iqtisadın elmi abstraksiyasının, abstrakdan konkretə, tarixi və məntiqi metodlarının şərhini verir.1861-ci ildə "Kapitala ikinci hazırlıq", 1864-1865-ci illərdə üçüncü hazırlıq gedir.

"Kapital"ın I cildi 1867-ci ildə çapdan çıxır və kapitalist iqtisadiyyatının hərtərəfli təhlili verilir – 7 bölmə 25 fəsildən ibarətdir. Öz məzmununa görə I fəsil "Siyasi iqtisadın tənqidinə dair" əsərinin davamıdır. Burada dəyər və mübadilə dəyərinin, daha dəqiq dəyər formasının təhlili verilir, pulun meydana gəlməsi, əmtəə fetişizmi izah olunur.

II bölmə "Pulun kapitala çevrilməsi"nə – iş qüvvəsinin istismarına, izafi dəyərin mahiyyətinə, iş qüvvəsinin əmtəə olmasına, iş qüvvəsinin xüsusiyyətlərinə həsr olunur.

Sonrakı üç bölmədə izafi dəyər istehsalı təhlil edilir: sabit və dəyişən kapitalın, izafi dəyərin artmasının iki üsulunun şərhi verilir.

II bölmədə əməkhaqqının mahiyyəti, onun formaları, əməkhaqqına dəyərin və iş qüvvəsinin qiymətinin çevrilmiş formaları kimi baxılır.

Daha sonra kapitalist yığımı prosesinin dəqiq təhlilini və onun fəhlə sinfinə təsirini aydınlaşdırmışdır. Axırıncı bölmə "Muzdlu əmək və kapital" əsəri ilə bağlıdır. Burada izafi dəyərin kapitala çevrilməsi, kapital yığımının həcmi və ona təsir göstərən amillər, nisbi əhali artıqlığının əsas səbəbləri, kapitalın üzvi quruluşu, kapital yığımının ümumi qanunu şərh olunur.

Beləliklə, I cildin əsas diqqət mərkəzində-izafi dəyər nəzəriyyəsinin şərhi durur.

"Kapital"ın II cildində kapitalın tədavülü prosesi izah olunur. Tədavül prosesini tədqiq edərkən ona istehsalla vəhdətdə baxılır. Üç bölmədən ibarətdir. I bölmədə kapitalın metamorfozları və onun dövranı, II bölmədə kapitalın döv-

riyyəsi, III bölmədə ictimai kapitalın təkrar istehsalı tədqiq olunur. I və II bölmələrdə kapitalın dövranı və dövriyyəsi, kapitalın dövranının üç mərhələsi, kapitalın əsas və dövriyyə kapitalı, iş vaxtı məsələləri izah olunur. III bölmədə A.Smitin, fiziokratların təkrar istehsala aid fikirlərini inkişaf etdirərək, F.Kenenin iqtisadi cədvəlində tənqidi cəhətləri ümumiləşdirərək sadə və geniş təkrar istehsal, ictimai istehsalın reallaşmasının zəruri şərtləri və s. məsələlər öz əksini tapır.

"Kapital"ın III cildində kapitalist istehsal prosesi bütövlükdə tədqiq olunmuş və yeddi bölmədən ibarətdir. İzafi dəyərin mənfəətə, mənfəətin orta mənfəətə və dəyərin istehsal qiymətinə çevrilməsi tədqiq olunmuşdur. Orta mənfəət və istehsal qiyməti haqqında təlimdə qeyd olunur ki, dəyərin istehsal qiymətinə çevrilməsi dəyər qanunun prinsiplərinin pozulması deyil, onun təzahürünün mürəkkəb formasıdır.

IV bölmədə ticarət kapitalının və ticarət mənfəətinin geniş təhlili verilmişdir.

V bölmədə borc kapitalı və borc faizi izah olunmuş, torpaq rentası Rikardodan fərqli olaraq diferensial renta, mütləq rentanın əmələ gəlməsi məsələsi təhlil edilmişdir.

K.Marks "Kapital"da kapitalist iqtisadiyyatının çox çalarlığını, kapitalların rəqabəti, kredit, səhm kapitalı, torpaq mülkiyyəti, muzdlu əmək, dövlət, xarici ticarət, dünya bazarı və s. kimi məsələlərdən kənarlaşdırmışdır.

"Kapital"ın IV cildi "İzafi dəyər" nəzəriyyələrinə həsr olunmuşdur. I hissədə Stüartın, Smitin və Rikardonun iqtisadi görüşlərinin tənqidi verilmişdir. Burada məhsuldar və qeyri-məhsuldar əmək, iqtisadi böhranların mahiyyəti, təkrar istehsal, orta mənfəət və istehsal qiyməti, bazar dəyəri, diferensial və mütləq renta haqqında fikirləri verilmişdir.

F.Engelsin "Anti-Dürinq" əsəri burjua ideoloqu Dürinqin nəzəriyyələrinin tənqidinə həsr olunmuşdur. Giriş və üç fəsildən-fəlsəfə, siyasi iqtisad və sosiologiyadan ibarətdir. Girişdə özündən əvvəlki fikrin nümayəndələrinin Marksın iki

kəşfinin təhlili verilmişdir. I bölmədə - dialektik materializm və onun ictimai inkişafa tətbiqi-tarixi materializm, II bölmədə siyasi iqtisadın predmeti və metodu – iqtisadi qanunların xarakteri şərh edilmiş, siyasi iqtisadın geniş və dar mənada tərifi verilmişdir. III bölmədə sosializm istehsalının ictmai xarakteri, mənimsəmənin xüsusi forması, proletariatla burjua arasında ziddiyyətlilik, kapitalist istehsalının tsiklik xarakteri, inhisarların yaranması, rəqabətin inhisara çevrilməsi və s. məsələlərin izahı verilmişdir.

K.Marksın başlıca kəşfləri: formasiyaların bir-birini əvəz etməsinə əsaslanan ictimai-iqtisadi formasiya təliminin yaranması, kapitalizmin inkişaf qanunlarının-ziddiyyətlərinin açılması, təkrar istehsal və iqtisadi böhran haqqında nəzəriyyənin işlənib hazırlanması, istehsal, qiymət, əməyin ikili xarakteri, əmtəənin ziddiyyətləri, izafi dəyər haqqında təlimin yaranması, dəyərin inkişaf formalarının təhlili, mütləq rentanın mahiyyətinin açılması olmuşdur.

Cəmiyyətin tam halda öyrənilməsinə yanaşma Marksa inkişaf qanunlarını açmağa; ictimai nəzəriyyə qarşısında duran bir sıra problemləri qaldırmağa və tədqiq etməyə; (o cümlədən əməyin özgəninkiləşdirilməsi), əmtəə fetişizmi, ideal ilə maddinin nisbəti, şəxsiyyətin formalaşması və inkişafı, subyektin tarixi və iqtisadi baxımdan spesifikasını (azadlıq, dövlət problemi) və s. aşkar etməyə imkan vermişdir. Marksın iqtisadi nəzəriyyəyə töhfəsi xüsusi ilə diqqətəlayiqdir. İlk dəfə olaraq K.Marks tərəfindən məhsuldar qüvvələrin səviyyəsindən asılı olan istehsal münasibətləri elm kimi iqtisadi nəzəriyyənin, siyasi iqtisadın predmeti kimi izah olunmuşdur. Marks materializmin "şüuru varlıq müəyyən edir" prinsipindən çıxış edərək vurğulayırdı ki, tarixin hərəkətinin əsası istehsalın sosialist formasıdır və bu hərəkətin spesifikası ictimai istehsal münasibətləri ilə şərtlənir. Odur ki, Marks dəyərin sosial istehsal forması kimi tədqiq edilməsinə, onun əmək xarakterinə böyük

əhəmiyyət verirdi. İzafi dəyər nəzəriyyəsi isə kapitalizm dövründə istehsal münasibətlərinin xarakterini ən uyğun şəkildə əks etdirən bir təlimdir. Bu qanunun kəşfində onun əmək-dəyər nəzəriyyəsi, əməyin ikili xarakteri haqqında təlimi müstəsna əhəmiyyət kəsb etmişdir. Marksizm, sadəcə olaraq, ictimai inkişafın meyillərini tədqiq etməklə kifayətlənməmiş, həm də inqilabi praktikaya doğru istiqamətlənmişdir.

## Testlər

*(Qeyd: "))"- bu işarə düzgün cavabı göstərir)*

**1. K.Marksin əmək-dəyər nəzəriyyəsi göstərir ki:**

A) Əmtəənin dəyərinin tərkib hissəsi kimi gəlirlərin özü də son nəticədə əməklə müəyyən olunur

B) Əmək təkcə əmtəənin qiymətinin əməkhaqqına düşən hissəsini deyil, həm də rentaya və mənfəətə düşən hissəsinin dəyərini müəyyən edir

C) Əmtəələrin bazar qiyməti tələb və təklifin təsiri altında əmələ gəlir

D)) Kapitalist əmək prosesində iştirak etmədən məcmu məhsulun bir hissəsini mənimsəyir

E) Dəyər istehsal xərcləri ilə eynilik təşkil edir

**2. Kapital yığımının ümumi qanununun kəşfini ilk dəfə kim etmişdir:**

A) A.Smit

B) D.Rikardo

C)) K.Marks

D) A.Marşall

E) K.Menger

**3. İzafi dəyər hansı istehsal amili tərəfindən yaradılır?**

A) Kapital, torpaq və əmək

B)) Dəyişən kapital

C) Fəhlənin əməyinin ödənilməyən hissəsi

D) Torpaq

E) Sabit kapital

**4. İqtisadi fikir tarixində kapitalın bu cür bölgüsü yalnız marksizmə məxsusdur:**
A)  Torpaq, əmək
B) İlkin avans, illik avans
C) Fəhlənin əməyinin ödənilməyən hissəsi, mənfəət
D) Əsas və dövriyyə
E)) Sabit, dəyişən
**5. Kim xüsusi mülkiyyətə və kapitala əməyin özgəninkiləşməsinin nəticəsi kimi baxır və özgəninkiləşmənin səbəbini öz növbəsində körtəbii inkişaf edən ictimai əmək bölgüsündə görür:**
A) S.Sismondi
B)) K.Marks
C) D.Rikardo
D) C. Klark
E) A. Marşall
**6. Bəşər cəmiyyətinin yaranmasını, onun mövcudluğunu və inkişafını ictimai maddi istehsalla şərtləndirən iqtisadçı kimdir:**
A) A.Smit
B) S.Sismondi
C)) K.Marks
D) A.Marşall
E) K.Menger
**7. Əməyin ikili xarakteri haqqında təliminə əsasən Marks nəyi müəyyən etmişdir:**
A)) İctimai zəruri əməyi
B) Abstrakt əməyi
C) Əmtəənin faydalılığını
D) Əmtəənin ikili təbiətə malik olmasını
E) İzafi dəyəri
**8. İnsanların fiziki və mənəvi qüvvələrinin məsrəfi kimi K.Marks nəyi müəyyən etmişdir:**
A) İctimai zəruri əməyi
B)) Abstrakt əməyi
C) Əmtəənin faydalılığını
D) Əmtəənin ikili təbiətə malik olmasını
E) İzafi dəyəri

**9. Aşağıdakı düsturlardan hansı kapitalın üzvü quruluşunu ifadə edir:**
A) C + V + S D)) q = C / V
B) V + C E) R = S / K
C) Q = S / V
**10. K. Marks nəyi fiktiv kapital hesab edirdi:**
A) Əsas kapitalı D))Qiymətli kağızları
B) Dövriyyə kapitalını E) İqtisadi mənfəəti
C) Amortizasiya fondunu
**11. Hansı iqtisadi konsepsiyaya görə bütün gəlirlərin, o cümlədən torpaq rentasının mənbəyi izafi dəyərdir?**
A)) Marksist D) Marjinalist
B) Neoklassik E) Merkantilist
C) Keynsçi
**12. K.Marksın "Kapital" əsərinin ilk cildi çapdan çıxıb:**
A)1861-ci ildə D) 1865-ci ildə
B)1870-ci ildə E) 1872-ci ildə
C))1867-ci ildə
**13. Kim mübadilə dəyərini dəyərin zəruri təzahür forması kimi öyrənmişdir?**
A) A.Smit D) T. Maltus
B))K.Marks E) D. Rikardo
C) J.B.Sey
**14. Hansı iqtisadi məktəb məntiqi əsaslandırılmış, alternativ iqtisadi nəzəriyyə və məntiqi istiqaməti müəyyən etmişdir :**
A))Marksist D) Marjinalist
B) Neoklassik E) Merkantilist
C) Keynsçi
**15. Aşağıdakı əsərlərdən hansı F. Engelsə məxsusdur:**
A) "Fəlsəfənin yoxsulluğu"
B) "Kapital"
C) "Muzdlu əmək və kapital"
D) "Məntiqi sistem"
E))"Təbiətin, cəmiyyətin və ailənin ictimai mənşəyi"

**16. Aşağıdakı əsərlərdən hansı F. Engelsə məxsusdur:**
A) "Fəlsəfənin yoxsulluğu"
B) "Muzdlu əmək və kapital"
C))"Anti-Dürinq"
D) "Kapital"
E) "Məntiqi sistem"

**17. Kapitalın üzvü quruluşu kim tərəfindən işlənib?**
A) U.Rostou
B)) K.Marks
C) P.Samuelson
D) E.Sluçkin
E) A.Marşall

**18. Kim mənfəəti yaşayış vasitələrinin alışına çəkilən xərclərdən asılı olduğunu qeyd etmişdir:**
A) S.Sismondi
B) D.N.Kondratyev
C)) K.Marks
D) K.Mitçell
E) Q.Xabler

**19. K.Marksın tərifinə görə, iş qüvvəsinin dəyəri müəyyənləşdirilir:**
A)) İş qüvvəsinin təkrar istehsalı ücün zəruri olan ictimai zəruri vaxtla
B) İş qüvvəsinə tələb və təklifin nisbəti ilə
C) İş qüvvəsinin son məhsuldarlığı ilə
D) Sosial qüvvələrin nisbəti ilə
E) Əmək məhsuldarlığı ilə

**20. K.Marksın tədqiqat obyektinə aid deyil:**
A) Əməyin ikili xarakteri və izafi dəyərin kəşfi
B) Dəyərin "ictimai-zəruri əmək məsrəfləri" kəmiyyəti kimi izahı
C) Kapital yığımının ümumi qanununun kəşfi
D)"Dəyər qanunu, əmtəə istehsalının inkişafı qanunauyğundur" konsepsiyasının yaradılması
E)) Azad istehlak seçimi ilə iqtisadiyyatın mərkəzdən idarə edilməsi

**21. K.Marksın tədqiqat obyektinə aid deyil:**
A) Əməyin ikili xarakteri və izafi dəyərin kəşfi
B) Dəyərin "ictimai-zəruri əmək məsrəfləri" kəmiyyəti kimi izahı
C) Kapital yığımının ümumi qanununun kəşfi

D)"Dəyər qanunu, əmtəə istehsalının inkişafı qanunauyğundur" konsepsiyasının yaradılması
E))"İqtisadi insan" kateqoriyasının bazar subyekti kimi öyrənilməsi

**22. K.Marksın tədqiqat obyektinə aiddir:**

A) Əməyin ikili xarakteri və izafi dəyərin kəşfi
B) Dəyərin "ictimai-zəruri əmək məsrəfləri" kəmiyyəti kimi izahı
C) Kapital yığımının ümumi qanununun kəşfi
D)"Dəyər qanunu, əmtəə istehsalının inkişafı qanunauyğundur" konsepsiyasının yaradılması
E)) Bunların hamısı

**23. K.Marksın tədqiqat obyektinə aiddir:**

A))Kapital yığımının ümumi qanununun kəşfi
B) Xalis məhsul haqqında təlımın yaradılması
C) Sərvətin pulla eyniləşdirilməsinin inkarı
D) Faydalılıq həddi prinsipinin müəyyən edilməsi
E) "Sosial bazar təsərrüfatı" modelinin yaradılması

**24. K.Marksın tədqiqat obyektinə aiddir:**

A)) Pul nəzəriyyəsinin daha dərindən inkişafı
B) Xalis məhsul haqqında təlimin yaradılması
C) Sərvətin pulla eyniləşdirilməsinin inkarı
D) Faydalılıq həddi prinsipinin müəyyən edilməsi
E) "Sosial bazar təsərrüfatı" modelinin yaradılması

**25. K.Marksın tədqiqat obyektinə aiddir:**

A)) Kapitalın üzvü quruluşunun müəyyən olunması
B) Xalis məhsul haqqında təlimin yaradılması
C) Sərvətin pulla eyniləşdirilməsinin inkarı
D) Faydalılıq həddi prinsipinin müəyyən edilməsi
E) "Sosial bazar təsərrüfatı" modelinin yaradılması

**26. K.Marks sabit kapitala nəyi aid etmişdir:**

A)) Kapitaldan əsas kapitalın aşınmasına və xammal məsrəfinə hesablanan məbləği
B) Muzdlu işçilərə verilən əməkhaqqını
C) "Əşya" kapitalı

D) "Real" kapitalı
E) Maddiləşmiş əməyi

**27. K.Marks dəyişən kapitala nəyi aid etmişdir:**

A) Kapitaldan əsas kapitalın aşınmasına və xammal məsrəfinə hesablanan məbləği
B)) Muzdlu işçilərə verilən əməkhaqqı
C) "Əşya" kapitalı
D) "Real" kapitalı
E) Maddiləşmiş əməyi

**28. K. Marksa görə qiymətin dəyər nəzəriyyəsidir:**

A)) Qiymətin məbləğinin dəyərin məbləğinə bərabər olması
B) Qiymətin məbləğinin dəyərin məbləğinə bərabər olmaması
C) Qiymətin məbləğinin dəyərin məbləğindən çox olması
D) Qiymətin məbləğinin dəyərin məbləğindən az olması
E) Bunların hamısı

**29. Aşağıdakılardan hansı K.Marksın kəşflərindən biridır:**

A) Tarixin materialistcəsinə şərhi
B) Cəmiyyətin inkişafına obyektiv qanunlarla tənzimlənən tələbin tarixi prosesi kimi yanaşması
C) Bəşər cəmiyyətinin yaranmasının ictimai maddi istehsalla şərtlənməsi
D)) Kapital yığımının ümumi qanunu
E) Əmək-dəyər nəzəriyyəsi

**30. Aşağıdakılardan hansı K.Marksın kəşflərindən biridır:**

A) Tarixin materialistcəsinə şərhi
B) Cəmiyyətin inkişafına obyektiv qanunlarla tənzimlənən tələbin tarixi prosesi kimi yanaşması
C) Bəşər cəmiyyətinin yaranmasının ictimai maddi istehsalla şərtlənməsi
D) İzafi dəyər qanunu
E)) Bunların hamısı

**31. K.Marks göstərir ki:**

A) Azad rəqabət sərvətin az bir qrupun əlində cəmləşdiyi bir şəraitdə, əhalinin əsas kütləsinin dilənçiləşməsi baş verir

B) Böhranlar tələbin həm artıqlığı, həm də çatışmamazlığı üzündən baş verir
C) Əməkhaqqı və mənfəət bir-biri ilə əks proporsional asılılıqda olur
D) Əməkhaqqının səviyyəsində dəyişmələr mübadilə dəyərinə təsir etmir
E)) İqtisadi qanunlar bəşəriyyətin daimi qanunları deyil, insanların istehsal münasibətlərinin qanunlarıdır
**32. K.Marks göstərir ki:**
A) Azad rəqabət sərvətin az bir qrupun əlində cəmləşdiyi bir şəraitdə, əhalinin əsas kütləsinin dilənçiləşməsi baş verir
B) Böhranlar tələbin həm artıqlığı, həm də çatışmazlığı üzündən baş verir
C) Əməkhaqqı və mənfəət bir-biri ilə əks proporsional asılılıqda olur
D) Əməkhaqqının səviyyəsində dəyişmələr mübadilə dəyərinə təsir etmir
E)) İqtisadi münasibətlər sisteminin digəri ilə əvəz olunması ictimai iqtisadi inkişafın obyektiv qanunauyğunluğudur
**33. K.Marksın əmək-dəyər nəzəriyyəsi göstərir ki:**
A) Əmtəənin dəyərinin tərkib hissəsi kimi gəlirlərin özü də son nəticədə əməklə müəyyən olunur
B) Əmək təkcə əmtəənin qiymətinin əməkhaqqına düşən hissəsini deyil, həm də rentaya və mənfəətə düşən hissəsinin dəyərini müəyyən edir
C) Əmtəələrin bazar qiyməti tələb və təklifin təsiri altında əmələ gəlir
D) Dəyər istehsal xərcləri ilə eynilik təşkil edir
E)) Bərabər mənfəətlik prinsipinə əsaslanan dəyər qiymətə çevrilir
**34. K.Marksın əmək-dəyər nəzəriyyəsi göstərir ki:**
A) Əmtəənin dəyərinin tərkib hissəsi kimi gəlirlərin özü də son nəticədə əməklə müəyyən olunur

B) Əmək təkcə əmtəənin qiymətinin əməkhaqqına düşən hissəsini deyil, həm də rentaya və mənfəətə düşən hissəsinin dəyərini müəyyən edir
C) Əmtəələrin bazar qiyməti tələb və təklifin təsiri altında əmələ gəlir
D) Dəyər istehsal xərcləri ilə eynilik təşkil edir
E)) Əmək özünəməxsus ictimai məsrəfdir
**35. K.Marks ilk dəfə olaraq əmtəənin dəyərinin:**
A) Klassik tərifini vermişdir
B))Sosial mahiyyətini vermişdir
C) Əməklə müəyyən olunduğunu vermişdir
D) Kapital müəyyən olunduğunu vermişdir
E) İstehsal xərcləri ilə ölçüldüyünü göstərmişdir
**36. K.Marks ilk dəfə olaraq əmtəənin:**
A) Klassik tərifini vermişdir
B)) İkili təbiətə malik olmasını göstərə bilmişdir
C) Əməklə müəyyən olunduğunu vermişdir
D) Kapital müəyyən olunduğunu vermişdir
E) İstehsal xərcləri ilə ölçüldüyünü göstərmişdir
**37. K.Marksın təkraristehsal sxeminin əsas şərtləri və makroiqtisadi qarşılıqlı asılılığı aşağıdakılardan ibarətdir:**
A)) Sadə təkraristehsal dəyişməzdir, onda xalis investisiya sıfıra bərabərdir
B) Geniş təkrar istehsal dəyişməzdir, onda xalis investisiya sıfıra bərabərdir
C) Bu sxemdə o, iqtisadiyyatın tarazlıq halında olduğunu göstərmişdir
D) Bu sxemdə o, məhsulun özünü yenidən istehsal etməyə hazır olduğunu göstərmişdir
E) Bu sxemdə o, tədqiqat obyekti olan tarazlıq şərtlərini göstərmişdir
**38. K.Marks sübut edir ki:**
A) İzafi dəyər mübadilə prosesində pul tərəfindən yaranır, o, əmək prosesində muzdlu işçi tərəfindən yaradılmır
B) Əmtəənin dəyəri onun faydalılığı ilə eynilik təşkil edir

C) Sərvətin mənbəyi millətin istehsal potensialından asılıdır
D)) Mütləq yoxsullaşma haqqında nəzəriyyənin əsasını əmək məhsuldarlığının artması ilə bərabər əməkhaqqının artmaması təşkil edir
E) Kapital əməklə yanaşı əmtəənin dəyərinin mənbəyidir

**39. K.Marks göstərmişdir ki;**

A) İzafi dəyər mübadilə prosesində pul tərəfindən yaranır, o, əmək prosesində muzdlu işçi tərəfindən yaradılmır
B) Əmtəənin dəyəri onun faydalılığı ilə eynilik təşkil edir
C) Sərvətin mənbəyi millətin istehsal potensialından asılıdır
D))Əmtəənin dəyəri istehsal qiymətinə çevrilir
E) Kapital əməklə yanaşı əmtəənin dəyərinin mənbəyidir

**40. Marksizmə görə, mülkiyyət iqtisadi kateqoriya kimi**:

A) Resursun özü deyil, resursdan istifadəyə verilən hüquq dəsti və ya pay mülkiyyətidir
B) Təyinatından asılı olaraq əşyanın faktiki tətbiq edilməsidir
C)) İstehsal, bölgü, mübadilə və istehlak prosesində istehsal vasitələrinin və onların köməyi ilə hazırlanan maddi nemətlərin mənimsənilməsidir
D) Kimə və hansı miqdarda məxsus olduğunu təsbit edən əmlak münasibətləridir
E) "Mülkiyyət oğurluqdur", mülkiyyət məhvə məhkumdur, təbiətə və şüura ziddir

**41. K.Marksa görə**:

A) Resursun özü deyil, resursdan istifadəyə verilən hüquq dəsti və ya pay mülkiyyətidir
B) Təyinatından asılı olaraq əşyanın faktiki tətbiq edilməsidir
C)) Əməyin özgəninkiləşməsinin nəticəsidir
D) Kimə və hansı miqdarda məxsus olduğunu təsbit edən əmlak münasibətləridir
E) "Mülkiyyət oğurluqdur", mülkiyyət məhvə məhkumdur, təbiətə və şüura ziddir

**42. Kapitalizmdə iqtisadi artımın tsiklik xarakterin marksist təhlilində əsas olmuşdur:**

A) İzafi dəyər qanunu

B)) Mənfəət normasının azalmağa meyil etməsi qanunu
C) Əmək-dəyər nəzəriyyəsinin məntiqi sonluğa çatdırılması
D) İş qüvvəsinin əmtəə olması
E) Əmtəənin dəyərinin sosial mahiyyətinin açılması

**43. İzafi dəyər qanunun tədqiqində əsas olmuşdur:**
A) Təkrar istehsalın reallaşması nəzəriyyəsi
B) Mənfəət normasının azalmağa meyil etməsi qanunu
C)) Əmək-dəyər nəzəriyyəsi
D) İş qüvvəsinin əmtəə olması
E) Əmtəənin dəyərinin sosial mahiyyətinin açılması

**44. İqtisadi tsiklin əsas səbəbi kapitalizmin əsas ziddiyyəti olan istehsalın ictimai xarakteri ilə mənimsəmənin xüsusi kapitalist formasıdır. Bu hansı nəzəriyyədir?**
A) Əsas kapitala investisiyalar nəzəriyyəsi
B) Dövriyyə kapitalına investisiyalar nəzəriyyəsi
C) Monetar nəzəriyyə
D))Marksist nəzəriyyə
E) Natamam istehlak nəzəriyyəsi

**45. İqtisadiyyatda optimal davranış prinsiplərinin tədqiqi, optimal nəzəriyyələrə və həllərə yaxınlaşmaq üçün tətbiq olunan təhlil metodu:**
A) Əsas kapitala investisiyalar nəzəriyyəsi
B) Dövriyyə kapitalına investisiyalar nəzəriyyəsi
C))Marjinal nəzəriyyə
D) Marksist nəzəriyyə
E) Natamam istehlak nəzəriyyəsi

**46. Marksın təliminə görə geniş təkrar istehsalın şərhi:**
A)) I ( V + C ) > II C
B) ( C + M + S ) = I V + II V + ( I S + II S)
C) I ( V + C ) = II C
D) I ( V + C ) < II C
E) I ( C + V + S ) = I C + II C

**47. Marksın təliminə görə sadə təkrar istehsalın şərti:**
A)) I ( V + C ) = II C
B) I ( V + C ) < II C

C) I ( V + C ) > II C
D) (C + M + S ) = I V = II V + ( I S + II S )
E) I ( C + V + S ) = I C + II C

**48. Marksizm əmtəənin dəyərini necə müəyyən edir?**

A)) İctimai zəruri əməklə
B) Əmtəənin faydalılığı ilə
C) İstehsal xərcləri ilə
D) Pulun miqdarı ilə
E) Tələb və təklif ilə

**49. İqtisadi sistem nəzəriyyəsi kim tərəfindən işlənib?**

A) U.Rostou
B)) K.Marks
C) P.Samuelson
D) E. Sluçkim
E) A. Marşall

**50. K.Marks göstərir ki:**

A) Azad rəqabət sərvətin az bir qrupun əlində cəmləşdiyi bir şəraitdə, əhalinin əsas kütləsinin dilənçiləşməsi baş verir
B) Böhranlar tələbin həm artıqlığı, həm də çatışmazlığı üzündən baş verir
C) Əməkhaqqı və mənfəət bir-biri ilə əks proporsional asılılıqda olur
D) Əməkhaqqının səviyyəsində dəyişmələr mübadilə dəyərinə təsir etmir
E)) Abstrakt əmək əmtəə istehsalı üçün xarakterik olan insan əməyinin müəyyən tarixi formasıdır

**51. Kapitalı "öz-özünə artan dəyər" kimi izah edən iqtisadçı kim olmuşdur?**

A) A.Smit
B) D.Rikardo
C) J.B.Sey
D)) K.Marks
E) F.Kene

**52. Hansı iqtisadi konsepsiyaya görə bütün gəlirlərin, o cümlədən torpaq rentasının mənbəyi izafi dəyərdir?**

A)) Marksist
B) Neoklassik
C) Keynsçi
D) Marjinalist
E) Merkantilist

**53. K.Marks xalis milli məhsulu necə izah edirdi:**

A) C + V + S
B)) V + S
D) R = S / K
E) Q = S / V

C) q = C / V

**54. K.Marksın ən böyük kəşfi hansıdır:**

A) Tarixin materialistcəsinə şərhi

B) Cəmiyyətin inkişafına obyektiv qanunlarla tənzimlənən tələbin tarixi prosesi kimi yanaşması

C) Bəşər cəmiyyətinin yaranmasının ictimai maddi istehsalla şərtlənməsi

D)) İzafi dəyər qanunu

E) Əmək-dəyər nəzəriyyəsi

**55. Həyat səviyyəsi kateqoriyası ilk dəfə kim tərəfindən istifadə edilmişdir:**

A) C.Mill

B)) K.Marks

C) D.Rikardo

D) C.Klark

E) A.Marşall

**56. Kim əməyi zəruri və izafi əməyə ayırmışdır?**

A) A.Smit

B)) K.Marks

C)J.B.Sey

D) T.Maltus

E) D.Rikardo

**57. Bir-birini ardıcıl əvəz edən tsiklin fazalarını iqtisadçılardan kim müəyyənləşdirmişdir:**

A) S.Sismondi

B) D.Kondratyev

C)) K.Marks

D) K.Mitçel

E) Q.Xabler

**58. Kim mənfəət ilə izafi dəyəri eyniləşdirirdi:**

A)) K.Marks

B) A.Smit

C) F.Kene

D) D.Rikardo

E) F.Engels

# MÖVZU 10. ALMAN TARİXİ MƏKTƏBLƏRİ

**1. Alman tarixi məktəbinin formalaşmasında F.Listin xidmətləri**
**2. İlkin alman tarixi məktəbinin nümayəndələrinin iqtisadi fikirləri**
**3. K.Rodbertusun iqtisadi konsepsiyası**
**4. Yeni alman tarixi məktəbinin iqtisadi fikirləri**
**5. Alman tarixi məktəblərində iqtisadi və sosial amillərin vəhdətliyi problemləri**

Almaniyada kapitalist istehsalı XIX əsrin 40-60-cı illərində inkişaf etmişdir. Kapitalizmin inkişafının Prussiya yolu, feodalizmin qalıqları, alman sənayesinin geri qalması, gömrük müdafiəsinin lazımlılığı, ölkənin siyasi cəhətdən parçalanmasının aradan qaldırılmasının zəruriliyi alman siyasi iqtisad məktəbinin iqtisadi görüşlərinin formalaşmasına öz təsirini göstərirdi.

Alman tarixi məktəbinin nümayəndəsi **Fridlix List** (1789-1846) "Siyasi iqtisadın milli sistemi" adlı əsərində İngiltərənin dünya sənayesində ağalıq etməsinə qarşı çıxır və özünü Almaniyanın milli birliyinin carçısı adlandırırdı. O geridə qalmış ölkədə iqtisadi siyasətə dair kəskin məsələlər irəli sürürdü. Bu əsər Almaniyanın iqtisadi inkişafı və ticarət siyasəti problemləri ətrafında gedən mübahisələrdə mühüm rol oynamış və alman iqtisadi fikrinə ciddi təsir göstərmişdir.

Milli iqtisadiyyat nəzəriyyəsi özünün ilk sistemli tədqiqini F.Listin "Siyasi iqtisadın milli sistemi" əsərində tapmışdır. Bildiyimiz kimi, tarixi məktəbin nümayəndələrinin nəzəri tədqiqatları daha çox klassik təlimin inkarına söykənirdi.[17] F.List siyasi iqtisadın klassik məktəbinin daha sərt tənqidçilərindən biri idi. O, Adam Smiti və onun tərəfdarlarını "kosmopolitik

---

[17] M.A.Əhmədov. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı, 2003, səh.18.

məktəb" adlandıraraq iddia edirdi ki, ümumi azad ticarət sadəcə ideyadır. Ona yalnız uzaq gələcəkdə nail olmaq olar.

F.Listə görə, Almaniyanın inkişafı və birləşməsi sənayenin inkişaf etdirilməsindədir. Alman sənayesi isə yüksək idxal gömrük haqqının və ticarət siyasətinin digər vasitələrinin köməyi ilə güclü xarici rəqabətdən müdafiə olunmağa ehtiyac hiss edirdi. O deyirdi ki, indiki zamanda hər bir millət öz istehsalçılarının inkişafını idxal rüsumları və hətta tamamilə qadağalarla müdafiə etməlidir. Yalnız bu cür vasitələri istifadə etməklə Almaniya, Rusiya, ABŞ və Britaniya kimi ölkələrlə rəqabət apara biləcək sənaye effektivliyinə nail ola bilər.

F.List təsdiq edirdi ki, müxtəlif millətlər müxtəlif inkişaf səviyyəsinə malikdir. Ayrı-ayrı ölkələrin iqtisadiyyatı öz qanunlarına uyğun inkişaf edir. Buna görə də hər bir ölkə üçün milli iqtisadiyyat xarakterikdir. Bu iqtisadiyyatın vəzifəsi isə millətin məhsuldar qüvvələrinin inkişafı üçün əlverişli şərait yaratmaqdır. Bununla o siyasi iqtisadı faktiki olaraq iqtisadi siyasətlə əvəz edir. Nəzəriyyənin əsasında isə dövlətin iqtisadiyyata müdaxiləsi formasında gömrük rüsumlarının tətbiqi şəraitində inkişafa nail olmaq dururdu.

F.List eyni zamanda iqtisadi inkişafın mərhələləri haqqında təlim yaradaraq onu 5 mərhələyə: vəhşilik, maldarlıq, əkinçilik, manufaktura, əkinçilik-ticarət mərhələsinə bölür.

Məhsuldar qüvvələr nəzəriyyəsinə görə, millətin vəziyyəti sərvətin və ya mübadilə dəyərinin miqdarından deyil, məhsuldar qüvvələrin inkişaf səviyyəsindən, fabrik, zavod sənayesinin inkişafından asılıdır. Listə görə, məhsuldar qüvvələr ictimai şəraitin elə bir məcmusudur ki, bu şəraitsiz millətin sərvəti də ola bilməz. List milli sənayenin inkişafını xarici rəqabətdən hələ müstəqillik əldə edənə və xaricilərlə bərabər səviyyədə rəqabət apara bilənə qədər müdafiə edən dövlət tədbirləri sisteminin köməyi ilə sürətləndirməyi təklif edirdi. Ticarət azadlığının həyata keçirilməsini o əsas millətlərin

hamısının təxminən eyni inkişaf səviyyəsində olacağı, kifayət qədər qeyri - müəyyən bir gələcəyədək təxirə salırdı.

F.List alman siyasi iqtisad məktəbinə güclü təsir göstərmişdir. Bu təsir aşağıdakılardan ibarətdir:

1.Listin ardınca "Alman tarixi məktəbi" siyasi iqtisadı milli təsərrüfat haqqında elm kimi nəzərdən keçirirdi. Həmin dövrdə milli ruh, milli xarakter alman tarixi məktəbinə xas olan bir cəhət idi.

2. Onlar klassik məktəbə və onun davamçılarına tənqidi yanaşırdılar.

3. Bu tarixçilər ölkənin iqtisadi inkişaf mərhələləri konsepsiyasına əsaslanırdılar.

F.List Almaniyada sağlam milli iqtisadiyyatı yaratmaq ideyasın strateji əhəmiyyətli bir proqram kimi irəli sürürdü. Məşhur Alman iqtisadiyyatının, sağlam milli iqtisadiyyat kateqoriyasının şərhini o dövrün bir çox iqtisadçı alimləri (H. Keri, U.St.Mill) bəyənirlər. Almaniyanın birinci imper Kansleri bu konsepsiya ilə maraqlanır, bəyənir və Almaniyada milli iqtisadiyyat modeli yaradaraq, ondan istifadə edilməsinə göstəriş verir. Bundan sonra Almaniyada müstəqil iqtisadiyyatın təşəkkülü sahəsində xüsusi dönüş yaranır. Vaxtı ilə Rusiya imperiyasının maliyyə naziri S.Y.Vitte bu alman iqtisadçısının yaratmış olduğu milli iqtisadiyyat konsepsiyasını bəyənmiş və onu müdafiə etmişdir.

*XIX əsrin 40-cı illərində Almaniyada ilkin tarixi məktəbin nümayəndələri Vilhelm Roşer (1817-1894), Bruno Hildebrand (1817-1878) və Karl Knis (1821-1898) olmuşlar.*

Bu tarixi məktəb siyasi iqtisadda abstraksiya metodundan, ictimai inkişafın ən ümumi obyektiv qanunlarının dərk edilməsindən imtina edir, milli xüsusiyyətləri mütləq prinsip səviyyəsinə qaldırırdı.

**V.Roşer** – “Siyasi iqtisadın qısa əsasları”; **B.Hildebrand** – “Bu günün və sabahın iqtisadı”, **K.Knis** – "Tarixi metod nöqteyi-nəzərindən siyasi iqtisad" kitablarını yazmışdır. Klassiklə-

rin təbiət qanunları haqqında təliminin əksinə olaraq tarixi məktəb cəmiyyətin inkişafında tarixilik prinsipini irəli sürmüş, inkişafın təkamül formasını qəbul etmişdir. Onlar cəmiyyətin ictimai həyatında, iqtisadiyyatda inqilabi dəyişiklikləri qəbul etmirdilər.

**V.Roşer** o dəyişiklikləri qanuni adlandırırdı ki, o sülh yolu ilə başa çatsın. İnqilabi dəyişiklikləri isə qeyri-qanuni hesab edirdi. Əmtəə təsərrüfatının spesifik tarixi xarakterini inkar edirdi.

**B.Hildebrand** millətin tarixini dövrləşdirərək təsərrüfatın inkişaf tarixini üç dövrə bölür: orta əsrlərin təbii təsərrüfatı (natural təsərrüfat), pul təsərrüfatı, kredit təsərrüfatı. Məhsulların mübadiləsinin, qarşılıqlı inama, mənəvi keyfiyyətlərə görə aparılması ideyasını irəli sürürdü. Hildebrand krediti, pul və kapitalı ləğv etmək üçün bir vasitə hesab edirdi.

Köhnə tarixi məktəbin üçüncü nümayəndəsi **K.Knisin** "Tarixi metod nöqteyi-nəzərindən siyasi iqtisad" kitabında tarixi məktəbin metodoloji yanaşmalarının sistemli ifadəsi verilmişdi. Onun digər mühüm əsəri iki cildlik "Pul və kredit" (1885-ci il) kitabıdır. O, hesab edirdi ki, siyasi iqtisad yalnız təsvir edə bilər və nəzəri ümumiləşdirmələr vermək imkanında deyil. K.Knis statistikanı və tarixi təsviri iqtisadi hadisələrin dərk olunmasının vasitələri hesab edirdi.[18] K.Knis tarix məktəbin digər nümayəndələri kimi, müxtəlif xalqların təkamülündə iqtisadi təzahürlərin təkrarlanmasını, bununla da iqtisadi inkişafın ümumi qanunlarının mümkünlüyünü rədd edirdi.

Tarixi məktəbin baniləri obyektiv iqtisadi qanunlara əsaslanan iqtisadi nəzəriyyədən imtina edir və onu heç bir nəzəri ümumiləşmə olmadan iqtisadi faktların toplanması, təsvir olunması ilə məşğul olan iqtisadi tarixlə əvəz etməyi məsləhət görürdü. Beləliklə, siyasi iqtisadın vəzifəsini iqtisadi hadisə-

---

[18] Bax: Əlləzov Q.S. "İqtisad elminin nəzəri-metodoloji əsaslarının tarixi inkişafı", Bakı-2009, səh.206.

lərin nəzəri təhlili, ümumi nəticələrin əldə olunması deyil, faktiki və tarixi materialların təhlilində axtarırdılar.

Bu şəxsiyyətlərin hər üçü iqtisadi araşdırmaların dəqiq və metodoloji şərhlərini doktrina şəklində işlənib hazırlanmasını hesablamışdılar: bütün iqtisadi reallıqlar əhəmiyyətli dərəcədə qarşılıqlı şəkildə fəaliyyətdədir və milli-tarixi şərtlərin məcmusunu konkret şəkildə özünə ehtiva edir. Buna uyğun olaraq iqtisad elmi köhnəlmiş ideyalara tənqidi yanaşaraq, iqtisadi fikirləri tarixi proseslərin nəticəsi kimi inkişaf etdirməli və işçi qüvvəsinin həyat səviyyəsinin yaxşılaşdırılması, davamlı və genişləndirilmiş ictimai ideyalar üçün, fərqli şəkildə sosial siyasət irəli sürməlidir.

Alman tarixi məktəbinin digər bir nümayəndəsi **Karl Rodbertus** olmuşdur. O, öz iqtisadi fikirlərini dövlət təsərrüfat quruculuğunun dərk edilməsinə dair – **"Sosial məktub"** əsərində şərh etmişdir. K.Rodbertus A.Smit və D.Rikardonu dərin mənimsəmiş və onlardan bir sıra elmi müddəalar götürmüşdür. Əmək məsrəfinin yüksək olması fəhlənin yaşayışı üçün zəruri olan vasitələrdən əlavə daha çox istehlak nemətləri istifadə etməsinə gətirib çıxarır. O zaman bu artıqlıq rentaya çevrilir, yəni əgər torpaq və kapital üzərində xüsusi mülkiyyət mövcuddursa, əmək sərf etmədən başqa adamlar tərəfindən mənimsənilə bilər. Başqa sözlə, torpaq və kapital üzərində xüsusi mülkiyyət renta əldə etməyin əsasıdır. O, mənfəət və torpaq rentasını fəhlələrin haqqı ödənilməmiş əməyinin məhsulu hesab edirdi. K.Rodbertus öz "rentasını" kapitalizmdə izafi məhsulun ən ümumi forması kimi şərh etmişdir. O, işçi qüvvəsinin alınıb satılmasının xüsusi təbiətini izah etməmişdir. Öz əsərlərində K.Rodbertus fəhlə sinfinin vəziyyətinin pisləşməsi meylini görür və kapitalistlərin əmək məhsuldarlığının artması hesabına alınan məhsulların müəyyən hissəsini fəhlə sinfinə verməyə çağırırdı. O, belə hesab edirdi ki, belə bir şəraitdə əməklə torpaq və kapital üzərində mülkiyyət arasında kompromis əldə edilə bilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində yaranmış siyasi iqtisad məktəblərindən biri də Almanıyanın yeni tarixi məktəbidir. Köhnə tarixi məktəbin yerinə meydana gələn yeni tarixi məktəb cəmiyyətin obyektiv iqtisadi inkişaf qanunlarını və marksizmi inkar edirdilər. Yeni tarixi məktəbin başçısı **Qustav Şmoller** marksizmdən imtina edərək onu köhnəlmiş hesab edir. Yeni tarixi məktəbə görə siniflər əbədi və dəyişilməzdir.

Bu məktəbin başlıca nümayəndələrindən biri olan Berlin universitetinin professoru Q.Şmoller "XIX əsrdə Almaniyada xırda sənətkar istehsalının tarixi", "Xalq təsərrüfatı haqqında elm və onun metodları" və digər əsərlərində Prussiya monarxiyasının sinfi xarakteri ideyasını müdafiə edirdi. Siyasi iqtisadı əxlaq prinsipləri ilə şərh etməyə çalışaraq belə hesab edirdi: yalnız o şeyi elm hesab etmək olar ki, o xalq təsərrüfatı inkişafının təbii tarixi səbəblərini aydın etsin. O yazırdı: siyasi iqtisad xalq təsərrüfatı hadisələrini təsvir edən elmdir, bu elm xalq təsərrüfatının əlaqə və səbəblərini müəyyən edir. Siyasi iqtisad və xalq təsərrüfatını vahid tam kimi başa düşmək lazımdır. Xalq təsərrüfatı haqqında öz elmini milli əsaslar üzərində qurmağa çalışırdı. O xalq təsərrüfatını yalnız o yerdə görürdü ki, o yerlərin adamları milli tərkibinə və dininə görə eyni, vahid təsərrüfat quruluşuna malik olsun.

Yeni tarixi məktəbin görkəmli nümayəndələrindən biri Münxen universitetinin professoru **L.Brentano** "Müasir fəhlə ideyaları", "Əmək haqqının və iş vaxtının əmək məhsuldarlığına nisbəti", "Aqrar siyasət" əsərlərində fəhlə sinfinin vəziyyətini kökündən yaxşılaşdırmağı və sinfi bərabərsizliyin ləğvi ideyasını müdafiə edirdi. L.Brentano sübut etmək istəyirdi ki, həmkarlar ittifaqlarının təşkili və fabrik qanunvericiliyi fəhlələri istismardan və hüquqsuz vəziyyətdən azad edə bilər. O, fəhlələrlə sahibkarlar arasında ziddiyyətli və mübahisəli məsələlərin mübarizə yolu ilə deyil, yalnız müqavilə və danışıqlar yolu ilə həll edilməsinin mümkün olduğunu irəli sürürdü.

Yeni tarixi məktəbin Avstriya nümayəndəsi **Adolf Vaqner** fəhlələrin istismarını, pis yaşamasının səbəbini xalis gəlirin düzgün bölüşdürülməməsində görürdü, bunu cüzi islahatlar yolu ilə aradan qaldırmağı tövsiyə edirdi.

Əgər köhnə tarixi məktəb sosializmi rədd edərək açıq surətdə kapitalizmi müdafiə edirdisə, yeni tarixi məktəb kapitalizmin yeni müdafiəsini nəzərdə tuturdu.

Yeni tarixi məktəbin metodologiyasının xarakterik cəhəti tarixilik idi. Onlar siyasi iqtisadı xalq təsərrüfatı tarixi ilə əvəz etməyə çağırırdılar. Bu məktəbin başqa bir nimayəndəsi **K.Büxer** xalq təsərrüfatı tarixini üç dövrə bölürdü: I dövr ev təsərrüfatı və ya natural təsərrüfat dövrüdür, burada məhsullar ancaq istehlak dəyəri üçün istifadə edilir. II dövr şəhər təsərrüfatı dövrüdür, burada məhsulun bir hissəsi mübadilə dəyəri kimi çıxış edir. III dövrdə istehsalçı məlum olmayan bazar üçün istehsal edir, burada məhsulların əksəriyyəti mübadilə dəyəri kimi istifadə olunur. Göstərilən dövrlər arasında fərqlər istehsalçı ilə istehlakçı arasında məsafə ilə fərqlənir.

Yeni tarixi məktəbin metodologiyasının xüsusiyyətləri ondan ibarətdir ki, tədqiqatın abstrakt metodundan, elmi iqtisadi təhlilin imkanlarından, tarixi materialların ümumiləşdirilməsini inkar edərək empirizmi təbliğ edirlər.

İqtisad elminin predmetini konkret tarixi materiallarının axtarışında görür, iqtisadi hadisələrin təhlilinə idealist mövqedən yanaşaraq cəmiyyətin inkişafı tarixinə insanların psixologiyası və etikası nöqteyi-nəzərindən baxırdılar.

Yeni tarixi məktəbin xüsusi yer tutan nümayəndələrindən biri də **Verner Zombartdır**. Zombart "XIX əsr sosializm və sosial hərəkat", "Müasir kapitalizm", "Təsərrüfat həyatının quruluşu" əsərlərində Şmoller məktəbinin davamçısı kimi özünü göstərmişdir.

V.Zombartın metodologiyası özünəməxsus dualizmlə xarakterizə olunur ki, onun da mahiyyəti - hər bir ayrıca prob-

lemin tədqiqatının empirik və nəzəri hissələrinin bölgüsündən ibarətdir. Verner Zombart öz alimlik karyerasını 1890-cı ildə marksist kimi başlamış və 1930-cu illərdə kapitalizmin peyda olunmasına həsr olunmuş 7 kitab yazaraq onu nasist kimi başa vurmuşdur. "Sosializm və sosial hərəkat" əsərində marksizmi sosial iqtisadi realizm kimi qələmə vermişdi. İctimai elmlərdə Marksın yaratdığı əsaslı dönüş Zombartın fikrincə, öz ifadəsini təkamül ideyasının irəli sürülməsində tapmışdı. Bununla marksizmdən inqilabi məzmunu çıxarmağa can atmışdı. O, göstərirdi ki, kapitalizm dinc yolla əmələ gəlmişdir və cəmiyyət yeni bir cəmiyyətlə tədricən və inqilabsız əvəz edilməlidir. Burada o kapitalizmin inqilabi yolla sosializmlə əvəz edilməsi haqqında marksizm təlimini inkar etmişdir.

V.Zombart mütəşəkkil və planlı kapitalizm haqqında danışaraq göstərirdi ki, bank kapitalizmin təmərküzləşməsi, kartel və trestlərin inkişafı kapitalizmin sabitliyinə səbəb olur, kapitalist təsərrüfatının planlaşdırılmasına imkan yaradır. Kapitalizmi planauyğun bir təsərrüfat kimi qələmə verib, bu cəmiyyətdə ifrat istehsal böhranlarının labüdlüyünü və yoxsullaşmanı inkar edirdi. İnhisarın hökmranlığı ilə istehsal hərcmərcliyi, rəqabət, iqtisadi böhranların aradan qaldırıldığını söyləyirdi.

V.Zombart eyni zamanda K.Marksın ictimai iqtisadi formasiyalar haqqındakı təliminə qarşı çıxmışdır. O göstərirdi ki, hökm sürən təsərrüfat formalarının sayı və meydana gələn yeni təsərrüfat formaları cəmiyyətin inkişaf səviyyəsindən asılı olaraq artır və köhnə təsərrüfat formaları ilə bir sırada fəaliyyət göstərir.

V.Zombart **"Sosial plüralizm"** nəzəriyyəsində orta əsrlər Avropasında paralel olaraq aşağıdakı təsərrüfat formalarının fəaliyyət göstərdiyini qeyd etmişdir: kənd təsərrüfatı, biyar mülkədar təsərrüfatı, şəhər sənətkarlığı. Daha sonra qeyd edirdi ki, kapitalizm meydana gəldikdən sonra natural təsərrüfat, sənətkarlıq və s. kimi köhnə təsərrüfat formaları yenə fəaliyyət göstərməkdə davam edir. Bununla o belə bir nəticəyə gəlir ki,

gələcək cəmiyyətdə təsərrüfatın daha çox formaları məsələn, kooperativ təsərrüfatı, ictimai təsərrüfat (buraya dövlət və başqa ictimai təşkilatlara mənsub olan müəssisələri aid edir) natural təsərrüfat, sənətkarlıq, kəndli təsərrüfatı fəaliyyət göstərəcəkdir. Ümumiyyətlə, sosial plüralizm haqqında Zombart təliminin əsas məqsədi kapitalist təsərrüfat formasının hələ uzun müddət fəaliyyət göstərəcəyini əsaslandırmaq idi. Onun axırıncı işlərindən biri "Yeni sosial fəlsəfə" kitabı idi və burada o, müasir dövrün sosial problemlərini "nasional-sosializm (yəni, nasizm) nöqteyi-nəzərindən" təhlil etməyə çalışırdı. O, alman inhisarçı kapitalizmini tərif edərək qatı millətçi və irqçi kimi özünü büruzə verir və alman xalqını ali irqə mənsub olan xalq kimi bütün millətlərdən yüksək tuturdu.

V.Zombart xalqı ali və aşağı irqlərə ayırır və göstərir ki, ali irqə mənsub olan xalq rəhbəredici və fəal millətdir. Aşağı irqə mənsub olan xalq isə xidmətedici və passiv millətdir. O alman xalqını ali irqə mənsub edib hesab edir ki, almanlar yer kürəsində ən yüksək səmaya qalxan qartaldır. Alman milləti özünü bütün millətlərdən üstün tutmalıdır.

XIX əsrin sonlarında alman tarixi məktəbinin sosial istiqaməti meydana gəlir. Bu məktəbin nümayəndələri **R.Ştammler, R.Ştolsman, L.Ollenqaymer, A.Amon, F.Petri** və b. iqtisadi həyatda sosial amilləri həlledici amil kimi götürür, sosial hadisələri isə həm etik, həm də hüquqi baxımdan şərh edirdilər. Onlar göstərirdilər ki, iqtisadi kateqoriyalar da insanlar arasında ictimai münasibətləri ifadə edən müəyyən sosial məzmuna malikdir və hüquqi münasibətlər formasında çıxış edir.

Sosial məktəbin nümayəndələri sosioloji metodun ümumi tətbiqinə, iqtisadi hadisələrin təhlilinin hüquqi və sosial aspektlərinə xüsusi diqqət yetirirdilər. Onlar ictimai münasibətlərin əsasını iqtisadiyyat deyil, hüquq, əxlaq və digər mənəvi amillər təşkil etdiyini iddia edirdilər. Sosial məktəb bütün iqtisadi

kateqoriyaları və istehsalın özünü mənəvi ideyaların məhsulu hesab edirdi.

Yeni tarixi və sosial məktəbin nümayəndəsi **R.Ştammler** mübadilə nəzəriyyəsində az gəlir əldə edən kapitalist ilə yüksək əməkhaqqı alan fəhlələrin gəlirlərini bir-birindən fərqləndirirdi. Onun fikrincə, bu cür kapitalist asanlıqla fəhləyə, fəhlə isə, öz növbəsində, kapitalistə çevrilə bilər.

Sosial məktəbin digər nümayəndəsi **R.Ştolsman** "Təsərrüfatın məqsədi" kitabında göstərirdi ki, kapitalist istehsalının məqsədi mənfəət əldə etmək deyil, bütün cəmiyyət üzvlərinə, o cümlədən fəhlələr və kapitalist üçün yaşayış vasitələri təmin etməkdən ibarətdir. Bununla o xüsusi mülkiyyətin toxunulmazlığını əsaslandırmaq istəyirdi.

İctimai münasibətlərə hüquq nöqteyi-nəzərindən yanaşan sosial məktəbin nümayəndələri ictimai münasibətlərin mübadilə prosesində təzahür etdiyini, istehsalın isə texniki proses olduğunu söyləyirdilər.

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1. Alman tarixi məktəbləri nəyi iqtisadi təhlilin predmeti hesab edirdilər?**
A) İstehsal və istehlak sferasını
B) İstehsal və tədavül sferasını
C)) İqtisadi və qeyri-iqtisadi amilləri
D) Təbii və əmək resursları
E) Əməkhaqqı və əmək məhsuldarlığını
**2. Alman tarixi məktəbinin metodologiyasını klassik məktəbdən fərqləndirən cəhətlər:**
A) Siyasi iqtisada milli elm kimi baxılması
B) İqtisadi və qeyri-iqtisadi amillərə üstünlük verilməsi
C) İctimai mənafeyin şəxsi mənafedən üstün tutulması
D) İqtisadi hadisələrə tarixi mövqedən yanaşılması

E)) Bunların hamısı

**3. "Proteksionalizm sənaye üçün qanundur" fikri kimə məxsusdur?**

A)) F.Listə
B) L.Mizesə
C) V.Oykenə
D) A.Monkkretyenə
E) L.Erxarda

**4. Alman tarixi məktəbinin II mərhələsi üçün xarakterik olan xüsusiyyət hansıdır:**

A) Sinfi mübarizəni deyil, yalnız cəmiyyətin təkamül yolu ilə inkişafını məqbul saymışlar
B) İstehsal amillərinin Sey konsepsiyasını qəbul etmişlər
C) Tarixi metodu daha təkidlə tətbiq etmişlər
D) Elmi abstraksiya metodundan imtina etmişlər
E))Siyasi iqtisadı xalq təsərrüfatı tarixi ilə əvəz etməyə cəhd göstərmişlər

**5. "Sosial plüralizm" konsepsiyası kimə məxsusdur?**

A) F.Xayekə
B) V.Oykenə
C)) V.Zombarta
D) A.Ryustova
E) V.Repkeyə

**6. Aşağıdakı kateqoriyalardan hansı "sosial plüralizm" konsepsiyasının tərkib hissəsidir:**

A) Kapitalizm
B) İctimai təsərrüfat
C) Sənət və kəndli təsərrüfatı
D) Kooperativ təsərrüfat
E))Bunların hamısı

**7. Aşağıdakı əsərlərdən V.Zombarta aid olanını seçin:**

A) "Sosializm və XIX əsrin sosial hərəkatı"
B) "Alman sosializmi"
C) "Müasir kapitalizm"
D) "Təsərrüfat həyatının quruluşu"
E)) Bunların hamısı

**8. Hansı iqtisadçı mülkiyyətin dövlətləşdirilməsini "dövlət sosializmi" adlandırmışdır?**

A)) L.Brentano
B) V.Oyken
C) F.Xayek
D) A.Müller-Armak
E) P.Samuelson

**9. F.List deyir ki:**
A)) Fərdin xoşbəxtliyi millətin qüdrətindən asılıdır
B) Elm yalnız öyrənilən hadisələrin tez-tez təkrar baş verdiyi yerdə mövcuddur
C) İqtisad insan eqoizminin adi təlimi deyil, ancaq əxlaqi elm olmalıdır
D) Əmək-dəyər nəzəriyyəsi kapitalistləri istismarda günahlandırılması üçün əsas verir
E) Siyasi-iqtisad yalnız nəzəri ümumiləşdirmələr vermək imkanına malik deyil
**10. F.List deyir ki:**
A))Müxtəlif millətlər müxtəlif inkişaf səviyyəsinə malikdir
B) Elm yalnız öyrənilən hadisələrin tez-tez təkrar baş verdiyi yerdə mövcuddur
C) İqtisad insan eqoizminin adi təlimi deyil, ancaq əxlaqi elm olmalıdır
D) Əmək-dəyər nəzəriyyəsi kapitalistləri istismarda günahlandırılması üçün əsas verir
E) Siyasi-iqtisad yalnız nəzəri ümumiləşdirmələr vermək imkanına malik deyil
**11. Köhnə tarixi alman məktəbi hansı illəri əhatə edir:**
A) XIX əsrin 20-40-cı illərini
B))XIX əsrin 40-60-cı illərini
C) XIX əsrin 70-90-cı illərini
D) XIX əsrin 90-cı – XX əsrin 30-cu illərini
E) XX əsrin 30-40-cı illərini
**12. Köhnə tarixi alman məktəbinin nümayəndələri kimlərdir?**
A)) V.Roşer, B.Hildebrand, K.Knis
B) F.List, A.Müller
C) Q.Şmoller, L.Brentano, K.Büxer
D) B.Zombart, R.Ştolsman, R.Ştammler, A.Amon
E) K.Marks, F.Engels
**13. Sosial məktəbin nümayəndələri yeni tarixi məktəbdən hansı fərqli fikri söyləmişdir?**
A) İqtisadi nəzəriyyənin əhəmiyyətini qəbul etməmişlər

B) Klassik məktəbin abstrakt-deduktiv metoduna qarşı çıxmışdır
C) Nəzəri siyasi iqtisadın vəzifəsini iqtisadi hadisələrin müşahidəsində, faktların təsvirini verməklə görmüşlər
D) İqtisadi həyatda dövlətin müdaxiləsini və dövlət mülkiyyətini məqbul saymışlar
E)) İqtisadi hadisələrə sosioloji istiqamətdən yanaşmışlar

**14. Ən yeni tarixi məktəbin metodologiyasını yeni tarixi məktəbdən fərqləndirən cəhət:**
A) İqtisadi nəzəriyyənin əhəmiyyətini qəbul etməmişlər
B) Klassik məktəbin abstrakt-deduktiv metoduna qarşı çıxmışdır
C) Nəzəri siyasi iqtisadın vəzifəsini iqtisadi hadisələrin müşahidəsində, faktların təsvirini verməklə görmüşlər
D) İqtisadi həyatda dövlətin müdaxiləsini və dövlət mülkiyyətini məqbul saymışlar
E)) İqtisadi hadisələrə sosioloji istiqamətdən yanaşmışlar

**15. Yeni tarixi alman məktəbinin nümayəndələri kimlərdir**?
A) F.List, A.Müller
B) V.Roşer, B. Hildebrand, K.Knis
C)) Q.Şmoller, L.Brentano, K.Büxer
D) B.Zombart, R.Ştolsman, R.Ştammler
E) K.Marks, F.Engels

**16. Alman tarixi məktəbinin nəzəri sələfləri kimlərdir**?
A)) F.List, A.Müller
B) V.Roşer, B. Hildebrand, K.Knis
C) Q.Şmoller, L.Brentano, K.Büxer
D) B.Zombart, R.Ştolsman, R.Ştammler
E) K.Marks, F.Engels

**17. Alman tarixi məktəbinin II mərhələsi üçün xarakterik olan xüsusiyyət hansıdır:**
A) Sinfi mübarizəni deyil, yalnız cəmiyyətin təkamül yolu ilə inkişafını məqbul saymışlar
B) İstehsal amillərinin Sey konsepsiyasını qəbul etmişlər
C) Tarixi metodu daha təkidlə tətbiq etmişlər

D) Elmi abstraksiya metodundan imtina etmişlər
E)) Empirizmi tətbiq etmişlər

**18. Alman tarixi məktəbinin II mərhələsi üçün xarakterik olan xüsusiyyət hansıdır:**

A) Sinfi mübarizəni deyil, yalnız cəmiyyətin təkamül yolu ilə inkişafını məqbul saymışlar
B) İstehsal amillərinin Sey konsepsiyasını qəbul etmişlər
C) Tarixi metodu daha təkidlə tətbiq etmişlər
D) Elmi abstraksiya metodundan imtina etmişlər
E))İqtisad elmini mənəvi- əxlaqi elm adlandırmışlar

**19. Alman tarixi məktəbinin III mərhələsinin əsas nümayəndələri kimdi**r:

A) V.Roşer, B. Hildebrand, K.Knis
B)) R.Ştolsman,R.Ştammler, A.Amon
C) F.List, A.Müller
D) K.Marks, F.Engels
E) Q.Şmoller, L.Brentano, K.Büxer

**20. Alman tarixi məktəbinin II mərhələsinin əsas nümayəndələri kimdi**r:

A) V.Roşer, B. Hildebrand, K.Knis
B) B. Zombart, R.Ştolsman, R.Ştammler, A.Amon
C) F.List, A.Müller
D) K.Marks, F.Engels
E)) Q.Şmoller, L.Brentano, K.Büxer

**21. Sosial məktəbin nümayəndələri yeni tarixi məktəbdən hansı fərqli fikri söyləmişdir?**

A)) İfrat empirizm tərəfdarı olmamışdır
B) Klassik məktəbin abstrakt-deduktiv metoduna qarşı çıxmışdır
C) Nəzəri siyasi iqtisadın vəzifəsini iqtisadi hadisələrin müşahidəsində, faktların təsvirini verməklə görmüşlər
D) İqtisadi həyatda dövlətin müdaxiləsini və dövlət mülkiyyətini məqbul saymışlar
E) İqtisadi nəzəriyyənin əhəmiyyətini qəbul etməmişlər

# MÖVZU 11. MARJİNALİZM VƏ NEOKLASSİK İSTİQAMƏT

**1. Marjinalizmin yaranması və metodoloji prinsipləri**

**2. Marjinalizm cərəyanının yaradıcıları**

**3. Neoklassik cərəyanın nümayəndələri və onların nəzəriyyələri**

XIX əsrin sonlarında iqtisadi fikir tarixində yeni klassik istiqamətin başlanğıcı qoyuldu. Bu istiqamətin ilkin nəzəriyyəsi "faydalılıq nəzəriyyəsi" olmuşdur. Digər adı Avstriya məktəbi, marjinalizmdir. Marjinalizm siyasi iqtisadda son faydalılıq nəzəriyyəsi və onun əsasında kapital və faiz nəzəriyyəsi formasında qiymətqoymanın "istehlak versiyası"nı işləyib hazırlayan subyektiv-psixoloji istiqamətdir. Avstriya məktəbi bazar dəyərinin və əmtəənin qiymətinin formalaşması prosesində alıcının roluna xüsusi əhəmiyyət verməyən əmək-dəyər nəzəriyyəsinin birtərəfliliyini aradan qaldırır. C.S.Millin şərhində klassik məktəbin qiymətqoymanın "istehsal versiyası" XIX əsrin 80-ci illərinə qədər hökmranlıq edən və K.Marksın əmək-dəyər nəzəriyyəsini daha çox yayan qanun, son faydalılıq nəzəriyyəsinin formalaşması nəticəsində xeyli əhəmiyyətli görünürdü, bu isə iqtisadi ədəbiyyatda marjinal (ing. marginal - son hədd) inqilabi adını aldı. Avstriya məktəbinin yaranması və inkişafı bir tərəfdən alıcını bazar münasibətlərinin fəal və əhəmiyyətli subyektinə çevirən alıcı bazarının əmələ gəlməsi ilə, digər tərəfdən daha çox marksist əmək-dəyər nəzəriyyəsinə əsaslanan fəhlə hərəkatının fəallaşması ilə şərtlənirdi. Bu iki şərtin əsasında bazar iqtisadiyyatının, maşınlı iqtisadiyyatın daha yüksək fazasına daxil olması durur. Avstriya məktəbinin formalaşmasında öz-özlüyündə iqtisadi nəzəriyyəni prinsipial olaraq rədd edən tarixi məktəbin inkişafı və klassik məktəbin dərinləşən böhranı nəticəsində yaranan özünəməxsus boşluğun

doldurulması zəruriliyi də mühüm rol oynadı. Avstriya məktəbinin sələfləri olan **İ.Q.Tyunen** (1783-1850), **G.H.Hossen** (1810-1858) və **A.O.Kurno** (1801-1877) son faydalılıq nəzəriyyəsinin bir sıra mühüm müddəalarını əks etdirən "Qossen qanunları" formasında istehlakçının bazar mexanizminin və iqtisadi rolunun tədqiqinin əsasını qoymuşdur. Son faydalılıq nəzəriyyəsinin müəllifləri, eyni zamanda, riyaziyyatçı-iqtisadçılar ingilis **Uilyam Cevons** (1835-1882), isveçrəli **Leon Valras** (1834-1910) və italiyalı **Vilfredo Pareto** (1840-1923) hesab olunurlar. Bu nəzəriyyə Avstriya məktəbinin banilərinin - **Karl Mengerin** (1840-1927) "Siyasi iqtisadın əsasları" (1871), "İctimai elmlərin, xüsusilə siyasi iqtisadın metodu haqqında tədqiqat" (1883), onun yetişdirməsi və ardıcılı **Yevgeni Bem-Baverkin** (1851-1914) "Təsərrüfatın nemətlərinin dəyər nəzəriyyəsinin əsasları" (1886), "Kapital və mənfəət" (1884-1889), **Fridrix Vizerin** (1851-1926), "İqtisadi fəaliyyətin mənşəyi və əsas qanunları haqqında" (1884), "Təbii faydalılıq" (1889), "İctimai təsərrüfat nəzəriyyəsi" (1914) əsərlərində daha geniş inkişaf edib məşhurlaşdı. Onların əsərlərində iqtisadi-riyazi metodların istifadəsinə və kəmiyyət təhlilinə üstünlük verilmişdir. Əgər K.Menger bu nəzəriyyənin əsas müddəalarını hazırlamışdırsa, F.Vizer bu nəzəriyyədə bir prinsip kimi istehsal xərclərinin qiymətləndirilməsi üçün istifadə etmişdir. Bem-Baverk isə həm K.Mengerin, həm də F.Vizerin ideyalarını inkişaf etdirərək faizin subyektiv konsepsiyasına son faydalılıq nəzəriyyəsinə tətbiq etməklə, onu daha da zənginləşdirdi.

Avstriya məktəbinin tədqiqat predmetinin spesifikliyi istehsal sferasına münasibətdə istehlak sferasının üstünlüyünü qəbul etməsindədir. Həm də bu zaman istehlak özü marksizm nəzəriyyəsi üçün mərkəzi məsələlərdən biri olan istehsal münasibətlərinin məcmusu ilə heç bir əlaqə yaratmadan nəzərdən keçirilir. Bu məktəb tərəfindən bütün təzahürlər və kateqoriyalar, o cümlədən şeyin faydalılığı ölçülə biləndir və əsa-

sən, kəmiyyət baxımından təhlil edilir. Buna uyğun olaraq Avstriya məktəbinin tərəfdarları siyasi iqtisadın əsas məsələsini insanın şeylərə, onu əhatə edən təbiətə olan onların tələbatları ilə istehsal vasitələri arasındakı davranşlarının tədqiq olunmasında görürdü. İstehsalın marksizm tərəfindən müəyyən edilmiş həlledici rolunu Avstriya məktəbi tərəfindən inkar edilməsinə baxmayaraq, onlar qiymətin istehsal xərcləri ilə olan əlaqəsini heç də kənara qoymamışlar. Bu iki iqtisadi forma arasında olan əlaqəni öyrənmək üçün onlar istehlak sərvətləri və məhsuldar sərvətlər anlayışlarından istifadə etmişlər. İstehlak sərvətlərinə onlar istehlak şeylərini, məhsuldar sərvətlərə isə istehsal üçün zəruri olan hər şeyi aid etmişlər. Onların fikrincə, məhsulların dəyərliliyi istehsal xərclərinin dəyərliliyi ilə, istehsal xərclərinin dəyərliliyi isə "son məhsulun faydalılığı ilə müəyyən edilir." Bu metodoloji mövqedən Avstriya məktəbi bütün iqtisadi hadisələri tədqiq etmişdir.

Avstriya məktəbi istehsal xərclərini itirilmiş faydaya bərabər tutur ki, məhsuldar nemətlər buna alternativ istifadə zamanı malik ola bilər. Subyektiv dəyərlər və son faydalılıq nəzəriyyəsi təsərrüfat nemətlərinin dəyərini və son nəticədə onların qiymətlərini insanların bu nemətlərə olan tələbatların ödənilməsi dərəcəsindən asılılığını göstərir. Avstriya məktəbi göstərir ki, tələbatlar ödəndikcə onların gərginlik səviyyəsi də get-gedə azalır və nəhayət aradan qaldırılır. Belə ki, yeməkdən sonra insan aclıq hiss etmir, deməli, buradan belə nəticə çıxır ki, tələbatın bu və ya digər səviyyədə ödənilməsi iqtisadi sərvətin əldə olan kəmiyyətindən asılıdır. Nəzərə alsaq ki, sərvətin faydalılığı onun hər hansı bir tələbatı ödəyə bilməsi qabiliyyətidir, deməli, sərvətin faydalılığı da kəmiyyət funksiyası kimi getdikcə azalmalıdır. Avstriya məktəbinə görə faydalılıq özü də iki amildən asılıdır. Bu, əvvəla, tələbatın intensivliyindən, yəni tələbat nə qədər çox olarsa, şeyin faydalılığı da bir o qədər yüksəkdir. İkincisi, şeyin məhdudluğundan, yəni şey nə qədər az təsadüf edilərsə, onun faydalılığı

da o qədər yüksək olar. Avstirya məktəbi bu sonuncu amilin rolunu daha həlledici sayır. Bununla da Avstriya məktəbi əmək-dəyər nəzəriyyəsi mövqeyindən dəyər qanununun təhlilində boşluğu dolduraraq əmtəələrin bazar qiymətlərinin formalaşması prosesində istehlakçının rolu haqqında mühüm məsələni qaldırır. Avstriya məktəbinin faydalılıq həddi nəzəriyyəsi qiymət nəzəriyyəsi üçün çıxış nöqtəsi olmuş və ötən əsrin 20-30-cu illərində yaranan neoklassik qiymət nəzəriyyəsinin əsasını təşkil etmişdir.

Neoklassik məktəb XX əsrin əvvəllərində marjinal inqilabdan bəhrələnən iqtisadi fikrin əsas magistral istiqamətlərindən biridir. Son faydalılıq və son məhsuldarlıq konsepsiyalarının yaranması neoklassik məktəbin mükəmməl rəqabət sferasında bazar sahibkarlığı təsərrüfatının nəzəriyyəsinin istiqamətlənməsinə zəmin olmuşdur. Xüsusən azad rəqabət və qiymət yaranma mexanizmlərinin təkmilləşən xətti neoklassikləri şəxsi və ictimai tarazlıq konsepsiyasını formalaşdırmağa vadar etmişdir.

Neoklassik nəzəriyyənin baniləri **C.B.Klark, A.Marşall, V.Pareto, L.Valras, K.Viksel** və başqaları limit təhlilindən rəqabətli bazarlarda əmtəələrin, xidmətlərin və istehsal faktorlarının qiymətlərinin yaranmasının öyrənilməsi üçün istifadə etmişlər. Burada mərkəzi ideya tarazlıq vəziyyətində olan iqtisadiyyatın mükəmməl rəqabəti ideyasıdır. Bu nəzəriyyənin fərqləndirici cəhəti iqtisadiyyatın təsvirinə mikroiqtisadi yanaşmadır. Daha bir fərqləndirici cəhət ondan ibarətdir ki, əmtəələrin qiymətləri fərdin səmərəli maksimallaşdırma davranışının nəticəsidir. Marjinalizm nəzəriyyəsində subyektiv dəyər, son hədd faydalılığı və harmonik iqtisadi nəzəriyyələrin elementləri vardır (bax: sxem 11.1).

**Marjinalizm ideyaları əsasında yaradılmış və qiymət nəzəriyyəsi ilə məşğul olmaqla tanınmış məktəblər**[19]




**Sxem 11.1**

[19]Bax: Böyük İqtisadi Ensiklopediya. Azərbaycan İqtisadçılar İttifaqı. III cild. Bakı, 2012, səh.471.

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1. Marjinalistlər öz tədqiqatlarında nəyə əsaslanırdılar?**
A) İqtisadi kəmiyyətlərin məcmusuna
B) Azad istehlak seçiminə
C)) Qismən iqtisadi tarazlıq şəraitində tələb və təklifin təhlilinə
D) Qeyri-təkmil rəqabət nəzəriyyəsinə
E) Əldə edilən mənfəətə

**2. Marjinalistlər öz tədqiqatlarında nəyə əsaslanırdılar?**
A) İqtisadi kəmiyyətlərin məcmusuna
B) Azad istehlak seçiminə
C)) Kiçik artımlar və həddi situasiyalar metoduna
D) Qeyri-təkmil rəqabət nəzəriyyəsinə
E) Əldə edilən mənfəətə

**3. "Marjinal inqilabın" ilk mərhələsinin nümayəndələri dəyəri (dəyərliliyi) hansı amillər əsasında müəyyən edirdilər?**
A) Əmək-dəyər nəzəriyyəsi
B) Xərclər nəzəriyyəsi
C) Son faydalılıq və son xərclər əsasında müəyyən olunan müvazinətli qiymətlər
D)) Son kəmiyyətə üstünlük verilməsi
E) Riyazi metodlardan istifadə

**4. "Marjinal inqilabın" nümayəndələri dəyəri necə müəyyən edirdilər?**
A) Əmək-dəyər nəzəriyyəsi
B) Xərclər nəzəriyyəsi
C) Son faydalılıq və son xərclər əsasında müəyyən olunan müvazinətli qiymətlər
D)) Faydalılığa əsaslanan subyektiv dəyər nəzəriyyəsi
E) Riyazi metodlar əsasında

**5. Marjinal inqilabın II mərhələsi üçün xarakterik olanını seçin:**
A) Subyektiv faydalılıq, Robinzon metodu
B) Dəyərsiz qiymət anlayışının meydana gəlməsi
C)) Siyasi iqtisad anlayışının "ekonomiks" anlayışı ilə əvəz olunması
D) İstehsal sahəsinin törəmə hesab olunması
E) Siyasi iqtisad anlayışına subyektiv-psixoloji əsasdan yanaşması

**6. Marjinal inqilabın II mərhələsi üçün xarakterik olanını seçin:**
A) Subyektiv faydalılıq, Robinzon metodu
B) Dəyərsiz qiymət anlayışının meydana gəlməsi
C)) Məhsuldarlıq şəraitində maksimallaşdırıcı iqtisadi davranış prinsipinin qəbul olunması
D) İstehsal sahəsinin törəmə hesab olunması
E) Siyasi iqtisad anlayışına subyektiv-psixoloji əsasdan yanaşması

**7. Faydalılıq həddı nəzəriyyələrinin tərəfdarı olmayan iqtisadçıları fərqləndirin:**
A) A.Smit, K.Menger, F.Vizer, G.Qossen
B) D. Rikardo, F.Vizer, Y.Bem-Baverk, A.Marşall
C) G.Qossen, K.Menger, K.Marks, F.Vizer
D)) V.Oyken, F.Xayek, M.Fridmen, A.Smit
E) K.Menger, F.Vizer,Y. Bem-Baverk, G.Qossen

**8. Faydalılıq həddı nəzəriyyələrinin tərəfdarı olan iqtisadçıları fərqləndirin:**
A) A.Smit, K.Menger, F.Vizer, G.Qossen
B) D.Rikardo, F.Vizer, Y.Bem-Baverk, A.Marşall
C) G.Qossen, K.Menger, K. Marks, F.Vizer
D) V.Oyken, F.Xayek, M.Fridmen, A.Smit
E)) K.Menger, F.Vizer, Y. Bem-Baverk, G.Qossen

**9. Azalan həddi faydalılıq prinsipi hansı ölkələrdə eyni vaxtda kəşf edilmişdir:**

A) İngiltərə, Almaniya, Fransa
B) İsveçrə, İngiltərə, Fransa
C)) İngiltərə, Avstriya, İsveçrə
D) Avstriya, İngiltərə, Almaniya
E) Avstriya, İsveçrə, Almaniya

**10. Hansı məktəbin nümayəndələri öz tədqiqatlarında riyazi formullardan istifadə etmişlər:**

A) İngiltərə məktəbi
B) Venesiya məktəbi
C))Avstriya məktəbi
D)Kembric məktəbi
E)Bunların hamısı

**11. A.Marşallın qiymət nəzəriyyəsinə nə daxil deyil?**

A) İstehsal xərcləri
B) Məhsulun faydalılığı
C) Tələb və təklif
D)) İnsanların zövqü
E) İstehsalın həcmi

**12. A.Marşallın qiymət nəzəriyyəsinə nə daxildir:**

A) İstehsal xərcləri
B) Məhsulun faydalılığı
C) Tələb və təklif
D) İstehsalın həcmi
E))Bunların hamısı

**13. Faydalılıq həddinin kəşfinin səbəbi hansıdır:**

A) Fəlsəfi cərəyanların bəhrəsi
B) Marksizmə qarşı qəti etiraz
C) Müstəqil intellektualın inkişafı
D) İqtisadiyyatda baş verən institusional dəyişikliklər
E)) Bunların hamısı doğrudur

**14. Faydalılıq həddinin kəşflərindən yalnış olanını seçin:**

A) Fəlsəfi cərəyanların bəhrəsi
B) Marksizmə qarşı qəti etiraz
C) Müstəqil intellektualın inkişafı
D) İqtisadiyyatda baş verən institusional dəyişikliklər
E)) Kapitalist iqtisadi sisteminin islahatına diqqətin artması

**15. Statika, dinamika və son məhsuldarlıq nəzəriyyələrin müəllifi kimdir?**
A) U.Cevons D) V.Pareto
B) A.Marşall E) L.Valras
C)) C.B. Klark

**16. İqtisad elmində olan "uzunmüddətli", "qısamüddətli" dövr anlayışları kimə məxsusdur:**
A) U.Cevonsa D) V.Paretoya
B)) A.Marşalla E) L.Valrasa
C) C.B.Klarka

**17. Paretoya görə ümumi iqtisadi müvazinətliyin meyarı (kriteriya) nədir?**
A) Maksimum faydalılıq
B) Məcmu faydalılığın açıqlanması
C)) Fərdlərin və əhalinin rifah halının yaxşılaşdırılması
D) Fərdi rifah halının qiymətləndirilməsi
E) İctimai rifah halının yaxşılaşdırılması

**18. C.Klarkın "məhsuldarlıq hədd" hansı nəzəriyyənin əsasında yaranmışdır?**
A)) Son faydalılıq
B) Optimallıq nəzəriyyəsi
C) Əmək-dəyər nəzəriyy
D) Təklif iqtisadiyyatı nəzəriyyəsi
E) Qiymət nəzəriyyəsi

**19. C.Klarkın "İstehsal funksiyası" nəzəriyyəsi hansı əlaqələri nəzərdə tutur?**
A)) Məhsul buraxılışının həcmi ilə məsrəflər
B) İstehsal xərcləri ilə gəlirlər
C) Elmi-texniki tərəqqi ilə məhsul istehsalı
D) İstehsal məsrəfləri ilə iqtisadi artım
E) Texniki tərəqqinin sürətləndirilməsi ilə istehsalın səmərəliliyi

**20. Aşağıdakılardan hansı Qossenin tədqiqat obyekti olmuşdur?**
A)) İstehlak tələbi
B) İstehsal xərcləri ilə gəlirlər
C) Elmi-texniki tərəqqi ilə məhsul istehsalı
D) İstehsal məsrəfləri ilə iqtisadi artım
E) İstehsal tələbi

**21. A.Marşall tarazlıq probleminə hansı səviyyədə baxırdı?**
A)) Mikrosəviyyədə, yəni təsərrüfat və sahə
B) Makrosəviyyədə, yəni milli təsərrüfat
C) Mezoiqtisadiyyat
D) Meqoiqtisadiyyat
E) Regional iqtisadiyyat

**22. Aşağıdakı iqtisadçılardan hansı riyazi biliksiz və riyaziyyatdan istifadə etmədən iqtisad elminə əsaslı töhvə verə bilmişdir?**
A)) C.Klark, Y.Bem-Baverk
B) A.Kurno, İ.Q.Tyunen
C) K.Menger, G.Qossen
D) C.Düpü, İ.Bentam
E) V.Pareto, F.Vizer

**23. Üstünlüyü xarakterizə etmək üçün Pareto aşağıdakılardan istifadə etmişdir:**
A) Valrasın həddi məhsuldarlıq sxemindən
B)) F.Edcuort tərəfindən təklif olunmuş "ehtinasızlıq əyrisi" ideyasından
C) Cevonsonun əmək təklifi nəzəriyyəsindən
D) Kurnonun xalis məhsul nəzəriyyəsindən
E) Bunların heç biri

**24. Fərdi tarazlığı ayrı-ayrı əmtəələr üzrə tarazlıq kimi izah edib, ümumi tarazlığın bu tarazlıqların cəmi olduğunu qeyd edən nəzəriyyəçi:**
A)) A.Marşall
B) L.Valras
C) C.Klark
D) C.Robinson
E) E.Çemberli

**25. Tələbin elastikliyini elmə gətirən iqtisadçı:**
A)) A.Kurno
B) L.Valras
C) C.Klark
D) C.Robinson
E) E.Çemberli

**26. Həddən yüksək vergilər vergi sisteminin səmərəliliyini aşağı salır:**
A)) Neoklassik konsepsiya
B) Marjinal konsepsiya
C) Monetar konsepsiya
D) Sərvət konsepsiyası
E) Marksist konsepsiya

**27. Məsrəflərə əsaslanan dəyər nəzəriyyəsini inkar edir:**
A) Neoklassik konsepsiya
B)) Marjinal konsepsiya
C) Monetar konsepsiya
D) Sərvət konsepsiyası
E) Marksist konsepsiya

**28. Aşağıdakı düsturlardan hansı Marşallın pul nəzəriyyəsi bərabərliyini ifadə edir:**
A)) M = k PY
B) PD = Q Əd
C) MN = PQ
D) P = MN / Q
E) V = ΔK / ΔY

**29. İngiltərədə faydalılıq həddi nəzəriyyəsinin banisi kim olmuşdur:**
A) A.Smit
B)) U.Cevons
C) İ.Bentam
D) K. Menger
E) K. Marks

**30. Faydalılığın ölçülməsinə iki əsas yanaşma**:
A) Keynisçi və neolibera
B)) Ordinalist və kordinalist
C) İstehsal və qeyri –istehsal
D) Marksist və klassik
E) Marksist və monetar

**31. İngiltərədə faydalılıq həddi nəzəriyyəsinin banisi kim olmuşdur:**
A) A.Smit
B)) U.Cevons
C) İ.Bentam
D) K.Menger
E) K.Marks

**32. Son faydalılığın azalması prinsipi adlanır:**
A) Gəlir effekti
B) Əvəzləmə effekti
C) Qiffen paradoksu
D))Qossenin birinci qanunu
E) Dəyər qanunu

**33. Nemətin kombinasiyasının faydalılığı istehlak olunmuş müxtəlif nemətlərin sonuncu porsiyası eyni faydalılığa malik olduqda faydalı olur:**
A) Gəlir effekti
B) Əvəzləmə effekti
C) Qossenin birinci qanunu
D)) Qossenin ikinci qanunu
E) Qiffen paradoksu

**34. İstehlakçı davranışı qaydası başqa cur adlanır:**
A) Qiffen paradoksu
B) Qossenin birinci qanunu
C)) Qossenin ikinci qanunu
D) Tələb qanunu
E) Dəyər qanunu

**35. Tələb əyrisi mənfi meyili izah oluna bilər:**
A) Qiffen paradoksu ilə
B) Fərqsizliklərin əyriləri ilə
C)) Son faydalılığın azalması qanunu ilə
D) Gəlir effekti ilə
E) Qossenin ikinci qanunu ilə

**36. Marjinalizm ideyaları hansı nəzəriyyəyə münasibət bildirməklə irəli sürülmüşdür:**
A)) Maltusun "əhali sakini qanunu"na
B) S. Millin kompromislər siyasi iqtisadi ideyasına
C) J.Seyin qanununa
D) S.Sismondinin böhranlar konsepsiyasına
E) Seniorun imtina nəzəriyyəsinə

**37. A.Kurnonun tələb qanununun mahiyyətini ifadə edir:**
A) Qiymətin istənilən dəyişməsi tələbin dəyişməsinə səbəb olmur
B) Qiymətin azacıq dəyişməsi tələbin dəyişməsinə səbəb olmur
C)) Qiymətin azacıq dəyişməsi tələbin dəyişməsinə səbəb olur

D) Qiymətin dəyişməsi tələbin dəyişməsinə təsir etmir
E) Bunların hamısı

**38. Avstriya və İngiltərə məktəbinin nümayəndələri üçün iqtisadi elminin məqsədini müəyyənləşdirmək istiqamətində ümumi fikir:**

A) İstehsal münasibətləri
B) İnsanın tələbatlarının ödənilməsi
C)) İnsanın maksimal zövq alması
D) İqtisadiyyatın tənzimlənməsi
E) Təbii resursların məhdudluğu

**39. Avstriya məktəbinin tədqiqatının predmetini nə təşkil edir?**

A) İstehlak qiymətləndirilməsi
B) Tədavül sferası
C) Kapitalizmin inkişaf qanunları
D) İstehlak seçimi
E)) İstehlak qiymətləndirilməsi və istehlak seçimi

**40. Avstriya məktəbinin tədqiqatının predmetininə aid deyil:**

A) İstehlak qiymətləndirilməsi
B) Şəxsi istehlak sferasında baş verən insanın nemətə olan münasibəti
C)) İstehsal sferasındakı insanlar arasında olan iqtisadi münasibətlər
D) İstehlak seçimi
E) İstehlak qiymətləndirilməsi və istehlak seçimi

**41. U.Cevons, K.Menger, L.Valras tərəfindən eyni zamanda faydalılıq həddinin kəşfinin səbəblərindən biri yanlışdır:**

A) İqtisad elmi çərçivəsində müstəqil intellektualın inkişafı
B) Fəlsəfi cərəyanların bəhrəsi
C) Marksizmə qarşı olan qəti etiraz
D) İqtisadiyyatda müəyyən institusional dəyişikliklərin nəticəsi
E)) Klassik iqtisadi nəzəriyyələrin intellektual keçmişə atılması

**42. U.Cevons, K.Menger, L.Valras tərəfindən eyni zamanda faydalılıq həddinin kəşfinin səbəblərindən biri yanlışdır:**
A) İqtisad elmi çərçivəsində müstəqil intellektualın inkişafı
B) Fəlsəfi cərəyanların bəhrəsi
C) Marksizmə qarşı olan qəti etiraz
D) İqtisadiyyatda müəyyən institusional dəyişikliklərin nəticəsi
E)) İqtisadi nəzəriyyənin ayrı-ayrı istiqamətlərə ayrılması prosesinin dərinləşməsi

**43. İlk olaraq vaxtı bir amil kimi iqtisadi təhlilə kim tətbiq etmişdir ?**
A) D.Rikardo
B) K.Marks
C)) A.Marşall
D) F.List
E) A.Piqu

**44. İqtisadi-riyazi faydalılıq nəzəriyyəsinin ilk variantını kim yaratmışdır?**
A) A.O.Kurno
B)) G.Qossen
C) A.Marşall
D) F.List
E) A.Piqu

**45. Aşağıdakı əsərlərin hansının müəllifi Y.Bem-Baverkdir**:
A) "Siyasi iqtisadın əsasları"
B) "Ekonomiksin prinsipləri"
C) "Pul, kredit və ticarət"
D) "Sərvət nəzəriyyəsinin riyazi prinsipləri"
E)) "Kapital və mənfəət"

**46. Aşağıdakı əsərlərin hansının müəllifi Y.Bem-Baverkdir**:
A) "Siyasi iqtisadın əsasları"
B) "Ekomiksin prinsipləri"
C) "Pul, kredit və ticarət"
D) "Sərvət nəzəriyyəsinin riyazi prinsipləri"
E)) "K.Marksın nəzəriyyəsi və onun tənqidi"

**47. L.Valrasın iqtisad elminə ən böyük töhfəsi nədir:**
A) Əmək təklifi nəzəriyyəsi
B) Əmək-dəyər nəzəriyyəsi
C)) İstehlakçı davranışı nəzəriyyəsi
D) Faydalılıq həddi nəzəriyyəsi
E) İzafi dəyər nəzəriyyəsi
**48. L.Valrasın iqtisad elminə ən böyük töhfəsi nədir:**
A) Əmək təklifi nəzəriyyəsidir
B)) Ümumi iqtisadi tarazlığın qapalı riyazi modelidir
C) Son məhsuldarlıq nəzəriyyəsidir
D) Əmək-dəyər nəzəriyyəsidir
E) Faydalılıq həddi nəzəriyyəsidir
**49. Avstriya məktəbinin ideoloqları iqtisadi təhlildə əsasən hansı metoddan istifadə etmişlər?**
A) Elmi abstraksiya
B) İqtisadi təhlil
C) Tarixi və məntiqi
D) Empirik-riyazi metod
E)) Abstrakt-deduktiv
**50. Avstriya məktəbinin ideoloqları iqtisadi təhlildə əsasən hansı metoddan istifadə etmişlər?**
A) Elmi abstraksiya
B) İqtisadi təhlil
C) Tarixi və məntiqi
D) Empirik-riyazi metod
E)) Subyektiv psixoloji
**51. Avstriya məktəbinin nəzəriyyələr sistemində mərkəzi yeri tutan nəzəriyyəsi hansıdır:**
A) İstehlakçı davranışı nəzəriyyəsi
B) Psixoloji nəzəriyyə
C) Monetar nəzəriyyə
D) Xarici amillər nəzəriyyəsi
E)) Faydalılıq həddi nəzəriyyəsi
**52. Avstriya məktəbinin tədqiqat obyektini nə təşkil edir:**
A) Dövlət təsərrüfatları
B) Ev təsərrüfatları
C)) Cəmiyyətdən təcrid olan ayrı-ayrı fərdi təsərrüfatlar
D) Cəmiyyətdən təcrid olan kollektiv təsərrüfatlar

E) Bunların hamısı

**53. Faydalılıq həddi nəzəriyyəsinin formalaşmasında böyük əhəmiyyət kəsb edən qanun hansıdır:**

A) Tələbatın artımı qanunu
B)) Qossenin birinci və ikinci qanunu
C) Qossenin birinci qanunu
D) Qossenin ikinci qanunu
E) Bunların hamısı

**54. Faydalılıq həddi nəzəriyyələri hansı konsepsiyaların nəzəri əsası olmuşdur:**

A) İqtisadi artım
B) İqtisadi rifah
C) Müxtəlif riyazi modellər
D) Ekonomik modellər
E)) Bunların hamısı

**55. K.Mengerin dəyər nəzəriyyəsinin fərqli cəhətləri nədir?**

A) Yalnız tələbi qiyməti formalaşdıran əsas amil hesab etmişdir
B) Əmtəənin təklifinin dəyişməz olduğunu bəyan etmişdir
C)) Yalnız tələbi qiyməti formalaşdıran əsas amil hesab etmiş və əmtəənin təklifinin dəyişməz olduğunu bəyan etmişdir
D) Heç biri doğru deyil
E) Hamısı doğrudur

**56. Aşağıdakı fikirlərdən Y.Bem-Baverkə aid olanı seçin.**

A) Yalnız tələbi qiyməti formalaşdıran əsas amil hesab etmişdir
B) Əmtəənin təklifinin dəyişməz olduğunu bəyan etmişdir
C) Yalnız tələbi qiyməti formalaşdıran əsas amil hesab etmiş və əmtəənin təklifinin dəyişməz olduğunu bəyan etmişdir
D)) Abstrakt və konkret faydalılığı bir-birindən fərqləndirmişdir
E) Bunların hamısı

**57. Likvidlik anlayışını elmə kim gətirmişdir**:

A) Y.Bem-Baverk
B) M.Fridmen
C) F.Vizer
D)) K.Menger
E) A.Piqu

**58. İlk dəfə olaraq kim ictimai fayda anlayışını əsaslandırmışdır?**

A) Y.Bem-Baverk
B) M.Fridmen
C) F.Vizer
D)) V.Pareto
E) A.Piqu

**59. Y.Bem-Baverk göstərirdi:**

A)) Qiymət əvvəldən axıra qədər nemətin subyektiv qiymətləndirilməsinin məhsuludur
B) Faydalılıq həddi, nəticə etibarilə müəyyən məhsulun dəyəri onun istehsalına çəkilən xərclərin dəyərinə yaxın kəmiyyətdir
C) Faydalılığın funksiyası aramsız deyil, diskretdir
D) Məhsuldar nemətlər istehsal prosesində tam istifadə olunur
E) Qiymətə görə faydalılıq həddinin ölçülməsi bütün əmtəələr üçün bərabərdir

**60. Y.Bem-Baverk göstərirdi:**

A)) Nemət nə qədər az tapılırsa və ona tələbat nə qədər çox olursa, onun faydalılığı da bir o qədər yüksək olur
B) Faydalılıq həddi, nəticə etibarilə müəyyən məhsulun dəyəri onun istehsalına çəkilən xərclərin dəyərinə yaxın kəmiyyətdir
C) Faydalılığın funksiyası aramsız deyil, diskretdir
D) Məhsuldar nemətlər istehsal prosesində tam istifadə olunur
E) Qiymətə görə faydalılıq həddinin ölçülməsi bütün əmtəələr üçün bərabərdir

**61. İstehsal iştirakçıları arasında gəlirlərin bölgüsünü izah edən "əvəzetmə" nəzəriyyəsinin banisi kimdir?**

A) C.Xiks
B) P.Samuelson
C)) F.Vizer
D) C.Klark
E) A.Marşall

**62. İstehsal xərcləri qanunu aşağıdakı iqtisadçılardan kimə məxsusdur:**

A) C.Xiksə
B) P.Samuelsona
C)) F.Vizerə
D) C. Klarka
E) A. Marşalla

**63. Müasir iqtisad elminin çoxlu məktəb və istiqamətləri tərəfindən metodoloji əsası kimi istifadə olunmuşdur bu:**
A) Keynsçi nəzəriyyə
B) İqtisadi artım nəzəriyyəsi
C)) Faydalılıq həddi nəzəriyyəsi
D) İqtisadi rifah nəzəriyyəsi
E) Neoklassik sintez nəzəriyyəsi
**64. Marşallın qiymət konsepsiyasının komponentlərindən yalnış olanı seçin:**
A) Faydalılıq həddi
B) İstehsal xərcləri
C) Tələb və təklif
D)) Əmtəə dəyəri
E) Bunların heç biri
**65. Hansı üçlük faydalılıq nəzəriyyəsindən istehlakçı davranışının təhlili üçün istifadə etmişlər:**
A) Loyd, Lonqfild, Senior
B) Menger, Bem-Baverk, Vizer
C)) Düpü, Qossen, Ceninqs
D) Marşall, Klark, Piqu
E) Cevons, Menger, Valras
**66. Hansı üçlük həddi təhlili faydalılığa tətbiq etməklə faydalılıq nəzəriyyəsini təkmilləşdirmişdir:**
A) Loyd, Lonqfild, Senior
B) Menger, Bem-Baverk, Vizer
C) Düpü, Qossen, Ceninqs
D) Marşall, Klark, Piqu
E)) Cevons, Menger, Valras
**67. Məhsuldarlıq həddi nəzəriyyəsinin modifikasiyasıdır-bu:**
A) Tsikllər nəzəriyyəsi
B) Dəyərsiz qiymət nəzəriyyəsi
C)) Faydalılıq həddi nəzəriyyəsi
D) Pul nəzəriyyələri
E) Neoklassik sintez nəzəriyyəsi

**68. Faydalılıq həddi nəzəriyyəsinin modifikasiyasıdır-bu:**
A) Tsikllər nəzəriyyəsi
B) Dəyərsiz qiymət nəzəriyyəsi
C)) Məhsuldarlıq həddi nəzəriyyəsi
D) Pul nəzəriyyələri
E) Neoklassik sintez nəzəriyyəsi
**69. Aşağıdakı əsərlərdən hansı A.Marşalla aiddir:**
A)) "Sənaye və ticarət"
B) "Siyasi iqtisad nəzəriyyəsi"
C) "Kapital və mənfəət "
D) "Təsərrüfat və hüquq"
E) "Pul və kredit"
**70. Aşağıdakı əsərlərdən hansı B.Baverkə aiddir:**
A) "Sənaye və ticarət"
B) "Siyasi iqtisad nəzəriyyəsi"
C)) "Təsərrüfat nemətlərinin qiymət nəzəriyyəsinin əsasları "
D) "Təsərrüfat və hüquq"
E) "Pul və kredit"
**71. Qossenin birinci qanununa görə:**
A) Bir fasiləsiz istehlak aktında növbəti nemət vahidinin faydalılığı azalır
B) Təkrar istehlak aktında hər bir nemətin faydalılığı əvvəlki istehlak olunan nemətlərin faydalılığı ilə müqayisədə azalır
C) Faydalılığın azalması ilə nemətlərin istehlakı azalır
D) Bir fasiləsiz istehlak aktında növbəti nemət vahidinin faydalılığı azalır, təkrar istehlak aktında hər bir nemətin faydalılığı əvvəlki istehlak olunan nemətlərin faydalılığı ilə müqayisədə azalır
E)) Mövcud nemətin hər bir əlavə vahidindən təmin olmanın kəmiyyəti durmadan aşağı düşür, tam təmin olunduqda isə sıfıra çatır
**72. Qossenin birinci qanununa görə:**
A) Bir fasiləsiz istehlak aktında növbəti nemət vahidinin faydalılığı azalır
B) Təkrar istehlak aktında hər bir nemətin faydalılığı əvvəlki istehlak olunan nemətlərin faydalılığı ilə müqayisədə azalır

C) Faydalılığın azalması ilə nemətlərin istehlakı azalır
D)) Bir fasiləsiz istehlak aktında növbəti nemət vahidinin faydalılığı azalır və təkrar istehlak aktında hər bir nemətin faydalılığı əvvəlki istehlak olunan nemətlərin faydalılığı ilə müqayisədə azalır
E) Hamısı doğrudur

**73. Qossenin ikinci qanununa görə:**

A) Bir fasiləsiz istehlak aktında növbəti nemət vahidinin faydalılığı azalır
B)Təkrar istehlak aktında hər bir nemətin faydalılığı əvvəlki istehlak olunan nemətlərin faydalılığı ilə müqayisədə azalır
C) Faydalılığın azalması ilə nemətlərin istehlakı azalır
D) Bir fasiləsız istehlak aktında növbəti nemət vahidinin faydalılığı azalır, təkrar istehlak aktında hər bir nemətin faydalılığı əvvəlki istehlak olunan nemətlərin faydalılığı ilə müqayisədə azalır
E)) Nemətin kombinasiyasının faydalılığı istehlak olunmuş müxtəlif nemətlərin sonuncu porsiyası eyni faydalılığa malik olduqda maksimum olur

**74. Marjinalizmin II mərhələsi üçün xarakterik xüsusiyyət hansıdır:**

A) Onlar siyasi iqtisadı subyektiv-psixoloji əsasda qurmağa çalışırdılar
B) Onların fikrincə, qiymətin maksimum həddini satıcıların subyektiv qiymətləndirilməsi, minimum həddini isə alıcıların subyektiv qiymətləndirilməsi müəyyən edir
C) Onlar passiv dövlət tənzimi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi tərəfdarı idilər
D)) Onlar iqtisadi təhlilin funksional metodu ilə yanaşı iqtisadi proseslərin riyazi modelləşmə metodunu təsdiq etmişlər
E) Onlar maddi amillərlə yanaşı mənəvi, əxlaqi, hüquqi və digər amilləri də iqtisadiyyatın hərəkətverici qüvvəsi hesab edirdilər

**75. Avstriya məktəbinin metodoloji əsasını nə təşkil edir:**
A) Siyasi iqtisadı subyektiv-psixoloji əsasda qurması
B) Qiymətin maksimum həddini satıcıların subyektiv qiymətləndirilməsi, minimum həddini isə alıcıların subyektiv qiymətləndirilməsi
C) Passiv dövlət tənzimi ilə əlaqədar tədbirlərin həyata keçirilməsinin tərəfdarı olması
D)) Liberal yönümlü klassiklərin faydalılıq haqqında baxışları
E) Maddi amillərlə yanaşı mənəvi, əxlaqi, hüquqi və digər amilləri də iqtisadiyyatın hərəkətverici qüvvəsi hesab etmələri

**76. Neoklassik məktəbin tədqiqat predmeti:**
A) Tədavül sferası (tələb)
B) İstehsal sferası (təklif)
C)) Təsərrüfat fəaliyyəti subyektlərinin davranışı
D) Xidmətlər sferası
E) Bunların hamısı

**77. Neoklassiklər pulu necə izah edirdilər?**
A) Pul sərvətdir
B)) Pulun müstəqil dəyəri yoxdur, o hesablama vahididir
C) Pulun müstəqil dəyəri vardır, o hesablama vahidi deyil
D) Pul aktiv növlərindən biridir
E) Pul passiv növlərindən biridir

**78. L.Valrasın iqtisadi tarazlıq problemində başlıca cəhət:**
A)) Bazar qiyməti son xərclərə bərabərdir
B) İstehsal amilləri ilə tələb və təklif bərabərdir
C) Əmtəə və xidmətlərin tələb və təklifi bərabərdir
D) Əmtəələrin qiyməti istehsal xərcləri ilə uyğun gəlir
E) Əmtəələrin qiyməti istehsal xərclərinə uyğun gəlmir

**79. L.Valrasın iqtisadi tarazlıq problemində başlıca cəhət:**
A)) Sabitliyə bir neçə bazarda baxmışdır
B) İstehsal amilləri ilə tələb və təklif bərabərdir
C) Əmtəə və xidmətlərin tələb və təklifi bərabərdir
D) Əmtəələrin qiyməti istehsal xərcləri ilə uyğun gəlir
E) Əmtəələrin qiyməti istehsal xərclərinə uyğun gəlmir

**80. Faydalılıq həddinin riyazi məktəbinin nümayəndələrinə aiddir:**
A) U.Cevons
B)) A.Kurno
C) L.Valras
D) C.Kommons
E) V.Pareto

**81. Həddi təhlil metodunun əsl banisi kimdir:**
A) U.Cevons
B)) İ.Q.Tyunen
C) L.Valras
D) C.Kommons
E) V.Pareto

**82. İctimai sərvətin bölgüsü problemini iqtisad elminin əsas problemi hesab edən iqtisadçı kimdir?**
A) Q. Keri
B)) C.Klark
C) Y.Şumpeter
D) U.Mitçell
E) E.Çemberlin

**83. İstehsal xidmətlərinə olan səmərəli təklif və səmərəli tələb xidmətlər bazarında tarazlaşır, satış qiymətləri məhsuldar xidmətlərdə ifadə olunmuş istehsal xərclərinə bərabər nəzəriyyə kimindir və necə adlanır:**
A)) L.Valrasın ümumi iqtisadi tarazlıq nəzəriyyəsi
B) A.Marşallın fərdi tarazlıq nəzəriyyəsi
C) E.Çemberlinin ümumi tarazlıq nəzəriyyəsi
D) C.Klarkın inkişaf edən sistem daxilində tarazlıq nəzəriyyəsi
E) C.Xiksin fərdi texnoloji nəzəriyyəsi

**84. Fond əməliyyatlarında spekulyativ motivlərlə bağlı olaraq optimizm və pessimizim əhvali-ruhiyyələri ilə bağlı olan nəzəriyyələrin müəllifi kimdir və necə adlanır:**
A) L.Valrasın ümumi iqtisadi tarazlıq nəzəriyyəsi
B) A.Marşallın fərdi tarazlıq nəzəriyyəsi
C) E.Çemberlinin ümumi tarazlıq nəzəriyyəsi
D) C.Klarkın inkişaf edən sistem daxilində tarazlıq nəzəriyyəsi
E)) U.Cevons və V.Paretonun psoxoloji nəzəriyyəsi

**85. Günəş aktivliyinin 11 illik tsiklini iqtisadi tsikllə əlaqələndirən müəllifin adını və nəzəriyyəsini müəyyənləşdirin:**
A) Q.Xabler – "Yığımlar nəzəriyyəsi"
B) R.Xoutri – "Monetar nəzəriyyə"
C)) U.Cevonson – "Xarici amillər nəzəriyyəsi"
D) K.Marks –" İzafi dəyər nəzəriyyəsi"
E) A+B düzdür
**86. Dövriyyədə olan pul kütləsinin dəyişməsi iqtisadi aktivliyin əsas səbəbini izah edən müəllif:**
A) Q.Xabler – "Yığımlar nəzəriyyəsi"
B)) R.Xoutri – "Monetar nəzəriyyə"
C) U.Cevonson –"Xarici amillər nəzəriyyəsi"
D) K.Marks – "İzafi dəyər nəzəriyyəsi"
E) Q.Xabler – "Yığımlar nəzəriyyəsi" və R.Xoutri – "Monetar nəzəriyyə"
**87. Qiymət artımı və işsizlik dinamikası arasında qrafik asılılıq:**
A) Laffer əyrisi
B)) Filips əyrisi
C) Lorens əyrisi
D) Valras əyrisi
E) Engel əyrisi
**88. Hansı məktəbin nümayəndələri məhdud resursların səmərəli bölgüsünün öyrənilməsini siyasi iqtisadın problemi hesab etmişdir:**
A) Kembric məktəbi
B)) Avstrya məktəbi
C) Frayburq məktəbi
D) Marksist məktəb
E) Klassik məktəb
**89. Nemətlərin Pareto-səmərəli bölgüsünün əldə edilməsi göstərir ki:**
A) Nemətlərin bərabər bölgüsü alınmışdır
B)) Nemətlərin səmərəli bölgüsü alınmışdır
C) Rifahın maksimum səviyyəsi alınmışdır
D) Nemətlərin qeyri-səmərəli bölgüsü alınmışdır
E) İstehsalın optimal səviyyəsinə nail olmuşdur

**90. V.Paretto iqtisadi siyasətə necə qiymət verməsini etibarlı saymışdır?**
A) Nemətlərin bərabər bölgüsünə əsasən
B)) Səmərəlilik düşüncəsinə əsasən
C) Rifahın maksimum səviyyəsinə əsasən
D) Nemətlərin qeyri-səmərəli bölgüsünə əsasən
E) İstehsalın optimal səviyyəsinə əsasən
**91. V.Pareto-səmərəli buraxılışının çatdığı nöqtədə:**
A)) Transformasiyanın son hədd norması əvəzləmənin son hədd normasına bərabərdir
B) Son hədd xərcləri son hədd gəlirinə bərabərdir
C) Bütün istehsal amillərinin son hədd məhsulları bərabərdir
E) Bazar iqtisadiyyatı şəraitində buraxılışın Pareto səmərəliliyinə nail olmaq mümkün deyil
**92. Hansı iqtisadçı faydalılıq həddi nəzəriyyəsini məqsəd-nəticənin təhlilinə və dinamik proqramlaşdırmaya gətirib çıxarmışdır:**
A) U.Cevons
B) K.Menger
C))V.Pareto
D) G.H.Qossen
E) A.Piqu
**93. Hansı iqtisadçı ilk dəfə "Siyasi iqtisad" terminindən istifadə edərək onu ekonomiks adlandırmışdır:**
A)) U.Cevons
B) K.Menger
C) V.Pareto
D) G.H.Qossen
E) A.Marşall
**94. Engel əyrisi göstərir:**
A)) İstehlakçının gəlirləri ilə aldığı əmtəələrin miqdarı arasındakı asılılığı
B) İstehlakçının pul gəliri ilə aldığı əmtəələrin keyfiyyəti arasındakı asılılığı
C) İstehlakçının tarazlıq vəziyyətini
D) y nemətinin x neməti ilə əvəz olunmasının son hədd normasını
E) Fərqsizlik əyrilərinin məcmusunu

**95. L.Valras modeli nəyi ifadə edir:**
A) İstehlakçının gəlirləri ilə aldığı əmtəələrin miqdarı arasındakı asılılığı
B) İstehlakçının pul gəliri ilə aldığı əmtəələrin keyfiyyəti arasındakı asılılığı
C)) Məhsuldar xidmətlər və istehlak mallarının qarşılıqlı fəaliyyət sistemini
D) y nemətinin x neməti ilə əvəz olunmasının son hədd normasını
E) Fərqsizlik əyrilərinin məcmusunu
**96. Aşağıdakı fikirlərdən Qossenə aid olanını seçin:**
A) O, iqtisad elmini zövq və istirabı hesablama kimi şərh edir
B) O, faydalılığın azalması qanununu iqtisad elminin qanunu adlandırır
C) O, faydalılıq həddinin azalması qanununu fizioloji prinsiplərlə əsaslandırır
D) O, faydalılıq həddi nəzəriyyəsinə əsasən mübadilə bərabərliyi nəzəriyyəsini yaradır
E)) İqtisadi davranışın əsası insan tərəfindən nemətin psixoloji qiymətləndirilməsi və bu nemətlər arasında seçim etməsidir
**97. Aşağıdakı fikirlərdən Qosseyə aid olanını seçin:**
A) O, iqtisad elmini zövq və istirabı hesablama kimi şərh edir
B) O, faydalılığın azalması qanununu iqtisad elminin qanunu adlandırır
C) O, faydalılıq həddinin azalması qanununu fizioloji prinsiplərlə əsaslandırır
D) O, faydalılıq həddi nəzəriyyəsinə əsasən mübadilə bərabərliyi nəzəriyyəsini yardır
E)) O, faydalılıqların mübadiləsinə faydalılığın artım mənbəyi kimi baxmışdır
**98. U.Cevonsun "Fərqsizlik qanununun" mahiyyəti nədir?**
A) Səmərəli istehlak zamanı alınan əmtəələrin faydalılığının sonuncu dərəcəsi onların qiymətinə proporsionaldır

B) Əmək özünün başlanğıc mərhələsində müsbət hisslər yaradır, lakin sonra əzablı, yəni antifaydalı olur
C)) Eyni bir bazarda eyni bir vaxtda, eyni bir məhsula iki müxtəlif qiymət ola bilməz
D) Eyni bir nemətin hissləri qeyri -bərabər faydalılığa malikdir
E) Mübadilə olunan əmtəələrin kəmiyyəti, sərf olunan əməyin məhsuldarlığına düz mütənasibdir və həmin əmtəələrin dəyərinə və qiymətinə və istehsalın xüsusi xərclərinə, həmçinin onların həddi faydalılığına əks mütənasibdir

**99. U.Cevonsa aid olan fikri seçin:**

A) Səmərəli istehlak zamanı alınan əmtəələrin faydalılığının sonuncu dərəcəsi onların qiymətinə proporsionaldır
B) Kapital nemətlərinin qiyməti məlum faiz dərəcəsində onların gətirdiyi xalis gəlirə ciddi surətdə proporsionaldır
C)) Əməyin antifaydalılığı və əmək məhsulunun faydalılığı tarazlaşdığı vaxt məhsulun istehsalı kəsilir
D) Eyni bir nemətin hissləri qeyri -bərabər faydalılığa malikdir
E) Mübadilə olunan əmtəələrin kəmiyyəti, sərf olunan əməyin məhsuldarlığına düz mütənasibdir, həmin əmtəələrin dəyərinə, qiymətinə, istehsalın xüsusi xərclərinə, həmçinin onların həddi faydalılığına əks mütənasibdir

**100. L.Valrasın dahiliyi ondan ibarətdir**:

A) O, ümumi iqtisadi tarazlığın qapalı riyazi modelini işləyib hazırlamışdır
B) O, məhsulların və amillərin qiymətinin eyni vaxtda müəyyən olunması və çoxlu bazarlarda eyni vaxtda tarazlığın ümumiliyini müəyyənləşdirmişdir
C) O, ümumi iqtisadi tarazlığın riyazi nəzəriyyəsini müəyyənləşdirmişdir
D) O, resursların ehtiyatı və onların köməyi ilə yaranan xidmət və gəlirlər arasında əsaslı fərqi müəyyənləşdirmişdir
E)) Bunların hamısı doğrudur

**101. Aşağıdakı fikirlərdən hansı L.Valrasa aid deyil:**
A) O, ümumi iqtisadi tarazlığın qapalı riyazi modelini işləyib hazırlamışdır
B) O, məhsulların və amillərin qiymətinin eyni vaxtda müəyyən olunması və çoxlu bazarlarda eyni vaxtda tarazlığın ümumiliyini müəyyənləşdirmişdir
C) O, ümumi iqtisadi tarazlığın riyazi nəzəriyyəsini müəyyənləşdirmişdir
D) O, resursların ehtiyatı və onların köməyi ilə yaranan xidmət və gəlirlər arasında əsaslı fərqi müəyyənləşdirmişdir
E)) O, göstərir ki, istənilən subyekt üçün gəlirlərin və xərclərin məbləği bərabərdir
**102. V.Paretoya görə resursların optimal bölgüsü konsepsiyası nəyə əsaslanır?**
A) İctimai rifahı ayrı-ayrı adamların rifah vahidləri ilə müəyyən olunur
B) Hər bir adam hamıdan yaxşı özünün şəxsi rifahını qiymətləndirməyi bacarır
C) Ayrı-ayrı adamların rifahı müqayisə olunmayandır
D) İctimai rifahı ayrı-ayrı adamların rifah vahidləri ilə müəyyən olunur, hər bir adam hamıdan yaxşı özünün şəxsi rifahını qiymətləndirməyi bacarır
E)) İctimai rifahı ayrı-ayrı adamların rifah vahidləri ilə müəyyən olunur, hər bir adam hamıdan yaxşı özünün şəxsi rifahını qiymətləndirməyi bacarır və ayrı-ayrı adamların rifahı müqayisə olunmayandır
**103. Aşağıdakı fikirlərdən V.Paretoya aid olanı seçin:**
A) İctimai rifahı ayrı-ayrı adamların rifah vahidləri ilə müəyyən olunur
B) Hər bir adam hamıdan yaxşı özünün şəxsi rifahını qiymətləndirməyi bacarır
C) Ayrı-ayrı adamların rifahı müqayisə olunmayandır

D) İctimai rifahı ayrı-ayrı adamların rifah vahidləri ilə müəyyən olunur, hər bir adam hamıdan yaxşı özünün şəxsi rifahını qiymətləndirməyi bacarır
E)) "Yoxsul siniflərin" rifah halının artımı hər şeydən əvvəl istehsalın problemidir

**104. V.Pareto tədqiqatında hansı metoda üstünlük vermişdir:**
A) Məntiqi metoda
B) Riyazi metoda
C) Funksional əlaqələrin təhlilinə
D) Məntiqi və riyazi metoda
E)) Riyazi metoda və funksional əlaqələrin təhlilinə

**105. V.Pareto tədqiqatında hansı metoda üstünlük vermişdir:**
A) Emprik metoda
B) Müqayisəli təhlilə
C) Səbəb-nəticə əlaqələrinə
D) Məntiqi və riyazi metoda
E)) Məntiqi metodun riyazi metodla əvəz olunmasına

**106. A.Marşallın tarazlıq modelinin Valras modelindən fərqi hansıdır:**
A) Qiymət müstəqil dəyişəndir
B) Təklif müstəqil dəyişəndir
C) Təklif qiymətdən asılıdır
D))Təklifin kəmiyyəti qiymətlə deyil, məsrəflə şərtlənir
E) Qiymət müstəqil dəyişəndir və təklif qiymətdən asılıdır

**107. Avstriya məktəbinin tədqiqat sferasına aid deyil:**
A)) İstehsal sferasındakı insanlar arasında olan iqtisadi münasibətlər
B) Şəxsi istehlak sferasındakı baş verən insanların nemətə olan münasibəti
C) Cəmiyyətdən təcrid olan ayrı-ayrı fərdi təsərrüfatlar
D) Ayrı-ayrı fərdlərin psixologiyası, davranışı
E) Təsərrüfatların mexaniki məcmusu

**108. İqtisad elmində "uzunmüddətli" və "qısamüddətli" dövr anlayışları kimə məxsusdur**:
A) L.Valrasa D) C.Keynsə
B))A.Marşalla E) Heç biri doğru deyil
C) C.Klarka
**109. Kim faizi əməkhaqqının "əməyə görə mükafatlandırma kimi" qiymətləndirmişdir**:
A) L.Valras D) C.Klark
B)) A.Marşall E) Heç biri doğru deyil
C) C.Keyns
**110. C.Klarkın tədqiqatının metodoloji yeniliyi nədədir:**
A) Marjinalist prinsipləri iqtisad elminin qanunlarına çevirməsi
B) Kapitalizmdə istismarın olmadığını və kapitalist gəlirlərinin ədalətliliyini sübut etməyə çalışması
C))Statika və dinamika haqqında müddəaları birləşdirən iqtisad elminin bölmələri haqqında təlimi
D) Marjinalist prinsipləri istehsal istehlakı sferasına aid etməsi
E) İctimai sərvətin bölgü problemlərini iqtisad elminin əsas problemi hesab etməsi
**111. C.Klarkın tədqiqatının xarakterik xüsusiyyətinə aiddir:**
A) Marjinalist prinsipləri iqtisad elminin qanunlarına çevirməsi
B) Kapitalizmdə istismarın olmadığını və kapitalist gəlirlərinin ədalətliliyini sübut etməyə çalışması
C)) İctimai sərvətin bölgüsünü iqtisad elminin əsas problemi hesab etməsi
D) Marjinalist prinsipləri istehsal istehlakı sferasına aid etməsi
E) İctimai sərvətin bölgü problemlərini iqtisad elminin əsas problemi hesab etməsi
**112. A.Marşall "Faiz nəzəriyyəsi"ni hansı iqtisadçının hansı nəzəriyyəsinə əsasən yaratmışdı:**
A) J.B.Seyin Sey qanunu, "Satış nəzəriyyəsi"
B) T.Maltusun "Əhali sakinliyi" qanunu
C) F.Bastianın "Xidmət nəzəriyyəsi"

D)) N.U.Seniorun "İmtina" nəzəriyyəsi
E) H.Ç.Kerinin "Mənafelərin harmoniyası" nəzəriyyəsi

**113. C.Klarkın məhsuldarlıq həddi nəzəriyyəsinin əsasında hansı nəzəriyyə dururdu:**

A)) J.B.Seyin "İstehsal amilləri nəzəriyyəsi"
B) T.Maltusun "Əhali sakinliyi" qanunu
C) F.Bastianın "Xidmət nəzəriyyəsi"
D) N.U.Seniorun "İmtina nəzəriyyəsi"
E) H.Ç.Kerinin "Mənafelərin harmoniyası" nəzəriyyəsi

**114. Pareto-optimallığın bütün şərtləri təmin olunur:**

A) Tənzimlənən inhisarlarda
B)) Təkmil rəqabətdə
C) İnhisarçı rəqabətdə
D) Oliqopoliyada
E) Duopoliyada

**115. Aşağıdakı nəzəriyyələrdən hansını Kurno yaratmışdır:**

A) Tənzimlənən inhisarlar
B) Təkmil rəqabət
C) İnhisarçı rəqabət
D) Oliqopoliya
E)) Duopoliya

**116. "Əgər bir fərdin vəziyyətini digərinin vəziyyətini pisləşdirmədən yaxşılaşdırmaq mümkün deyilsə, bölgü səmərəlidir". Bu müddəa adlanır:**

A))Pareto meyarı
B) Kompensasiya meyarı
C) Ədalətlilik əmsalı
D) Atkinson indeksi
E) Djini əmsalı

**117. Onun riyazi modelini bəzən XX-əsrdə ekonometrika adlanan istiqamətin- statistik informasiyanın, faktiki kəmiyyətlərə əsaslanan iqtisadiyyatda kəmiyyət qanunauyğunluqların və qarşılıqlı əlaqələrin daxil olduğu riyazi iqtisadiyyatın nümunəsi hesab edirlər:**

A) A.Kurnonun həddi təhlil metodu
B) J.Düpünün həddi təhlil metodu
C) V.Pareto meyarı
D)) G.Tyunenin həddi təhlil metodu
E) Bunların hamısı

**118. Əmək təklifi nəzəriyyəsinin müəllifi kimdir:**
A) K.Menger D) C.Xiks
B) V.Pareto E)) U.Cevons
C) L.Valras

**119. İnhisar nəzəriyyəsinin əsaslarını kim yaratmışdır:**
A) K.Menger D)) A.Kurno
B) V.Pareto E) U.Cevons
C) L.Valras

**120. Qeyri-təkmil bazar rəqabəti nəzəriyyəsi nə vaxt meydana gəlmişdir?**
A) XIX əsrin əvvəllərində
B) XIX əsrin ortalarında
C)) XIX əsrin sonlarında
D) XX əsrin əvvəllərində
E) 1929-1933-cü illərdə baş verən dünya iqtisadi böhranından sonra

**121. Azalan həddi faydalılıq prinsipi nə vaxt kəşf edilmişdir?**
A) XIX əsrin əvvəllərində
B) XIX əsrin ortalarında
C)) XIX əsrin ikinci yarısında
D) XX əsrin əvvəllərində
E) 1929-33-cü illərdə baş verən dünya iqtisadi böhranından sonra

**122. Faydalılıq nəzəriyyəsi hansı məktəbə məxsusdur?**
A) Marksist məktəbinə D) Kembric məktəbinə
B) Klassik məktəbə E) Amerikan məktəbinə
C)) Avstriya məktəbinə

**123. "Faydalılıq" məfhumunu iqtisadi tədqiqatlarında ilk dəfə kim işlətmişdir:**
A) A.Smit D) K.Menger
B) U.Cevons E) K.Marks
C)) İ.Bentam

**124. Y.Bem-Baverk göstərirdi ki:**
A)) Subyekt üçün mövcud nemətin dəyəri onun bu neməti əldə etməkdən ötrü imtina etdiyi nemətlərin faydalılıq həddi ilə müəyyən olunur
B) Faydalılıq həddi, nəticə etibarilə, müəyyən məhsulun dəyəri onun istehsalına cəkilən xərclərin dəyərinə yaxın kəmiyyətdir
C) Faydalılığın funksiyası aramsız deyil, diskretdir
D) Məhsuldar nemətlər istehsal prosesində tam istifadə olunur
E) Qiymətə görə faydalılıq həddinin ölçülməsi bütün əmtəələr üçün bərabərdi

**125. "Ekonomiks" anlayışı aşağıdakı müəllifin əsərinin başlanğıcında istifadə edildikdən sonra qəbul olunmuşdur:**
A) C.S.Mill
B)) A.Marşall
C) K.Marks
D) C.M.Keyns
E) D.Rikardo

**126. İqtisadi fikrin subyektiv istiqamətinin üstünlük verdiyi metod hansıdır?**
A)Makroiqtisadiyyatın üstünlüyü
B) Mikro və makroiqtisadiyyatın sintezi
C) İqtisadiyyatın, iqtisadi tarixin, sosiologiyanın sintezi
D)) İqtisadiyyat subyektlərinin istehlakının üstünlüyü
E) Tədavülün üstünlüyü

**127. Ümumi iqtisadi tarazlıq nəzəriyyəsinin banisi kimdir?**
A) A.Smit
B) A.Marşall
C)) L.Valras
D) C.Keyns
E) D.Rikardo

**128.Fərqsizlik əyriləri konsepsiyasını işləyib hazırlamışdı:**
A) K.Menger
B)) V.Pareto
C) L.Valras
D) C. Xiks
E) İ.Bentam

**129. Faydalılıq nəzəriyyəsinə üstünlük verən iqtisadi məktəb:**
A)) Marjinalizm
B) Merkantilizm
D )Marksizm
E) Monetarizm

C ) Fiziokratizm

**130. İstehlakçı davranışı qaydası başqa cür adlanır:**

A) Qiffen paradoksu
B) Qossenin birinci qanunu
C)) Qossenin ikinci qanunu
D) Tələb qanunu
E) Dəyər qanunu

**131. Aşağıdakı əsərlərin hansının müəllifi A.Marşaldır**:

A) "Siyasi iqtisadın əsasları"
B) "İctimai təsərrüfat nəzəriyyə"
C)) "Pul,  kredit və ticarət"
D) "Sərvət nəzəriyyəsinin riyazi prinsipləri"
E) "Kapital və mənfəət"

**132. Müasir makroiqtisadi modelləşdirmənin marjinal nümayəndəsi kim idi?**

A) U.Cevons
B)) L.Valras
C) C.B.Klark
D) V.Pareto
E) A.Marşall

**133. A.Marşall əmtəənin dəyərini nəyin əsasında müəyyən edirdi?**

A) Xərclər nəzəriyyəsi
B) Əmək nəzəriyyəsi
C) Son faydalılıq nəzəriyyəsi
D)) Son xərclər və son faydalılıq əsasında müəyyən olunan müvazinətli qiymətlər
E) Tədavül xərcləri

**134. L.Valrası müasirlərindən fərqləndirən cəhətləri səciyyələndirin**:

A) Ümumi iqtisadi tarazlığın qapalı riyazi modelini işləyib hazırlaması
B) Məhsulların və amillərin qiymətinin eyni vaxtda müəyyən olunması, çoxlu bazarlarda eyni vaxtda tarazlığın ümumiliyi
C) Ümumi iqtisadi tarazlığın riyazi nəzəriyyəsi
D) Resursların ehtiyatı və onların köməyi ilə yaranan xidmət və gəlirlər arasında əsaslı fərqin müəyyənləşməsi
E)) Bunların hamısı doğrudur

**135. İnsanların həyat səviyyəsi yüksək olduqca onların ərzaq məhsullarına məsrəfləri nisbətən azalır:**

A) Sey qanunu
B) Valras qanunu
C) Qossen qanunu
D)) Engel qanunu
E) Oyken qanunu

**136. Hansı iqtisadçı ictimai sərvətin bölgüsü problemini iqtisad elminin əsas problemi hesab etmiş və cəmiyyətin bütün gəlirlərinin müxtəlif növ gəlirlərə bölgüsünü iqtisad elminin predmeti adlandırmışdır:**

A) A.Marşall
B) K.Menger
C) A.Piqu
D) C.Keyns
E)) C.Klark

**137. G.Tyunenə görə:**

A)) Mövcud torpaq sahələrini becərən fəhlələr yeni torpaq sahəsi almaq üçün özünün bu günkü torpağını atıb gedə bilər
B) Qiymətlə kəmiyyət arasında təcrübə ilə təsdiq edilən və nəzəri cəhətdən əsaslandırılması tələb olunmayan əks nisbət açıq görünür
C) Müxtəlif əmtəələr üçün tələbin elastikliyi müxtəlifdir
D) Tələb funksiyası mənfiyə meyillidir, belə ki, əmtəənin əlavə vahidinin alışından əldə olunan əlavə faydalılığın, adətən aşağı düşdüyü kimi şərh edilir
E) İqtisadi davranışın əsası insan tərəfindən nemətin psixoloji qiymətləndirilməsi və bu nemətlər arasında seçim etməkdir

# MÖVZU 12. C.M.KEYNSİN İQTİSADİ NƏZƏRİYYƏSİ

**1. C.M.Keyns makroiqtisadi tənzimləmə nəzəriyyəsinin banisi kimi**
**2. C.M.Keynsin iqtisad elminin inkişafında xidmətləri**
**3. C.M.Keynsin qısa tərcümeyi-halı**

XX əsrin ən məşhur iqtisadi cərəyanının banisi, ingilis iqtisadçısı, dövlət xadimi **Con Meynard Keyns** 1883-cü ildə anadan olmuşdur. O, klassik işlərə aid olan "Siyasi iqtisadın predmeti və metodu"-nun, (1891) müəllifi, Kembric Universitetinin fəlsəfəçisi və iqtisadçısı Con Nevvil Keynsin oğlu idi.

C.M.Keyns Adam Smit və Karl Marksla birlikdə tarixin ən nüfuzlu iqtisadçılarındandır. Yalnız nəzəriyyəsi deyil, həmçinin, biorafiyası da qeyri-adi dərəcədə maraqlı olan Keyns nüfuzlu İton kollecini, sonra isə Kembric Universitetini müvəffəqiyyətlə bitirərək ingilis cəmiyyətinin kübar təbəqələri mühitində püxtələşmişdir. Bu da onun birja əməliyyatlarından var-dövlət qazanıb zənginləşməyinə də imkan yaratmışdır.

Ona şöhrəti yalnız "keysian inqilabı" yaradan "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" kitabı deyil, "Ehtimal haqqında traktat" (1921), "Pul islahatları haqqında traktat" (1923), "Azad sahibkarlığın sonu" (1926) və "Pullar haqqında traktat" (1930), Britaniya xəzinədarlığın məsləhətçisi fəaliyyəti, 1944-cü ildə Bretton-Vuds konfransında, Beynəlxalq Valyuta Fondunun, İnkişaf və Yenidənqurma Bankının təsisində xidmətləri, o dövrdə mədəni və intellektual həyatda jurnalist və natiq kimi aparıcı rolu qazandırmışdır.

Bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin zəruriliyini və əhəmiyyətini qəbul edən, əsaslandıran makroiqtisadi nəzəriyyə - C.M.Keynsin adı ilə bağlıdır. Keynsçilik böyük depressiya dövründə (1929-1933-cü illərə) meydana gəlmişdir. Bu nəzəriyyə dünya kapitalist sisteminin ən böyük böhranı,

onun səbəbləri və iqtisadi inkişafın sabitliyi yolları haqqında suallara neoklassik cərəyanın cavab verməyə qadir olmadığını aşkar etdi. Keynsçiliyin nəzəri müddəaları Keynsin əsas elmi əsəri olan "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi"ndə (1936) verilmişdir. Bu kitab XX əsrdə iqtisadi təfəkkürü XVIII əsrdə "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" (A.Smit) kitabının dəyişdirdiyi qədər dəyişdi. Onun əsasını böhran hadisələrinin aradan qaldırılması, maksimum məşğulluğa nail olunması, ictimai istehsalın artım sürətinin yüksəldilməsi məqsədilə kapitalist iqtisadiyyatının inkişafına dövlətin müdaxiləsi haqqında ideya təşkil edir. Keyns qeyd edirdi ki, tam məşğulluq səviyyəsindən xeyli aşağı olan nöqtədə məcmu təklif və məcmu tələb tarazlıqda ola bilər. Bundan əlavə, o göstərirdi ki, əgər kimsə məcmu tələbi artırmasa, işsizlik sonsuz müddətə qədər qala bilər. Keyns "kimsə" dedikdə hökuməti nəzərdə tuturdu.

C.M.Keyns hesab edirdi ki, bu ideyanın praktiki cəhətdən reallaşmasına milli gəlir, məcmu təklif, məşğulluq, yığımlar, investisiyalar kimi aqreqat kəmiyyətlərin qarşılıqlı asılılığının təhlilini tələb edən makroiqtisadi metodların tətbiq edilməsi vasitəsilə nail olmaq olar. İqtisadi artıma təsir göstərən və iqtisadiyyatın durğunluqdan çıxarılmasını təmin etməyə qadir olan üç əsas amil, Keynsin fikrincə, əhalinin istehlakı, müəssisələrin investisiyaları və dövlət xərcləri ilə müəyyən olunan məcmu tələbdir. Buna görə də keynsçilik iqtisadi siyasəti çox zaman tələbin idarə edilməsi konsepsiyası adlandırılır.

C.M.Keynsə görə, iqtisadiyyat əksər hallarda qeyri-müvazinət vəziyyətində olur, bazar öz problemlərini tam həll etmək iqtidarında deyildir. İqtisadiyyatın inkişafı ilə bağlı bir çox məsələləri dövlət üzərinə götürməlidir. Ölkənin Mərkəzi Bankı pul-kredit siyasətinin hazırlanması və həyata keçirilməsində fəallıq göstərməlidir. İqtisadiyyat üçün məcburi işsizlik obyektiv zərurətdir. Bazarlar bir-biri ilə əlaqədardır. Onların hər

hansı birində dəyişiklik onunla əlaqədə olan digər bazarlara da təsir edir.

C.M.Keyns R.F.Kandan multiplikativ effekt ideyasını götürmüş və onun əsasında multiplikator yığımı nəzəriyyəsini yaratmışdır. Yığım multiplikatoru-gəlirin dəyişməsinin investisiyaların dəyişməsindən asılı olduğunu xarakterizə edən əmsaldır. Keyns qeyd etmişdir ki, istehsalın bir sferasındakı məsrəflərin, digər sferadakı istehsalın və məşğulluğun genişlənməsinə həvəsləndirici təsiri var. Bu Ümumi Milli Məhsul (ÜMM) ölçüsündə artan effekt multiplikasiya effekti adlanır. Multiplikator (M) say əmsalıdır ki, bu da investisiyaların (i) ölçüsünün artması zamanı ÜMM-un həcmini göstərir:

$$\Delta YMM=M\times\Delta i$$

Eyni zamanda multiplikatorun yığıma son hədd meylinə (PPS) əks kəmiyyət olduğunu Keyns sübut etmişdir:

$$M=1/PPS,$$

Həmçinin yığımların və investisiyaların dinamikasının təhlili, konkret vasitələri göstərir ki, bunların vasitəsilə məcmu tələbə, ÜMM-un həcminə və əhalinin məşğulluğuna təsir göstərmək olar.

$$\Delta YMM=1/PPS\times\Delta i$$

Keynsçi multiplikator nəzəriyyəsi göstərir ki, dövlət, firmalar və istehlakçıılar tərəfindən həyata keçirilən iri xərclər səmərəliliyinə və milli istehsalın artımına müsbət təsir göstərir. Hökumət pul-kredit, büdcə və vergi siyasəti vasitəsilə məcmu tələbi tənzimləməlidir. Baxmayaraq ki, bu nəzəriyyə müxtəlif məktəblər tərəfindən tənqidə məruz qalmışdır, o, səmərəli tələb konsepsiyasının bazar iqtisadiyyatının zəruriliyinin və tənzimlənməsi imkanının əsaslandırılmasında müsbət rol oynamışdır.

C.M.Keyns, həmçinin pul və banklar sahəsində də görkəmli nəzəriyyəçi və praktik sayılır. Onun tövsiyyələri ilə İngiltərədə və digər ölkələrdə bank islahatları həyata keçirilmişdir. Doğma vətən qarşısında xidmətlərinə görə C.M.Keyns

1942-ci ildə Lord tituluna layiq görülmüşdür. O, 1946-cı ildə 63 yaşında vəfat etmişdir.

## Testlər

*(Qeyd: " ))" - bu işarə düzgün cavabı göstərir)*

**1. C. Keynsin fikrinə görə:**
A) Pul təkrar istehsalın müstəqil amilidir
B) Təklif müvafiq tələb yaradır
C) Doğumun yüksək tempi əhali artıqlığı yaradır
D)) Qiymət, əməkhaqqı, faiz dərəcəsi qısa müddətdə dəyişməzdir
E) Böhranlar stimullaşdırıcı rol oynayır
**2. C. Keynsin fikrinə görə:**
A) Pul təkrar istehsalın müstəqil amilidir
B) Təklif müvafiq tələb yaradır
C) Doğumun yüksək tempi əhali artıqlığı yaradır
D)) Faktiki tələb potensial tələbdən azdır
E) Böhranlar stimullaşdırıcı rol oynayır
**3. C.Keynsin tədqiqat mərkəzində nə durmuşdur?**
A) Milli gəlir
B) Əmanətlərin yığımı
C) İnvestisiyaların həcmi
D) İstehlak və gəlirlərin səviyyəsi
E)) Bunların hamısı doğrudur
**4. C.Keynsin tədqiqat sferasına aid deyil:**
A) Milli gəlir
B) Əmanətlərin yığımı
C) İnvestisiyaların həcmi
D) İstehlak və gəlirlərin səviyyəsi
E)) İşsizliyin təbii norması anlayışının irəli sürülməsi
**5. Aşağıdakı əsərlərdən hansı postkeynsçilik cərəyanının görkəmli nümayəndəsi Con Robinsona məxsusdur:**
A)) "Kapital yığımı"
B) "Bölgünün alternativ nəzəriyyəsi"
C) "İqtisadi tsikllər və milli gəlir"

D) "Keyns nəzəriyyəsinin rəhbər tutulması"
E) "C.M.Keyns iqtisadçı və siyasi xadim"

**6. C. Keynsin makroiqtisadi tənzimləmə nəzəriyyəsinin əsasını nə təşkil edir?**

A)) Kortəbii bazar mexanizminin qiymətləndirilməsi və iqtisadiyyata dövlətin müdaxiləsinin zəruriliyi
B) Səmərəli təklif
C) Vergi dərəcələrinin artırılması
D) Gəlirlərin artırılması
E) ÜDM-un artırılması

**7. Əmək məhsuldarlığının artımına uyğun əməkhaqqının yüksəlməsi reallaşmadakı çətinliyi aradan qaldırır və iqtisadi artımın mühüm stimulu olur. Bu fikir kimə məxsusdur?**

A)Y.Şumpeterə
B) E.Çemberlinə
C) C.Keynsə
D)) C.Robinsona
E) N.Kaldora

**8. Aşağıdakı əsərlərdən hansı postkeynsçilik cərəyanının görkəmli nümayəndəsi N.Kaldora məxsusdur:**

A) "Kapital yığımı"
B)) "Bölgünün alternativ nəzəriyyəsi"
C) "İqtisadi tsikllər və milli gəlir"
D) "Keyns nəzəriyyəsinin rəhbər tutulması"
E) "C.M.Keyns iqtisadçı və siyasi xadim"

**9. C. Keynsin makroiqtisadi tənzimləmə nəzəriyyəsinin əsasını nə təşkil edir?**

A)) Natamam reallaşmanın səbəbinin aydınlaşdırılması
B) Səmərəli təklif
C) Vergi dərəcələrinin artırılması
D) Gəlirlərin artırılması
E) ÜDM-un artırılması

**10. C.M.Keyns nəzəriyyəsinə dəyərli töhfələr gətirən iqtisadçılardan hansı Nobel mükafatına layiq görülmüşdür:**

A) C.Tobin
D) C.Stiqlis

B) F.Xanin E)) Bunların hamısı
C) R.Lukas

**11. C.M.Keyns nəzəriyyəsinə dəyərli töhfələr gətirən iqtisadçılardan hansı Nobel mükafatına layiq görülmüşdür:**

A) P.Sraffane D)) C.Stiqlis
B) C.Robinson E) Bunların hamısı
C) N.Kaldor

**12. İnvestisiya həcminin artmasına müvafiq olaraq ÜMM-un həcmini göstərən rəqəm koeffisienti:**

A) Akselerator D)) Multiplikator
B) Qiymət indeksi E) Həyat səviyyəsi indeksi
C) Həyat səviyyəsi göstəricisi

**13. İnvestisiyanın artımı ilə məşğulluq və gəlir arasındakı nisbəti əks etdirir:**

A) Akselerator D)) Multiplikator
B) Qiymət indeksi E) Həyat səviyyəsi indeksi
C) Həyat səviyyəsi göstəricisi

**14. Müasir kapitalizm cəmiyyətində istehsal səviyyəsi ilə məşğulluğu – istehsal olunan əmtəələr, xidmətlər və uyğun olaraq məşğulluq səviyyəsinin ümumi və məcmu məsrəflərin səviyyəsindən birbaşa asılı olduğunu tədqiq edən nəzəriyyəçi:**

A)) C.Keyns D) A.Piqu
B) J.B.Sey E) C.Mill
C) A.Marşall

**15. Öz iqtisadi fəaliyyətinə görə Lord titulu almış ilk alim iqtisadçı:**

A)) C.Keyns D) A.Piqu
B) J.B.Sey E) C.Mill
C) A.Marşall

**16. Yeni Keynsçilik nəzəriyyəsində əsas istiqamətlərdən biri:**

A) İqtisadi tsikl sahəsində tədqiqatın aparılmasıdır

B)) İnhisarçılıq və qeyri-təkmil informasiya şəraitində iqtisadi proseslərin gedişatının qəbul olunmasıdır
C) İqtisadi artım sahəsində tədqiqatın aparılmasıdır
D) Keynsin səmərəli tələb nəzəriyyəsinin Rikardonun dəyər nəzəriyyəsi ilə birləşdirilməsi ideyasından ibarətdir
E) Bunların hamısı doğrudur.

**17. Neokeynsçilik nəzəriyyəsində əsas istiqamətlərdən biri:**
A) İqtisadi tsikl sahəsində tədqiqatın aparılmasıdır
B)) Dolayı şəkildə, sistematik, birbaşa kapitalist iqtisadiyyatına dövlət təsirinin müdafiə edilməsidir
C) İqtisadi artım sahəsində tədqiqatın aparılmasıdır
D) Keynsin səmərəli tələb nəzəriyyəsinin Rikardonun dəyər nəzəriyyəsi ilə birləşdirilməsi ideyasından ibarətdir
E) Bunların hamısı doğrudur.

**18. Postkeynsçilik cərəyanın üçüncü istiqaməti olan neorikardoçuluğun fərqləndirici xüsusiyyəti:**
A)) Səmərəli tələb nəzəriyyəsi ilə dəyər nəzəriyyəsinin birləşdirilməsi
B) İqtisadi tsikl sahəsində tədqiqatın aparılması
C) İqtisadi artım sahəsində tədqiqatın aparılması
D) İnhisarçılıq şəraitində iqtisadi hadisələrin öyrənilməsi
E) Qeyri-təkmil informasiya şəraitində iqtisadi proseslərin öyrənilməsi.

**19. Postkeynsçilik cərəyanın üçüncü istiqaməti olan neorikardoçuluğun əsas ideyası:**
A)) Gəlirlərin və istehsalın səviyyəsini müəyyən edən əmanətlərlə investisiya arasında olan nisbət
B) İqtisadi tsikl sahəsində tədqiqatın aparılması
C) İqtisadi artım sahəsində tədqiqatın aparılması
D) İnhisarçılıq şəraitində iqtisadi hadisələrin öyrənilməsi
E) Qeyri-təkmil informasiya şəraitində iqtisadi proseslərin öyrənilməsi.

**20. İqtisadiyyatın dövlət tənzimlənməsi məsələlərində post-keynsçilərin fikri fərqlidir və üç əsas cərəyana bölünür:**
A) Solçular (liberal),  klassik və neokeynsçilik
B) Solçular, marjinal və neoklassik
C) Konservativ, klassik və yeni keynsçilik
D))Monetar, kaletskiçilik, neorikardoçuluq
E) Konservativ, marjinal və neoklassik
**21. İqtisadiyyatın dövlət tənzimlənməsi məsələlərində key-nsçilərin fikri fərqlidir və üç əsas cərəyana bölünür:**
A) Solçular (liberal), klassik və neoklassik
B) Solçular, marjinal və neoklassik
C)) Solçular (liberal), konservativ və neoklassiklər
D) Konservativ, klassik və neoklassik
E) Konservativ, marjinal və neoklassik
**22. Amerikada Keyns nəzəriyyəsinin davamçılarına aiddir:**
A)) E.Xansen, C.Klark, S.Xarris
B) C.Tobin, R.Lukas, N.Kaldor
C) Kobba- Duqlas, Xarrod-Domar, R.Solou
D) C.Stiqlis, C.Robinson, R.Xarrod
E) Y.Tinberqen, M.Kaletski, N.Kaldor
**23. Keynsçiliyin hansı istiqaməti iqtisadiyyatın dövlət tənzimlənməsində əsas məsələ kimi mənfəətin maksimumlaşdırılması və iqtisadiyyatın konservativ strukturlarının saxlanılmasını təklif edir:**
A) Sol keynsçilər (liberallar)
B) Neoklassik istiqamət
C)) Keynsçiliyin konservativ istiqaməti
D) Klassik istiqamət
E) Sol keynsçilər (liberallar) və neoklassik istiqamət
**24. Keynsçiliyin hansı istiqaməti öz ideyasına, metodologiyasına, tədqiqat obyektinə görə üç istiqamətə- monetar, kaletskiçilik və neorikardoçuluğa bölünür:**
A) Sol keynsçilər (liberallar)
B) Neokeynsçilər

C) Keynsçiliyin konservativ istiqaməti
D)) Postkeynsçilik
E) Sol keynsçilər (liberallar) və neoklassik istiqamət

**25.Ümumi iqtisadi modellərdən yanlış olanını göstərin:**
A) K.Marksın kapitalist ictimai təkrar istehsal modeli
B) C.M.Keynsin qısamüddətli iqtisadi müvazinət modeli
C) C.Neymanın institusional müvazinət modeli
D) F.Kenenin sadə təkrar istehsalı və tədavülü təsvir edən "İqtisadi cədvəlləri"
E)) Bunların hamısı doğrudur

**26. Kaletskiçiliyin postkeynsçilikdən fərqli xüsusiyyəti:**
A) Əmanətlərlə investisiyalar arasında nisbət ideyası
B) Pulun təkrar istehsal prosesinin artım miqyasına olan təsirinin öyrənilməsi
C)) Səmərəli tələbin qeyri-təkmil rəqabət şəraitində öyrənilməsi ideyası
D) İnhisarçılıq şəraitində iqtisadi proseslərin qimətləndirilməsi
E) Keynsin qeyri-müvazinət modelinin əsas götürülməsi

**27. Kaletskiçiliyin postkeynsçilikdən fərqli xüsusiyyəti:**
A) Əmanətlərlə investisiyalar arasında nisbət ideyası
B) Pulun təkrar istehsal prosesinin artım miqyasına olan təsirinin öyrənilməsi
C)) Makroiqtisadi nəzəriyyənin mikroiqtisadi aspektlərinə üstünlük verilməsi
D) İnhisarçılıq şəraitində iqtisadi proseslərin qimətləndirilməsi
E) Keynsin qeyri-müvazinət modelinin əsas götürülməsi

**28.Yeni keynsçilik nəzəriyyəsində Keynsin hansı modeli əsas yer tuturdu:**
A) Ümumi müvazinət
B))Qeyri-müvazinətlilik
C) Mikroiqtisadi müvazinət
D) Makroiqtisadi müvazinət
E) Optimal müvazinət

**29. Multiplikator səmərəsinin baş verməsinin iqtisadi şərtləri:**
A) İstifadə olunmayan istehsal avadanlıqlarının mövcudluğu

B) İqtisadiyyatın sahə, ərazi, təkrar istehsal strukturun nəzərə alınması
C) İqtisadi artımın mövcud olunması
D) İstifadə olunmayan sərbəst işçi qüvvəsinin mövcudluğu
E)) Bunların hamısı

**30. Aşağıdakılardan hansı C.Keynsin makroiqtisadi tənzimləmə proqramına aiddir:**
A) Faiz dərəcələrinin tənzimlənməsi ilə pul-kredit siyasətinin həyata keçirilməsi
B) Büdcə siyasəti
C) Tam məşğulluq siyasəti
D) Ədalətlilik funksiyası
E)) Bunların hamısı

**31. C.Keyns multiplikator nəzəriyyəsi hansı amillərə əsaslanır**?
A) Sosioloji amillərə
B)) Psixoloji amillərə
C) İnstitusional amillərə
D) Sosioloji və psixoloji amillərə
E) Sosioloji və institusional amillərə

**32. Keynsçilik doktrinasına görə buraxılışın həcmi və məşğulluğun səviyyəsi müəyyən olunur:**
A) Tam məşğulluq vəziyyətini xarakterizə edən iqtisadi sabitliklə
B) Onunla ki, təklif tələbi yaradır
C)) Məcmu tələbin ölçüsü ilə
D) Sey qanunun fəaliyyəti ilə
E) Büdcə xərcləri ilə

**33. Keynsçilik doktrinasına görə məşğulluğun ümumi həcmi nədən asılıdır?**
A) Tam məşğulluq vəziyyətini xarakterizə edən iqtisadi sabitliklə
B) İstehlak yönümü ilə
C) Kapital qoyuluşunun son səmərəliliyi ilə

D) Faiz norması ilə
E)) Bunların hamısı
**34. Klassiklərdən fərqli olaraq, C.Keyns təsbit etmişdir:**
A) "Laisser faire" (bu söz fransız mənşəli olub, müdaxilə etməmək mənasını verir) prinsipinin yerinə yetirilməsi mütləq makroiqtisadi tarazlığa gətirib çıxarır
B)) Qiymətlər və əməkhaqqı çevikliyə malik olur
C) Bazar təbii surətdə özünü tənzimləyir
D) Özəl sahibkarlıq iqtisadiyyatına daxili qeyri-sabitlik xasdır
E) Təklif özünün xüsusi tələbini yaradır
**35. Klassiklərdən fərqli olaraq C.Keynsin nəzəriyyəsində:**
A) "Laisser faire" ( bu söz fransız mənşəli olub, müdaxilə etməmək mənasını verir) prinsipinin yerinə yetirilməsi mütləq makroiqtisadi tarazlığa gətirib çıxarır
B)) Kapitalist iqtisadiyyatının makroiqtisadi təhlili verilmişdir
C) Bazar təbii surətdə özünü tənzimləyir
D) Özəl sahibkarlıq iqtisadiyyatına daxili qeyri-sabitlik xasdır
E) Təklif özünün xüsusi tələbini yaradır
**36. Faiz dərəcələrinin və gözlənilən mənfəət normasının təsiri ilə dəyişən investisiya xərclərinin qeyri-sabitliyini göstərən nəzəriyyə hansıdır:**
A)) Keynsçı
B) Tarazlıq
C) Psixoloji
D) Marksist
E) Monetar
**37. Müasir təkrar istehsal nəzəriyyəsinin əsasında hansı prinsip durur:**
A) Multiplikator
B) Tarazlıq
C) Psixoloji
D)) Akselerator
E) Monetar
**38. Postkeynisçilərə görə:**
A)) İstehsalın artım sürəti milli gəlir bölgüsündən, gəlirin kəmiyyəti və onun artım yığımından asılıdır
B) Əsas məqsəd məşğulluğu, iqtisadi tsiklin sabitləşməsini və yüksək artım sürətini təmin etməkdir

C) Əsas diqqət dövlət xərclərinə, dövlət investisiyalarının artırılmasına yönəldilməlidir
D) Onların modeli milli gəlirin artımının yalnız bir amilini – kapital qoyuluşunu nəzərə alınmışdır
E) Kapital qoyuluşlarının hər bir artımı cəmiyyətdə milli gəlirin artımını təmin edən məşğulluğu artırır

**39. Postkeynisçilər göstərirlər:**
A)) Yığımın ümumi kəmiyyəti əməkhaqqı və mənfəətdən yığılan məbləğdən əmələ gəlir
B) Əsas məqsəd məşğulluğu, iqtisadi tsiklin sabitləşməsini və yüksək artım sürətini təmin etmək olmalıdır
C) Əsas diqqəti dövlət xərclərinə, dövlət investisiyalarının artırılmasına yönəldilməlidir
D) Onların modeli milli gəlirin artımının yalnız bir amilini – kapital qoyuluşunu nəzərə almışdır
E) Kapital qoyuluşlarının hər bir artımı cəmiyyətdə milli gəlirin artımını təmin edən məşğulluğu artırır

**40. Neokeynisçiliyin əsas nümayəndələrindən biri yanlışdır**:
A) C.Hanson
B) R.Xarrod
C) P.Samuelson
D)) E.Engel
E) E.Domar

**41. Neokeynisçiliyin əsas nümayəndələrindən biri yanlışdır**:
A) C.Hanson
B) R.Xarrod
C) P.Samuelson
D)) C.Robinson
E) E.Domar

**42. Neokeynisçiliyin əsas nümayəndələri arasında doğru olanı seçin**:
A) C.Hanson
B) R.Xarrod
C) P.Samuelson
D) E.Domar
E)) Bunların hamısı

**43. Keyns qeyd edirdi:**
A) İşsizliyin təbii norması əmək bazarının real təbii şəraitinə uyğun işsizlik səviyyəsidir

B)) Likvidliyə üstünlük vermək kapitalın borc formasında mənfəətli olması deməkdir
C) Hazır məhsulların qiymətləri onların istehsalına çəkilən məsrəflərə bərabərdir
D) İqtisadi inkişafın mütləq əsasları xüsusi mülkiyyət və azad mübadilədir
E) Tələbin dövlət tərəfindən tənzimlənməsi bazar qüvvələrini pozur
**44. Keyns qeyd edirdi:**
A) İşsizliyin təbii norması əmək bazarının real təbii şəraitinə uyğun işsizlik səviyyəsidir
B)) Faiz sırf psixoloji fenomendən irəli gəlir
C) Hazır məhsulların qiymətləri onların istehsalına çəkilən məsrəflərə bərabərdir
D) İqtisadi inkişafın mütləq əsasları xüsusi mülkiyyət və azad mübadilədir
E) Tələbin dövlət tərəfindən tənzimlənməsi bazar qüvvələrini pozur
**45. Keyns nəzəriyyəsində:**
A) Əsas problem reallaşmalıdır
B) Faktiki tələb potensial tələbdən azdır
C) Təklif tələb yaratmır
D) Tələb təklif yaradır
E)) Bunların hamısı doğrudur
**46. Keyns nəzəriyyəsinə aid deyil:**
A) Əsas problem reallaşmalıdır
B) Faktiki tələb potensial tələbdən azdır
C) Təklif tələb yaratmır
D) Təklif tələb yaradır
E)) Tələb təklif yaradır
**47. Aşağıdakı əsərlərdən biri C.Keynsə aid deyil:**
A) "Pul islahatı haqqında traktat"
B) "Azad sahibkarlığın sonu"
C) "Pul haqqında traktat"

D))"Mənfəət, faiz və investisiya"
E) "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi"

**48. Aşağıdakı əsərlərdən biri C.Keynsə aid deyil:**

A) "Pul islahatı haqqında traktat"
B) "Azad sahibkarlığın sonu"
C) "Pul haqqında traktat"
D)) " Pul, kredit və ticarət"
E) "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi"

**49. Aşağıdakı fikirlərdən hansı C.M.Keynsə aiddir:**

A) Qeyri-təkmil rəqabət nəzəriyyəsinin irəli sürülməsi
B) Monopsoniya anlayışının elmi dövriyyəyə daxil olunması
C)) İstehlakın səviyyəsini müəyyən edən əsas amilin gəlirlər olması
D) İstehlak predmetlərinin azad mübadiləsi ilə iqtisadiyyatın mərkəzdən idarə edilməsi
E) Hamısı doğrudur

**50. Aşağıdakı fikirlərdən hansı C.M.Keynsə aiddir:**

A) Qeyri-təkmil rəqabət nəzəriyyəsinin irəli sürülməsi
B) Monopsoniya anlayışının elmi dövriyyəyə daxil olunması
C)) Mənfəət normasının faiz dərəcəsindən üstün olması
D) İstehlak predmetlərinin azad mübadiləsi ilə iqtisadiyyatın mərkəzdən idarə edilməsi
E) Hamısı doğrudur

**51. Məhsul buraxılışı ilə kapital artımı arasında nisbəti xarakterizə edən göstərici ($V=\triangle K/\triangle Y$) və ya kapitaltutumlu artımın koeffisienti:**

A) Multiplikator
B)) Akselerator
C) Kapital qoyuluşu
D) İnvestisiya
E) Avtonom investisiyalar

**52. İnvestisiyanın artımı, özünün ilkin tətbiqi nəticəsində çox məbləğdə milli gəlirin artımına səbəb olur:**

A)) Multiplikator
B) Akselerator
C) Kapital qoyuluşu
D) İnvestisiya
E) Avtonom investisiyalar

**53. Məhsul artımı ilə kapital artımı arasında olan nisbəti xarakterizə edən göstərici:**
A) Koeffisient D) Funksiya
B)) Akselerator E) Asılılıq
C) Multiplikator
**54. İnvestisiyanın artımı ilə məşğulluq və gəlir arasındakı nisbəti əsk etdirir:**
A) Koeffisient D) Funksiya
B) Akselerator E) Asılılıq
C)) Multiplikator
**55. E.Domar və R.Xarrodun iqtisadiyyatının keynsçi modelində əsas diqqət nəyə yönəlir:**
A)) İnvestisiyalara D) Vergilərə
B) Dövlət xərclərinə E) İnflyasiyaya
C) Dövlət gəlirlərinə
**56. E.Domar və R.Xarrodun iqtisadi artım modelində əsas diqqət nəyə yönəlir:**
A)) Kapital qoyuluşu ilə texniki tərəqqinin səviyyəsinə
B) Dövlət xərclərinin maksimum ixtisar olunmasına
C) Dövlət gəlirlərinin artırılmasına
D) Vergilərin azaldılmasına
E) İnflyasiyanın şərtlərinin müəyyənləşməsinə
**57. Kobba-Duqlas modelində həmin dövrün hansı amilinin rolu nəzərə alınmamışdır:**
A)) Təbii resursların rolunun nəzərə alınmaması
B) Kapital məsrəflərinin rolunun nəzərə alınmaması
C) Əmək məsrəflərinin rolunun nəzərə alınmaması
D) Məcmu məhsulun həcminin nəzərə alınmaması
E) İstehsalın texnoloji parametrlərinin nəzərə alınmaması
**58. R. Solou modelinin mahiyyəti nədir:**
A) İqtisadi artım milli gəlirin bölgüsündən asılıdır
B)) İqtisadi artım texniki tərəqqi və iqtisadi resurslardan səmərəli istifadənin nəticəsidir

C) İnvestisiyalar və gəlirin artım sürəti arasında əlaqəni əks etdirir
D) Kapital və əmək məsrəfləri ilə əlaqəni əks etdirir
E) Bunların heç biri

**59. Artan kapitalla silahlanma və artan əmək məhsuldarlığı daimi kapital verimi ilə müşayiət olunur. Bu:**
A) İTN kapital qoruyucu tipi
B) Xiksə görə İTN
C)) Neytral İTN
D) Xarroda görə İTN
E) Əmək qoruyucu İTN

**60. Vergi dərəcəsinin həcmi ilə büdcəyə vergi daxil olmalarının həcmi arasında əlaqəni nümayiş etdirən əyri:**
A) Engel əyrisi
B) Filips əyrisi
C)) Laffer əyrisi
D) Lorens əyrisi
E) Fərqsizlik əyrisi

**61. İqtisadi artım nəzəriyyələrinə aiddir:**
A) Neoklassik nəzəriyyə
B) Keynsçi nəzəriyyə
C) Neokeynsçi nəzəriyyə
D) Postkeynsçi nəzəriyyə
E)) Bunların hamısı

**62. İqtisadi artımın hansı nəzəri modeli məhsulun həcmi ilə iki amil: investisiyalar və gəlirin artım sürəti arasında qarşılıqlı əlaqəni əks etdir**ir:
A) Kobba-Duqlas modeli
B)) Harrod-Domar modeli
C) C.Robinson modeli
D) Y.Tinberqen modeli
E) R.Solou modeli

**63. İqtisadi artımın hansı modelində artım problemi əmanət və investisiyaların nisbəti prizmasında öyrənilirdi**:
A) Kobba-Duqlas modeli
B) Harrod-Domar modeli
C) C.Robinson modeli
D) Y.Tinberqen modeli
E)) C.Keyns modeli

**64. İqtisadi artımın hansı nəzəri modeli milli istehsalın həcmi ilə kapital və əmək məsrəfləri arasında əlaqəni əks etlirir:**
A)) Kobba-Duqlas modeli
B) Harrod-Domar modeli
D) Y.Tinberqen modeli
E) R.Solou modeli

C) C.Robinson modeli

**65. İqtisadi artımın hansı nəzəri modeli iqtisadi artımın milli gəlirin bölgüsündən asılı olduğunu əks etdirir:**

A) Kobba-Duqlas modeli D) Y.Tinberqen modeli
B) Harrod-Domar modeli E) R. Solou modeli
C)) C.Robinson modeli

**66. Kobba-Duqlas modelinə elmi-texniki tərəqqinin əlavə edilməsi ilə formalaşan model hansıdır:**

A) R. Solou modeli D))Y.Tinberqen modeli
B) Harrod-Domar modeli E) Bunların hamısı
C) C.Robinson modeli

**67. Milli gəlirin artım sürəti ilə kapital qoyuluşunun artım sürəti arasındakı nisbətlə milli gəlirdəki əmanətlərin payı arasındakı müvazinət əsas götürülmüşdür:**

A) R. Solou modeli D) Y.Tinberqen modeli
B)) Harrod-Domar modeli E) Kobba-Duqlas modeli
C) C.Robinson modeli

**68. İqtisadi artımın hansı modeli texniki və iqtisadi resurslardan səmərəli istifadənin nəticəsidir:**

A) Kobba-Duqlas modeli D) C.Robinson modeli
B) Harrod-Domar modeli E)) R. Solou modeli
C) Y.Tinberqen modeli

**69. Aşağıdakı iqtisadçılardan hansılar Keynsin iqtisadiyyatın dövlət tənzimlənməsi mümkünlüyü və inkarlarını nəzərə alaraq, iqtisadi artım sürətinin daimi mexanizmini təmin edən yeni nəzəriyyə işləyib hazırlayıblar:**

A) E.Xansen, C.Klark
B) K.Makkonnell, S.Bryu
C) Q.Arden, F.Perru
D) Y. Kornai, M.Blauq
E)) E.Domar, R.Xarrod

**70. İqtisadi artımın hansı modelində, iqtisadi artım milli gəlirin bölgüsündən asılıdır:**

A) Kobba-Duqlas modeli D)) C.Robinson modeli

B) Harrod-Domar modeli
C) Y.Tinberqen modeli
E) R.Solou modeli

**71. Akselerator prinsipini iqtisadiyata gətirən iqtisadçı kimdir:**

A) E.Domar, R.Xarrod
B) C.Keyns, L.Valras
C) C.Robinson, Y.Tinbergen
D)) E.Xansen, C.Klark
E) P.Samuelson, C.Hanson

**72. E.Domar və R.Xarrodun iqtisadi artım modelinin əsasını nə təşkil edir:**

A) Milli gəlirin tarazlığının yaradılması şərtləri
B)) Milli gəlirin tarazlı və ya sabit artım sürətini təmin edən şərtlərin məcmusu
C) Büdcə tənzimlənməsi ideyasını pul-kredit siyasəti ilə birləşdirən makroiqtisadi siyasət konsepsiyasını işləyib hazırlanması
D) Dövlət xərclərinin kəsirli maliyyələşdirilməsi nəzəriyyəsinin hazırlanması
E) Məcmu psixoloji amillər

**73. C.Keyns modelinin əsasını nə təşkil edir:**

A)) Milli gəlirin müvazinətinin formalaşması şəraiti
B) Milli gəlirin tarazlı və ya sabit artım sürətini təmin edən şərtlərin məcmusu
C) Büdcə tənzimlənməsi ideyasını pul-kredit siyasəti ilə birləşdirən makroiqtisadi siyasət konsepsiyasının işləyib hazırlanması
D) Dövlət xərclərinin kəsirli maliyyələşdirilməsi nəzəriyyəsinin hazırlanması
E) Məcmu psixoloji amillər

**74. Kim milli gəlirin artım sürəti ilə kapital qoyuluşunun artım sürəti arasındakı nisbətlə milli gəlirdəki əmanətlərin payı arasındakı müvazinəti əsas götürmüşdür?**

A)) R.Xarrod
B) P.Samuelson
C) D.Nort
D) U.Mitçell
E) T.Veblen

**75. Sol Keynsçilərin tədqiqat obyektini nə təşkil edirdi:**
A) Keynsçiliyin inkişafının bu istiqaməti neoklassik sintezin yaranmasının əsası olmuşdur
B) Keynsin nəzəriyyəsini neoklassik ənənələrlə əlaqələndirməyə çalışmışdır
C) Keynsin nəzəriyyəsinin yeniliyini, onun inqilabi rolunu və neoklassik məktəblə əlaqəsinin olmadığını qeyd edirdilər
D) Keynsçi modellərdə milli gəlirin bölüşdürülməsi kimi amillərin nəzərə alınmasını təklif edirdilər
E)) Keynsin nəzəriyyəsinin yeniliyini, onun inqilabi rolunu və neoklassik məktəblə əlaqəsinin olmadığını qeyd edirdilər və Keynsçi modellərdə milli gəlirin bölüşdürülməsi kimi amillərin nəzərə alınmasını təklif edirdilər

**76. Ortodoksal Keynsçiliyin tədqiqat obyektini nə təşkil edirdi:**
A) Keynsçiliyin inkişafının bu istiqaməti neoklassik sintezin yaranmasının əsası olmuşdur
B)) Büdcə tənzimlənməsi ideyasının pul-kredit siyasəti ilə birləşdirən makroiqtisadi siyasət konsepsiyasını işləyib hazırlamışdır
C) Keynsin nəzəriyyəsinin yeniliyini, onun inqilabi rolunu və neoklassik məktəblə əlaqəsinin olmadığını qeyd edirdilər
D) Keynsçi modellərdə milli gəlirin bölüşdürülməsi kimi amillərin nəzərə alınmasını təklif edirdilər
E) Keynsin nəzəriyyəsinin yeniliyini, onun inqilabi rolunu və neoklassik məktəblə əlaqəsinin olmadığını qeyd edirdilər.

**77. C.M.Keynsin əsas psixoloji qanuna görə:**
A) Məcmu real gəlirin artması ilə istehsal artır
B)) Məcmu real gəlirin artması ilə istehlak artır
C) Məcmu real gəlirin azalması ilə istehsal azalır
D) Məcmu real gəlirin azalması ilə istehlak azalır
E) Bunların hamısı doğrudur

**78. Mikro səviyyədə başlıca olaraq investisiyaya cəlb olunmuş sahə daxilində aparılan məcmu məşğulluğu əks etdirən nəzəriyyə:**
A) İnvestisiya multiplikatoru
B)) Məşğulluq multiplikatoru
C) Son istehlak yönümü
D) Multiplikator nəzəriyyəsi
E) Akselerator nəzəriyyəsi
**79. C.M.Keyns tarazlığın pozulmasının, böhranlı tənəzzülün və işsizliyin əsas səbəbini nədə görür:**
A) İstehsalda
B) İstehlakda
C))Yığımda
D) Bölgüdə
E) Mübadilədə
**80. C.M.Keyns səmərəli tələbi stimullaşdırmaq üçün nə təklif edirdi:**
A) Dövlət xərclərini azaltmağı
B) Yenidən bölgünü azaltmağı
C)) Kredit faizini azaltmağı
D) İnvestisiyanı azaltmağı
E) Bunların hamısı doğrudur
**81. Neokeynsçilər qeyri-sabitliyin və tsiklik dəyişikliyin səbəbini nədə görürdülər:**
A) İqtisadi sistemin zahiri pozulmalarında
B) Qiymətin dəyişməsində
C) Tələbin dəyişməsində
D) Təklifin dəyişməsində
E))Təkrar istehsal əlaqələrinin xüsusiyyətlərində
**82. Monetar postkeynsçiliyin geniş vüsət aldığı ölkəni müəyyən edin:**
A) ABŞ, Polşa, İtaliya
B) Kanada, Avstrya, İtaliya
C) İngiltərə, Hindistan, Kanada
D)) ABŞ, İngiltərə, Kanada
E) ABŞ, İngiltərə, İtaliya

**83. E.Domar və R.Xarrodun iqtisadi artım modelinin C.Keyns modelindən fərqli tərəfini müəyyənləşdirin:**
A) Milli gəlirin tarazlığının yaradılması
B)) Milli gəlirin tarazlı və ya sabit artım sürətini təmin edən şərtlərin məcmusu
C) İqtisadiyyatda müvazinətin pozulması şərtini
D) İqtisadiyyatda müvazinətin bərpa olunmasını
E) Pul-kredit siyasəti tədbirlərilə xüsusi investisiyaların dəyişməsinin tarazlaşdırılması
**84. Postkeynsçi iqtisadçılardan biri yanlışdır:**
A) A.Eyxners
B) C.Robinson
C) N.Kaldor
D))E.Domar
E) P.Sraff
**85. Keyns multiplikator düsturunu belə şəkildə göstərmişdir:**
A) $K = Y_W / Ü_W$
B)) $K = Ü_w \ / \ Y_w$
C) $Y = AK^a L^b l^{rt}$
D) $Y = AK^a L^b$
E) $AD = C + İ + G + X_n$
**86. Postkeynsçi iqtisadçılara aiddir:**
A) A.Eyxner
B) C.Robinson
C) N.Kaldor
D) P.Sraff
E)) Bunların hamısı
**87. Postkeynçilər ordodoksal keynsçiləri nədə ittiham edirdilər:**
A) Milli gəlirin səviyyəsini düzgün izah etmədiklərinə görə
B) Defisit maliyyələşdirmənin real səmərəsinin həddindən artıq şişirdiklərinə görə
C)İnflyasiyanın inkişafının təhlükəsini qiymətləndirmədiklərinə görə
D) Pul amilini inkar etdiklərinə görə
E))Bunların hamısı doğrudur
**88. Postkeynsçi iqtisadçılardan biri yanlışdır:**
A) A.Eyxner
B) C.Robinson
D) P.Sraff
E)) A.Hanson

C) N.Kaldor
**89. Postkeynçilər ordodoksal keynsçiləri nədə ittiham edirdilər:**
A)) Milli gəlirin səviyyəsini düzgün izah etmədiklərinə, defisit maliyyələşdirmənin real səmərəsinin həddindən artıq şişirdiklərinə və inflyasiyanın inkişafının təhlükəsini qiymətləndirmədiklərinə görə
B) Milli gəlirin səviyyəsini düzgün izah etmədiklərinə, iqtisadiyyatda pulun rolunun gücləndirməsinə və inflyasiyanın inkişafının təhlükəsini qiymətləndirmədiklərinə görə
C) İnflyasiyanın inkişafının təhlükəsini qiymətləndirmədiklərinə, iqtisadiyyatda pulun rolunun gücləndirməsinə və defisit maliyyələşdirmənin real səmərəsinin həddindən artıq şişirdiklərinə görə
D) Marşall elementini qəbul etdiklərinə, milli gəlirin səviyyəsini düzgün izah etmədiklərinə və iqtisadiyyatda pulun rolunun gücləndirdiklərinə görə
E) Marşall elementini qəbul etdiklərinə, inflyasiyanın inkişafının təhlükəsini qiymətləndirmədiklərinə və defisit maliyyələşdirmənin real səmərəsinin həddindən artıq şişirtdiklərinə görə
**90. Postkeynçilər öz konsepsiyasını əsaslandırarkən hansı mənbələrdən istifadə etmişlər:**
A) C.M.Keynsin nəzəriyyəsindən
B) Marksın kateqoriyalarından
C) İnstitusionalizmdən
D) Rikardoçuluqdan
E))Bunların hamısı doğrudur
**91. Postkeynçiliyin istiqamətini müəyyənləşdirin:**
A) Kaletskiçilik, institusionalizm və neorikardoçuluq
B)) Kaletskiçilik, monetar və neorikardoçuluq
C) Kaletskiçilik , neorikardoçuluq və neoklassik
D) İnstitusionalizm, monetar və neoklassik
E) Neorikardoçuluq və institusionalizm

**92. Postkeynçilər göstərirlər:**
A) Milli gəlirin bölgüsü onun artımına təsir etmir
B)) İstehsalın artımı surəti milli gəlirin bölgüsündən, gəlirin kəmiyyəti və onun artımı yığımdan asılıdır
C) Gəlirlərin bölgüsündə bərabərsizlik aradan qaldırılmalıdır
D) Əhalinin istehlak tələbi yüksəldilməlidir
E) Maarif, səhiyyə, sosial sığortanın inkişafına xərclər artırılmalıdır

**93. Postkeynçilə görə:**
A) Milli gəlirin bölgüsü onun artımına təsir etmir
B))Yığımın ümumi kəmiyyəti əməkhaqqı və mənfəətdən yığılan məbləğdən əmələ gəlir
C) Gəlirlərin bölgüsündə bərabərsizlik aradan qaldırılmalıdır
D) Əhalinin istehlak tələbi yüksəldilməlidir
E) Maarif, səhiyyə, sosial sığortanın inkişafına xərclər artırılmalıdır

**94. Aşağıdakı fikirlərdən hansı postkeynçilərə aiddir:**
A)) Onlar gəlir siyasətini, iqtisadi artım siyasəti ilə əlaqələndirməyə çalışmışlar
B) Onlar kapitalist iqtisadiyyatının tsikliyini inkar etməmişlər
C) Onlar bazar iqtisadiyyatını saxlayıb, yalnız onu dövlət siyasətilə düzəltməyi təklif edirlər
D) Onlar diqqətini iqtisadiyyatda qısamüddətli dəyişikliklərə yönəltmişlər
E) Onlar iqtisadiyyata dövlət tənzimlənməsinin metodlarını hazırlamışlar

**95. Aşağıdakı fikirlərdən hansı postkeynçilərə aiddir:**
A)) Onlar milli gəlirin bölgüsünün onun artımına təsir etmədiyini əsaslandırmışlar
B) Onlar kapitalist iqtisadiyyatının tsikliyini inkar etməmişlər
C) Onlar bazar iqtisadiyyatını saxlayıb, yalnız onu dövlət siyasəti ilə düzəltməyi təklif edirlər
D) Onlar diqqətini iqtisadiyyatda qısamüddətli dəyişikliklərə yönəltmişlər

E) Onlar iqtisadiyyata dövlət tənzimlənməsinin metodlarını hazırlamışlar

**96. C.M.Keyns A.Marşallın hansı fikrindən iqtisadiyyatın dövlət tənzimlənməsi konsepsiyasını əsaslandırmaq üçün istifadə etmişdir:**

A)) Faiz nəzəriyyəsi

B) Mükəmməl rəqabət şəraitində istehsalın optimallaşdırılması

C) Pulun kəmiyyət nəzəriyyəsi

D) Ümumi tarazlıq nəzəriyyəsi

E) Vaxtı bir iqtisadi amil kimi iqtisadi təhlilə tətbiq etməsi

**97. İqtisadi tsiklin əsas səbəbi C.Keynsin multiplikator-akselerator təliminə uyğun olaraq yönəldilən investisiyalardır. Bu hansı nəzəriyyədir?**

A) Natamam istehlak nəzəriyyəsi

B) Xarici amillər nəzəriyyəsi

C) Dövriyyə kapitalına investisiyalar nəzəriyyəsi

D)) Əsas kapitala investisiyalar nəzəriyyəsi

E) Marksist nəzəriyyə

**98. Aşağıdakı nəzəriyyələrdən C.Keyns təlimi ilə bağlı olanını müəyyən edin:**

1) Natamam istehlak nəzəriyyəsi

2) Xarici amillər nəzəriyyəsi

3) Dövriyyə kapitalına investisiyalar nəzəriyyəsi

4) Əsas kapitala investisiyalar nəzəriyyəsi

5) Psixoloji nəzəriyyə

A) 1,5; B) 2,5; C)) 3,4; D) 3,2; E) 4,5.

**99. İqtisadi tsiklin qısamüddətli dövrdə əsas səbəbi dövriyyə fondlarına yönəldilmiş investisiyalardır. Bu hansı nəzəriyyədir?**

A) Monetar nəzəriyyə

B) Marksist nəzəriyyə

C))Dövriyyə kapitalına investisiyalar nəzəriyyəsi

D) Xarici amillər nəzəriyyəsi

E) Əsas kapitala investisiyalar nəzəriyyəsi

**100. Qiymətlərin yüksəldilməsi haqqında informasiyanın düzgün qiymətləndirilməməsi nəticəsində iqtisadi aktivliyin əsassız olaraq sürətlənməsi. Bu hansı nəzəriyyədir:**

A) Monetar nəzəriyyə
B)) Tarazlıq nəzəriyyəsi
C) Dövriyyə kapitalına investisiyalar nəzəriyyəsi
D) Xarici amillər nəzəriyyəsi
E) Əsas kapitala investisiyalar nəzəriyyəsi

**101. Keynsçi cərəyanı müəyyən edin:**

1) Radikal islahatçı cərəyanı
2) Liberal cərəyan
3) Sol keynsçilər
4) Sağ keysçilər
5) Monetar cərəyan

A) 3,4,5; B)2,5,4; C) 1,2,4; D) 5,2,1; E)) 1,2,3.

**102. Bazar konsepsiyasında inhisar və rəqabət problemini tədqiq etməmişdir:**

A) Y.Şumpeter
B) E.Çemberlin
C) C.Robinson
D)) C.Keyns
E) C.Rbinson və E.Çemberlin

**103. Keyns tərəfindən işlənmiş büdcə kəsirinin məcmu tələb və məcmu təklif modeli:**

A) "Ford-mustanq" modeli
B) İS – LM modeli
C) "Gəlirlər və xərclər" modeli
D)) AD – AS modeli
E) Məcmu tələb və məcmu təklif modeli

**104. C.Keyns bazar konsepsiyasında tənzimləmə siyasəti kimi nəyi əsas hesab etmişdi?**

A) Pul-krediti
B) Sosialı
C) Xarici ticarəti
D)) Büdcə-vergini
E) Qiyməti

**105.Əməkhaqqının tənzimlənməsi nəzəriyyəsinin əsası kimin fikrinə əsaslanır?**

A))C.M.Keynsin
B) M.J.Tuqan-Baranovskinin
D) K.Marksın
E) A.Smitin

C) T.Maltusu

**106. Müasir iqtisadi nəzəriyyədə dövlətin iqtisadiyyata aktiv müdaxiləsinin əsas ideoloqu kim olub?**

A) M.Fridmen D)Y.Şumpeter
B))C.M.Keyns E) P.Samuelson
C) A.Marşall

**107. Keynsçi yanaşmaya əsasən dövlətin iqtisadi tənzimlənməsinin əsas məqsədi hesab olunur:**

A) İqtisadi artım və inflyasiyanın aşağı səviyyəsi
B) Tsikli tərəddüdlərin olmaması
C)) Stabil iqtisadi artım və məşğulluğun yüksək səviyyəsi
D) Məşğulluğun yüksək səviyyəsi və inflyasiyanın aşağı səviyyəsi
E) Dünya bazarında ekspansiya

**108. Müasir makroiqtisadiyyatın banisi:**

A)) C.Keyns D) B.Baver
B) A.Marşall E) C.B.Klark
C) J.B.Sey

**109.Multiplikatorun növlərindən biri yanlışdır**:

A) İnvestisiya D) Xarici ticarət
B) Vergi E)) İstehsal
C) Büdcə

**110. Con Meynard Keyns neoklassik məktəbinin görkəmli nümayəndəsidir?**

A) C. Keyns neoklassik məktəbin görkəmli nümayəndəsidir
B)) C. Keyns neoklassik məktəbin görkəmli nümayəndəsi deyil
C) C. Keyns marjinalizmin nümayəndəsidir
D) C. Keyns neosintez nəzəriyyəsinin nümayəndəsidir
E) C. Keyns institusionalizm məktəbinin nümayəndəsidir

**111. C. Keynsin multiplikator nəzəriyyəsi hansı əlaqəni nəzərdə tutmuşdur?**

A)) İnvestisiyanın artımı ilə milli gəlirin artımı
B) Milli gəlirlə həyat səviyyəsi arasında əlaqəni
C) Ümumi Daxili Məhsulun artımı ilə Milli Gəlirin artımı

D) Yığımla istehlak arasında nisbəti
E) İstehsalla istehlak arasında nisbəti

**112. Postkeynsçilərin əsas müddəası hansıdır:**

A) Milli gəlirin bölgüsü onun artımına təsir etmir
B))Milli gəlirin bölgüsü onun artımına təsir edir
C) Gəlirlərin bölgüsündə bərabərsizlik aradan qaldırılmır
D) Əhalinin istehlak tələbi yüksəldilməlidir
E) Maarif, səhiyyə, sosial sığortanın inkişafına xərclər artırılmalıdır

**113. İqtisadiyyatın dövlət tənzimlənməsinin nəzəri-konseptual əsasları:**

A) Klassik, monetar, Keyns konsepsiyaları
B) Klassik, neoklassik və marjinal konsepsiyalar
C)) Neoklassik, keynsçi və monetar konsepsiyalar
D) Marjinal, keynsçi və neokeynsçi konsepsiyalar
E) Marjinal, klassik və keynsçi konsepsiyalar

**114. "Dövlətin qarşısında qoyulan məqsədlər, onun sərəncamında olan vəsaitlərdən çox olmamalıdır" nəzəriyyəsi kimə aiddir**:

A)) Y.Tinbergenə
B) P.Samuelsona
C) D.Norta
D) U.Mitçellə
E) T.Veblenə

**115. C.M.Keyns səmərəli tələbi stimullaşdırmaq üçün nə təklif edirdi:**

A) Dövlət xərclərini artırmağı
B) Dövlət sifarişlərini artırmağı
C) Kredit faizini azaltmağı
D) İnvestisiyanı artırmağı
E)) Bunların hamısı doğrudur

# MÖVZU 13. NEOLİBARALİZM. MONETARİZM

1. **Neolibaralizmin əsas nəzəriyyələri**
2. **Almaniyada neoliberalizm**
3. **M.Fridmen monetar nəzəriyyənin banisi kimi**

Neoklassik yönümlü müasir iqtisadi nəzəriyyələrin bir istiqaməti də neoliberalizmdir. Neoliberalizmin mahiyyətindən danışarkən qeyd etmək lazımdır ki, XX əsrin 20–30-cu illərində yaranmış neoliberalizm klassik liberalizmin və neoklassik məktəbin ideyalarını özündə birləşdirir. O həm də keynsçilik və marksizmlə eyni vaxta yaranmasına baxmayaraq bu nəzəriyyədən əsaslı dərəcədə fərqlənir.

Belə ki, klassik liberalistlər iqtisadiyyatın bazar mexanizmi vasitəsi ilə özü-özünün idarə olunmasını əsas götürməklə dövlətin rolunu ancaq azad rəqabət üçün şəraitin yaranmasında görürdülər. Neoliberallar isə iqtisadiyyata dövlətin müdaxiləsini daha da fəallaşmasını təklif edirdilər. Onlar həm də makroiqtisadi təhlili əsas götürürdülər.

Neoliberalizm nəzəriyyəsi bir neçə istiqamətdə inkişaf etmişdir və müxtəlif məktəbləri özündə birləşdirir. Bunlardan **Frayburq** (**V.Oyken, L.Erxard, V.Repke, A.Ryustov), London (F.Xayek, L.Mizes, L.Robbins**) və **Çikaqo (M.Fridmen)** məktəblərini qeyd etmək olar.

XX əsrin ikinci yarısında iqtisadi təfəkkürün əsas istiqamətlərindən biri kimi neoliberalizm yeni tarixi məktəbin ideyaları, neoklassika və ənənəvi liberalizm ənənələri ideyalarının sintezi əsasında xalq təsərrüfatı haqqında təlim yaratmağa cəhd etmişdir. Metodoloji baxımdan neoliberalizm tarixi məktəbə (xüsusilə K.Büxerin və V.Zombartın əsərlərinə) daha yaxındır. İctimai inkişaf prosesinin tədrici təkamül kimi izah edilməsi bu gün üçün səciyyəvi əlamətdir. Neoliberalistlər marjinalizmə yalnız geniş yayılmış bir nəzəri üsul kimi baxır, lakin onu

tədqiqat üsulu kimi tətbiq etmirlər. Neoklassik artım və istehsal funksiyaları nəzəriyyəsinin müəllifləri kapitalist təkrar istehsalının kəmiyyət aspektlərini tədqiq etdiyi halda, neoliberallar keyfiyyət xarakterli, institusional problemlərə daha artıq diqqət yetirirdilər. Ənənəvi liberalizmlə neoliberalizmi yaxınlaşdıran - ilk növbədə, istehsal vasitələri üzərində xüsusi mülkiyyətin hərtərəfli möhkəmlənməsi və tətqiq edilməsi əsasında fərdi azadlıq ideyasıdır. Bununla bərabər, öz sələflərindən fərqli olaraq neoliberallar təsərrüfat həyatı proseslərini mikroiqtisadi mövqedən, müəssisələrin mülkiyyətçiləri olan ayrı-ayrı xüsusi sahibkarların mənafeləri baxımından deyil, makroiqtisadi mövqelərdən qiymətləndirirlər. Neoliberalizm nəzəriyyəsinin işlənib hazırlanmasında alman iqtisadçıları, ilk növbədə, neoliberalizmin təməlini qoymuş və onun metodologiyasını yaratmış **V.Oyken** "Siyasi iqtisadın əsasları" (1939), "Milli iqtisadiyyatın əsasları" (1947) böyük rol oynamışdır.

V.Oyken müəyyən edir ki, xalq mədəni cəhətdən inkişaf etdikcə, daha çox qeyri-mərkəzləşdirilmiş (azad) iqtisadiyyatı seçir. V.Oyken və onun təmsil etdiyi neoliberalizmdə dövlətin rolu bazarı yaratmaqdan və sonra isə arbitor rolunu oynamaqdan ibarətdir. Dövlətin iqtisadiyyatda rolu hakimin futbol oyunundakı rolu kimi, yəni qaydalara nəzarət etmək kimi təsvir olunur. V.Oyken əsərlərini "İqtisadiyyatın qaydaları" adı ilə nəşr etdirmişdir.

Qərbi Almaniya neoliberalizm doktrinasında "Oyken məktəbi" "Ordo liberalizm" adlandırılırdı. "Ordo" illik jurnalı Neoliberalizmin nəzəri tribunası rolunu oynayırdı.

Müasir liberalizmin banisi hesab olunan London məktəbinin iqtisadçısı **F.Xayek** ("Monetar nəzəriyyə və ticarət dövriyyəsi" -1933, "Mənfəət, faiz və investisiya" -1939, "Qiymət və istehsal" -1931) olmuşdur. O, Vyana Universitetini bitirdikdən sonra dünyanın məşhur tədris mərkəzləridə London İqtisad Məktəbində, Zaltsburq, Frayburq və Çikaqo universitetlərində elmi tədqiqatlar aparmışdır. F.Xayek mikroiqtisadi

proseslərin təhlil olunmasını bütünlükdə iqtisadi inkişafın əsası hesab etmiş, iqtisadi tədqiqatlarda mikro və makro təhlili əlaqələndirmişdir. O, 30-cu illərdən başlayaraq sosializm əleyhinə tədqiqatlarla məşğul olmuşdur. F.Xayekin "Köləliyə yol", "Fərdilik və iqtisadi qaydalar", "Azadlığın əsas qanunu" və digər əsərlərində sosializmin elmi əsasları təhlil olunmuş və belə qənaətə gəlmişdir ki, sosializm bütün nöqteyi-nəzərlərdən çox böyük səhv olub. F.Xayek 1974-cü ildə Nobel mükafatı almışdır.

İkinci Dünya müharibəsindən sonra AFR-də və bir sıra Qərb ölkələrində neoliberalizm ideyaları geniş yayılmışdır. Neoliberalizm keynsçiliklə eyni vaxtda yaranmışdır. Hər iki təlim kapitalizmin özü-özünü tənzimləməsi barədə ənənəvi təsəvvürləri dağıtmış 1929-1933-cü illər böhranına siyasi iqtisadın münasibətini əks etdirirdi. Lakin Keyns kapitalizmin üzləşdiyi bəlaları səmərəli tələbin xroniki çatışmamazlığı, dövlət iqtisadiyyata müdaxilə etmədikdə, bu qruluşun inkişaf üçün kifayət qədər stimuldan məhrum olması ilə əlaqələndirdiyi halda, neoliberalizmin baniləri bütün bəlaların bilavasitə mənbəyini mükəmməl rəqabətin zəifləməsində və istehsalın bazar tənzimləyicilərinin təsirini pozan təsərrüfatın inhisarlaşdırılmasında görürdülər.

Bu iqtisadi nəzəriyyəyə görə, tədavüldə olan pul kütləsi bazar iqtisadiyyatının sabitləşdirilməsində və inkişafında həlledici rol oynayır. Monetarizmin banisi görkəmli alim, Çikaqo məktəbinin yaradıcısı, 1976-cı ildə emiqrant ailəsində olan, iqtisadi təhsilini aldığı təqaüdlə başa vuran (məşhur Çikaqo Universitetini) **M.Fridmen** sonradan uzun illər (1946-1979-cu illərdə) həmin universitetdə iqtisadiyyat professoru vəzifəsində çalışmışdır. O, "İstehlakın analizi, pul dövriyyəsinin tarixi və monetar nəzəriyyənin işlənib hazırlanması, eləcə də siyasətin sabitləşməsi mürəkkəbliyinin nümayiş etdirilməsi sahəsində nailiyyətlərinə görə" iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı adı almışdır (1976).

Monetar ideyalar XX əsrdə Çikaqo Universitetində yaranmışdı. Lakin neoliberalizm hərəkatında Amerika monetarizmi 50-ci illərin axırı 60-cı illərin əvvəllərində M.Fridmenın əsərlərinin ("Pulun miqdar nəzəriyyəsi haqqında təlim" - 1956) meydana gəlməsi ilə böyük əhəmiyyət kəsb etmişdir.

Monetarizm iqtisadi fikrin inkişafında keynsçiliyin əksi kimi meydana çıxmış və iqtisadi nəzəriyyədə öz yeni ideyaları ilə çıxış etmişdir. Belə ki, ötən əsrin 70–80-ci illərdə Qərb ölkələrində istehsalda baş verən durğunluq, inflyasiya və işsizlik iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi haqqında Keyns nəzəriyyəsini zəiflətdi. İnflyasiya ilə işsizliyin eyni vaxtda fəaliyyət göstərməsi iqtisadiyyatda pul amilinə daha çox diqqət yetirməyi zəruri etdi. Buna görə də bu məktəbin nümayəndələri pul kütləsi ilə istehsalın həcmi arasındakı əlaqəni izah etmək üçün pul–kredit siyasətini işləyib hazırlamışlar. Fridmen əmin idi ki, "İnflyasiya həmişə və hər yerdə monetar fenomen sayılır". Əgər dövriyyəyə əlavə pul buraxılışının artım tempi məhduddursa və onun səviyyəsi iqtisadiyyatda istehsalın artım tempinə uyğundursa, onda məhsulun qiymətinin artımı baş verəcək.

İqtisadiyyatın idarə edilməsinə monetarist yanaşma 70-ci illərdə və 80-ci illərin əvvəllərində staqflyasiyanın aradan qaldırılması dövründə ABŞ-da, Böyük Britaniyada, AFR-də və başqa ölkələrdə, eləcə də 90-cı illərin əvvəllərində Rusiyada bazar iqtisadiyyatına keçid dövründə geniş istifadə edilmişdir.

Monetar idarəetmə - iqtisadiyyatda işgüzar dövrlərə təsir etmək və inkişafın makroiqtisadi məqsədlərinə nail olunmasına köməklik məqsədilə makroiqtisadi səviyyədə pul-kredit siyasətinin aparılması zamanı məcmu pul kütləsinin idarə edilməsidir.

Monetar konsepsiyaya görə, müasir bazar münasibətləri siyasi azadlığı və iqtisadi səmərəliliyi təmin edən davamlı, özü-özünü tənzimləyən sistemdir. Bu da vacibdir ki, iqtisadiyyatın inkişafına dövlətin müdaxilə etməsi arzuedilən və labüd məsələdir, lakin bu müdaxilə bazar mexanizmlərinin keynsçi

metodlarla, məcmu tələbin tənzimlənməsi yolu ilə deyil, səmərəli pul siyasətinin köməyi ilə bazarın rəqabət qüvvələrinin fəallaşması üçün şərait yaradılması yolu ilə həyata keçirilməlidir. Fridmen və onun davamçıları bazarın pul kütləsi ilə manipulyasiya edilməsinə reaksiyasını iki model - qısamüddətli və uzunmüddətli model şəklində nəzərdən keçirirlər. Qısamüddətli planda pul kütləsinin artması faiz dərəcələrinin azalmasına və tələbin genişlənməsinə, işsizliyin azaldılmasına gətirib çıxarır. İqtisadi fəallığın stimullaşdırılma tədbiri kimi monetar orqanlar tərəfindən pulun miqdarının artırılması monetar ekspansiya kimi çıxış edir.

Lakin pul təklifinin artması uzun müddət ərzində dəfələrlə təkrarlandıqda investisiya prosesi intensivləşir. Bu, istehsalın, satışın, gəlirlərin və pula tələbin həcminin artmasına stimul yaradır, nəticədə faiz dərəcəsi artır. Bu siyasətin uzunmüddətli effekti faiz normasının hərəkəti, pula tələbin və təklifin dəyişməsi arasında əlaqələrin pozulmasında təzahür edir.

Monetarizmə görə, pul bazarında uzunmüddətli tarazlıq yaranması üçün pul təklifinin uzunmüddətli artım sürəti ilə real məhsulun uzunmüddətli artım sürəti arasında əlaqəni müəyyən edən əsas qanuna riayət edilməlidir: $m=y+i$, burada m- pul təklifinin uzunmüddətli artım sürəti; y-real məhsulun uzunmüddətli artım sürəti; i-gözlənilən inflyasiyanın sürətidir. Uzunmüddətli pul siyasətinin məqsədi inflyasiyanı sabitləşdirmək və onu tamamilə proqnozlaşdırıla bilən kəmiyyətə çevirməkdir. Monetarizm belə hesab edir ki, təsərrüfat konyukturasının qısamüddətli dəyişilməsinə deyil, uzunmüddətli meyillərə oriyentasiya edilən bu cür iqtisadi siyasət iqtisadi artımın optimal sürətinin saxlanılmasına ən yaxşı şərait yaradır.

Bu gün monetarizm iqtisadiyyatın inkişafının keynsçi konsepsiyasının tam antipodu deyil. Hazırda müəyyən mənada keynsçi-neoklassik sintez mövcuddur. Bu müstəqil nəzəri model özündə hər iki iqtisadi nəzəriyyənin elementlərini cəmləşdirir.

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1. Neoliberalların əsas fikirləri nədən ibarət idi?**
A) Dövlət sifarişlərinin artırılması
B) Az rentabelli iqtisadiyyat sahələrinin dövlət tərəfindən investisiyalaşdırılması
C) Xarici investisiyaların artırılması
D)) Keyfiyyət və institusional problemləri vacib hesab etmələri
E) İstehsal xərclərinin azaldılması

**2. "Azad yarış" sosial bazar təsərrüfatının əsas elementidir fikri kimə aiddir:**
A) F.Xayekə
B) V.Oykenə
C)) L.Erxarda
D) A.Ryustova
E) V.Repkeyə

**3. "Sosial bazar təsərrüfatı" nəzəriyyəsini praktiki olaraq həyata keçirən kim olmuşdur?**
A) F.Xayek
B) L.Mizes
C) V.Oyken
D) A.Ryustov
E)) L.Erxard

**4.V.Oykenə görə bəşər cəmiyyətində iqtisadiyyatın tipi necə olmalıdır**?
A) Totalitarizm
B) Azad, açıq təsərrüfat
C) Kommunizm
D) İmperializm
E)) Mərkəzdən idarə edilən və mübadilə iqtisadiyyatı

**5. Sosial bazar təsərrüfatı ifadəsi ilk dəfə kim tərəfindən ifadə olunur?**
A) C.Keyns
B))A.Myüller-Armak
C) M.Fridmen
D) P.Samuelson
E) K.Marks

**6. "Sosial bazar təsərrüfatı" nəzəriyyəsinin əsas prinsiplərini kim işləyib hazırlamışdır?**
A)) V.Oyken
B) Y.Şumpeter
C) C.Robinson
D) F.Xayek
E) C.Keyns

**7. F.Xayek iqtisadiyyatın tənzimlənməsində hansı amilə üstünlük vermişdir?**
A)) İnflyasiyanı məhdudlaşdırmağa
B) Büdcə-vergiyə
C) Pul-kreditə
D) Sosial siyasətə
E) Qiymət siyasətinə

**8. F.Xayek iqtisadiyyatın tənzimlənməsində hansı amilə üstünlük vermişdir?**
A)) Proteksionizmə qarşı
B) Büdcə-vergiyə
C) Pul-kreditə
D) Sosial siyasətə
E) Qiymət siyasətinə

**9. Hansı konsepsiya neoliberalizm nəzəriyyəsi ilə keynisçiliyin sintezi kimi xarakterizə olunur:**
A) Sosial bazar təsərrüfatı
B) Azad bazar
C)) Qlobal cəhətdən tənzimlənən bazar
D) Mübadilə iqtisadiyyatı
E) Formalaşmış cəmiyyət

**10. Aşağıdakı əsərlərdən F.Xayekə aid olanı seçin:**
A) Qiymət və istehsal
B) Azadlıq konstitusiyası
C) Mənfəət, faiz və investisiya
D) Hüquq qanunauyğunluqları və azadlıq
E)) Bunların hamısı

**11. Ümumi müvazinət nəzəriyyəsində və rifah iqtisadiyyatında ilk kəşfedici işlərinə görə "İqtisadiyyat" üzrə Nobel mükafatını kim alıb:**
A) Elinor Ostrom
B) Duqlas Nort
C)) Sercon Riçard Hiks
D) Pol Samuelson
E) Teodor Vilyam Şilts

**12. Pul nəzəriyyəsi və iqtisadi punkuasiyalar üzrə ilkin işə və iqtisadi, sosial və institusuonal hadisələrin müstəqilliyinin təhlilinə görə:**

A) Elinor Ostrom
B) Duqlas Nort
C) Ser Con Riçard Xiks
D) Pol Samuelson
E)) Fridrix Xayek

**13.“Reyqanomika” iqtisadi siyasəti hansı iqtisadi məktəbin ideyaları əsasında yaradılıb?**

A)) Monetarist
B) Marjinalist
C) Keynsçi
D) Marksist
E) Merkantilist

**14. "Tetçerizm" iqtisadi siyasəti hansı iqtisadi məktəbin ideyaları əsasında yaradılıb?**

A)) Monetarist
B) Marjinalist
C) Keynsçi
D) Marksist
E) Merkantilist

**15. Monetarist konsepsiyaya əsasən iqtisadiyyatın dövlət tənzimlənməsində əsas hal nə hesab olunur?**

A) Antisiklik tənzimlənmə
B) Məşğulluğun səviyyəsinin artırılması
C)) Tədavüldə pul kütləsinə nəzarət
D) Xarici iqtisadi əlaqələrin həvəsləndirilməsi
E) Səmərəli tələbin həvəsləndirilməsi

**16. Monetarist konsepsiyaya əsasən iqtisadiyyatın dövlət tənzimlənməsində nəzərdə tutulur:**

A) Antisiklik tənzimlənmə
B) Məşğulluğun səviyyəsinin artırılması
C)) Dövlətin sosial təminatının rədd edilməsi
D) Xarici iqtisadi əlaqələrin həvəsləndirilməsi
E) Səmərəli tələbin həvəsləndirilməsi

**17. Dövriyyədə olan pul kütləsinin dəyişməsi iqtisadi aktivliyin əsas səbəbidir. Bu hansı nəzəriyyədir?**

A) Dövriyyə kapitalına investisiyalar nəzəriyyəsi
B) Əsas kapitala investisiyalar nəzəriyyəsi

C) İfrat yığım nəzəriyyəsi
D) Xarici amillər nəzəriyyəsi
E)) Monetar nəzəriyyə

**18. İşsizlik nəticəsində potensial əmtəə və xidmətlərin itkisinin hesablanması kimin işlədiyi qanuna əsasən həyata keçirilir?**

A) A.Marşallın
B)) V.Oykenin
C) F.Xayekin
D) A.Müller-Armakın
E) P.Samuelsonun

**19. Monetaristlərin əsas tədqiqat obyektlərindən biri:**

A) Dövriyyə kapitalına investisiyalar nəzəriyyəsi
B) Əsas kapitala investisiyalar nəzəriyyəsi
C) İfrat yığım nəzəriyyəsi
D) Xarici amillər nəzəriyyəsi
E)) Tsikl və böhranlar problemi

**20. Monetar nəzəriyyənin müəllifi kimdir?**

A) P.Samuelson
B)) R.Xoutri
C) A.Smit
D) J.B.Sey
E) S.Sismondi

**21. İstehlakın təhlili, pulun tarixi və pul nəzəriyyəsinə görə Nobel mükafatı alan iqtisadçı kimdir:**

A) P.Samuelson
B) R.Xoutri
C) A.Smit
D)) M.Fridmen
E) S.Sismondi

**22. Neoliberalizmi Fransada təmsil edən nəzəriyyə hansıdır:**

A) Neoklassik sintez
B) Klassik nəzəriyyə
C)) Dirjinizm
D) Keynsçi nəzəriyyə
E) Marjinalist nəzəriyyə

**23. Neoliberalizm Fransada hansı adda yayılmışdır:**

A) Neomarjinalizm
B) Monetarizm
C) Neoindividualizm
D)) Neoliberal dirijizm
E) Neoliberalizm

**24. Monetarizm konsepsiyası nəyə əsaslanır:**
1) Neoklassik sintez nəzəriyyəsinə
2) Klassik nəzəriyyəyə
3) Dirjinizmə
4) Real iqtisadiyyata
5) Pul tədavülü sferası bölgüsünə
A) 1,4; B) 1,3; C)) 4,5; D) 5,3; E) 5,2.
**25. Çikaqo məktəbinin nümayəndəsi hansıdır:**
A) L.Erxard
B) Y.Şumpeter
C) F.Xayek
D)) L.Mizes
E) M.Alle
**26. London məktəbinin nümayəndələri hansıdır:**
A)) F.Xayek, L.Robbins
B) U.Mitçell, C.Kommons
C) R. Kouz, D.Nort
D) C.Neyman , Y.Veblen
E) C.Keyns, A.Marşall
**27. Monetarizm nədir?**
A) Kapitalizm və sosializm arasında cəmiyyətin inkişafının üçüncü yoludur
B) Faydalılıq həddi və məhsuldarlıq həddi nəzəriyyələrindən ibarətdir
C) İqtisadi liberalizm ənənələrini davam etdirən baxışlar sistemidir
D)) Pul kütləsinin iqtisadi fəallığa, monetar vasitələrin və monetar siyasətin iqtisadi inkişafa təsir mexanizminin əsaslı surətdə öyrənən nəzəriyyədir
E) Səmərəli tələbi müəyyən edən xərclər və gəlirlər nisbətin tənzimlənməsidir
**28. Monetarizm nədir?**
A) Kapitalizm və sosializm arasında cəmiyyətin inkişafının üçüncü yoludur
B) Faydalılıq həddi və məhsuldarlıq həddi nəzəriyyələrindən ibarətdir
C) İqtisadi liberalizm ənənələrini davam etdirən baxışlar sistemidir

D)) Təkrar istehsalın spesifik konsepsiyasıdır
E) Səmərəli tələbi müəyyən edən xərclər və gəlirlər nisbətin tənzimlənməsidir

**29. Neoliberalizmin əsasını qoyan və onun metodologiyasını yaradan iqtisadçı kimdir?**

A) L.Erxard
B) A.Ryustov
C) V.Repke
D) M.Fridmen
E))V.Oyken

**30. Frayburq məktəbinin nümayəndələri hansılardır:**

A) L.Erxard
B) A.Ryustov
C) V.Repke
D) V.Oyken
E)) Bunların hamısı

**31. Sosial bazar təsərrüfatı modelinin əsas prinsiplərindən biri yanlışdı**r:

A) Qiymət azadlığı və sabit pul tədavülü
B) İnhisarsız rəqabət
C) Xüsusi mülkiyyətin sarsılmazlığı
D) Sahibkarlığın iqtisadi müstəqilliyi və cavabdehliyi
E)) İnhisar və rəqabətin tənzimlənməməsi

**32. Fransa neoliberalistlərinin fərqli xüsusiyyəti ondan ibarətdir:**

A) Qiymət azadlığı və sabit pul tədavülü
B) İnhisarsız rəqabət
C )Xüsusi mülkiyyətin sarsılmazlığı
D)) Keyns nəzəriyyəsi qəbul etməmələri
E)  İnhisar və rəqabətin tənzimlənməməsi

**33. R.Solou göstərmişdir ki, iqtisadi artımın həlledici amili:**

A) Kapitaldır
B)) Texniki tərəqqidir
C) Torpaqdır
D) İş qüvvəsidir
E) İstehsal vasitələridir

**34. Harrod-Domar göstərmişlərdir ki, iqtisadi artımın həll-edici amili:**

1) İnvestisiyalardır
2) Texniki tərəqqidir
3) Gəlirin artım sürətidir
4) İş qüvvəsidir
5) İstehsal vasitələridir

A)) 1,3; B) 4,5; C) 3,2; D) 5,2; E) 1,4.

**35. Frayburq məktəbinin nümayəndələri necə adlanırdı:**

A) Ordodoksallar
B) Postkeynsçilər
C)) Ordoliberallar
D) Monetaristlər
E) Marjinalistlər

**36. Çikaqo məktəbinin nümayəndələri necə adlanırdı:**

A) Ortodoksallar
B) Postkeynsçilər
C) Ordoliberallar
D)) Monetaristlər
E ) Marjinalistlər

**37. Aşağıdakı fikirlərdən hansı F.Xayekə məxsusdur**:

A)) İqtisadiyyat o qədər mürəkkəbdir ki, insan ağılı obyektiv iqtisadi qanunları dərk etmək iqtidarında deyil
B) Tədavülə lazım olan pulun miqdarının həmin anda konkret statistik materiallar əsasında hesablanması ideyası
C) Sosial bazar təsərrüfatı modelinin yaradılması
D) İqtisadiyyatın liberallaşdırılması
E) Faydalılıq həddi nəzəriyyəsinin müəyyən edilməsi

**38. Aşağıdakı fikirlərdən hansı F.Xayekə məxsusdur**:

A)) Bazarın tənzimi konsepsiyası- iqtisadiyyatın hər dövlət tənziminin əleyhinədir
B) Tədavülə lazım olan pulun miqdarının həmin anda konkret statistik materiallar əsasında hesablanması ideyası
C) Sosial bazar təsərrüfatı modelinin yaradılması
D) İqtisadiyyatın liberallaşdırılması
E) Faydalılıq həddi nəzəriyyəsinin müəyyən edilməsi

**39.Aşağıdakı fikirlərdən hansı F.Xayekə məxsusdur**:

A)) Makro- və mikro iqtisadi təhlilin əlaqələndirilməsi
B) Tədavülə lazım olan pulun miqdarının həmin anda konkret statistik materiallar əsasında hesablanması ideyası
C) Sosial bazar təsərrüfatı modelinin yaradılması

D) İqtisadiyyatın liberallaşdırılması
E) Faydalılıq həddi nəzəriyyəsinin müəyyən edilməsi

**40. İqtisadi artımın empirik tədqiqi kimə məxsusdur:**
A) U.Cevonsa
B) Q. Feldmenə
C)) S.Kuznetsə
D) Y.Şumpeterə
E) R.Salouya

**41. Səmərəli gözləmə anlayışını ilk dəfə iqtisadi ədəbiyyata kim gətirmişdir:**
A)) C.Mut
B) Q. Feldmen
C) S.Kuznets
D) Y.Şumpeter
E) R.Salou

**42. Sosial yönümlü bazar iqtisadiyyatı modelinin nəzəri konsepsiyası kimlər tərəfindən işlənib hazırlanmışdır**:
A) M.Fridmen, P.Samuelson
B)) V.Oyken, A.Ryustov
C) A.Marşall, K.Menger
D) K.Marks, F.Engels
E) Heç biri doğru deyil

**43.Sosial yönümlü bazar iqtisadiyyatı modelinin nəzəri konsepsiyası kimlər tərəfindən işlənib hazırlanmışdır**:
A) M.Fridmen, P.Samuelson
B)) A.Müller-Armak, L.Erxard
C) A.Marşall, K.Menger
D) K.Marks, F.Engels
E) Heç biri doğru deyil

**44. Aşağıdakı iqtisadçılar arasında London məktəbinin liderlərini müəyyən edin**:
A) M.Fridmen, P.Samuelson
B) A.Marşall, K.Menger
C) K.Marks, F.Engels
D) V.Oyken, A.Ryustov
E)) F.Xayek, L.Robbins

**45. Neoliberalların nəzəriyyəsi hansı ideyaların sintezidir:**
A) Neoklassiklərin və institusionalizmin
B) Ənənəvi liberalizm və drijizmin
C))Yeni tarixi məktəbin, neoklassiklərin və ənənəvi liberalizmin

D) Köhnə tarixi məktəbin, neoklassiklərin və ordodoksal keynsçiliyin
E) Klassik məktəbin, ənənəvi liberalizmin və institusionalizmin
**46. Neoliberalizm aşağıdakı məktəblərin hansına əks olan cərəyandır:**
A) Neoklassiklərin və institusionalizmin
B)) Marksizm, keynsçilik
C) Yeni tarixi məktəb, neoklassiklər və ənənəvi liberalizm
D) Köhnə tarixi məktəb, neoklassiklər və ordodoksal keynsçilik
E) Klassik məktəb, ənənəvi liberalizm və institusionalizm
**47. Neoliberalizmin ənənəvi liberalizmdən əsas fərqli tərəfi hansıdır:**
A) Kapitalist iqtisadiyyatının planlaşdırılması
B) Kapitalist iqtisadiyyatı üzərində dövlət nəzarətinin həyata keçirilməsi
C) Kapitalist istehsalı üzərində sosial nəzarət ideyasının həyata keçirilməsi
D)) Təsərrüfat həyatının makroiqtisadi mövqedən qiymətləndirilməsi
E) Bunların hamısı
**48. Neoliberalizmin ənənəvi liberalizmdən əsas fərqli tərəfi hansıdır:**
A) Kapitalist iqtisadiyyatının planlaşdırılması
B) Kapitalist iqtisadiyyatı üzərində dövlət nəzarətinin həyata keçirilməsi
C) Kapitalist istehsalı üzərində sosial nəzarət ideyasının həyata keçirilməsi
D)) Kapitalist iqtisadiyyatına dövlətin fəal müdaxiləsi
E) Bunların hamısı
**49. Neoliberalların neoklassiklərdən əsas fərqli tərəfi hansıdır:**
A) Kapitalist iqtisadiyyatının planlaşdırılması
B) Kapitalist iqtisadiyyatı üzərində dövlət nəzarətinin həyata keçirilməsi

C) Kapitalist istehsalı üzərində sosial nəzarət ideyasının həyata keçirilməsi
D)) Keyfiyyət və institusional problemləri vacib hesab etmələri
E) Bunların hamısı

**50. Neoliberalizmin Keynsçilikdən fərqli tərəfini müəyyənləşdirin:**
A) Təkrar istehsal prosesinin tənzimlənməsi
B)) İnhisar və rəqabətin tənzimlənməsi
C) Mükəmməl və qeyri-mükəmməl bazarların tənzimlənməsi
D) Marjinalizmin nəzəri üsul kimi istifadə olunması
E) Keyfiyyət və institusional problemlərin vacib hesab olunması

**51. Neoliberalizmin Keynsçilikdən fərqli tərəfini müəyyənləşdirin:**
A) Təkrar istehsal prosesinin tənzimlənməsi
B)) Mənfəət və rəqabət mexanizminin institusional əsasının tənzimlənməsi
C) Mükəmməl və qeyri-mükəmməl bazarların tənzimlənməsi
D) Marjinalizmin nəzəri üsul kimi istifadə olunması
E) Keyfiyyət və institusional problemlərin vacib hesab olunması

**52. Neoliberalizm və Keynsçiliyin ümumi tərəfini müəyyənləşdirin:**
A) Təkraristehsal prosesinin tənzimlənməsi
B)) Təsərrüfat həyatının makroiqtisadi mövqedən qiymətləndirilməsi
C) Mükəmməl və qeyri-mükəmməl bazarların tənzimlənməsi
D) Marjinalizmin nəzəri üsul kimi istifadə olunması
E) Keyfiyyət və institusional problemlərin vacib hesab olunması

**53. Neoliberalizmin klassik forması hansıdır:**
A) Kembric məktəbi
B)) Frayburq məktəbi
C) London məktəbi
D) Çikaqo məktəbi
E) Avstriya məktəbi

**54. Keysçilərdən fərqli olaraq nisbətən passiv dövlət tənzimi ilə əlaqədar tədbirlərin keçirilməsinin tərəfdarları olan məktəb:**

A) Kembric məktəbi
B)) Frayburq məktəbi
C) London məktəbi
D) Çikaqo məktəbi
E) Avstriya məktəbi

**55. Neoliberalizmin iqtisadi siyasətə təsir istiqamətlərindən biri yanlışdır:**

A)) İstehsal vasitələrinin milliləşdirilməsinə şərait yaradılması
B) Dövlət büdcəsinin hər il tarazlaşdırılması
C) Tənzimlənmənin dolayı metodlarına üstünlük verilməsi
D) Kəsirli maliyyələşdirmənin məhdudlaşdırılması
E) Nisbətən liberal xarici ticarət və valyuta siyasətinə təsiri

**56. Neoliberalizmin iqtisadi siyasətə təsir istiqamətlərindən biri yanlışdır:**

A)) Kapitalist iqtisadiyyatının makroiqtisadi təhlilinin verilməsi
B) Dövlət büdcəsinin hər il tarazlaşdırılması
C) Tənzimlənmənin dolayı metodlarına üstünlük verilməsi
D) Kəsirli maliyyələşdirmənin məhdudlaşdırılması
E) Nisbətən liberal xarici ticarət və valyuta siyasətinə təsiri

**57. Neoliberalların hansı nümayəndələri bazar qiymətləri vasitəsilə iqtisadiyyatın özünü tənzimləmə mexanizminə üstünlük vermişlər:**

A)) L.Mizes və F.Xayek
B) M.Fridmen və A.Şvars
C) V.Oyken və A.Ryustov
D) L.Erxard və V.Repke
E) J.Ryueff və M.Alle

**58. Neoliberalların hansı nümayəndələri pul kütləsinin hərəkəti prinsiplərini müəyyən etmişlər:**

A) L.Mizes və F.Xayek
B)) M.Fridmen və A.Şvars
C) V.Oyken və A.Ryustov
D) L.Erxard və V.Repke
E) J.Ryueff və M.Alle

**59. Monetarist konsepsiyanın qlobal strategiyası nədir?**

A) Təsərrüfat quruluşunu formalaşdırmaq və təkrar istehsal prosesinə təsir etmək

B) Mərkəzdən idarə edilən iqtisadiyyatın uzunmüddət yaşaya bilməyəcəyi
C)) Tələbin tənzimlənməsinin təsərrüfat həyatının təbliği
D) Qiymət, tələb və təklifin proqnozlaşdırılması
E) Bazar təsərrüfatını kapitalizm və sosializm arasında cəmiyyətin inkişafının üçüncü yolu adlandırılması prosesini pozması

**60. Monetarist konsepsiyanın qlobal strategiyası nədir?**

A) Təsərrüfat quruluşunu formalaşdırmaq və təkrar istehsal prosesinə təsir etmək
B) Mərkəzdən idarə edilən iqtisadiyyatın uzunmüddət yaşaya bilməyəcəyi
C)) Uzunmüddətli pul tənzimlənməsini mütləqləşdirmələri
D) Qiymət, tələb və təklifin proqnozlaşdırılması
E) Bazar təsərrüfatını kapitalizm və sosializm arasında cəmiyyətin inkişafının üçüncü yolu adlandırılması prosesini pozması

**61. Monetarizm:**

A)) Əhalinin aztəminatlı təbəqəsinə dövlətin sosial proqramını rədd edir və onu səmərəsiz sayır
B) Kapitalizmin təkamül yolu ilə yeni bir ideal iqtisadi sistemə çevrilməsi ideyasını təbliğ edir
C) İnkişaf etmiş inhisarçı rəqabət nəzəriyyəsinin əsasını yaratmışdır
D) İqtisadi proseslərin tədqiqində riyazi metodların tətbiqinə ciddi əhəmiyyət vermişdir
E) İqtisadi liberalizm ənənələrini davam etdirən baxışlar sistemidir

**62. Monetaristlər:**

A)) Həmkarlar ittifaqını ən məşhur inhisarçı hesab edirlər
B) Kapitalizmin təkamül yolu ilə yeni bir ideal iqtisadi sistemə çevrilməsi ideyasını təbliğ edirlər
C) İnkişaf etmiş inhisarçı rəqabət nəzəriyyəsinin əsasını yaratmışlar
D) İqtisadi proseslərin tədqiqində riyazi metodların tətbiqinə ciddi əhəmiyyət vermişlər

E) İqtisadi liberalizm ənənələrini davam etdirən baxışlar sistemini yaratmışlar
**63. Monetarizmin ötən əsrin 70-80-ci illərində iqtisadi nəzəriyyənin və iqtisadi siyasətin mərkəzində olmasının səbəbi nədir?**
A) Klassik kapitalizmə bəraət qazandırmaq
B) Bölgüdə bərabərliyə nail olmaq
C)) İstehsalın azalması ilə eyni zamanda inflyasiyanın güclənməsi
D) İqtisadi artımın mümkünlüyünə inamı artırmaq
E) Büdcədən sosial ehtiyaclara təxsisatın azaldılması
**64. Monetarizmin 70-80-ci illərdə iqtisadi nəzəriyyənin və iqtisadi siyasətin mərkəzində olmasının səbəbi nədir?**
A) Klassik kapitalizmə bəraət qazandırmaq
B) Bölgüdə bərabərliyə nail olmaq
C)) Büdcə xərclərinin artırılmasına qəti etiraz etmək
D) İqtisadi artımın mümkünlüyünə inamı artırmaq
E) Büdcədən sosial ehtiyaclara təxsisatın azaldılması
**65. M.Fridmen hesab edir ki,**
A) Bazar sisteminə dövlət müdaxiləsi uzunmüddətli dövrdə müsbət nəticə verə bilər
B)) Pul kütləsini tənzimləməklə, istehsalın artma, yaxud azalma sürətinə təsir etmək olar
C) Uzunmüddətli pul siyasətindən qısamüddətli pul tənzimlənməsinə keçmək məqsədəuyğundur
D) Qısamüddətli pul tənzimlənməsi mütləqdir
E) Dövlət tənzimlənməsi pul kütləsinə, pul emissiyasına nəzarətlə məhdudlaşmır
**66. M.Fridmen hesab edir:**
A) Bazar sisteminə dövlət müdaxiləsi uzunmüddətli dövrdə müsbət nəticə verə bilər
B)) Pul prinsipial, həlledici xarakterə malikdir
C) Uzunmüddətli pul siyasətindən qısamüddətli pul tənzimlənməsinə keçmək məqsədəuyğundur
D) Qısamüddətli pul tənzimlənməsi mütləqdir

E) Dövlət tənzimlənməsi pul kütləsinə, pul emissiyasına nəzarətlə məhdudlaşmır

**67.M.Fridmen hesab edir ki:**

A) Bazar sisteminə dövlət müdaxiləsi uzunmüddətli dövrdə müsbət nəticə verə bilər

B)) Bazar sisteminə dövlət müdaxiləsi qısamüddətli dövrdə müsbət nəticə verə bilər

C) Uzunmüddətli pul siyasətindən qısamüddətli pul tənzimlənməsinə keçmək məqsədəuyğundur

D) Qısamüddətli pul tənzimlənməsi mütləqdir

E) Dövlət tənzimlənməsi pul kütləsinə, pul emissiyasına nəzarətlə məhdudlaşmır

**68. Monetarizm nəzəriyyəsində mərkəzi yeri hansı problem tutur:**

A) Məşğulluq

B) İşsizlik

C) İnflyasiya

D) Məşğulluq və işsizlik

E)) İşsizlik və inflyasiya

**69. Monetaristlərə görə dövlətin makroiqtisadi siyasətinin məqsədlərinə aid deyil:**

A)) Məşğulluq

B) İşsizlik

C) İnflyasiya

D) İqtisadi artım

E) Bunların hamısı

**70. M.Fridmen işsizliyin təbii normasını azaltmaq yollarını necə görürdü:**

A) Makroiqtisadi tənzimləmə yolu ilə

B)) Mikroiqtisadi tənzimləmə yolu ilə

C) Uzunmüddətli pul tənzimləməsi ilə

D) Qısamüddətli pul tənzimlənməsi ilə

E) Bunların hamısı doğrudur

**71. M.Fridmen işsizliyin təbii normasını azaltmaq yollarını necə görürdü:**

A) Makroiqtisadi tənzimləmə yolu ilə

B)) İnstitusional dəyişiklər yolu ilə

C) Uzunmüddətli pul tənzimləməsi ilə

D) Qısamüddətli pul tənzimlənməsi ilə

E) Həmkarlar ittifaqının müdaxiləsi ilə

**72. Monetarizmin pul qanunu nədir?**

A)) Pul təklifinin artımının orta illik sürətinin, pula tələbin artımına bərabər olmasıdır

B) Pula tələbin artımının orta illik sürətinin pula təklifin artımına bərabər olmasıdır

C) Pul kütləsinə, pul emissiyasına dövlət nəzarətidir

D) Pul kütləsinin tənzimlənməsinə yönəldilmiş kredit-pul siyasətidir

E) Pul kütləsinin tənzimlənməsinə yönəldilmiş büdcə-vergi siyasətidir

**73. " İctimai inkişaf " nəzəriyyəsinin banisi kimdir:**

A)) Y.Şumpeter
D) E.Çemberlin
B) Q.Keri
E) U.Rostou
C) A.Piqu

**74. "İqtisadi qayda" nəzəriyyəsinin müəllifi kimdir?**

A) L.Erxard
D) A.Müller-Armak
B)) V.Oyken
E) M.Alle
C) V.Repke

**75. "Yeni klassik makroiqtisadi nəzəriyyə dedikdə" aşağıdakılardan hansı başa düşülür:**

A)) Səmərəli gözləmə nəzəriyyəsi
D) Faydalılıq həddi nəzəriyyəsi
B) Təklif iqtisadiyyatı nəzəriyyəsi
C) Səmərəli tələb nəzəriyyəsi
E) Bunların hamısı

**76. Aşağıdakı əsərlərdən hansı L.Erxarda məxsusdur:**

A) "Quldarlığa gedən yol"
D) "Kapitalizmin xalis nəzəriyyəsi"
B) "Mənfəət, faiz, investisiya"
C)) "Hamı üçün rifah"
E) Bunların hamısı

**77. Aşağıdakı əsərlərdən hansı A.Mizesə məxsusdur:**

A) "Quldarlığa gedən yol"
B) "Kapitalizmin xalis nəzəriyyəsi"

C) "Mənfəət, faiz, investisiya"
D)) Nəzəriyyə və tarix
E) "Hamı üçün rifah"

**78. M.Fridmen iqtisadiyyatın tənzimlənməsində hansı amilə üstünlük vermişdir?**

A) Xarici iqtisadi
B) Büdcə-vergiyə
C)) Pul-kreditə
D) Sosial siyasətə
E) Qiymət siyasətinə

**79. "Formalaşmış cəmiyyət" nəzəriyyəsinin banisi kimdir:**

A)) L.Erxard
B) F.Xayek
C) V.Oyken
D) F.List
E) A.Ryustov

**80. "Hamı üçün rifah" bu tezisin müəllifi kimdir?**

A)) L.Erxard
B) V.Oyken
C) V.Repke
D) A.Müller-Armak
E) M.Alle

**81. Neoliberalizm təlimi iqtisadiyyatın hansı sahəsinin tənzimlənməsini nəzərdə tutur?**

A) Pul-kredit
B) Büdcə-vergi
C)) Sosial sahə
D) Xarici ticarət
E) Bütövlükdə iqtisadiyyatı

**82. Hansı elmi istiqamət dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudluğunu müdafiə edir?**

A) Keynsçi
B)) Neoliberal
C) Marjinal
D) Sosial-institusional
E) Marksizm

**83. Amerikan monetarizminin banisi kimdir:**

A) L.Erxard
B) Y.Şumpeter
C) F.Xayek
D) L.Mizes
E)) M.Fridmen

**84. Monetarizm cərəyanı iqtisadi nəzəriyyənin hansı istiqamətinə aiddir:**

A) Keynsçilik
B)) Neoklassik
C) İnstitusional-sosioloji
D) Marksizm
E) Bunların hamısına

**85. Monetarizm özündə hansı nəzəriyyələri birləşdirir:**
A) Təklif
B) Səmərəli tələb
C) Səmərəli gözləmə
D) Təklif və səmərəli tələb
E)) Təklif və səmərəli gözləmə

**86. Neoliberalizmi ABŞ-da təmsil edən nəzəriyyə hansıdır:**
A) Neoklassik sintez
B) Klassik nəzəriyyə
C)) Monetar nəzəriyyə
D) Keynsçi nəzəriyyə
E) Marjinalist nəzəriyyə

**87. Frayburq məktəbinin sosial-iqtisadi konsepsiyasının əsasını nə təşkil edirdi:**
A) Mərkəzdən idarə olunan təsərrüfat
B) Bazar təsərrüfatı
C) Dövlətin məhdud iqtisadi rolu
D)) Mərkəzdən idarə olunan və bazar təsərrüfatı
E) Hamısı

**88. İşsizlik nəticəsində potensial əmtəə və xidmətlərin itkisinin hesablanması kimin işlədiyi qanuna əsasən həyata keçirilir?**
A) A.Marşallın
B)) V.Oykenin
C) F.Xayekin
D) A.Müller-Armakın
E) P.Samuelsonun

# MÖVZU 14. İNSTİTUSİONAL-SOSİOLOJİ İSTİQAMƏT

**1. İnstitusional iqtisadiyyatın yaranması, inkişafı və tətbiqi parametrləri**
**2. Normalar institutlarının baza elementləridir**
**3. İctimai seçim nəzəriyyəsi: normalar səmərəli seçimin nəticəsidir**
**4. Razılıq iqtisadiyyatı: normalar səmərəli davranışın ilkin şərtidi**

## İnstitusional iqtisadiyyatın yaranması, inkişafı və tətbiqi parametrləri

Son illər dünyada institusional iqtisadi nəzəriyyə və institusionalizmə, xüsusən də onun yeni cərəyanlarına ciddi maraq göstərilir. Bu da əsasən "İqtisadi nəzəriyyə" elminə xas olan bəzi müddəalardakı məhdudiyyətləri (məsələn, tam rasionallıq, mütləq məlumata malik olma, təkmil rəqabət, qiymət tarazlığı aksiomları və sair) aşaraq, müasir iqtisadi (və qeyri-iqtisadi) proseslərin kompleks (ETİ-nin müasir nailiyyətlərindən istifadə etməklə) təhlil olunması zərurətindən doğur.

İnstitusionalizm iqtisadi inkişafda diqqəti sosial təsisatların roluna yönəldən nəzəriyyələrin məcmusudur. Başqa sözlə, iqtisadi qərarların qəbul edilməsi və yönəldilməsi sahəsində təsisatların oynadığı rola əsasən diqqət yetirən iqtisadi fikir istiqamətidir.

İnstitusionalizmin iki əsas qolu mövcuddur: a) ənənəvi və ya köhnə institusionalizm; b) yeni institusionalizm və ya neoinstitusionalizm.

Dar mənada "ənənəvi institusionalizm" dedikdə XX əsrin birinci yarısında amerikalı institusionalistləri (banisi T.Veblendir), geniş mənada iqtisadi fikrin institusional cərəyanını, həmçinin alman neoliberalizmini (M.Veber, V.Zombart, V.Oy-

ken) də aid etmək olar. Ənənəvi institusionalizm kifayət qədər fərqli konsepsiyaların məcmusudur. Onların arasında aşağıdakı konsepsiyalar daha məşhurdur: "postindustrial cəmiyyət" və ya informasiya cəmiyyəti nəzəriyyəsi **(C.Helbreyt, D.Böll, O.Toffler)**, **T.Veblenin** texnokratik nəzəriyyəsi; **C.Kommonsun** iqtisadi hüquq nəzəriyyəsi; iqtisadi dinamika, o cümlədən ictimai və xüsusi təşkilatların fəaliyyəti kontekstində pul tədavülünün və təsərrüfat tsiklinin tətbiqi məsələləri üzrə **U.Mitçellin** tədqiqatları; hazırda üçüncü dünya ölkələrinin (hər şeydən əvvəl, Cənubi Asiya ölkələrinin) ən fundamental inkişaf nəzəriyyəsi olan **Q.Mürdalın** iqtisadi gerilik nəzəriyyəsi və s.

Amerika institusionalizmi F.Ruzveltin "Yeni kursu"nun ideya zəminini hazırlamışdı. **U. Miçell, C.Kommons, A.Berli, Q.Mins və R.Taqvell** Ruzvelt hökumətini fəal dəstəkləmişdilər.

İnstitusionalizm formal olaraq ənənəvi institusionalist konsepsiyaları ilə əlaqədar deyildir, lakin mahiyyətcə ənənəvi institusionalizmin və neoklassik iqtisadi nəzəriyyələrin bir sıra ideyalarının sintezidir.

Neoinstitusionalizmə, hər şeydən əvvəl, mülkiyyət hüququ nəzəriyyəsini **(R.Kouz, A.Alçian, Q.Demsets, R.Pozner)**, ictimai seçim nəzəriyyəsini **(K.Errou, C.Byukenen, Q.Tallok, M.Olson)**, yeni iqtisadi tarixi **(D.Nort)**, agentlər nəzəriyyəsini **(T.Stiqlits)**, təşkilatların transaksiya nəzəriyyəsini **(O.Uilyamson)** aid etmək olar. Yeni institusionalizmə yeni klassik iqtisadi nəzəriyyə, müasir iqtisadi fikrin magistral cərəyanları aiddir. Ənənəvi və yeni institusionalizm arasında üç fundamental fərq vardır.

İlk növbədə, "köhnə" institusionalistlər (o cümlədən C.Kommons özünün "Kapitalizmin hüquqi əsasları" əsərində) hüquq və siyasətdən iqtisadiyyata doğru irəliləyərək, müasir iqtisadi nəzəriyyənin problemlərini cəmiyyət haqqında olan digər elmlərin metodları vasitəsilə həll etməyə çalışırdılar. Yeni institusionalistlər isə, əksinə politalogiya, hüquq və sair icti-

mai elmlərin problemlərini neoklassik iqtisadi nəzəriyənin metodları, ilk növbədə, müasir mikroiqtisadiyatın apparatının və oyunlar nəzəriyyəsinin tətbiqi vasitəsilə tədqiq edirdilər.

İkincisi, "köhnə" institusionalizm əsasən induksiya metoduna əsaslanaraq, xüsusidən ümumiyə doğru fəaliyyət göstərirdi ki, bu da son nəticədə, ümumi institusional nəzəriyənin formalaşmasına imkan vermədi. Burada institutlar ümumi nəzəriyyə olmadan təhlil olunurdular, halbuki ənənəvi neoklassitizm institutlarsız bir nəzəriyyəyə söykənirdi. Müasir institusionalizmdə vəziyyət köklü surətdə dəyişdirilmiş və artıq burada deduksiya metoduna üstünlük verilərək hadisələrin mahiyyətini ümumidən xüsusiyə doğru təhlil edirlər. Bununla da institutların vahid nəzəriyyə əsasında təhlilinə cəhd göstərilmişdir.

Üçüncüsü, "köhnə" institusionalizm radikal iqtisadi fikrin bir cərəyanı kimi, əsasən diqqətini fərdin maraqlarının qorunması üzrə kollektiv fəaliyyətə (ilk növbədə, Həmkarlar İttifaqları və hökumət) yönəldirdilər, neoinstitusionalizm isə hər bir fərdin özünü diqqət mərkəzində saxlayırdı.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, həm "köhnə", həm dəm yeni institusional nəzəriyyələrin strukturu çox mürəkkəbdir.

Demək olar ki, istər "köhnə", istərsə də yeni institusionalizmdə bu günədək dualizm hökm sürür. Hər iki istiqamət, ya neoklassik nəzəriyyənin əsasında, ya da onun əhəmiyyətli təsiri altında formalaşmışdır.

Neoinstitusionalistlər öz inkişafında ekonomiks istiqamətini əsas götürmüş və nəticə etibarilə, onların nəzəriyyəsi iqtisadi imperializm adlanmağa başlamışdır. Digər ictimai elmlərin - hüquq, sosiologiya, psixologiya, siyasət və s. mahiyyətinə vararaq bu məktəb mikroiqtisadi təhlil metodlarından istifadə etmişdilər. Onlar çalışırdılar ki, müxtəlif iqtisadi münasibətləri səmərəli düşünə bilən "iqtisadi adam" mövqeyindən şərh etsinlər. Məhz buna görə də neoinstitusionalistlər insanlar arasında olan münasibətlərə qarşılıqlı xeyirli mübadilə baxı-

mından yanaşırdılar. Belə yanaşmanı müqaviləli paradiqma[20] da adlandırırlar.

Bu paradiqma, həm xaricdən (institusional mühit), həm də daxildən, yəni təşkilatların əsasında duran münasibətlərlə reallaşa bilər. Bu istiqamət çərçivəsində mülkiyyət hüququ nəzəriyyəsi iqtisadiyyatın xüsusi sektorunda iqtisadi təşkilatların fəaliyyətinin institusional mühitini, ictimai seçim nəzəriyyəsi isə həmin təşkilatların və fərdlərin ictimai sektordakı fəaliyyətlərinin institusional mühitini araşdırır.

Neoinstitusionalistlər ənənəvi neoklassiklərin ideyalarını həm genişləndirirdilər, həm də bu ideyaları modifikasiya edirdilər. Bəzən elə olurdu ki, institusionalistlər ənənəvi neoklassik kateqoriyaları leksikondan çıxarırdılar. Məsələn, onlar tam səmərəlilik, mütləq informasiyalaşma, təkmil rəqabət, qiymət mexanizmi vasitəsilə müvazinətliyin bərqərar olması və s. aksiomlardan imtina edirdilər. İnstitusional iqtisadiyyatın ikinci istiqaməti "köhnə" institusionalizmin ideyalarına əsaslanırdı.

İnstitusional iqtisadiyyatın (neoinstitusionalizm) neoklassik paradiqmaları öz tədqiqatlarını da dərinləşdirir və genişləndirirdilər. Onlar öz ideyalarını ailə münasibətləri, etika, siyasi həyat, irqlərarası münasibətlər, cinayətkarlıq, cəmiyyətin tarixi inkişafına tabeçilik formasında götürürdülər. İnstitusionalizmin ikinci istiqaməti isə neoklassikləri sözün geniş mənasında inkar edərək "institusional iqtisadiyyat" yaradırdılar.

İnstitusional iqtisadiyyatın nümayəndələri marjinalist və müvazinətli metoddan imtina edirdilər və bunun əvəzində sosial-iqtisadi metoda üstünlük verirdilər. İnstitusional iqtisadçılar konvergensiya, postindustrial, postekoiqtisadi cəmiyyət, qlobal iqtisadi problemlər konsepsiyasına diqqət vermirdilər.

İnstitusional iqtisadiyyat məktəbinin nümayəndələrinin tədqiq etdiyi problemlər bazar münasibətləri çərçivəsindən kənara çıxırdı. Məsələn, onlar yaradıcı əmək problemi, xüsusi mülkiyyətin aradan qaldırılması, istismarın ləğv edilməsi və bu

[20] Paradiqma-sözlərin hallara salınması və ya dəyişməsi formaları.

kimi problemləri öz tədqiqatlarına daxil etmirdilər. Göstərdiyimiz istiqamət çərçivəsi daxilində bəzi problemlərin həlli öz əksini Fransa iqtisadiyyatında "razılıq iqtisadiyyatı" şəklində təzahür edirdi. Onlar neoinstitusional iqtisadiyyata yeniliklər daxil etməklə "razılıq iqtisadiyyatına" yeni paradiqmalar gətirmək istəyirdilər. Belə paradiqmalarda, "razılıq iqtisadiyyatına" görə "normalar" əsas rol oynayırdı. Bunun da əsasında konkret paradiqmalar dayanır.

Kontrakt (müqavilə) paradiqmaların birinci istiqaməti institusional mühüt - oyunları seçmə qaydaları: sosial, hüquqi və siyasi cəhətlər, yəni daxili və xarici mühit, təşkilatın əsasında dayanan münasibətlərdir. Bu istiqamət daxilində mülkiyyət hüququ nəzəriyyəsi institusional mühitin fəaliyyətini, iqtisadiyyatın xüsusi bölməsi olan iqtisadi təşkilatları, ictimai seçim nəzəriyyəsi isə fərdlərin institusional mühit səviyyəsindəki rolunu öyrənir. Agentlər nəzəriyyəsini öyrənərkən ("prinsipial - agent" qarşılıqlı münasibətləri) diqqət mərkəzində kontraktların maddi ilkin şərtləri dayanır, transaksion xərclər nəzəriyyəsini isə reallaşdırılmış razılaşdırmalar öyrənir ki, onlar da müxtəlif idarəedici strukturlar yaradırlar. Bu nəzəriyyələr arasında olan nisbi fərq müxtəlif alimlər tərəfindən neoinstitusionalizm baxımından öyrənilir. Xüsusilə bu hal konkret istiqamətə aiddir, yəni "hüquq və iqtisadiyyata", yeni iqtisadi tarixə və s.

Neoinstitusionalizm öz tədqiqatlarında insanın özünü aparması "motivasiyasını" ön plana keçirirdi. Əgər neoklassiklərin nəzəriyyəsi nəticələrə istiqamətlənərək ev təsərrüfatlarının faydalılığını, firmaların əldə edəcəyi mənfəəti, dövlətin, xalqın rifah halının yaxşılaşdırılmasını öyrənirdisə, neoinstitusionalizmin nümayəndələrini ilk növbədə, qərarların qəbul olunması, onların şəraiti, şərtləri maraqlandırırdı. Bununla əlaqədar olaraq cəmiyyətdə yaranmış normalar və qaydalar, qəbul olunacaq qərarlar neoinstitusionalizmin tədqiqat obyektinə çevrilirdi. Əgər neoklassiklər transaksion xərclərdən imtina edib, faktiki olaraq onları sıfıra bərabər götürürdülərsə, neoin-

stitusionalistlər isə transaksion xərcləri müsbət hal kimi qəbul edirdilər. Əsas etibarilə neoklassiklər iqtisadi agentlərin qarşılıqlı təsirinin müvazinətli modelini öyrənirdilərsə, neoinstitusionalistlər isə ilk diqqəti iqtisadi agentlərin daxili strukturuna verirdilər. Buraya onlar ev təsərrüfatını, firmaları və dövləti aid edirdilər.

Heç də qəribə deyildir ki, ənənəvi neoklassik yanaşmadan fərqli olaraq müasir neoinstitusionalistlər mülkiyyətin formalaşmasından deyil, iqtisadi agentlərin daxili strukturundan (ev təsərrüfatı, firma və dövlət) çıxış edirdilər.

Məhz buna görə də ənənəvi neoklassiklərdən fərqli olaraq müasir neoinstitusionalizm mühüm olan bir amildən çıxış edirdi. İnstitusionalistlərin fikrincə mülkiyyət hüququnun formalaşması sosial qaydalara və normalara əsaslanır. Bununla əlaqədar olaraq **C.Byukenenin** "Azadlığın sərhədləri" (1975) əsərində göstərilir ki, dövlət iki funksiya yerinə yetirir: I – dövlət müdafiə edir; II – "dövlət istehsal edir".

Dövlətin birinci funksiyası insanların razılığının nəticəsidir, onun həyata keçirilməsi konstitusiya aktlarının zəmanətinə riayət etməklə həyata keçirilə bilər. Cəmiyyətdə hüquqi münasibətlərə riayət etməklə, onlara xidmət göstərmək o deməkdir ki, anarxiyadan siyasi təşkilatçılığa sıçrayış edirsən.

Dövlətin ikinci funksiyası ictimai nemətləri istehsal etməkdən ibarətdir. O konstitusiya qanunları əsasında reallaşdırılır. Bu funksiya konstitusiya huquqları və azadlıqları əsasında, vətəndaşlar arasında onların birgə tələbatlarının ödənilməsinə əsaslanan özünəməxsus müqavilə şəklində reallaşır. Lakin məhz burada əsas təhlükə-dövlətin totalitarlaşması təhlükəsi yaranır. Neoinstitusionalistlər dövlətin avtokratik rejimə çevrilməməsi üçün bir çox təkliflər irəli sürürlər.

İnstitusional iqtisadiyyatda qaydalar sistemi mövcuddur və bu qaydalar sistemi təsnifləşdirilmişdir. Davranış (rəftar) qaydalarının müxtəlif tərəfləri vardır. Onu aşağıdakı kimi təsnifləşdirmək olar: irsilik, yəni irsən, genetik keçən, mədəniyyət

vasitəsilə verilən. Genetik yolla keçən davranış qaydaları iki yerə ayrılır: sosial və şəxsi.

Sosial qaydalar qeyri-formal, həm də formal xarakter daşıyır. Sosial qaydalar həm adət - ənənələr, həm də hüquqi qaydalar əsasında möhkəmləndirilir. Nəhayət, qeyd edək ki, formal sosial qaydalar "ictimai" və "xüsusi" hüquqa əsaslanır. "Xüsusi" hüquq ayrı-ayrı fərdlərin və qeyri-dövlət təşkilatlarının davranışını tənzimləyir. Ancaq "ictimai" hüquq normaları daxilində müəyyən edilən qaydalar hökumətin və dövlətin fəaliyyətini məhdudlaşdırır.

İnstitusionalist məktəbin ən mühüm problemlərindən biri davranış qaydaları və onun təsnifləşdirilməsidir. Bu barədə məktəbin yekdil fikri yoxdur. Lakin iqtisadçılar içərisində ən alternativ fikir Alman alimi Viktor Vanberqə məxsusdur. Onun davranış qaydaları haqqında tərtib etdiyi sxem elmi baxımdan nisbətən məqsədəuyğun olduğu üçün həmin sxemi təkrar edirik (bax: sxem 14.1).

Deməli, belə bir təsnifləşdirmənin müəyyən bir əhəmiyyəti vardır. Çünki neoinstitusionalistlər bütün qaydaların müxtəlifliyinə məhz bu prizmadan baxırdılar. Hər bir alternativ seçim əsasında yaradılan sxem heç bir xətadan, çatışmazlıqdan uzaq deyil, bu sxemdə mövcud strukturlar ifadə olunur, həmin proseslərin meydana gəlməsi öyrənilmir, onların təkamülü nəzərə alınmır. Onun məhdudluğunu, çatışmazlığını nəzərə alır və dixotomik[21] prinsip üstünlüyünü əsas götürürlər. Dixotomik üstünlüyün özü məhdud anlayışdır. Dixotomiya müxtəlif tip qaydaların qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini göstərmir.

[21] Alternativ seçim.

**Sxem 14.1.**


Xarici davranış qaydaları
Daxili təşkilati qaydalar
Hökumətinfəaliyyətini məhdudlaşdıran qaydalar
Qeyri-dövlət təşki-latları üçün qaydalar
Dövlətin daxili təşkilinin qaydaları
Fərdi davranış qaydaları
"Ictimai" hüquq
"Xüsusi" hüquq
Formal sosial qaydalar (qanun tərəfindən qəbul edilən, hüquqi baxımdan tətbiq olunan qaydalar)
Qeyri-formal sosial qayda-lar (adətlər, ənənələr və s.
Sosial qaydalar
Şəxsi qaydalar
İrsi, genetik keçən qaydalar
Əldə edilən, mədəniyyət tərəfindən verilən qaydalar
Davranış qaydaları

Göstərdiyimiz sxem ilə müqayisədə real həyat daha zəngindir. Çünki qaydalar dinamikdir, onlar daima meydana gəlir, aradan çıxır və nəticədə məhv olur. Eyni zamanda, qaydalar durğunluq şəraitində də olmur. Məsələn, qeyri-formal sosial qaydalar hüquqda formallaşır və təsbit olunur (bərkidilir), sanksiyalar vasitəsilə təsbitolunmayan formal qaydalar qeyri-normal transformasiyalarda təsbitləşir və s.

Qaydaları pozanlar üçün cəza sistemləri nəzərdə tutulur. Lakin "cəzaların dilemması" meydana çıxır: qanuna riayət edən belə bir ictimai neməti cəmiyyətdə "antinemət" kimi istehsal etmək cəzası tətbiq etmək lazım gəlir. Cəza vermək xərcləri iki elementi özündə əks etdirir: qaydaları pozanların aşkar edilməsi və qaydaları pozanların cəza xərcləri. Bir çox alimlər, o cümlədən C.Byukenen qanunu pozanlar üçün çəkilən xərcləri "antinemət" kimi götürür.

Qeyd edək ki, cəza həmişə axırda verilir. Əslində cəza qabaqcadan verilməlidir. Məlumdur ki, heç bir cəza yol verilən qəzanı ödəmir. Lakin C.Byukenenin fikrincə, cəza hökmən tətbiq edilməlidir. Cəzanın tətbiq edilməsi gələcəkdə ola biləcək qəzaların qarşısını ala bilər. Bu məqsədlə səmərəli siyasi rejim tətbiq edilməlidir ki, hüquq müdafiə sistemi orqanlarının təsiri güclü olsun. Göstərdiyimiz ideya sosial bazar təsərrüfatlarının yaradılması üçün çıxış nöqtəsi kimi qəbul edilə bilər.

Qeyd edək ki, Alman iqtisadi məktəbinin "Qaydalar nəzəriyyəsi" və Amerika neoinstitusional iqtisadiyyat cərəyanları mövcuddur. Onların ümumi cəhətləri vardır.

Sosial bazar təsərrüfatı konsepsiyası ölkədə olan hərcmərclik əsasında formalaşmışdı. Bu zaman köhnə "mərkəzi idarəetmə təsərrüfatı" dağılırdı, "mübadilə təsərrüfatı" hərcmərcliyi və "qara bazarı" inkişaf etdirirdi. Almaniya öz ərazisinin yarısını itirmişdi. Ölkəni ayağa qaldırmaq üçün yeni qaydaların tətbiq olunması zəruri idi. Belə ki, keçən əsrin 30-40-cı illərində "yeni qaydalar nəzəriyyəsi" işlənib hazırlandı və bu

da Almaniyada sosial bazar təsərrüfatının inkişafının metodoloji əsasını təşkil etdi.

ABŞ-da isə keçən əsrin 60-cı illərində neoinstitusional iqtisadiyyatı və "kütləvi istehlak cəmiyyəti" yaranmışdı. Bu zaman Amerikanın bir qrup utopik konservativ iqtisadçı alimləri praktiki olaraq C.M.Keynsin tənzimləmə nəzəriyyəsinə qarşı çıxırdılar. Akademik nümayəndələr qrupu isə bazar təsərrüfatını tənqid edən fundamental ideyalar formalaşdırmışdılar, yəni bazar təsərrüfatının oyun qaydalarını yaratmışdılar. Bu akademik nümayəndələr qrupu tələb edirdilər ki, bu oyun qaydaları Konstitusiya vasitəsilə təsbit olunsun. Neoinstitusional nəzəriyyənin müdafiəçiləri iddia edirdi ki, əgər bu oyun qaydaları reallaşarsa onda cəmiyyət bürokratiyanın təsirindən, "kütləvi surətdə siyasi renta" axtaranlardan azad olacaqdır.

Hər iki nəzəriyyənin paradoksal səslənsə də, dərin kökləri vardır. Bu nəzəriyyələrə görə dövlət birbaşa iqtisadiyyatı tənzimləməməlidir. Dövlət iqtisadiyyata dolayı yolla, institusional struktur vasitəsilə nüfuz etməlidir. Mahiyyət etibarilə bu nəzəriyyələr liberal xarakter daşıyır. Bu isə ənənəvi liberalizm olmayıb yeni liberalizmdir. Neoklassiklərdən fərqli olaraq neoliberallar mikromodelin son kəmiyyətinə deyil, müvazinətli modelə üstünlük verirdilər. İnstitusionalistlər müvazinətliliyin üstünlüyü şərtini kəmiyyət tərəfindən deyil, keyfiyyət tərəfindən şərh edirlər. Yeni nəzəriyyə klassik leberalizmin ənənələrini davam etdirir. Bununla belə onlar fərdi azadlığı və xüsusi mülkiyyəti müdafiə edirlər. Lakin XVIII-XIX əsrin klassik liberalizmindən fərqli olaraq yeni liberallar dövlətin iqtisadiyyata nüfuz etməsinin tərəfdarları idilər. Bu problemə onlar C.Keynsdən fərqli olaraq başqa don geyindirirdilər. Yeni nəzəriyyəçilərə görə, dövlət ekspansionistcəsinə "effektiv tələb" yaratmalı deyildi. Onların fikrincə, elə bir institusionalist mexanizm yaranmalıdır ki, bu mexanizm rəqabəti və mənfəətin artırılmasını stimullaşdırsın. Bu prinsipin həyata keçirilməsi üçün ciddi hüququ normalar müəyyən edilməlidir, bu hüququ nor-

malar təsərrüfatın inhisarçılığını məhdudlaşdırmalıdır, "düzgün olmayan rəqabəti"  aradan qaldırmalıdır.

"Qaydalar nəzəriyyəsi" və neoinstitusionalizm iqtisadiyyatı elə bir təlimdir ki, onların tədqiqat obyektinə insan, onun azadlığı, sosial müdafiəsi, iqtisadi baxımdan səmərəli olan, daxili stimullar əsasında dayanaqlı inkişaf edən cəmiyyət daxildir.

Belə bir cəhəti də qeyd edək ki, hər iki nəzəriyyə çalışır ki, dövlətin bazara olan təsiri azalsın. Qorxulu cəhət ondan ibarətdir ki, dövlətə söykənərək oyun qaydalarını və onlara nəzarəti cəmiyyətə "bağlamasınlar". Keçid dövründə ənənəvi institutlar dəyişdirilir, onların əvəzinə yeni oyun qaydaları yaranır, dövlətin rolu isə getdikcə güclənir. Keçid iqtisadiyyatı şəraitində neoinstitusionalistlər "bazar qaydalarını minimum siyasiləşdirmək" istəyir və bu prosesi həmin dövrdə həyata keçiriləcək islahatların əsas şərti hesab edirlər.

Hər bir elm öz spesifikliyinə uyğun olaraq müəyyən sahələrə tətbiq edilir və bunun da hədləri mövcuddur. Məlumdur ki, insanlar öz tələbatlarını ödəmək məqsədilə məhdud resurslardan, yəni seçim üsulundan istifadə edirlər. Bu o deməkdir ki, insanlar seçim üsulundan istifadə edərkən müxtəlif hadisələrlə üzləşir və bu hadisələrin hansı xarakterdə olacağını qabaqcadan müəyyən edirlər. Lakin iqtisadi nəzəriyyə elminin məqsədi ondan ibarətdir ki, fərdlərin özlərini seçim üsulundan istifadə edərkən necə aparacaqlarını, onların hansı hadisələrlə qarşılaşa biləcəklərini bu və ya başqa mənada elmə uyğun olaraq şərh edə bilsin. Seçimin mövzusu, onun həyata keçirilməsinin xarici mühiti, seçimin həyata keçirilə biləcək tarixi dövrlər xüsusi əhəmiyyət kəsb etmir. Bu məqsədlə qeyd edə bilərik ki, neoklassiklərin analitik modeli öz sabitliyini saxlayır. Digər tərəfdən klassik iqtisadi nəzəriyyənin universallığını şübhə altına alanlar da var. Məsələn, C.M.Keyns belə bir fikir irəli sürürdü ki, klassik nəzəriyyənin tətbiqi ümumi hallar üçün özünü doğrultmur. Bu nəzəriyyə xüsusi hallar üçün daha əda-

lətlidir. Klassik nəzəriyyə tam məşğulluq şəraiti üçün faydalıdır və bazar münasibətləri resursların tam məşğulluğundan uzaqlaşdıqca öz əhəmiyyətini itirir.

Seçim prosesi zamanı fərd istəyir ki, neoklassik model tam informasiyaya malik olsun. Buna avtomatik nail olunurmu və ya bu həmişə həyata keçirilirmi? Neoklassik nəzəriyyə postulatlarının birində göstərilir ki, bazarın vəziyyəti haqqında olan bütün informasiyalar qiymətdə cəmlənmişdir, müvazinətli qiymətlər haqqında informasiyaya malik olan hər bir fərd öz mənafeyi çərçivəsində mübadiləyə (sövdələşməyə) daxil olur. L.Valrasın fikrincə məcmu tələb və məcmu təklif haqqında alınan informasiya əsasında bazarda mövcud olan hərraclar alıcılardan və satıcılardan "sifarişlər" qəbul edirlər. Lakin XX əsrin 30-cu illərində görkəmli polyak alimi Oskar Lange bazar sosializmi modelində yazırdı ki, hərracın funksiyasını ən yaxşı halda planlı orqanlar, mərkəzləşdirilmiş plan təşkilatları yerinə yetirə bilər. Oskar Langenin irəli sürdüyü fikrin mənası ondan ibarət idi ki, o planlı orqanların mövcud olmasını neoklassik bazar modelinin fəaliyyəti ilə əlaqələndirirdi.

Mərkəzləşdirilmiş sosialist qiymətqoymasının alternativ lokal xarakterli bazar modeli ola bilər. Bir qrup şəxslər tərəfindən sövdələşmə məhdudlaşarsa və ya müəyyən ərazi tam informasiya ilə təmin olunursa, o zaman sövdələşmə haqqında planlaşma və bazarda olan sövdələşmə haqqında tam informasiya ola bilər.

Lokal bazara misal olaraq orta əsrlərdəki yarmarkaları göstərmək olar. İştirak edənlərin dairəsi və onların məhdud miqdarı bütün satıcılara bazarda olan hadisələr haqqında, bu hadisələrin dəyişməsi barədə inandırıcı informasiyalar verirlər. Sövdələşmə haqqında satıcılar belə informasiyaya malik deyillərsə, onların şəxsiyyəti, adları, şöhrətləri bir-birini aldatmağa yol vermir. Müasir birjalar və ayrı-ayrı bazarlar lokal bazarlar əsasında fəaliyyət göstərir. Belə bazarlarda sövdələşmələr dünya bazarı və milli bazarlar əsasında həyata keçirilir. Lakin

iştirak edənlərin sayı məhduddur. Bazarda söhbət satıcıların birliyindən gedir. Həmin satıcılar öz şəxsi adlarına (reputasiya) əsaslanırlar. Yuxarıda qeyd etdiklərimizi cəmləşdirərək aşağıdakı nəticəyə gələ bilərik: informasiyanın tamlığına o zaman nail olmaq olar ki, qiymətlərin mərkəzləşdirilmiş qaydada meydana gəlməsi və ya lokal bazar mövcud olsun.

## Neoklassik modelin tətbiqi parametrlərinin digər amilləri

Neoklassik bazar modelinin mühüm amillərindən biri də sövdələşmədə iştirak edənlərin minimum qarşılıqlı asılılığıdır. Burada həlledici hal kimi götürülür ki, hər hansı birinin seçimi digər fərdin seçiminə mane olmasın və ona təsir etməsin. Qərarın qəbul edilməsi haqqında minimal qarşılıqlı asılılıq müəyyən bir bazar strukturu daxilində ola bilər. Lakin burada sövdələşmə rəqabətli bazar çərçivəsi daxilində həyata keçirilə bilər. Bazarın təkmil rəqabətin meyarına uyğun gəlməsi üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir.:

1) Sövdələşmənin iştirakçılarının çox olması. Lakin onların payının məcmusu sövdələşmədə çox olmamalıdır;
2) Mübadilə standartlaşdırılmış və eyni adlı məhsulla həyata keçirilir;
3) Alıcılar alacaqları məhsul haqqında hər cür informasiyaya malikdirlər;
4) Satıcılar satacaqları məhsullar üzrə hər cür informasiyaya malikdirlər;
5) Bazara daxil olmaq və ya bazardan çıxmaq istəyənlər üçün azadlıq təmin olunmuşdur, lakin onlar üçün qovuşmaq stimulu yoxdur.

Təkmil rəqabət şəraitində resurslar iqtisadi seçim obyektinə çevrildikləri üçün iqtisadi seçim obyektləri qeyri-spesifik resurslara çevrilir ki, bu da onların eyni qiymətli resurslara çevrilməsi əleyhinə çıxa bilmir, yəni onlara qarşı uyğun

əvəzedici tapmaq çətinləşir. Əgər istifadə edilərsə, onlar eyni qüvvəyə malik olacaqdır.

Tam olmayan məşğulluğun səbəbini H.Kaldor inhisarçı rəqabətdə görür. Eyni zamanda tam olmayan işsizliyə bazarda baş verən neoklassik müvazinətlik də mənfi təsir göstərir. Keynsçi makroiqtisadiyyatın təbii çərçivəsi mikroiqtisadi inhisarçı rəqabətdir. Beləliklə, neoklassik modelin tətbiqi parametrlərini müəyyən edən ikinci amil kimi bazar strukturu çıxış edir.

İnstitusional iqtisadiyyatın tətbiqi parametrlərindən biri də "insan kapitalı" amilidir. Real bazarın təhlili üçün tətbiq edilən neoklassik modelin mahiyyəti ondan ibarətdir ki, insanların seçdiyi ideal "insan kapitalı"na uyğun gəlməlidir. Neoklassiklər bu problemə tələb olunan səviyyədə cavab vermirlər, çünki onlar səmərəliliyə istinad edir və insanı kalkulyatorun gördüyü işlə eyniləşdirirdilər. Neoklassik model isə insanların özlərini nə cür aparmalarına əsaslanırdı. Belə ki, yeni klassiklər insanların davranışı üçün yeni tipli model təklif edirlər. Bazar sövdələşmələrində iştirak edən insanların davranışının marağı əsaslı olaraq Adam Smitin nəzəriyyələrində verilmişdir.

Neoklassik bazarda sövdələşmənin ideal iştirakçısı olan insan nə vəziyyətdədir? Bu suallara cavab vermək üçün aşağıdakı şərtlərə diqqət yetirmək lazımdır.

Birincisi, insan məqsədəuyğun istiqamətləndirilməlidir. K.Marksdan sonra Veber məqsədəuyğun istiqamətləndirmə dedikdə aşağıdakıları başa düşürdü: xarici amillərin parametrlərinin və digər insanların davranışını gözləməli, “şərait” baxımından ondan istifadə etmək nəticəsində öz səmərəli məqsədini reallaşdıra bilməlidir. Məqsədəuyğun istiqamətləndirilmiş insan həm öz seçimində müstəqildir, həm də seçimə nail olmaq məqsədilə istifadə edəcək vəsaitlərin seçimində azaddır.

İkincisi, "insan kapitalın" özünü aparması utilitar mənfəətpərəst olmalıdır. Başqa sözlə, onun fəaliyyəti, tələbatının maksimum ödənilməsinə, güddüyü qaydaya tabe olmalıdır.

Məhz qayda, səmərə insanlığın mənafeyində, onların xoşbəxtliyinin əsasında dayanır. İnsanların mənfəətpərəstliyini (utilitarizm) iki yerə ayırmaq olar: sadə və mürəkkəb. Birinci halda insanlar öz zövqlərinin maksimumlaşdırılmasına yönəldilir, ikinci halda isə o əldə etdiyi bütün faydaları cəmləyir və onları özünün fəaliyyəti ilə əlaqələndirir. Faydalılıq ilə fəaliyyətin müqayisəsinin dərk edilməsi və bazar mübadiləsinin iştirakçısını xarakterizə edir.

Üçüncüsü, "insan kapital", hər şeydən əvvəl, sövdələşmənin digər üzvünə münasibətdə empatik hiss bəsləməlidir. O, özünü sövdələşmənin digər üzvünün yerinə qoymalıdır və onun əvəzinə müşahidə etməlidir ki, mübadilə necə keçir. Lakin qeyd edək ki, heç bir müşahidə başqalarının nələr hiss etdiyini ifadə edə bilmir. Belə ki, biz insanların nələr duyduğunu, hiss etdiklərini müəyyən edə bilmirik. Emosionallıq boyası ilə bəzənən bu simpatik empatiya bitərəfdir, insafsızdır və qərəzsızdır: biz özümüzü şəxsi simpatiyamız olan hər-hansı bir adamın yerinə də qoya bilərik.

Dördüncü, bazarda olan sövdələşmə üzvləri arasında etibar olmalıdır. Heç nə, hətta elementar sövdələşmə iştirakçıları arasında minimum etibar əsasında belə mübadilə (sövdələşmə) olmamalıdır. Məhz sövdələşmələr arasında mövcud olan etibarlılıq kontragentin özünü aparmasını irəlicədən müəyyən etmək imkanı verir. Eyni zamanda bazarda baş verə biləcək sabitliyin gözlənilməsinə şərait yaradır. Belə bir tezis irəli sürülür ki, mən başqasına inanıram, əgər o mənim gözləmələrimdə məni aldatmırsa və ya mənim sövdələşmələrimdə mənə mane olmursa. Əgər sövdələşmə barədə qarşılıqlı etibar olmazsa, sövdələşmə o zaman səmərəli olmayacaq və sövdələşmə aktı bağlanmayacaqdır.

Bazarda sövdələşmə iştirakçıları interpretativ rasionalist qabiliyyətinə malik olmalıdırlar, bu da, öz növbəsində, yuxarıda göstərdiyimiz dörd şərtin sintezini özündə əks etdirməlidir. İnterpretativ rasionalizm bir fərdin başqa fərdin fəaliyyətini

düzgün gözləmələrini formalaşdlrmalıdır, yəni o digər fərdin nə edəcəyini  və onun planlarını düzgün şərh etməlidir. Eyni zamanda, fərdə simmetrik tələb irəli sürülür: digər fərdin hərəkətini və fəaliyyətini başa düşməyi  yüngülləşdirsin.

Belə bir sual meydana çıxır: niyə görə bazarda interpretativ rasionalizm zəruridir? İctimai nemətlərin istehsalı və bölgüsü dilemma nəticəsində baş verən optimal qərar iştirakçıların mübadilə üçün tapa biləcəkləri hansı situasiyalara əsaslanır.

İnterpretativ rasionalizmin ilkin şərtləri fokal nöqtələrin mövcudluğunun əsasıdır. Eyni zamanda, bütün fərdlər tərəqqidən seçilmiş variantlar və razılaşmalarda fokal nöqtənin əsasında dayanır. Daxili səbəblərdən törəyən bu və ya digər variantların seçilməsi sosial olan eyni qrupların, eyni zamanda, həmin qruplarda mədəniyyətin seçilməsi alternativliyi ilə əlaqədardır.

Həqiqətən fokal nöqtə ümumi hesabat fəaliyyəti ilə və qiymətləndirmə ilə, ümumi assosasiya ilə əlaqədardır. Fokal nöqtəyə misal olaraq ya şəhərlərdə, ya da binalarda görüş yerini göstərmək olar. Razılığa gəldikdə isə davranışın bu və ya başqa mənada özünü aparmasından söhbət gedə bilər. Razılığın olması fərdə imkan verir ki, onu əhatə edən  mühitdən istədiyini və ya istəmədiyini gözləyə bilsin. Razılaşmalar təsadüfən qatarda gedən sərnişinlər vasitəsilə də tənzimlənə bilər. Razılıqlar haqqında söhbət gedəndə bu və ya başqa bir hadisə variantında ümumi qəbul olunmuş variant nəzərdə tutulur. Razılığın nağd olması o deməkdir ki, fərd özünü elə aparmalıdır ki, bunu onu əhatə edən mühit bilir və ya bilmir. Bu hal aşkarlığın qəbul olunmasını, bir-birinə hörməti və mənafeləri müəyyən edir.

*Biz yuxarıda qeyd etdiklərimizi nəzərə alaraq aşağıdakı nəticəyə gələ bilərik:*

Bazarın strukturu konkretliyə daha çox yaxındır, çünki qiymətqoyma bazarda mərkəzləşdirilir və ya lokal xarakter

daşıyır. Belə bir şəraitdə sərbəst informasiya mövcuddur və bu hal bütün iştirakçılar üçün xarakterikdir və iştirakçıların hamısı iqtisadi adama yaxındır.

Neoklassik modelin tətbiqi sferasının minimum azalması ilə əlaqədar olaraq, nisbətən mühüm olan problemləri də unutmaq olmaz. Yuxarıda göstərilən tələb bir-biri üçün ziddiyyət təşkil edir. Belə ki, lokal bazar modelində sövdələşmənin iştirakçıları xeyli potensialı olan və məhdudluğu olmayanla (təkmil rəqabət şəraitində) ziddiyyət təşkil edir. Bu hal mərkəzləşdirilmiş qiymətqoyma ilə ziddiyyət təşkil etmir. Əgər biz mərkəzləşdirilmiş qiymətqoymaya diqqət yetirsək görərik ki, o sövdələşmə iştirakçıları arasında olan qarşılıqlı etibara zərər yetirir. Burada əsas kimi üfüqi etibarlılıq deyil, hərraclara qarşı şaqulu etibarlılıq əsas götürülür. Digər tərəfdən sövdələşmənin iştirakçılarının bir-birindən minimal asılılığı empatiyanın və interpretativ rasionalizmin normaları ilə ziddiyyət təşkil edir. Biz kontraqent tərəfində dayanaraq nisbətən öz muxtariyyətimizdən və müstəqil qərar qəbul etməkdən imtina edirik. Deməli, bazarın təşkili, bazarda insanların davranışı bir tərəfdən neoklassik modelin tətbiqini məhdudlaşdırır, digər tərəfdən isə onu şübhə altına alır. Yeni nəzəriyyəyə olan tələb artır. Bu elə bir nəzəriyyə olmalıdır ki, bir tərəfdən yuxarıda göstərdiyimiz məhdudiyyəti izah edə bilsin, digər tərəfdən isə bazar modeli tərtib olunan zaman həmin ziddiyyəti nəzərə alsın.

## İnstitusional nəzəriyyə: "köhnə" və "yeni" institusionalizm

Qeyd olunan məhdudiyyəti nəzərə almaqla bazar modelini yeni hazırlayan nəzəriyyə institusionalizm oldu. Adından məlum olduğu kimi, bu nəzəriyyənin təhlil mərkəzində "insanlar tərəfindən" yaradılan və strukturlaşan siyasi, iqtisadi və sosial məzmun daşıyan qarşılıqlı fəaliyyət dayanır. Hər şeydən əvvəl, institusionalist nəzəriyyənin müddəalarının müzaki-

rəsinə keçməmişdən əvvəl biz meyarları müəyyən etməliyik, neoklassik yanaşma ilə müqayisədə bu müddəaların genişliyini göstərməliyik. Bu müddəalar həqiqətən yenidirlərmi və ya modifikasiyaya uğramışdır ya da neoklassiklərin ekspansiya yolu ilə institusionalizmin problemlərinə daxil olmuş anlayışlarıdır?

İmre Lakatoşun epistomoloji təhlilinə əsaslanan nəzəriyyəsinə nəzər salaq (bax: şəkil 14.1).




**Şəkil 14.1.**

İmre Lakatoşun fikrincə, hər hansı bir nəzəriyyə iki ünsürü özündə birləşdirir: "sərt özək" və "müdafiə örtüyü". Bu epistomoloji (idrak nəzəriyyəsi) dərk etməyə görə "sərt özək" nəzəriyyəsini təsdiq edincə bu nəzəriyyə modifikasiyaya uğramamalıdır və nəzəriyyə inkişaf etdikcə o dəqiqləşdirilməməlidir. Onlar tədqiqatın paradiqmalarını təşkil edirlər, eyni zamanda bu prosesdən heç bir tədqiqatçı imtina etməməlidir.

Nəzəriyyələr inkişaf etdikcə "müdafiə örtüyü" təhsisə məruz qalır. Nəzəriyyə də tənqidə məruz qalır. Çünki nəzəriyyənin predmetinə yeni ünsür daxil edilir. Bütün bunlar “müdafiə özəyinin” dəyişməsinə təsir edir.

Neoklassiklərin irəli sürdükləri "sərt özəyi" aşağıdakı şərtlər təşkil edir ki, bunlarsız neoklassiklərin heç bir modelini tərtib etmək olmaz:

1) Bazarda həmişə müvazinətlik mövcuddur. V. Pareto optimumu isə üst-üstə düşür (Valras modeli– Erron-Debre);

2) Fərdlər səmərəli seçim edirlər (səmərəli seçim modeli);

3) Fərdlərin nəyə üstünlük vermələri sabitdir və ekzotik xarakter daşıyır, yəni onlara xarici amillər təsir etmirlər.

Neoklassiklərin də "müdafiə örtüyü" üç amilə əsaslanır:

1) Resurslar üzərində xüsusi mülkiyyət bazarda müdafiəni həyata keçirmək üçün mütləq ilkin şərtdir;

2) İnformasiya əldə etmək üçün xərclər yoxdur, fərdlər sövdələşmə haqqında olan bütün informasiyalara malikdirlər;

3) İqtisadi müqavilə faydalılığın azalması prinsipi əsasında müəyyən olunur. Lakin burada qarşılıqlı fəaliyyətdə olan iştirakçılar arasında resursların ilkin bölgüsü nəzərə alınır. Müdafiə həyata keçirilən zaman xərclər nəzərə alınmır, lakin xərclərin elə formaları vardır ki, onlar nəzərə alınır. Bu xərclərə istehsal xərcləri daxildir.

İnstitusional iqtisadiyyatın özünün yaranması səbəbləri vardır. Səbəbsiz nəticə olmadığı kimi institusionalizmin də meydana gəlməsinin kökləri vardır. Bu baxımdan tədqiqatçılar institusionalizmin yaranmasını ağaca bənzədirlər. Buna institusionalizm "ağacı" da deyilir. Mənbələrdə göstərilir ki, institusionalizm iki kökdən bitmiş ağaca bənzəyir. Bu iki kökdən bitən ağacın şaxələri olduğu üçün onu "köhnə institusionalizm" və neoklassik istiqamət adlandırırlar.

Bu iki inkişaf istiqamətini aşağıdakı sxem kimi izah edirlər (bax: sxem 14.2.):




**Sxem 14.2.**

İnstitusionalizm "ağacını" köklərdən biri qidalandırır. Neoklassik nəzəriyyəyə gəldikdə isə iki momentin buraya əlavə edilməsi zəruridir. Birinci anlayış metodologiyaya aiddir və o metodoloji fərdiçilik (individualizm) adlanır. Bu ideyanın məqsədi institutları mənafelər baxımından izah etməkdir. Fərdlərin davranışı bu qəbildəndir, fərdlər öz hərəkətlərini koordinasiya etdikləri zaman ondan istifadə edirlər. Məhz institutlar təhlil edilərkən çıxış nöqtəsi kimi fərd götürülür. Məsələn, döv-

lətin xarakteristikası onun vətəndaşlarının mənafeyindən və davranış xüsusiyyətlərindən irəli gəlir. Metodoloji fərdiçiliyin prinsipinin davam etməsinə neoklassiklər xüsusi diqqət yetirirlər. Bu xüsusi diqqət eyni zamanda institutların yaranmasına da aid edilir ki, buna da institutların öz-özünə törəyən təkamülü də deyilir. Bu konsepsiyaya görə institutlar insanların fəaliyyəti nəticəsində yaranır. Burada insanların arzusu nəzərə alınmır.

Uyğun olaraq "köhnə" institusionalizm xolizm metodologiyasından istifadə edir. Xolizm metodologiyasına görə təhlildə çıxış nöqtəsi kimi fərdlər deyil, institutlar dayanırlar. Başqa sözlə desək, fərdlərin xarakteristikası institutların xarakteristikasından çıxarılır. İnstitutların özləri isə təkrar istehsal prosesi zamanı onların makrosəviyyədə yerinə yetirdikləri münasibətlər sistemi baxımından izah edilir. Bu nəzəriyyəyə görə vətəndaşlar öz dövlətlərini (hökumət) deyil, hökumət müəyyən tip vətəndaşların formalaşmasını həyata keçirir. Daxili səbəblərdən, yəni öz-özünə törəyən təkamül konsepsiyasına qarşı institusional determinizm çıxış edir: institutlara öz-özünə inkişaf edən amillərə maneçilik törədən, "köhnə" institutlar isə bu prosesə sabitləşdirici amil kimi baxırlar.

İnstitutlar keçmişdə baş verən proseslərin nəticəsidir. Onlar keçmişdə baş verən hadisələrin öyrənilməsinə uyğunlaşdırılıblar, onlar sosial inersiyanın amillərini, psixoloji inersiyaları öyrənirlər.

Biz yuxarıda qeyd etmişdik ki, institusionalizm–metodoloji individualizmdən istifadə edir.

**Metodoloji individualizm nədir?**

Metodoloji individualizm institutları, çərçivə daxilində mövcud olan fərdlərin tələbatını öyrənir. Bu çərçivə daxili fərdlər müxtəlif sferalarda strukturları təşkil edirlər. Metodoloji fərdiçiliyə görə fərdlər birinci, institutlar isə ikincidir.

"Köhnə" institusionalizm isə xolizm metodundan istifadə edir. Xolizm metodologiyasına görə çıxış nöqtəsi kimi

tədqiqatlarda fərdlərin əvəzinə institutlar təhlil edilir. Başqa sözlə desək, fərdin xarakteristikası institutlardan çıxarılır. Burada institutlar birinci, fərdlər isə ikincidir.

"Köhnə" institusionalizmə daha geniş cavab vermək üçün bu elmi istiqamətin bəzi nümayəndələrinin fikirlərinə diqqət yetirək. Bu sahədə **K. Marksın, T. Veblenin, K. Polanın və C. Helbreytin** xidmətlərini xüsusi qeyd etməliyik.

**K.Marks** "Kapital" (1867) əsərində xolizm metodundan və institusional determinizmdən geniş istifadə etmişdir. Bu baxımdan K.Makrsın fabrik və ilkin kapital yığımı haqqında olan nəzəriyyələri daha səciyyəvidir. Öz təhlilində K. Marks maşınlı istehsalın meydana gəlməsini və onun istehsal prosesi və mübadiləyə nə cür təşkilati təsir etdiyini qeyd etmişdir. K.Marks göstərirdi ki, kapitalist ilə muzdlu əmək arasında olan münasibətlər sistemi təşkilati formanı təşkil edir və əmək bölgüsü forması alır:

təbii əmək bölgüsü $\rightarrow$ kooperasiya $\rightarrow$ manufaktura və mütləq izafi dəyər $\rightarrow$ istehsalı $\rightarrow$ hissə fəhləsinin meydana gəlməsi $\rightarrow$ maşınların yaranması $\rightarrow$ fabrik $\rightarrow$ nisbi izafi dəyər istehsalı.

Əgər biz ilkin kapital yığımının mahiyyətinə varsaq görərik ki, bu tarixi prosesdə institusionalizm ünsürləri müşayiət olunur. Daha dəqiq desək, ilkin kapital yığımında institusionalizm variantlarından olan determinizm, yəni leqal determinizm vardır. VII və VIII əsrlərdə Krak Genrix və I Kral qanunverici aktlar qəbul etmişlər. Bu qərarlara görə ictimai və kilsə torpaqları qəsb edilmişdir. Digər tərəfdən dilənçiliyə qarşı, əməkhaqqının artırılmaması barədə qərar verilmişdir. Bu proseslərin nəticəsində muzdlu əmək bazarı və kapitalistcəsinə muzdlu sistem yaranmağa başladı. Göstərdiyimiz bu fikirləri Karl Polani də etdirirdi. Polaninin fikrincə dövlətin iqtisadiyyata nüfuz etməsi resurs bazarlarının və əmək bazarının yaranmasına səbəb olmuşdur.

Məlumdur ki, dövlətin müdaxiləsi nəticəsində Qərbi Avropada kütləvi surətdə daxili bazar yaranmağa başladı. Bu bazarın yaranması lokal bazarların təbii təkamülünün nəticəsi deyildir. Belə bir təhlil ilk növbədə ona görə maraqlıdır ki, lokal və mərkəzləşdirilmiş qiymətqoyma arasında dərin ziddiyyət vardır.

**T.Veblen** özünün "Təbii siniflər nəzəriyyəsi" (1899) kitabında xolizm metodologiyasının tətbiqini verir və bunun əsasında vərdişin rolunu təhlil edir. T. Veblenə görə vərdiş institutlardan biridir, fərdin bazarda, siyasi sferada, ailədə olan davranışını öyrənir. T.Veblen müasir insanları onların çox qədim vərdişləri ilə bağlayır, onların bir-biri ilə rəqib olduğunu təbliğ edir. Fərdlərin bazarda özlərini aparmalarını qədim vərdişlə - rəqabətlə (rəqib) əlaqələndirir.

**Rəqiblik və bacarıq instinkti:**

T.Veblenə görə rəqiblik instinkti mülkiyyətin və bazarda rəqabətin əsasını təşkil edir. Bu instinkt istehlakı nümayiş etdirir, şəxsi faydanı maksimumlaşdırır.

Köhnə institutçulardan biri də **C.Helbreytdir**. O özünün "Yeni sənaye cəmiyyəti" (1967) və "İqtisadi nəzəriyyə və cəmiyyətin məqsədi" (1973) əsərlərində texnostruktura nəzəriyyəsini inkişaf etdirir. Helbreyt bu əsərində informasiya məsələlərindən başlayır və onların mübadilə prosesində iştirak edənlər arasında bölünməsini təhlil edir. C.Helbreytin ən mühüm tezisi ondan ibarətdir ki, müasir bazarda heç kim tam informasiyaya malik deyil, hər bir kəsin biliyi ixtisaslaşdırılmış və xüsusi xarakter daşıyır. C.Helbreytin fikrincə tam informasiyaya o vaxt nail olmaq olar ki, bu xüsusi biliklər bir təşkilat daxilində birləşsin. Biliklərin belə bir birləşməsini Helbreyt texnostruktura adlandırır. C.Helbreyt yazırdı ki, indi hakimiyyət ayrı-ayrı şəxslərdən təşkilatlara keçmişdir ki, bu təşkilatlar da kollektiv fərdiçiliyə malikdirlər. Daha sonra C.Helbreytin təhlilləri göstərir ki, texnostruktura fərdin davranışına necə təsir edir. Onun fikrincə bu o deməkdir ki, fərdin xarakteristi-

kasına institusional mühitin funksiyası kimi baxmaq olar. Məsələn, istehlak tələbi korporasiyaların artması mənafeyindən çıxarılır. Lakin burada C.Helbreyt inandırmaq üçün istehlak reklamlarına üstünlük verir, ancaq ekzogen üstünlüyə fikir vermir.

İnstitusional iqtisadiyyat öz inkişafında iki yol keçmişdir: 1) neoinstitusional iqtisadiyyat; 2) yeni institusional iqtisadiyyat.

Mahiyyət etibarilə bu hər iki anlayış bir-birinə oxşasalar da onların arasında xeyli fərq vardır.

Yuxarıda biz "köhnə instituasionalizmdən" söhbət açarkən institusionalizm "ağacı" üzərində dayanmışdıq. Bu institusionalizm "ağacının" inkişafı iki istiqamətdə inkişaf etmişdir: neoinstitusional iqtisadiyyat və yeni institusional iqtisadiyyat. İlk baxışda hər iki terminoligiya bir-birinə oxşasalar da, onların özlərinin ayrı-ayrı paradiqmaları vardır. Əvvəla qeyd edək ki, neoinstitusionalizm üçün neoklassiklərin "sərt özəyi" dəyişməzdir. İnstitutların predmetinə yeni bir ünsür əlavə olunursa neoklassiklərin "müdafiə örtüyü" nəzəriyyəsindən istifadə edərək onları təshih edirlər. Məhz buna görə də neoinstitusional iqtisadiyyatı tez-tez "iqtisadi imperializm" adlandırırlar. Neoinstitusional iqtisadiyyat ənənəvi olaraq mikroiqtisadi ünsürlərdən imtina etmirlər. Onlar çalışırlar ki, neoklassik nəzəriyyəni vaxtı ilə onlar üçün xarici olan amillər əsasında izah etsinlər. Buraya onlar aşağıdakıları əlavə edirlər: ideologiya, davranış normaları, qanunlar, ailə və s. İkinci istiqamət olan yeni institusional iqtisadiyyat, əksinə, çalışır ki, yeni institusional nəzəriyyə yaratsınlar və bu istiqamətin nümayəndələri istəyirlər ki, onların yaradacağı yeni institusional iqtisadiyyatın neoklassiklərin keçmiş postulatları ilə heç bir əlaqəsi olmasın.

Neoinstitusionalizmin yaradıcısı **Ronald Kouzdur.** O, özünün "Firmanın təbiəti" (1937) və "Sosial xərclər nəzəriyyəsi" (1960) əsərlərində neoinstitusionalistlər haqqında olan nəzəriyyəsini inkişaf etdirmişdir. Bu məqsədlə də o bu məktəb

üçün yeni bir proqram yaratmışdır ki, onun nəzəriyyəsi "müdafiə örtüyü " ilə sıx surətdə əlaqədardır.

Neoinstitusionalistlər aşağıdakı konseptual problemləri irəli sürürdülər: əvvəla, onlar ilk növbədə mülkiyyət formalarına və kontraktlar formasında həyata keçirilən mübadiləyə geniş spektrdə baxırdılar. Xüsusi mülkiyyət ilə bərabər, kollektiv, dövlət, səhm formasında olan mülkiyyət formaları da tədqiq edilir, onların müqayisəli təhlili verilir və bazarda səmərəli sövdələşmə nəzərə alınır. Mülkiyyət hüququ və optimal kontrakt nəzəriyyəsinin tədqiqat proqramının məzmunu qeyd etdiklərimizdən ibarətdir. Mülkiyyət hüququ nəzəriyyəsi anlayışının nümayəndələri R.Kouz, R.Pozner, S.Peyoviç optimal kontrakt nəzəriyyəsinin nümayəndələri isə S.C.Stiqlits, Y.Maknili idilər.

Məlumdur ki, dövlətin mülkiyyət hüququnu müdafiə etməsi məqsədilə ictimai seçim nəzəriyyəsi yaranmışdır. Bu nəzəriyyənin ən güclü nümayəndəsi **C.Byukenen** və **Q.Tallokdur**. İctimai seçim nəzəriyyəsindən konstitusiya iqtisadiyyatı (V.Vanber) törəmişdir. Konstitusiya iqtisadiyyatında neoklassik nəzəriyyə ilə ictimai seçim və qaydalar nəzəriyyəsinin ünsürləri kombinələşdirilir.

Nəhayət, problemin belə bir tərəfini də qeyd etməliyik ki, istehsal xərcləri və ya transformasion xərclərlə yanaşı, neoinstitusionalistlər transsaksion xərclərin olmasını da əsaslandırmışdırlar. Transsaksion xərclər dedikdə onlar mərkəzləşdirilmiş xərcləri, yəni sövdələşmə zamanı meydana çıxan məsrəfləri nəzərdə tuturlar (R.Kouz, O.Uilyanson). Yeni iqtisadi tarix (D.Nort) transsaksion xərclər və mülkiyyət hüququ nəzəriyyəsinin öyrənilməsini təhlil etmək üçün meydana çıxmışdır.

T.Eqqertson D.Nortun yanaşmasına əsaslanaraq xərclərin aşağıdakı növlərini ayırır:

- informasiya axtarışı;
- danışıqların aparılması;
- kontraktların tərtib edilməsi;
- monitorinq;

- kontraktların icrasına məcburetmə;

- üçüncü şəxslərdən qoruma.

Bir təsnifat da K.Dalmanın əsərində verilmişdir və sonra bir sıra rus müəllifləri, məsələn, R.Kapelyuşnikov tərəfindən istifadə edilmişdir. Bu təsnifatda transaksiya xərclərinin aşağıdakı növləri ayrılır:

- informasiya axtarışı və alternativlərin aşkar edilməsi;

- danışıqların aparılması və kontraktların bağlanması;

- mülkiyyət hüquqlarının spesifikləşdirilməsi və müdafiəsi;

- opportunist davranış.

Gördüyümüz kimi, bu təsnifat Nort - Eqqertsonun təsnifatına yaxındır, amma onda bəzi xərc növləri (məsələn, danışıqların aparılması və kontraktların bağlanması xərcləri) birləşdirilmişdir, əksinə, bəzi xərc növləri isə (məsələn, ölçülmə xərcləri ayrıca verilmişdir) bölünmüşdür.[22]

Yeni institusional iqtisadiyyat neoklassiklərin "sərt özəklərində" baş verən dəyişiklikləri öyrənmək üçün dəyişkənliyə uğramışdır. Bu məqsədlə zərbəni Valrasın-Errounun-Debrenin oyunlar nəzəriyyəsindən başlamaq lazımdır. İnstitutlar nəzəriyyəsini oyunlar nəzəriyyəsinə daxil etmək olmaz, çünki oyunlar nəzəriyyəsi iqtisad elmində müstəqil bölmədir.

Yeni institusional iqtisadiyyat modelinin dilini oyunlar nəzəriyyəsi formalaşdırmışdır. Oyunlar nəzəriyyəsi aşağıdakı şərtlər üzərində təşəkkül tapmışdır: a) bir neçə müvazinət nöqtəsi mövcud ola bilər; b) müvazinətlik nöqtəsi hökmən deyildir ki, Paretonun optimum nöqtəsi ilə üst-üstə düşsün; c) müvazinətlik, ümumiyyətlə, mövcud olmaya da bilər.

Səmərəli seçim modeli Q.Saymon tərəfindən sərt şəkildə tənqid edilmişdir. Onun nəzəriyyəsi olan tam olmayan səmərəlilik informasiya xərclərini və koqnitiv məhdudluğu nəzərə

---

[22] Bax: İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. Dərslik. Ə.P.Babayevin ümumi redaktəsi ilə rus dilindən Azərbaycan dilinə tərcümə olunub. Bakı, 2013, səh 105.

alır. Q. Saymonun nəzəriyyəsində nəzərdə tutulur ki, sövdələşmə haqqında fərd istənlən informasiyanı toplaya bilər. Lakin o toplanmış informasiyanı optimal surətdə emal edə bilməz. Q. Saymonun fikrincə ağıl, qabiliyyət, bacarıq informasiyanın emal edilməsi üçün nadir tapılan resursdur. Səmərəli seçim modelinin əsasında səmərəli seçim dayanır. Bununla belə koqnitiv məhdudiyyət uçotu tələb edir ki, optimallaşma prinsipinə yenidən baxılsın. O məqbulluq prinsipini dəyişir.

**Aşağıdakı misala müraciət edək:**

Fərz edək ki, iki alıcı mövcuddur. Qrafikdən göründüyü kimi iki prinsipə əsaslanan istehlakçı əmtəə əldə etmək üçün iki meyardan – Q və P (keyfiyyət və mümkün qiymət) birini seçməlidir (bax: şəkil 14.2):




**Şəkil 14.2.**

Əgər istehlakçı öz seçimini optimallaşdırırsa o zaman o (a) variantı üzərində dayanacaqdır. İki parametrin seçimi P və Q maksimumdur. Əgər istehlakçı xərclərə yol verirsə və infor-

masiyanı emaldan keçirirsə o zaman o qabaqcadan özünə qəbul edilə biləcək seçimi $P^1$ və $Q^1$ meyillənir və birinci variant üzərində dayanır və məqbul kimi (r) götürür.

Yeni institusional iqtisadiyyat ekzogen xarakterli üstünlüyü və onun sabitliyini şübhə altına qoyur. D.Nort göstərir ki, institutların qarşılıqlı fəaliyyəti ikili xarakter daşıyır. İnstitutlar maraqlara təsir göstərir, eyni zamanda fərdlər institutların çərçivələrini dəyişirlər.

Yeni institusional iqtisadiyyatın proqramı dolğun şəkildə müqavilələr iqtisadiyyatının nümayəndələri L.Teveno, O.Favro, A.Orlean və P.Buaye işləmişlər. Müqavilələr iqtisadiyyatı çox gənc, lakin sürətlə inkişaf edən institusional istiqamətlərdən biridir. Müqavilələr iqtisadiyyatı keçən əsrin 80-ci illərində Fransada yaranmışdır. Yaranmış bu cərəyana aşağıdakı elm istiqamətləri daxil idi: neoklassiklərin nümayəndələri, sosioloqlar, tənzimlənmənin postmarksist nəzəriyyəçiləri və filosoflar. Müqavilələr iqtisadiyyatının həlledici təhlil nöqtəsi fərdlər arasında olan ümumi razılıqların qarşılıqlı fəaliyyəti idi.

Nəticə etibarilə qeyd edə bilərik ki, mövcud olan, lakin bir-birindən fərqlənən iki radikal yanaşma məhdudiyyətin yeni tipini təşkil etməyə imkan verir ki, bu da iqtisadi nəzəriyyədə mühüm əhəmiyyət kəsb edir.

## Normalar institutların baza elementləridir

İnsanlar öz seçimlərini institutlar mühitinin əsas ünsürləri olan normalar daxilində həyata keçirirlər. Normaların xeyli tərifi vardır. Yəni normaların nə olduğu haqqında vahid tərifi yoxdur. Normalar dedikdə insanların qarşılıqlı fəaliyyətinin baza tənzimləyiciləri nəzərdə tutulur. Müxtəlif hadisələr daxilində fərdin özünü aparmasını, onun davranışını normalar müəyyən edir. Belə ki, sərəncamların, göstərişlərin yerinə yetirilməsi könüllülük xarakteri daşıyır və ya o müəyyən sanksiyalar (sosial, iqtisadi, hüquqi) vasitəsi ilə həyata keçirilir. Deməli,

normalar dedikdə müəyyən sanksiyalar daxilində fərdlərin müntəzəm olaraq özlərini aparmaq qabiliyyəti nəzərdə tutulur.

Normalara bir tərif də verə bilərik: normalar fərdin qiymətlilik sisteminin gündəlik davranış qaydalarını əlaqələndirən vasitədir. Qeyd edək ki, normalar ilə orta kəmiyyət arasında prinsipial fərq vardır. Əgər normalar sosial mexanizm (qiymətlilik, sanksiyalar və s.) vasitəsilə reallaşdırılırsa orta kəmiyyətlərin sosial anlayışlarla əlaqəsi yoxdur. Orta kəmiyyətlər ancaq adi statistik hesablar vasitəsilə araya çıxarılır. Məsələn, görüşə gələn üçün orta gecikmə bilavasitə məlumat verir ki, insanların bir-birini görmək üçün qarşılıqlı görüşü vardır. Fransada belə bir adət vardır ki, qonaq təyin olunmuş vaxtda gəlməməlidir. Qonağın gecikmə müddəti 5-15 dəqiqə arasında ola bilər. Digər tərəfdən Fransada qonaq çağıranla qonaq arasında razılıq qarşılıqlı münasibətlər əsasında tənzimlənir.

Normaların strukturu nələrdən ibarətdir və normalar insanların davranışına nə cür təsir göstərə bilər? Hər şeydən əvvəl qeyd edək ki, normaların strukturunu aşağıdakı elementlər təşkil edirlər:

1) Atributlar (rəmzlər). Atributlar insanların qruplarını müəyyən edirlər. Normalar bu qruplarda yayılırlar;
2) Labüdlük, zərurilik amili (ola bilər, ola bilməz, olsun ki);
3) Məqsəd;
4) Normaların fəaliyyət göstərdiyi şərait;
5) Sanksiyalar.

Sanksiyalar hüquqi, hüquqi normalarda təsbit olunmuş, ostrakizmə (sürgünə) əsaslanan sosial xarakterli olurlar. Yuxarıda qeyd etdiyimiz normaların beş komponenti imkan verir ki, normaları müxtəlif hissələrə ayıraq. Göstərdiyimiz normalar aşağıdakı struktura malikdir:

Birgə strategiya = Atribut + Məqsəd + Şərait
Norma = Atribut + Təsbitetmə amili + Məqsəd + Şərait
Qaydalar = Atribut + Təsbitetmə amili + Məqsəd + Şərait + Sanksiya

Birgə strategiya vasitəsilə istənilən fokus xəttini göstərə bilərik. Əgər bir-birini itirmiş iki adamı axtarmaq üçün (şəhərdə, böyük mağazada) atribut faktı bir-birini itirmiş adamlar olacaqdır. Məqsəd isə bir-birini tapmaqdır, şəraitə isə gözə çarpan əlamətlər aiddir. Bu o gözə çarpacaq əlamətlərdir ki, onların əsasında bir-birini axtaranlar tapacaqlar. Sözün dar mənasında praktiki olaraq norma razılıqlar ilə üst-üstə düşür, çünki razılıqlar xalis könüllü xarakter daşıyırlar. Razılıqların könüllü yerinə yetirilməsi zamanı həlledici rola sanksiyalar malikdirlər.

Tədqiqat proqramı kimi institusionalizmin daxili pərakəndiliyinə və insanların davranışına mübahisələrin necə təsir edəcəyini normalar müəyyən edir. İş ondadır bu mübahisələr sosiologiya ilə iqtisadi nəzəriyyə arasında olan tarixi əlaqələrlə sıx surətdə bağlıdır. Sosiologiya Emil Dyurkqeym kimi normalarda insanların mütləq determinatda özlərini necə aparacaqlarını görür. Bunlar insanlara ekzogen xarakter daşıyan amil kimi verilir. Sosioloji insanın davranışı bütövlükdə cəmiyyətin strukturunun normaları ilə müəyyən olunur. Sosiologiyaya görə normalar cəmiyyətin xarakterindən irəli gəlir və onlar təkrar istehsal məsələlərinə tabedir. İqtisadçılar klassik məktəb dövründən başlamış normaların göstərdiyimiz formada qəbul olunmasını inkar edirlər. Çünki normalar seçim azadlığını aradan götürürlər.

İqtisadi adam öz seçimində normaların müəyyən etdiyi məhsullardan azaddır. Səmərəli fəaliyyət nəticə əldə etməyə yönəldilmişdir. Əgər fəaliyyət sosial normalar vasitəsi ilə tənzimlənirsə o zaman onlar əldə edilə biləcək nəticəyə istiqamətləndirilmir. Hətta ən mürəkkəb normalar belə əgər fərdlər normaların müəyyən etdiyi istiqamətlə gedirsə o zaman səmərəli davranış fərddən tələb edir ki, qeyri-müəyyənlik şəraitində

mürəkkəb hesablamalara əsaslansın. Məhz buna görə də iqtisadçılar fərdlərin seçimini institusional məhdudiyyət kimi inkar edirlər, ya da çalışırlar ki, normalara səmərəli izahat versinlər, daha dəqiq desək normalara iqtisadçılar davranış determinantının kənardan verilmiş bir amil kimi deyil, şüurlu seçimin nəticəsi kimi baxırlar.

Biz yuxarıda normaların təbiətini təhlil etmək məqsədilə "iqtisadi" və "sosial" yanaşmalardan istifadə etmişik. Bununla yanaşı müəyyən etmək lazımdır ki, metodoloji individualizmi və institusionalizmin determinantını müəyyən edən hansı yanaşma daha çox uyğun gəlir. İnstitusional nəzəriyyəyə görə birinci yanaşma ictimai seçim nəzəriyyəsinin əsasında dayanır. İkinci institusional nəzəriyyə normaları-razılıq iqtisadiyyatını təhlil edir. Razılıq iqtisadiyyatı metodoloji individualizm ilə institusional determinizmin arasında razılaşma (kompromis) iqtisadiyyatı axtararkən meydana çıxan bir cərəyandır.

Hər iki nəzəriyyəyə diqqət yetirək:

### İctimai seçim nəzəriyyəsi: normalar səmərəli seçimin nəticəsidir

İctimai seçim nəzəriyyəsi "səmərəli" normaları ifadə edən bir cəhddir. Yəni bu o deməkdir ki, normalarda insanlar səmərəli seçimi dərk edə bilsinlər. Deməli, səmərəli seçim modeli ilə normalara riayət edilməsi modeli arasındakı ziddiyyət götürülür. İctimai seçim nəzəriyyəsi hər şeydən əvvəl hüquqi normaları öyrənir. Bu hüququ normalar elə normalardır ki, onlar siyasi seçkilərin nəticəsini və qeydə alınmış hüququ öyrənir.

Hüquqi normaları izah etmək məqsədilə səmərəli seçimin neoklassik modelindən istifadə olunur. Xüsusi olaraq qeyd edilir ki, siyasət mürəkkəb institusional prosesdir. Bunun əsasında insanlar müxtəlif alternativ variantlar seçirlər, öz qiymətlilikləri ilə onları müqayisə edirlər. Belə ki, guya onlar bazarlarda əmtəələri seçirlər. Bu proses daxilində istənilən əmtəəyə

üstünlük verilir. Başqa sözlə desək, normalar və qaydalar o zaman təzahür edirlər ki, fərdlər qarşılıqlı olaraq siyasi bazarda fəaliyyət göstərsinlər. Buradan normaların aşağıdakı meyarı təzahür edir: onların səmərəliliyi.

Normalar o zaman səmərəli olurlar ki, onda onlar fərdi qiymətliliyə əsaslanır və fərdi maraqların qarşılıqlı faydalıq əsasında reallaşdırılmasına səbəb olurlar. Siyasi qarşılıqlı fəaliyyətdə bazarın müxtəlifliyini, normalarda isə əmtəələrin və xidmətlərin analoji obyektini görmək ictimai seçim nəzəriyyəsi üçün üç mərkəzi postulatın seçilməsinə imkan verir: metodoloji individualizm, bazar seçimi modeli, mübadilə konsepsiyasının siyasətə tətbiq edilməsi.

Qeyd edək ki, səmərəli seçim obyekti kimi bütün hüququ normaların hamısı çıxış edir. Buraya konstitusiyadan tutmuş qanuni aktlar da daxil edilir.

Beləliklə, F. Xayekin demokratik modelinə nail olunur. F.Xayekin demoqrafik modelinə görə dövlət quruluşu konstitusiyanın ardıcıl seçiminə, hökumətin verdiyi qanunlara və bürokratik aparatın daxili normalarının fəaliyyətinə əsaslanır. Lakin burada çətinlik meydana çıxır. Yəni optimal normalar seçilərkən ziddiyyətlərə rast gəlinir.

Səmərəli normalar razılığın, mübadilə edənlər arasında konsensusun olmasını tələb edir. Burada söhbət həmrəy razılaşmadan gedir. Demokratik çərçivələr daxilində reallaşdırılır. Hökumət modelinin əsasında dayanan hüququ seçim nümayəndələri normaların səmərəsini aşağı salır. İş burasındadır ki, seçicilər tərəfindən seçilmiş orqanların üzərində olan nəzarət biletsizlərin vəziyyəti kimidir.

Bütün vətəndaşlar maraqlıdır ki, nəzarət olsun, lakin heç kim maraqlı deyil ki, informasiyanın yayılması və emal edilməsi üçün müəyyən xərclər olsun. Bu xərclər eyni zamanda nəzarətin olmasını da təsdiqləyir. Belə bir şəraitdə lobbizm meydana gəlir. Bu zaman mənafelər cəmiyyətə deyil, ayrı-ayrı

qrupların təsirinə məruz qalaraq onların mənafeyinə xidmət edir.

Səmərəli normaların ardıcıl seçilməsi "axmaq sonsuzluqla" əlaqədardır. Məsələn, Konstitusyanı qəbul etmək üçün qabaqcadan seçim təşkil edilir. Başqa cür desək razılığa nail olmaq üçün irəlicədən konsensus təşkil etmək lazımdır.

Adi üsul üzrə normaların seçilməsi üstünlüyün nəyə verilməsini üzə çıxarır, səsvermə isə paradoksla toqquşur. (Kondors paradoksu, K.Errounun qeyri-mümkünlük nəzəriyyəsi). Kollektivin nəyə üstünlük verməsini müəyyən etmək lazımdır.

Belə bir misala müraciət edək: üç fərd A, B, C üç norma arasında seçim həyata keçirir - I, II və III hər bir fərdin üstünlük dərəcəsi normalar vasitəsilə matrisdə verilmişdir. I nisbətən üstün normadır, III isə nisbətən aşağı: Bax cədvəl 1.

**Cədvəl 1.**

| Üstünlük dərəcəsi | A | B | C |
|---|---|---|---|
| I | 1 | 3 | 2 |
| II | 2 | 1 | 3 |
| III | 3 | 2 | 1 |

Cədvəldən belə bir nəticəyə gələ bilərik ki, səsvermə gedişində cüt müqayisə zamanı birinci norma ikinciyə nisbətən üstünlüyə malikdir (çünki o aşağıdakı kimi – 2 səs artıq "qazanır": 3>1 əksinə olaraq 1>2, 2>3. Bu üstünlüyü A və B fərdləri seçir, B fərdi isə ikinci normanı birincidən üstün tutur. Lakin birinci normanı ikinci norma ilə müqayisə edəndə ziddiyyət yaranır. Bu o deməkdir ki, tranzitivlik əsasında birinci normanın seçilməsinə üstünlük verilməsi üçüncü normanın daha çox səs qazanmasına səbəb olur.

## Razılıq iqtisadiyyatı: normalar səmərəli davranışın ilkin şərtidir

Normaları səmərəli seçim modelinin köməyi ilə izah edərkən ictimai seçim nəzəriyyəsi üçün xüsusiyyət yaranır: razılıq iqtisadiyyatına görə normalar səmərəli davranışdan sonra gəlməlidir. Ancaq yaddan çıxarmamaq lazımdır ki, normalar irəlicədən verilir və onlar ekzogen xarakter daşıyırlar. Göstərdiyimiz müddəa ilk növbədə paradoks yaradır: səmərəli fəaliyyətin şərti kimi normaların yerinə yetirilməsində çıxış edir.

Belə bir cəhəti də qeyd edək ki, səmərəli seçim normaların yerinə yetirilməsi üçün şərt deyildir.

Paradoksu izah etmək yuxarıda göstərdiyimiz tələblə əlaqədardır. Yəni burada sövdələşmələrin səmərəli izahı verilməlidir. Razılıq iqtisadiyyatı tələb edir ki, normalar bazar iştirakçılarının interprativ səmərəliliyi kimi çıxış etsin. Belə bir perspektiv şəraitində fərdlər üçün normalar kontragentə qədər siqnalları çatdırmaq bacarığına malikdir. Fərdlər ona görə normaların tələbini yerinə yetirirlər ki, onlar normaların yerinə yetirilməsinin mütləq determinantı kimi çıxış edirlər. Buna ən yaxşı misal "nəticənin ikililiiyidir". Belə iki nəticə dedikdə bazarda qarşılıqlı fəaliyyətin modelləşdirilməsi nəzərdə tutulur. Ya da belə bir hadisəni yada salaq: ayrı-ayrı kameralarda iki şübhəli cinayətkar yerləşdirilmişdir. Əgər onlar boyunlarına alsalar ki, həmin cinayəti onlar törədiblər, onda hər ikisi A müddətinə məhkum olunacaqlar. Cinayətkarlardan biri öz təqsirini boynuna alsa o minimal B müddətini, ikincisi isə maksimum C müddətini alacaqdır. Birinci cinayətkar eyni zamanda müstəntiq ilə əməkdaşlıq etməlidir. Əgər hər iki cinayətkar öz təqsirlərini qəbul etməsə, onda hər ikisi D müddətini alacaqlar (əgər onların günahları tam sübut edilməzsə), yəni burada C>A>D>B .

Belə bir hadisə daxilində ən əlverişli variant ondan ibarətdir ki, hər iki cinayətkar cinayətlərini boyunlarına alsınlar. Lakin burada ən optimal variant hər iki şəxsin cinayəti inkar etməsidir. Burada qeyri-müəyyənlikdən qaçma elə bir şəraitdə ola bilər ki, hər iki cinayətkar özünü eyni norma daxilində apara bilsin, yəni təqsirini inkar etsin. Əgər birinci cinayətkarda baş verən hadisənin olmamasına inam yaranarsa, onda o zaman ikinci cinayətkar da cinayəti inkar etmək stimulu (həvəsi) yaranacaqdır. Qarşılıqlı ümid zəmanət verir ki, eyni normalar tətbiq edilsin. Məsələn, Siciliya mafiyasının üzvləri üçün "ikililik" mövcud deyildir. Çünki onlar bilir ki, şübhəli olan ikinci şəxs hökmən həmin normalar daxilində həbs olunacaqdır. Beləliklə, normaların qəbul olunması qarşıya qoyulan səmərəli məqsədə nail olmaq imkanı yaradır və eyni zamanda mümkün zərəri minimuma endirir.

İqtisadi imperializm əsasında normaların təbiətinin izah edilməsi razılıq iqtisadiyyatını ictimai seçim nəzəriyyəsindən fərqləndirir. Normaların təbiətini sosiologiya və germenevtika əsasında izah etmək dolaşıqlığa gətirib çıxarır. Razılıq iqtisadiyyatı təkcə hüququ və formal surətdə qeydə alınmış normaları tədqiq etmir, o məcmuu qeyri-normal razılıq sahələrini də tədqiq edir. Digər tərəfdən məcmuu qeyri-formal normalar oyunlar nəzəriyyəsinin əsasını təşkil edir. Bunun əsasında insanlar arasında olan bu və ya digər fəaliyyət həyata keçirilir. Deməli, razılıq iqtisadiyyatının universal bazar normalarının davranışı əvəzinə koordinasiya formalarının məcmuu, razılıqların cəmi ön plana keçir.

## Razılıqların tipləri

Müqavilələrin tipləri müxtəlif sferalarda fərdlərin fəaliyyətini tənzimləyir. Hər bir fərd öz gündəlik həyatında bu tiplərin hər hansı bir forması daxilində hərəkət edə bilər. Fərdlərin

fəaliyyətini tənzimləyən yeddi belə tip mövcuddur. Həmin tiplər aşağıdakı cədvəldə verilmişdir (bax: cədvəl 2).

**Cədvəl 2.**

| Müqavilələrin tipləri | Əsas davranış Normaları | Predmet dünyası | İnformasiyanın mənbəyi | Vaxt vektoru | Fəaliyyət sferasına misal |
|---|---|---|---|---|---|
| Bazar | Başqa fərdlərin tələbatını ödəmək məqsədilə faydalılığın maksimumlaşdırılması | Əmtəələr və pullar | Qiymətlər | Həqiqiliyə səmtləşmə | Klassik bazar |
| Sənaye | İstehsal proseslərinin fasiləsiz təin olunması, insanlar arasında qarşılıqlı fəaliyyətin texnologiyasının tələbərinə tabe etdirilməsi | Texnoloji avadanlıqlar | Standartlar | Gələcək sövdələşmələr bu günün layihələridir (planlaşma) | Hərbi-sənaye kompleksi |
| Ənənəvi | Təkrar istehsalı ənənəvi təmin etmək, yaşlılıq prinsipi | Ölkənin predmetləri | Adətlər, ənənələr | Sövdələş mələr keçmişin planlarıdır | Ailə |
| Vətəndaş | Fərdi maraqların kollektiv maraqlara tabe edilməsi, səmtləşmənin qarşılıqlı fəaliyyəti üçün Paretto optimumu mövcuddur | İctimai nemətlər | Qanun | Bu günə səmtləşmə | Siyasi sfera |
| İctimai rəy | Məşhurluğa nail olmaq, ictimai diqqətin cəlb olunmaşı | Nüfuz predmeti | Şaiə | Bu günə səmtləş mə | Kütləvi informasiya vasitələri |
| Yaradıcı fəaliyyət | Oxşarı olmayan novatorluq nəticəsinə nail olmaq | Kəşf etmək | Aydınlaşdırma, Işıqlandırma | Diskret bəxt | Yaradıcı fəaliyyət |
| Ekologiya | Təbiətin harmoniyasını təmin etmək, | Təbiət obyekt- | Bizi əhatə edən mü- | Vaxtın tsiklləri: | Təbiəti müdafiə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | insanların fəaliyyəti-nin ekologiyanın tələblərinə tabe etdi-rilməsi | ləri | hitin vəziyyəti haqqında informa-siya | təbiət tsiklləri | fəaliy-yəti |

Göstərdiyimiz cədvəli izah edək:

Müqavilə (razılaşma) elementi kimi predmet dünyası dedikdə maddi obyektlərin məcmuu vasitəsilə qarşılıqlı fəaliyyəti nəzərdə tutulur. Nəzərə alınarsa ki, informasiya qarşılıqlı fəaliyyəti həyata keçirmək üçün zəruridir, onda hər bir tipin spesifik xüsusiyyətləri vardır. Buna görə də biz hər bir tipin müxtəlif mənbələrinin izahını təshih etməliyik. Vaxt vektoru dedikdə isə müvəqqəti nəzərdə tutulan (indiki, gələcək və keçmiş) istiqamətlər nəzərdə tutulur. Fəaliyyət sferası dedikdə isə müəyyən bir əsas üzərində dayanan razılaşmalar nəzərdə tutulur. Bunlar şərti xarakter daşıyırlar. Məsələn, eyni bir bazar klassik bazar, ənənəvi bazar (lokal bazar, yarmarka), razılıq və ya ictimai fikrin rəyi (fond bazar) nəticəsində yarana bilər.

## Müqavilələrin nisbəti

Biz bu paraqrafda müqavilələrin (razılaşmaların) nisbətini şərh edəcəyik. Çünki bu problem çox mühümdür, ona görə ki, hər bir individ bütün razılaşmalar çərçivəsi daxilində fəaliyyət göstərə bilər.

O özünün razılığı ilə "müxtəlif oyun qaydaları" ilə oynaya, alıcı, vətəndaş, ixtisaslı kadr, nümunəvi ailə başçısı kimi çıxış edə bilər. Məsələ isə onunla qəlizləşir ki, bir çox fəaliyyət sferaları müxtəlif razılaşmalarla həmsərhəddir. Məsələn, hər hansı bir firma iki sövdələşmənin kəsişdiyi sərhəddədir. Onlardan biri bazar (məhsul satışı, qiymətlilik siyasəti və s.), digəri isə industriya (xüsusilə istehsal fəaliyyəti) istehsal edir. Xalis iqtisadi planda qovşuqda yerləşən razılaşmalarda ziddiyyətlər yaranır. Fərdlər bu ziddiyyətləri aradan qaldıra bilmirlər.

Digər tərəfdən isə fərdlər öz kontragentlərinə qarşı düzgün fikirlər irəli sürə bilmirlər.

Yuxarıda qeyd etdiklərimizlə əlaqədar olaraq razılaşmaların nisbətini aşağıdakı variantlar daxilində təhlil etmək olar:

1) Ekspansiya-razılaşmaların nisbətidir. Ekspansiyada qarşılıqlı təşkilatın fəaliyyəti başqa bir sferada fəaliyyət göstərib sonradan razılıqların normaları əsasında həmin sferaya qayıdırlar. Məsələn, siyasi sfera siyasi bazara çevrilə bilər. Belə bir şəraitdə vətəndaş normaları üzrə razılaşmalar bazar normaları vasitəsilə sıxışdırılır. Qeyd edək ki, bazar razılaşmaları çox qorxuludur. Bazar razılaşmalarının ekspansiyası cəmiyyətin sabit inkişafını pozur, cəmiyyətin sərvətini qeyri-bərabər bölür, onun özünü isə siyasi hakimiyyətin istifadə edəcəyi amillərə çevirir.

2) Təmas-eyni qarşılıqlı fəaliyyət göstərən sazişlər nisbəti ola bilsin ki, bir-birini inkar edən normalar əsasında həyata keçirilir.

Klassik misal olaraq qan verməni (donor) göstərək ki, bunu da ilkin olaraq K.Errou tədqiq etmişdir. Adətən qan ya pula görə verilir, ya da bazar əlaqələri bunu tələb edir. Qan pulsuz da verilir: bunun səbəbi əhalinin həmrəyliyidir. Belə bir vəziyyət onunla əlaqədardır ki, qan vermək üçün fərdlərin qarşılıqlı münasibəti yoxdur, digər tərəfdən isə fərdlər arasında qan vermək üçün qeyri-müəyyənlik mövcuddur.

Qan verməni aşağıdakı model vasitəsilə daha aydın göstərmək olar (bax: cədvəl 3):

**Cədvəl 3.**

B-müşahidə edən

| A-qanvermə (donor) | | Bazar razılığı | Vətəndaş razılığı |
|---|---|---|---|
| | Qan satmaq | "Realçı" | "Opportunist" |
| | Qanı pulsuz vermək | "Sadəlövhlük" | "Həmrəylik" |

Qarşılıqlı fəaliyyətdə müəyyənlik onunla izah olunur ki, qan verən və nəzarətçi eyni bir razılaşmanın tərkibindədir. "Başa düşməmək" və "qeyri-müəyyənlik" rənglənmiş kvadratlardadır.

3) Uzlaşma (kompromis) - uzlaşmanın nisbətidir. Uzlaşmanın nisbətində sintetik normalar meydana çıxır. Bu sintetik normalar müxtəlif razılıqlar arasında olan ziddiyyətləri aradan qaldırır. Məsələn, hər-hansı reklam cəmiyyəti çalışır ki, uzlaşmaya gedərək bazar razılaşmaları ilə ictimaiyyət arasında olan ziddiyyətləri tapsın. Başqa bir misal göstərək: iki razılaşma arasında olan uzlaşma zamanı fərd öz istehlakı zamanı nümayişcəsinə əmtəələrin istehlakı üçün lazım olan əmtəələrdən və xidmətlərdən əldə ediləcək maksimumlaşmadan deyil, tələb faktına ediləcək hörməti maksimumlaşdırırlar.

Qeyd etdiklərimizi cəmləşdirərək belə bir nəticəyə gələ bilərik ki, normalar səmərəli seçim məqsədilə institusional məhdudluğunun əsasını təşkil edir. Normalara səmərəli seçimin ilkin şərti və nəticəsi kimi baxmaq lazımdır. Başqa sözlə desək, səmərəli seçimə müəyyən normalar daxilində baxmaq lazımdır. Əgər o yoxdursa ən adi bazar transaksiyaları qeyri-mümkün olur.

## Səmərəlilik davranış normalarıdır

Səmərəli seçim modeli ilə davranış modeli normalarına istiqamətləndirilmiş ideyalar bir-birinə ziddiyyət təşkil etmirlər. Məhz normalara riayət etmək səmərəli seçim üçün şərt yaradır. Lakin əks tezisin əsaslandırılması hələlik həll olunmamışdır. Belə bir sual meydana çıxır: rasional seçim prosedurası xüsusi davranış normasıdır? Bu prosedura fərdin özünün fəaliyyətini şərh edə bilərmi? A fərdi öz biliyi ilə müəyyən edə bilərmi ki, B fərdi səmərəlidir? Onların birgə hərəkəti dərk edilirmi? B fərdi öz məqsədinə çatmaq üçün ondan istifadə edəcəkmi?

Göstərilən suallara cavab vermək üçün M.Veberin sosial tipologiya bölgüsünə müraciət edək  M.Veber davranışın dörd ideal tipini ayırır:

1) Məqsədəuyğun davranış. Burada qarşıya qoyulan məqsədə çatmaq üçün ətraflı düşünülmüş şərait və  vasitələr tələb olunur.

2) Qeyri-səmərəli davranış. Burada əsasən xaricdən verilmiş məqsədə çatmaq üçün şəraitdən istifadə etmək lazımdır. Əsas məqsəd dini, estetik, ideoloji cəhətlərin müəyyən olunmasıdır.

3) Ənənəvi davranış. Burada məqsəd və vəsaitlər xaricdən verilmişdir. Bu amillər ənənəvi xarakter daşıyırlar. Ənənəvi davranışa nail olmaq üçün uzunmüddət adət  və ənənələrə uyğunlaşmaq lazımdır.

4) Süni  davranış. Süni davranışda məqsəd və vəsaitlər verilmir. Davranışlar fərdin özünü emosional aparmasından, onun duyğularından və hisslərindən asılıdır.

Yuxarıda biz qeyd etmişdik ki, bazarda davranış qarşılıqlı səmərə əsasında həyata keçirilir. Məqsədəuyğun səmərəli davranış digər insanların davranışını da gözləyir. Ancaq bu şərt daxilində məqsədə nail olmaq üçün ondan istifadə edilir. Gözləmələr anlayışlara, izahatlara və ətrafdakı  adamların təklifinə əsaslanır. Əhatə  edənlərin səmərəli davranışı kömək edir ki, həqiqətən onların istədiklərini izah etmək və anlamaq olsun. Adi səviyyədə belə təklif daima axtarış forması alır və belə bir suala cavab verməyi ön plana keçirir. "Bu kimin üçün əlverişlidir"?  və  "Bu insanın mənafeyi kimin xeyrinədir"?  Həbsxanadakıların “ikili (dilemma)” situasiyası belə digər normalar üçün qəbul olunmur. Güman etmək olar ki, səmərəli davranış kömək edir ki, iki məhbus öz təqsirlərini uzlaşdırsın və nəticədə onların işi yüngülləşin və ya həbs vaxtı minimuma endirilsin. Məhbusların “dilemmasının” səmərəli həlli elə bir forma alır ki, hər iki məhbus təqsirnamə strategiyası olan "dişdişə" formulunu alır. Bu o vaxt real ola bilər ki, iştirakçıların

tam səmərəliliyi baş versin. Qarşılıqlı fəaliyyətin normalar daxilində səmərəli fəaliyyət modeli kimi istifadə olunması bir çox çətinliklər və məhdudiyyətlərlə əlaqədardır.

Səmərəliliyin dəqiqliyinin davranış normaları baxımından izahı üçün gətirilən dəlillər sosiologiya, eksperimental iqtisadiyyat tərəfindən formalaşdırılmışdır.

## Sosioloji dəlillər: səmərəliliyin ekzogen xarakteri

Sosioloq **Alfred Şyuts** səmərəliliyi insanların hər gün özünü bazarda necə aparması kontekti baxımından təhlil edir. O razılaşır ki, səmərəlilik prinsipi fərdin fəaliyyətinin ikili şərhinin əsasında dayanır. Səmərəli qarşılıqlı fəaliyyətdə fərd onu əhatə edən ətraf mühitin izahını düzgün verir və səmərəli olaraq onu qiymətləndirir. Lakin səmərəli qarşılıqlı fəaliyyət, sosial yeknəsəklik, fərdlərin maariflənməsi öz xarakterlərinə yaxın şəraitdə baş verə bilər. Lakin qarşılıqlı fəaliyyət o zaman mümkün ola bilər ki, sosial yeknəsək o sosial qrup daxilində baş versin. Gündəlik həyatda, eyni zamanda bazar razılaşmalarında iştirakçıların qarşılıqlı fəaliyyəti gec-gec baş verir. Buna görə də onlar razılıq üçün başqa yollar axtarırlar.

Məhz buna görə də gündəlik qarşılıqlı fəaliyyətin əsasında səmərəlilik deyil, əsaslandırılmış fəaliyyət dayanır. Onun tələblərinə görə fərdlər bir-birlərinə gülərüzlülüklə baxırlar. Məhz gülərüz təcrübə və sağlam fikir imkan verir ki, fərdlər bizi əhatə edən mühit haqqında həqiqi məlumat verə bilsin. Səmərəli fəaliyyət sözsüz ki, sağlam fikrin əsasını təşkil edir. Şyutsin fikrinə görə, "səmərəli fəaliyyət" modeli fərd tərəfindən tədqiqatlarda nəzərə alınır. Ona görə ki, informasiyanın qıtlığı bunu məcbur edir. Onlar üçün fərziyyə kimi xüsusi hadisələrin universal xarakterini irəli sürmək daha çox məqsədəuyğundur, nəinki səmərəli fəaliyyəti təbliğ edəsən. Başqa sözlə desək, rasional fəaliyyət fərdə izah edir ki, müşahidəçilərin hərəkəti və formal modelin qurulması çox da məqsədə-

uyğun deyildir. Ancaq fərdlərin özü səmərəli seçim modeli ilə məhdudlaşmırlar. Bununla belə onlar digərlərinin davranışını özləri üçün, özlərinin davranışını digərləri üçün izah edirlər.

Biz çalışacağıq ki, səmərəliliyin "elmi" və "gündəlik" mənalarının sərhədlərini müəyyən edək. Belə fərz edək ki, sonuncu, yəni “gündəlik” səmərəlilik fərdin davranış modelidir.

Digər bir sosioloq olan Harold Harfinkel göstərir ki, səmərəliliyin norma və model kimi aralarında olan fərqi müəyyən etmək üçün səmərəli fəaliyyətin aşağıdakı klassifikasiyalı ünsürlərindən (elementlərindən) istifadə etmək lazımdır.

1) Tipləşdirmək və hadisənin müqayisəsi;
2) Tipologiyanı quran zaman buraxılacaq səhvləri müəyyən etmək;
3) Məqsədə nail olmaq üçün vəsaitlərin axtarılması;
4) Fəaliyyətin alternativ planının və baş verəcək nəticələrinin təhlili;
5) Hər bir alternativin reallaşdırılması üçün şəraitin müəyyən edilməsi;
6) Son qərarın qəbul edilməsi üçün vaxtın müəyyən edilməsi;
7) Hadisələrin inkişafının qabaqcadan deyilməsi;
8) Qərar qəbul etmək üçün əməliyyatların müəyyən edilməsi;
9) Yığılmış təcrübə və informasiya əsasında seçimin həyata keçirilməsi;
10) Seçilmiş məqsədə və formal məntiqin prinsiplərinə uyğun olaraq məqsədə çatmaq;
11) Qərarların qəbul olunmuş semantik dəqiqliyinə çatmaq və ümumi qəbul olunmuş terminlərdən istifadə etmək;
12) Qəbul olunmuş qərarların dəqiqliyinə və birmənalılığa nail olmaq;
13) Elmi biliklərə uyğun situasiyaların uyğun olan tərifini vermək.

## Eksperimental iqtisadiyyat: empirik təkzib

Aşağıdakı nisbi tənqidi dəlillər, gündəlik davranış normaları eksperiment üçün zəruridir. Onlar məqsədəuyğun istiqamətləndirilmiş səmərəli seçim modelinin empirik yoxlanılması üçün zəruridir. Eksperimentin özü isə gündəlik davranış norması kimi gündəlik eksperimentlə əlaqədardır və onun məqsədi rasional seçim modelini empirik yoxlamadan keçirməkdir.

Eksperimental iqtisadiyyat elmin müəyyən bir sahəsində formalaşmışdır. Eksperimental iqtisadiyyat nəzəriyyənin geniş spektrli nəticələrini yoxlayır-nəzəriyyədən başlamış sahələr bazarına qədər.

Biz isə rasional seçim modelinə aidiyyəti olan tərəflərin təhlili üzərində dayanaq.

Beləliklə, bazar şəraitində səmərəli seçim tələb edir ki, fərdlər hadisələrin inkişafını öz məqsədlərinə uyğun şəkildə izah etsinlər. Bu zaman onlar elə variantlar seçirlər ki, o variantlar onlara gözlənilən faydanı gətirir. Riyazi yolla faydalılığın maksimum gözlənilməsini aşağıdakı formula ilə ifadə edə bilərik:

$$\max EU = pU(A) + (1-p)\,U(B)$$

Burada:

EU – gözlənilən faydalılıq;

p – A hadisənin ehtimalı;

(1−p) – B hadisənin ehtimalı;

U(A) – A hadisəsinin baş verdiyi zaman fərdin faydalılığı;

U(B) – B hadisəsinin baş verdiyi zaman fərdin faydalılığı.

Gözlənilən faydalılığın maksimumlaşdırılması fərddən tələb edir ki, o qabiliyyətli olsun, hadisələr inandırıcı və onların birgə gəlişi ehtimalı düzgün olsun. Lakin laboratoriya təcrübələri göstərir ki, fərdlərin qabiliyyəti adətən hadisələri qiymət-

ləndirəndə və onları hesablayanda ehtimal çox məhduddur. Bu məhdudluq xüsusilə aşağıdakı hədlərlə izah olunur.:

1) Hər şeydən əvvəl, hadisələr baş verdikdən sonra fərdlər öz ehtimallarına verdikləri qiyməti yoxlamırlar. Məsələn, onlar inandırıcı surətdə gözləyirlər ki, A hadisəsinin baş verməsi o deməkdir ki, hadisə 80% baş verəcəkdir.

2) Ehtimalcasına hadisələrin və onların qiymətləndirilməsi artıq bir çox təcrübənin yayılmış nəticəsidir. Nə qədər hadisələrin yeniliyi çox olarsa, bir o qədər səhvlərin artması ehtimalı da çoxalar.

3) Bu və ya başqa bir hadisənin qiymətləndirilməsi ehtimalı onun "nümayəndəsinin" funksiyasıdır, yəni hadisənin ehtimalı digər hadisələrin dərəcəsi ilə uyğundurmu, aydındırmı və ya onun yadda qalan elementləri əsasında digər hadisələrin xarakteristikası verilir.

4) Ehtimalın qiymətləndirilməsi hər şeydən əvvəl obyektiv deyil, subyektiv xarakter daşımır, onlar özbaşına optimizmə və ya pessimizmə əsaslanır.

5) Fərdlər onların fəaliyyətindən asılı olmayan hadisələri qiymətləndirirlər, guya bu hadisələrə onlar təsir edə bilərlər, yəni onların gəlişi ehtimalını dəyişmək olar.

Hadisələrin ehtimal qiymətlərinin mexanizminə baxaq. Bu sahədə əlverişli variant **A.Tverskiyə** və **J.Kanemana** məxsusdur. Bu alimlər öz təhlilləri zamanı aşağıdakı metoddan istifadə etmişdilər. Onlar hər-hansı bir adamdan müsahibə almışdılar. Sonralar isə verilmiş müsahibənin digər adamlarla üst-üstə düşəcəyini yoxlamışlar. Məlum olmuşdur ki, müsahibə alınan şəxsin bir başqa şəxslə uyğun gəlməsi əlavə keyfiyyətlərə malik olmalıdır. Məsələn, A,B, C və s. Belə suallar verilmişdir: Lalənin 20 yaşı var. O, çalışqandır, mədənidir, lakin dəqiq elmlərdə zəifdir. Məqsədəuyğun çalışır. Həyatda özünə aid olanlara nail olmaq istəyir. Bu sahədə o ancaq uğura nail olur. Hələlik Laləni uğur müşayiət edir. İndi isə 8 mükafatdan ibarət

əlavə təkliflər irəli sürülür. Onların düzgünlüyünü təxmini olaraq 1-dən 8-ə qədər qiymətləndirmək lazımdır:

1) Lalə bankda kassir işləyir;
2) Lalə universitetin hüquq fakültəsinin tələbəsidir;
3) Lalə əyləncə mərkəzində dincəlir;
4) Lalə yaxşı ev işləri bacarır, yaxşı yemək hazırlayır, bunu həmişə çox məmnunluqla yerinə yetirir;
5) Lalə axşam fakültəsinin geologiya şöbəsində oxuyur;
6) Lalə hüquq fakültəsinin tələbəsidir və eyni zamanda yaxşı yemək bişirir;
7) Lalə bankda kassir işləyir və axşam geologiya fakültəsində oxuyur;
8) Lalə qısa paltar geyinməyi sevir.

Lalənin portretini xarakterizə edən yuxarıdakı amilləri nəzərə almaqla onu 2-ci punktla, nisbətən isə 4-cü punktla təmsil etmək olar. Ehtimalların düzülüşünə görə isə özündə 2 punktu birləşdirə 2+4-lə təmsil edə bilərik. Bu da ona işarədir ki, Lalənin hüquq fakültəsinin tələbəsi olması az ehtimala malikdir. Lakin Lalənin yaxşı evdar olmasını belə xarakterizə edə bilərik: $P(2) > P(4) > P(2+4)$, $P(2+4)= P(2) + P(4)$. Lakin təcrübənin 80% - 90%-nin iştirakçıları (bunların arasında statistikanı öyrənən tələbələr də var) $P(2) > P(2+3) > P(3)$-ə nisbətən daha çox ehtimala malik olan 6 punktu əsas götürürlər (4 praktiki deyil).

Empirik nəticələrin müzakirəsindən sonra qeyd etmək olar ki, onların əsasında səmərəli davranışlar deyil, ideal səmərəli davranışlar dayanır ki, bunun da əsasında səmərəli seçim modeli dayanır, bu modelində elementlərindən fərdlər öz həyatlarında gündəlik istifadə etmirlər. Veberan ideal tipini təhsis etmək lazımdır, bu səmərəli modelə həqiqi əhəmiyyətə malik olan ünsürləri daxil edək .

**Tam olmayan səmərə nəzəriyyəsi:**

Səmərəli seçimin koqnitiv məhdudluğu.

Q.Saymonun natamam səmərəli nəzəriyyə modelini nəzərdən keçirdik və təkmil olmayan kalkulyator kimi onun tənqidinə də baxdıq. Bu nəzəriyyəni qəbul etməyənlər rasional seçim modelinin altı bəndinin alternativinin izahının səmərəli davranışını qəbul edirlər. Maddələrin hər bir modeli imkan verir ki, rasional davranış saxlanılsın (bax: cədvəl 4).

**Cədvəl 4**

| Səmərəli lik modelinin məhdudluğu | Məhdudluğun tipləri | Səmərəli davranışa bu məhdudiyyətlər necə təsir edir | Səmərəli davranışın imkanlıq şəraiti |
|---|---|---|---|
| Təyinatlılıq modeli | Məhdudluğun koqnitiv qabiliyyəti | Fərd optimal seçim deyil, irəlicədən verilən iki tapşırığın meyarını təmin edən birinci variant üzərində dayanır | Səmərəli modeli təmin edən rasional davranış üzərində dayanır |
| Xərclər modeli | İnformasiyanın çoxluğuna çəkilən xərclərin axtarışı | Fərd bütün alternativləri müqayisə etmir, o yeni alternativlər üçün xərcləri qiymətləndirir və bu alternativlərin gözlənilən faydasını gözləyir | İnformasiyanın axtarış xərcləri sıfıra bərabərdir |
| Ümid modeli | Kornitiv qabiliyyət məhdudluğu (C-D) uyğun gəlmir | Problemin həll edilməsinin çətinliyi və səhvlərin yüksək ehtimalı nəticəsində fərd optimallığı tapmaq üçün onun həllinə görə ilkin metodlara üstünlük verir | Fərdin komponenti (o) problemin mürəkkəbliyinə uyğun gəlir (D) |
| Robot modeli | Məhdudluğun koqnitiv məhdudluğu | Fərd robota bənzər iş görür, irəlicədən hazırlanmış proqram fəaliyyət göstərir. Robotların təkmilləşdirilməsi dərəcəsi proqramların sayından asılıdır | Problem xırda məsələlərin miqdarından asılıdır |
| Təhsil modeli | Koqnitiv bacarıq məhdudlaşıb | Fərd özünün və başqalarının səhvlərini düzəltməyə çalışır | Seçim situasiyası təkrarlanır. Yaddaş təkmilləşib |
| Təkamül modeli | Ümumi sayda fərdin özünü rasional aparması | Sosial ağıl norması genişləndikcə böyük uduş sahəsi genişlənir | Sosial ağılda normanın rasional yayılması |




**Sxem 14.3.**

Göründüyü kimi, səmərəli davranışdan məqsədəuyğun əməliyyata hərəkət etdikcə informasiyaya verilən diqqət mürəkkəbləşir və onun emalı qəlizləşir. Burada miqdar fərqinə fikir verilmir. İnformasiya eyniyyət təşkil etmir, onun emal təminatı bütün ünsürləri özündə əks etdirir (Bax: sxem 14.3).

Belə ki, səmərəli davranış üçün lazım olan bütün informasiya xarici stimulda cəmlənmişdir (məsələn, qəflətən meydana gələn arzu) və o birbaşa "stimul - reaksiya" modelinin davranışına təsir edir. Fərdə məqsədli davranış resurslar, maraq, imkan, məqsəd haqqında invformasiya verməlidir. Lakin bu müxtəlif informasiyalar çox mərhələli formalar alırlar. (bax: sxem 14.4, 14.5, 14.6).

## Məqsədin seçilməsi




**Sxem 14.4.**

## Qiymətlilik- rasional davranış




**Sxem 14.5.**

**Məqsədəuyğun davranış**




**Sxem 14.6.**

**Səmərəliliyə əsaslanan prosedura**

Müxtəlif qrafik şərh və qəbul olunmuş modellərin rolu göstərir ki, səmərəli seçimin həyata keçirilməsində prosedura (üsul) mühüm rol oynayır. Əgər fərdin rasionallığı çoxdursa səmərəli seçimin həyata keçirilməsi mürəkkəbləşir. Eyni zamanda çoxalır və buna uyğun olaraq informasiya da artır. Və əksinə, tam olmayan səmərə göstərir ki, fərd sadə alqoritmləri yerinə yetirir. Üsulların sadələşdirilməsi son nəticəyə təsir göstərir. Əgər tam səmərəliliyin nəticəsi optimal olarsa və o vahiddirsə belə bir şərait daxilində son nəticə alqoritmin qəbul etdiyi nəticədən asılı olacaqdır. Öz dərəcələrinə görə alqoritmlərin fərqlənməsi cəmi nəticələrin çoxluq imkanına uyğun gəlir. Məhz bu sahədə üsulların səmərəliliyi müəyyən məna kəsb edir. Bu termin son nəticənin qərarın qəbul etdiyi üsulun seçilməsinə imkan yaradır.

Beləliklə, bazarda müvazinətin vahid olması sual altına alınır: hətta fərdin özünün qəbul etdiyi eyni mənalı qərar burada iştirak etmir. Üsulların zəruriliyi ondan ibarətdir ki, iqtisadi imkanların modelləşdirilməsi imkanına yenidən baxsın. Marjinalistlərin postulatına söykənərək riyazi aparatla neoklassiklər hadisələrin təhlilini, fərdlərin qarşılıqlı fəaliyyətini səmərəli təhlil edə bilməzlər. Məsələn, maksimum informasiya məhdud-

luğu ilə xarakterizə olunan defisitli iqtisadiyyatda qarşılıqlı təsirin təhlilini Y.Kornai təklif edir ki, ənənəvi faydalılıq funksiyasının əhəmiyyəti tələb və təklif əyrisi vasitəsilə deyil, qrafiklər əsasında tərtib olunmuş bu və ya digər situasiyalar əsasında təhlil edilsin. Məsələn, müəssisənin alqoritmi əsasında əldə etdiyi xammal və onların kompleksləşdirilməsinin ümumi qrafiklə heç bir əlaqəsi yoxdur, eyni zamanda bu son məhsula da toxunmur (bax: sxem 14.7).




**Sxem 14.7.**

Sxemin bütün xətləri üzrə müsbət cavablar, qırıq-qırıq xətlər üzrə isə inkaredici cavablar verilmişdir.

**Nəticələr.** Belə ki, natamam səmərəlilik nəzəriyyəsini aşağıdakı kimi xarakterizə etmək olar. Birinci, səmərəlilik dərəcəsi qərarın qəbul ediləcəyi üsulun dərəcəsindən asılıdır, hadisələrin qiymətlər vasitəsi ilə təmsil edilməsi üsuludur və bu-

nun vasitəsilə fərd məsələlərin həllini sadələşdirir. İkinci, prosedurların çoxluğu qərar qəbul ediləndən sonra bizim fikrimizi "səmərəliliyə" doğru aparır. Bu proses razılıq iqtisadiyyatında daha geniş ifadə edilmişdir. Buna görə də normaların səmərəli yayılmasında "əsaslandırılmış təsir" termininin işlənməsi də çox məqsədəuyğundur. Nəticədə tam səmərəlilik son hadisəyə çevrilir.

## Oyunlar nəzəriyyəsi və qarşılıqlı təsirin modelləşdirilməsi. Oyunlar nəzəriyyəsinin əsas anlayışı

Oyunlar nəzəriyyəsi insanların mümkün fəaliyyətlərini, davranışlarını öyrənmək məqsədilə modellərdən istifadə edən tətbiqi riyaziyyatın bir qoludur. Oyunlar nəzəriyyəsi vasitəsilə insanların proqnozlaşdırılan və faktiki fəaliyyətləri, həmçinin onların optimal strategiyaları öyrənilir. Bu nəzəriyyə öz mənbəyini C. fon Neymanın və İ.Morqenşternin "Oyunlar nəzəriyyəsi və iqtisadi davranış" (1944) əsərindən götürmüşdür. Oyun məfhumu elə bir situasiyanı xarakterizə edir ki, orada hər bir iştirakçı ən böyük üstünlük uğrunda mübarizə aparır. İstənilən oyunda maraqların toqquşması baş verir. Maraqların toqquşması beynəlxalq münasibətlər sahəsində tez-tez özünü biruzə verir. Hər bir oyun situasiyasında hər bir iştirakçı digər iştirakçının atacağı addımla maraqlanır.

Oyunlar nəzəriyyəsinin məqsədi müəyyən sosial situasiyalardan rasional fəaliyyəti xarakterizə edərək, bu fəaliyyətin ümumi cəhətlərini müəyyən edən prinsipləri aşkar etməkdir. Rasional fəaliyyət beynəlxalq münasibətlərdə hər bir faktorun müəyyən dəyərlərinin və məqsədlərinin olmasını və bunlara əsasən səhvsiz hərəkət etməsini göstərir. Faktorlar riyazi formulların əsasında qərar qəbul edirlər.

Beləliklə, oyunlar nəzəriyyəsi təhlil metodu olmaqla yanaşı mümkün istiqamətlərdən ən optimal olanın seçilməsini tə-

min edir. Oyunlar nəzəriyyəsi bu və ya digər situasiyada hansı seçimin daha rasional olmasını müəyyən edir.

İnstitusional iqtisadiyyatda formal model oyunlar nəzəriyyəsi əsasında qurulur. Birinci, Oyunlar nəzəriyyəsi hadisələrin təhlili ilə məşğul olur; burada fərdlər qarşılıqlı səbəb-nəticələrə malik olurlar, hər bir hadisənin həlli qarşılıqlı təsirin nəticəsinə təsir edir və digər problemlərin həllində də iştirak edir. Öz fəaliyyətini həll edən fərd məcbur olur ki, özünü kontragentin yerinə qoysun. İkincisi, Oyunlar nəzəriyyəsi vahid, yeganə deyildir. Qarşılıqlı fəaliyyətdə Pareto optimal müvazinət olmasını inkar edir. Üçüncüsü, Oyunlar nəzəriyyəsi fərdin tam səmərəli olmasını inkar edir (təkmil kalkulyatordan tutmuş robot fərdə qədər). Bu səbəbdəndir ki, Oyunlar nəzəriyyəsi əsasında institutların formal modellərinin qurulması da nəzərdə tutulur.

**Bu modellərin təhlilinə yaxından baxaq**

İlk izahat kooperativ və qeyri-kooperativ oyunların dəqiqliyinin izahına aiddir. Kooperativ oyunlarda mübadilə iştirakçılar ilə formalaşan birliklər arasında, qeyri-kooperativ oyunlarda isə söhbət çıxış nöqtəsi olan iştirakçı fərdin təhlilindən gedir. Burada iştirakçılar və formalaşan qruplar arasında informasiya mübadiləsi yoxdur.

Oyunlar ya strateji baxımdan (matris metodu), ya da geniş formada ola bilər. Yuxarıda qeyd etdiyimiz məhbusların dilemmasına qayıdaq (bax: sxem 14.8).

İlk birinci rəqəmlər iştirakçının qarşılıqlı faydalılığını ifadə edir, ikincisi isə ikincini: $U_1$ (qəbul edək ki, ikinci qəbul edilmir) = 3. Yada salaq ki, burada söhbət “məhbusların” müxtəlif faydalılığından gedir. Bu da əks kəmiyyət təşkil edir.

Geniş formada




| | Təqsiri boynu-na almaq | Təqsiri qəbul etməmək |
|---|---|---|
| Təqsiri boynu-na alma | 1;1 | 3;0 |
| Təqsiri qəbul etməmək | 0;3 | 2;2 |

**Sxem 14.8.**

Oyunlar nəzəriyyəsi qərar qəbulu nəzəriyyəsinin inkişafıdır və buna görə o, ən azı iki rasional qərar qəbul edənin varlığını güman edir. Qərar qəbulu nəzəriyyəsindən fərqli olaraq oyun fərdlərin taleyinin yalnız öz aksiyasından deyil, başqalarının da aksiyalarından asılı olduğu zaman fərdləri birləşdirən qrup tərəfindən oynanılır. Bu oyunun əhəmiyyətli elementləri oyunçu, aksiya, informasiya, strategiya, ödəniş, nəticələr və tarazlıqdır. Oyunçu, aksiya və nəticələrə kollektiv olaraq oyunun qaydaları baxımından üstünlük verir və model hazırlayanların məqsədi tarazlığı müəyyənləşdirmək üçün oyunun qaydalarından istifadə etməkdir.

Oyunlar nəzəriyyəsi münaqişəli məqsədlər şəraitində aktyorlar arasında strateji interaksiyanı modelləşdirmək üçün olduqca faydalıdır. Çünki beynəlxalq ticarət oyunu iki və ya daha artıq rasional aktyorla əlaqəlidir, oyun nəzəriyyəsi qərar qəbulu nəzəriyyəsi yox, dövlətlərarası interaksiyanı modelləşdirmək üçün spesifik nəzəriyyədir. Bu nəzəriyyə üçün güclənən

iddialar onun tez inkişaf etməsi və abstraktlıq səviyyəsi ilə bağlıdır. Oyunlar nəzəriyyəsinin sözügedən xarakterləri mürəkkəb siyasi problemlərə aydınlıq gətirmək üçün model hazırlayanları gərəkli alətlərlə təchiz edir. Daha doğrusu, bu onunla bağlıdır ki, oyun nəzəriyyəsi insan davraşının daha dəqiq və yaxşı xüsusiləşdirilmiş nəzəriyyəsinə əsaslanır, bu nəzəriyyə empirik metodlarla tamamilə aydın olan (aksiomatik) sadə məntiqi struktur daxilində əməkdaşlıq və münaqişəni izah edən və proqnozlaşdıran müvafiq hipotezləri formalaşdırır.[23]

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1. İnstitusional iqtisadiyyat nədir?**

A) Sosial cərəyandır
B) Qlobal problemdir
C)) Formal və qeyri -formal qaydaların məcmusudur
E) Bunların hamısı doğrudur

**2. Yeni institusional iqtisadiyyatın hansı nümayəndəsi Nobel mükafatına layiq görülmüşdü:**

A) R.Fogel
B) B.Aliçan
C) K.Kuter
D)) D.Nort
E) E.Onori

**3. İnstitusionalizm kapitalizmi necə izah edirdi?**

A) İnhisarçılığa uyğunlaşmayan bir vasitə kimi
B)) İnhisarçılığa uyğunlaşdıran bir vasitə kimi
C) Dövlət kapitalizmi kimi
D) Xalq kapitalizmi kimi
E) Bunların hamısı

**4. İnstitusionalistlər kapitalist istehsal üsulunun iki tərəfini-məhsuldar qüvvələrlə istehsal münasibətləri arasında olan**

[23] Redaktor: Ronen Palan. Qlobal siyasi iqtisad (müasir nəzəriyyələr). "Routlebge" nəşriyyatı-2002, səh. 114.

**fərqi hansı kateqoriya vasitəsilə aradan götürməyə çalışırdılar?**

A) Hüquq
B) Ədalət
C)) İnstitusiya
D) Texnologiya
E) Sosiologiya

**5. C.Kommonsun hansı ideyaları Ruzveltin " yeni kurs" siyasəti proqramında öz əksini tapmışdır:**

A) Qarşılıqlı sosial güzəştlər
B) Müxtəlif ictimai mənafelərin barışdırılması
C) Bu gün mövcud olan gəlirin gələcəkdə qiymətləndirilməsinə dəyər deyilir
D)) Qarşılıqlı sosial güzəştlər və müxtəlif ictimai mənafelərin barışdırılması
E) Bütün cavablar doğrudur

**6. U.Mitçell tədqiqatlarında hansı metoda üstünlük verirdi:**

A) Modelləşmə
B) İnduktiv
C) Deduktiv
D)) Faktiki rəqəmlərin riyazi üsulla işlənməsi
E) Faktiki rəqəmlərin iqtisadi üsulla işlənməsi

**7."Fənlərarası yanaşma" dedikdə institusionalizm onu nəzərdə tuturdu ki;**

A)) Qeyri-iqtisadi hadisələr hesabına iqtisadi nəzəriyyə geniş mənada izah edilsin
B) Qeyri-iqtisadi hadisələr hesabına iqtisadi nəzəriyyə dar mənada izah edilsin
C) Kapitalizmin ziddiyyətlərinin yumşaldılması məqsədi ilə burjua dövləti mühüm rol oynamalıdır
D) Dövlətin rolunun aktivləşməsi məqsədilə proporsionallıq əsasında müxtəlif mənafelər hökuməti yaradılmalıdır
E) Heç biri

**8. İnstitusionalistlər klassik iqtisad elminin müddəalarını nədə tənqid edirdilər:**

A) Klassik iqtisad elminin nümayəndələrini iqtisadi müvazinətə artıq diqqət yetirdiklərinə
B) Bütün hadisələri sükunət halında öyrəndiklərinə
C) İqtisadi adam ideyasına və gerçəkliyi sadələşdirmələrinə
D) Faktiki materiallardan geniş istifadə etməklə kontret təhlil metodundan istifadə etdiklərinə
E)) Klassik iqtisad elminin nümayəndələrini iqtisadi müvazinətə artıq diqqət yetirdiklərinə, bütün hadisələri sükunət halında öyrəndiklərinə və iqtisadi adam ideyasına və gələcəyi sadələşdirmələrinə

**9. C. Kommons iddia edirdi ki,**

A) Bioloji fərdlərin mövcudluğu və yaşamaları təbii seçmə qanunauyğunluqların əsaslanır
B) Qiymət tələbin həqiqi həcmini müəyyən edir
C)) Hüquqi üsullar iqtisadi fəaliyyət üzərində nəzarət edir
D) Biznes fəaliyyətinin dairəsi keçmiş siniflərin maksimum mənfəət əldə etmək üçün etdiyi maliyyə maxinasiyasıdır
E) Bunların hamısı

**10. T.Veblenə görə:**

A) Bioloji fərdlərin mövcudluğu və yaşamaları təbii seçmə qanunauyğunluqların əsaslanır
B) Qiymət tələbin həqiqi həcmini müəyyən edir
C) Hüquqi üsullar iqtisadi fəaliyyət üzərində nəzarət edir
D)) Biznes fəaliyyətinin dairəsi keçmiş siniflərin maksimum mənfəət əldə etmək üçün etdiyi maliyyə maxinasiyasıdır
E) Bunların hamısı

**11. Transaksion xərclər istiqamətində hansı məktəbin nümayəndələrinin fikirləri olmuşdur:**

A) İnstitusionalizm
B) Klassik
C) Marksist
D) Neoklassik
E)) Bunların hamısı

**12. R.Kouz teoreminə əsasən mülkiyyətdən istifadə etmək nəticəsində meydana çıxan transaksion xərclər :**

A) Funksional xərclər

B) Əlavə xərclər
C) Xüsusi mülkiyyət rejiminin genişlənməsi ilə bağlı əmələ gələn xərclər
D) Dövlət vasitəsi ilə mülkiyyət hüquqlarının bölgüsünün əlaqələndirilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı xərclər
E)) Bunların hamısı

**13. R.Kouz teoremində əsas diqqət nəyə verilmişdir:**

A)) Mülkiyyət hüququnun bölüşdürülməsi ilə kənar effektlərin bazar iştirakçılarının daxili xərclərinə transformasiya olunması mümkünlüyünə
B) Mübadilə prosesində rasional sahibkarlıq fəaliyyəti üçün qazanc əldə etmək imkanına, əmək bölgüsünə əsaslanan ixtisaslaşmaya
C) İxtisaslaşma ilə əldə olunan qazancın transaksion xərclərin artımı hesabına heçə enməsinə
D) Kənar effektlərin pulla qiymətləndirilməsinin qeyri-mümkünlüyünə
E) Bunların hamısı

**14. Aşağıdakı iqtisadçılardan hansı traksaksion xərclər nəzəriyyəsinin əsasını qoyanlardandır:**

A) Q.Demsey D) D.Müller
B) R.Fogel E) K.Helson
C)) R.Kouz

**15. "İctimai seçim" nəzəriyyəsinin nümayəndələrini müəyyən edin:**

A)) Q.Tallok, D.Müller, M.Olson
B) D.Nort, R.Fogel, R.Helson
C) R.Kouz, R.Pozner, S.Bekker
D) R.Kouz, O.Yilyamson, A.Aliçian
E) Q.Demsey, K.Menar, C.Nayt

**16. "Köhnə" institusionalizmin tanınmış nümayəndəsini müəyyən edin:**

A) A.Alçian D) Q.Saymon
B)) T.Veblen E) R.Kouz

C) D.Nort

**17. İnstitusionalizmin nümayəndələri hansı elmlərin ideya və məlumatlarını fəal istifadə edərək, institutların və insanların davranışlarındakı cəhətlərin dərin təhlilinə çalışmışlar:**

A) Ekonometrika, İqtisadiyyat, tarix
B) Riyaziyyat, modelləşdirmə, statistika
C) Məntiq, psixologiya, sosiologiya
D)) Psixologiya, sosiologiya, antropologiya
E) Bunların hamısı

**18. Aşağıdakı nəzəri məktəblərdən hansının institusionalistlərlə bir sıra oxşar mövqedə duran nümayəndələri vardır:**

A) Keynsçilik
B) Monetarizm
C) Klassik
D)) Neoklassik
E) Merkantilist

**19. Neoinstitusionalizmin tanınmış nümayəndələrinə aiddir:**

A) R.Kouz
B) D.Nort
C) A.Alçian
D) A.Teveno
E)) Hamısı

**20. Neoinstitusionalislərin əsas nəzəriyyələri hansılardır:**

A) Mülkiyyət hüququ
B) Transaksion xərclər
C) İqtisadi hüquq
D) İctimai seçim
E)) Bunların hamısı

**21. Köhnə institusionalizm hansı əsrlərdə yaranmışdır:**

A) XVI – XVII
B) XVII -XVIII
C) XVIII – XIX
D)) XIX – XX
E) XX – XXI

**22. İnstitusionalizm öz inkişafında aşağıdakı mərhələlərin hansını keçmişdir:**

A)) Köhnə və yeni
B) Erkən və gecikmiş
C) Ənənəvi və müasir
D) Klassik və neoklassik
E) Radikal və liberal

**23. Köhnə institusionalizmin görkəmli nümayəndələrini müəyyən edin:**
A) T.Veblen
B) C.Kommons
C) U.Mitçell
D) C.Helbreyt
E)) Hamısı

**24. İnstitusionalizm aşağıdakı iqtisadi məktəblərin hansı ilə əlaqədə yaranmışdır:**
A) Avstriya
B)) Tarixi (alman)
C) Keynçilik
D) Klassik
E) Merkantilist

**25. İnstitusional istiqamətin iqtisadi təhlilinin predmetini nə təşkil edirdi?**
A) İstehsal dairəsi
B) İstehsal və tədavül dairəsi
C)) İqtisadi və qeyri-iqtisadi amillər
D) Mikroiqtisadiyyat
E) Tədavül dairəsi

**26. İctimai inkişafda iqtisadi və qeyri-iqtisadi amillərin vəhdətini və qarşılıqlı əlaqəsini əks etdirən istiqamət hansıdır?**
A)) İnstitusional-sosioloji
B) Neoklassik
C) Monetarizm
D) Neoliberalizm
E) Neokeynsçilik

**27. İnstitusionalizm nəyi öyrənir:**
A) Təsərrüfat subyektlərinin fərdi fəaliyyətini
B) İqtisadi fikrin sosial-tarixi istiqamətinin əsas metodoloji müddəalarını
C)Empirik tədqiqatı, statistik və tarixi informasiyaların yığımını
D) Millətin məhsuldar qüvvələrinin inkişafı üçün əlverişli şəraitin yaradılmasını
E)) Dövlətin, iri korporasiyaların, həmkarlar təşkilatının, inhisarların fəaliyyətini

**28. İnstitusional-sosioloji cərəyanın səciyyəvi xüsusiyyətləri arasında biri yanlışdır:**

A) Planlaşdırma vasitəsilə kapitalist istehsal üzərində sosial nəzarət ideyasının həyata keçirilməsi
B) Burjua cəmiyyətinin sosial problemlərinə diqqət verilməsi
C) İlkin institusionalizmin metodologiyasına xas olan texniki determinizmin güclənməsi
D))Onların ETT hesabına kapitalizmin çatışmamazlıqlarını aradan qaldırmağı mümkün hesab etməsi
E) Sosial problemlərin həlli üzrə praktiki tədbirlərin təklif olunması

**29. İnsanlar tərəfindən yaradılmış formal və qeyri-formal qaydaların məcmusudur ki, iqtisadi agentlər üçün məhdudiyyət, eləcə də onların yerinə yetirilməsinə və qorunmasına müvafiq nəzarət mexanizmi- bu:**
A) Qanunvericilik
B) Əxlaq qaydaları
C)) İnstitutlar
D) Ənənələr
E) Adətlər

**30. C. Kommonsa görə dəyər nəyə əsasən formalaşır?**
A)) "Kollektiv institutların" hüquqi razılığı
B) Qiymət amilləri
C) Əmək məsrəfləri
D) Dəyərlilik
E) Tələb və təklifin nisbəti

**31. U.K.Mitçellin iqtisadi təlimi hansı nəzəriyyənin əsasında dayanırdı?**
A) Son faydalılıq nəzəriyyəsi
B)) Böhransız tsikl konsepsiyası
C) Ç.Darvinin təbiətin təkamülü nəzəriyyəsi
D) Əhali məskunluğu nəzəriyyəsi
E) Müvazinətlik nəzəriyyəsi

**32. İnstitusionalizmin tədqiqat obyektinə aidir:**
A)) İqtisadiyyat üzərində "sosial nəzarət"
B) Sosializmlə konvergensiya vasitəsi ilə kapitalizmin transformasiyası
C) İqtisadi tarazlıq şəraitində tələb və təklifin təhlili

D) İqtisadiyyat üzərində "sosial nəzarət" və sosializmlə konvergensiya vasitəsi ilə kapitalizmin transformasiyası
E) İqtisadiyyat üzərində "sosial nəzarət" və iqtisadi tarazlıq şəraitində tələb və təklifin təhlili

**33. İnstitusionalistlər üçün ümumi olan prinsip hansıdır:**
A) Kapitalist iqtisadiyyatı üzərində sosial nəzarət
B) Təbii resursların səmərəli istifadəsini, istehsalın səmərəli təşkilini və ədalətli bölgünü həyata keçirmək
C)) Kapitalist iqtisadiyyatı üzərində dövlət nəzarətini həyata keçirmək
D) Kapitalist iqtisadiyyatının proqnozlaşdırmasını həyata keçirmək
E) Bütün sosial təbəqələrdən, əks mənafeləri barışdırmağı bacaran nüfuzlu dövlət yaratmaq

**34. İnstitusionallizmin inklişaf istiqamətlərini müəyyən edin:**
A) Psixiki- bioloji istiqamət
B) Sosial-hüquqi cərəyan
C) Emprik inkişaf
D) Sosioloji cərəyan
E)) Bunların hamısı

**35. "Absenteist mükiyyət və yeni dövrdə sahibkarlıq" əsərinin müəllifi kimdir:**
A)) T. Veblen
B) C.Kommons
C) U.Mitçell
D) R.Xautri
E) C.Robertson

**36. Bazar sabitliyini pul-kredit siyasətinin köməyi ilə təmin edilməsinin tərəfdarları kimdir:**
A) C.M.Keyns
B)) İ.Fişer
C) A.Piqu
D) A.Marşall
E) F.Bastia

**37. Dövlətin iqtisadi həyata nüfuz etməsi institsionalistlər tərəfindən necə izah olunurdu:**
A) İstehsal üzərində iqtisadi nəzarətin tətbiq edilməsi kimi
B)) İstehsal üzərində sosial nəzarətin tətbiq edilməsi kimi
C) İstehsal üzərində hüquqi nəzarətin tətbiq edilməsi kimi

D) İstehsal üzərində psixoloji nəzarətin tətbiq edilməsi kimi
E) İstehsal üzərində texnoloji nəzarətin tətbiq edilməsi kimi

**38. İnstitsionalizmin əsasını aşağıdakı iqtisadçılardan hansı qoymuşdur:**

A) C. Kommons
B) U.Miçell
C)) T.Veblen
D) U.Hamilton
E) C.Helbreyt

**39. C.Helbreyt praktiki məsələləri həll etmək üçün nəyi əsas götürürdü:**

A) Antropologiyanın sistematik tətbiqini
B) Psixologiyanın sistematik tətbiqini
C) Biologiyanın sistematik tətbiqini
D)) Texnikanın sistematik tətbiqini
E) Etikanın sistematik tətbiqini

**40. İnstitsionalistlərin metodologiyasının xarakterik xüsusiyyətləri:**

A) İnqilabi inkişaf yolunu dəstəkləmələri
B) Vahid dialektik metoddan istifadə olunması
C) Pul kütləsi artımının məhdudlaşdırılması
D)) İctimai inkişafın təkamül üsuluna üstünlük verilməsi
E) Bunların heç biri

**41. "Fənnlərarası yanaşma" konsepsiyası aşağıdakı iqtisadçılardan kimin əsərində üstünlük təşkil edirdi:**

A)) C.Kommonsun
B) U.Mitçellin
C) A.Piqunun
D) T.Veblenin
E) U.Hamiltonun

**42. U.Mitçellin iqtisadi konsepsiyasında üstünlük təşkil edən nəzəriyyə:**

A) Kütləvi istehlak cəmiyyəti
B) Fənnlərarası yanaşma
C) Ümumi rifah dövləti
D) Sosial darvinizm konsepsiyası
E)) Pul təsərrüfatı institutu

**43. Kapitalist "planlaşdırmasının" zəruriliyini irəli sürən iqtisadçı:**
A) T.Veblen
B)) U.Miçell
C) R.Taqvell
D) C.Kommons
E) S.Çeyra

**44. Gəlirlərin qeyri-bərabərliyini müəyyən edən amillərə aid deyildir:**
A)) İstehlakçıların üstünlük verimləri
B) Fitri istedad
C) Həyat boyu qazandığı təcrübə və təhsilin səviyyəsi
D) Əməyin intensivliyi
E) Bəxt, uğur

**45. Hansı nəzəriyyədə bazar mexanizmləri vasitəsilə əldə olunmuş amil gəlirlərinə xüsusi fikir verilir:**
A)) Libertalizm
B) Eqalitarizm
C) Utilitarizm
D) Monetarizm
E) Bunların hamısı

**46. Hansı nəzəriyyə gəlirləri bölüşdürərkən ən pis vəziyyətdə olanların rifahına xüsusi fikir verir:**
A) Libertalizm
B)) Eqalitarizm
C) Utilitarizm
D) Monetarizm
E) Bunların hamısı

**47. Hansı nəzəriyyəyə görə cəmiyyətin firavanlığı ayrı-ayrı fərdlərin nailiyyətlərindən ibarətdir, dövlət isə məcmu nəticələrin və rifahın orta səviyyəsinin maksimumlaşmasının qayğısına qalmalıdır:**
A) Libertarizm
B) Eqalitarizm
C)) Utilitarizm
D) Monetarizm
E) Bunların hamısı

**48. Utilitarizm doktrinasının müəllifi:**
A) E.Atkinson
B) F.Xayek
C) D.Byukken
D)) İ.Bentam
E) K.Marks

**49. Gəlirlərin formalaşması və bölgüsü prosesinə dövlətin aktiv müdaxiləsi nəyə gətirib çıxara bilər?**
A) Gəlirlərdə tam bərabərliyə
B) Gəlirlərin ümumi artımına
C) İşgüzar aktivliyin və səhmdarlıq təşəbbüskarlığının artmasına
D)) İşgüzar aktivliyin azalmasına və ələbaxımlıq əhval-ruhiyyəsinin meydana gəlməsinə
E) Gəlirlərin sabitliyinə
**50. Atkinson əmsalı göstərir:**
A) Gəlirlərin orta səviyyədən fərqlənməsi
B) Gəlirin faktiki bölgüsünün mütləq bərabər bölgüdən kənarlaşması
C) Əhali qrupları üzrə gəlirlərin qeyri-bərabərliyi dərəcəsi
D)) Cəmiyyətin üstünlük verimini nəzərə almaqla gəlirlərin qeyri-bərabərliyi
E) Real gəlirin nominal gəlirdən kənarlaşması
**51. Gəlirin effekti nə ilə əlaqədar meydana çıxır:**
A))Əmtəənin qiymətinin aşağı düşməsi (başqa amillərin bərabərliyi şəraitində) istehlakçının real gəlirini artırır
B) Əmtəənin qiymətinin qalxması, alıcının nominal gəlirini artırır
C) Koordinatın başlanğıcına etinasızlıq əyrisi qabarıqdır
D) Büdcə xətti mənfi istiqamətdədir
E) Bütün cavablar doğrudur
**52. Cəmiyyətin 10% ən varlı hissəsinin gəlirlərinin ən yox-sul 10%-nin gəlirlərindən neçə dəfə yüksək olduğunu göstərən əmsal-bu:**
A) Fondlar əmsalı
B)) Desil əmsalı
C) Kvinti əmsalı
D) Kvartil əmsalı
E) Variasiya əmsalı
**53. Hansı nəzəriyyə gəlirlərin qeyri-bərabərliyini ədalətli sayır, əgər bu insanların bacarıqlarının müxtəlifliyinə, iş**

**vaxtı və istirahətinin nisbətinə onların üstünlükveriminin müxtəlifliyinə və s. əsaslanırsa:**
A) Utilitarizm
B) Eqalitarizm
C)) Liberalizm
D)Monetarizm
E) Bunların hamısı
**54. Gəlirlərin yenidən bölgüsündə dövlət siyasəti istifadə edir:**
A) Maliyyə sistemini
B) Pul-kredit sistemini
C)) Vergiqoyma sistemini və transfertlər sistemini
D) Bank sistemini və vergi sistemini
E) Sığorta sistemini
**55. Utilitarizmə görə:**
A)) Cəmiyyətin məcmu rifahı və orta rifah səviyyəsi maksimumlaşmalı
B) Bazar mexanizmləri vasitəsilə əldə olunmuş amil gəlirlərinə malik olmalı
C) Yalnız qazanılmış gəlirə malik olmalı
D) Rəqabətli bazarda əldə olunmuş amil gəlirlərinə malik olmalı
E) Başlanğıc vəziyyətlərinin eyniliyi şəraitində rəqabətli bazarlarda əldə olunmuş amil gəlirlərinə malik olmalı
**56. İnsanın utilitarist rifahı nədir?**
A) Zövq almaq hissinin insanın həyat fəaliyyətinin son məqsədi olduğunu təsdiq edən fəlsəfədir
B)) İnsanın rifahının subyektiv qiymətləndirilməsidir
C) Cəmiyyətin bütün üzvlərinin fərdi rifahının cəmidir
D) Şəxsi keyfiyyətlərin bir fərddən digərinə ötürülməsi prosesidir
E) Öz şəxsi keyfiyyətləri ilə başqalarına təsir etməkdir
**57. Kreativ rifah nəzəriyyəsinin əsas aspektlərindən biri yanlışdır:**
A) Kreativ rifah iqtisadiyyatın mikro-makro səviyyələrində universal məqsədli göstəricidir

B) Kreativ rifah ictimai tərəqqinin ölçü meyarıdır
C) Kreativ rifah şəxsiyyətlərarası qarşılıqlı təsirin nəticəsidir
D) Kreativ rifah mütləq tələbatın ödənilməsi dərəcəsidir
E)) Kreativ rifah insanın rifahının subyektiv qiymətləndirilməsidir

**58. Ümumi iqtisadi tarazlığın ictimai rifahın maksimumlaşdırılması hesabına təmin edilməsi:**

A) İctimai və dini təşkilatlar
B)) Dövlət sahibkarlığı
C) İstehlak kooperativi
D) Səhmdar cəmiyyəti
E) Birgə fəaliyyət

**59. İctimai rifahın malik olduğu xüsusiyyətlərdən biri yanlışdır:**

A) Rifahın istifadəçilərinin sayının artması onun istehlakının individual həcmini heç kəs üçün azaltmır
B) Cəmiyyətin heç bir üzvünü ictimai rifahdan istifadə etmək imkanından məhrum etmək olmaz
C) Cəmiyyətin bütün üzvləri rifahdan eyni vaxtda istifadə etməyə başlayırlar
D) Rifahın faydalı effekti bir anlığa yayılır
E)) İnsanın ali fəaliyyəti nəticəsində əldə olunan rasional nəticələrə əsaslanır

**60. Ümumi rifahın multiplikator modelinin keynsçiliyin gəlirin multiplikatoru modelindən fərqi nədir?**

A)) Cəmiyyətin hər bir üzvünün onun ictimai əhəmiyyətini xarakterizə edən ayrıca multiplikatoru vardır
B) Makroiqtisadi göstəricilər qismində çıxış edən multiplikator yeganədir
C) Fərdlərin rifah səviyyəsinin ardıcıl dəyişməsinə müvafiq olaraq ümumi rifah dəyişilir
D) Bir fərdin rifahının birdəfəlik artması nəticəsində sonsuz zaman kəsiyində əldə olunmuş ümumi rifahın cəmi artır
E) Ümumi rifahın artmasının həmin fərdin rifahının birdəfəlik artımı dərəcəsinə nisbəti kimi çıxış edir

**61. Fərdlərin gəlirlərinin bərabərsizliyini şərtləndirən amillərdən biri yanlışdır:**
A) Ömür ərzində toplanmış insan kapitalı
B) Fərdin irsən aldığı amillər
C) Fərdin qərarın qəbul edilməsinə təsir edən bəxt
D)) Fərdin və onun əsas sosial-iqtisadi hüquqlarının sosial müdafiəsi
E) İnsanın məqsədə çatmaq üçün sərf etdiyi əmək səyləri
**62. Aşağıdakılardan hansı gəlirlərin bölüşdürülməsi haqqındakı neoklassik nəzəriyyələrə aid deyil:**
A) Əmtəələrin dəyəri və qiyməti arasındakı fərqin onların faydalılığı və başagəlmə xərcləri ilə müəyyən edilməsi
B) Gəlirlərin bölüşdürülməsinin makroanalitik təhlili konsepsiyası
C) Gəlirlərin istehsal amilləri nəzəriyyəsi
D)) Mənfəətin istehsal xərclərindən deyil, tələbatdan asılılığı meylinin formalaşması
E) Yuxarıda göstərilən konsepsiyaların riyazi modelinin verilməsi ideyaları
**63. Aşağıdakı meyarlardan hansı liberalizm nəzəriyyəsinə aiddir:**
A) Vəziyyəti ən pis olan qrupun rifahının maksimumlaşması
B) Cəmiyyətin məcmu rifahının maksimumlaşması
C)) Başlanğıc vəziyyətlərinin eyniliyi şəraitində rəqabətli bazarlarda əldə olunmuş amil gəlirlərinə malik olmaq
D) Rifahın minimum səviyyəsi müəyyənləşir və ilkin malik olmaya əsaslanan meyarlar tətbiq olunur
E) Orta rifah səviyyəsi maksimumlaşır
**64. Bir insanın fəaliyyətinin digərlərinin rifahına təsiri:**
A) Daxili təsirlərdir
B)) Kənar effektlərdir
C) Mənfi xarici effektlərdir
D) Müsbət xarici effektlərdir
E) Bunların hamısıdır

**65. Bir insanın fəaliyyətinin digərinin rifahına təsiri arzuedilməzdirsə, bu:**
A) Xarici effektdir D) Orta xarici effektdir
B) Müsbət xarici effektdir E) Hamısı düzdür
C)) Mənfi xarici effektdir
**66. Bir insanın fəaliyyətinin digərinin rifahına təsiri əgər müsbətdirsə, bu:**
A) Mənfi kənar effektdir D)) Müsbət kənar effektdir
B) Xarici effektdir E) Bütün cavablar düzdür
C) Orta kənar effektdir
**67. Alıcı və mal göndərənlər istehlakın və təklifin həcmi haqqında qərar qəbul edərkən xarici təsirləri nəzərə almazlarsa, onda:**
A)) Bazar tarazlığı pozular D) Mənfi xarici təsirdir
B) Bazar tarazlığı mənfidir E) Müsbət xarici təsirdir
C) Bazar tarazlıq vəziyyətindədir
**68. Xarici təsirlər səbəb olur ki:**
A) Həddindən artıq nemətlərin istehsalına
B) Sərvətin son faydalılığı artır
C)) Resursların qeyri-səmərəli bölgüsünə
D) Son faydalılıq azalır
E) Sərvətin ictimai faydalılığı dəyişmir
**69. Müsbət kənar effekt şəraitində:**
A)) Sərvətin son hədd faydalılığı onun ictimai son hədd faydalılığından aşağı olacaq
B) Sərvətin ictimai faydalılığı dəyişməzdir
C) Sərvətin qeyri-səmərəsiz bölüşdürülməsi
D) Son hədd xərclərinin azaldılması
E) Sərvətin son faydalılığı artır
**70. Gələcəkdə baş verəcək hadisələr haqqında informasiya çatışmazlığı:**
A) Riskə olan tələb
B) Riskə üstünlük verilməsi
C)) İqtisadiyyatda qeyri-müəyyənlik

D) Riskə olan təklif
E) Riyazi gözləmə

**71. İqtisadi subyektlərin informasiya dərəcəsi gələcək hadisələr haqqında məlumatlıdırlar, ancaq hansı hadisənin baş verəcəyi dəqiq məlum deyil:**

A)) Risk
B) Gözləmə
C) Neytral münasibət
D) Davranış norması
E) Davranış qaydası

**72. Sahibkarlıqda riskin səviyyəsini azaltmaq üçün istifadə olunan üsulu müəyyənləşdirin:**

A) Diversifikasiyanı həyata keçirməli
B) Faiz dərəcələrinin dəyişdirilməsinə olan münasibəti diqqətdə saxlamalı
C) Alqı-satqı öhdəlikləri ilə maliyyə fyuçersindən istifadə etməli
D) 3-6 aylıq ərzində müəyyən olunmuş qiymətlə qiymətli kağız kimi opsionların və əmtəələrin alqı-satqısını həyata keçirməli
E)) Bütün cavablar doğrudur

**73. Xarici təsirlər effektini tənzimləmək üçün korrektə olunmuş vergini kim təklif etmişdir:**

A)) A.Piqu
B) R.Kouz
C) V.Pareto
D) L.Valras
E) M.Fridmen

**74. Əgər cəmiyyət xarici effektlərə biganə qalarsa:**

A)) Əhalinin maddi rifahı aşağı düşər
B) Ekoloji vəziyyət gərginləşər
C) Sağlamlığa mənfi təsir göstərər
D) İqtisadi mənfəət əldə etməyə şərait yaradar
E) Taraz qiymətlər formalaşar

**75. Xarici effektin beynəlmiləlləşməsi:**

A)) Son hədd kənar xərclərin və xeyirlərin daxiliyə çevrilməsi
B) Xarici effektlərin ləğv olunması
C) Resursların bölgüsünün optimallaşdırılması
D) İqtisadi resursların səmərəliliyi

E) Düz cavab yoxdur

**76. Mənfi xarici effektlərin tənzimlənməsi üçün korrektə-edici vergilərin tətbiq edilməsini kim təklif etmişdir?**

A) R.Kouz
B) M.Fridmen
C)) A.Piqu
D) C.Keyns
E) V.Pareto

**77. A.Puquya görə rifah halı hansı komponentdən ibarətdir:**

A) İctimai və fərdi rifah
B) Rifah və həzz
C)) İqtisadi və qeyri-iqtisadi rifah
D) Rifah və ictimai faydalılıq
E) Qarışıq iqtisadiyyat

**78.Normaların struktur elementlərini müəyyənləşdirin:**

A) Atributlar
B) Məqsəd
C) Sanksiyalar
D) Labüdlük
E)) Bunların hamısı

**79. Aşağıdakılardan doğru olanını seçin:**

A) Norma= Atribut+ Məqsəd+ Şərait
B) Birgə strategiya = Atribut + Təsbitetmə amili+ Məqsəd + Şərait
C)) Qaydalar = Atribut + Təsbitetmə amili+ Məqsəd + Şərait + Sanksiya
D) Sanksiya = Labüdlük + Rəmzlər+ Məqsəd
E) Atribut = Məqsəd + Şərait+ Rəmzlər

**80. Fərdin qiymətlilik sistemi ilə onun gündəlik davranış qaydalarını əlaqələndirən vasitə. Bu:**

A) Qaydalar
B)) Normalar
C) Məqsəd
D) Sanksiya
E) Bunların hamısı

**81. Metodoloji individualizm və institusionalizm arasında kompromis iqtisadiyyatı axtararkən meydana çıxan cərəyan:**

A) Oyunlar nəzəriyyəsi
D) Firma nəzəriyyəsi

B) Pul nəzəriyyəsi E) Dövlət nəzəriyyəsi
C)) Razılıq nəzəriyyəsi

**82. Doğru olanı seçin:**

A)) Razılıq iqtisadiyyatı: normalar səmərəli davranışın ilkin şəraitidir
B) Razılıq iqtisadiyyatı: normalar səmərəli davranışın son şərtidir
C) Oyunlar nəzəriyyəsi: normalar səmərəli davranışın son həddidir
D) Dövlət nəzəriyyəsi: normalar səmərəli seçimin nəticəsidir
E) Bunların hamısı

**83. Normalar o zaman səmərəli olurlar ki;**

A)) O zaman onlar fərdi qiymətliliyə əsaslanırlar və fərdi maraqların qarşılıqlı faydalılıq əsasında reallaşdırılmasına səbəb olurlar
B) O zaman mənafelər cəmiyyətə deyil, ayrı-ayrı qrupların təsirinə məruz qalaraq onların mənafeyini təmin edir
C) Seçim obyekti kimi bütün hüquqi normaların hamısı çıxış edir
D) Seçim obyekti kimi bütün hüquqi normaların hamısı çıxış etmir
E) Fərdlər qarşılıqlı olaraq siyasi bazarda fəaliyyət göstərsinlər

**84. Hər bir oyunçunun müəyyən sayda strategiyası vardır. Bu:**

A)) Cəmi sıfıra bərabər olan oyundur
B) Cəmi sıfıra bərabər olmayan oyundur
C) Əməkdaşlıq oyunudur
D) Aksiomalı sövdələşmədir
E) Tam məlumatın olması oyunudur

**85. Tərəflərarası münasibətlər münaqişə ilə bərabər əməkdaşlıqla da xarakterizə olunur- bu:**

A) Cəmi sıfıra bərabər olan oyundur
B)) Cəmi sıfıra bərabər olmayan oyundur
C) Əməkdaşlıq oyunudur

D) Aksiomalı sövdələşmədir
E) Tam məlumatın olması oyunudur
**86. Bu oyunda hər bir oyunçu eyni məlumata malikdir:**
A) Cəmi sıfıra bərabər olan oyundur
B) Cəmi sıfıra bərabər olmayan oyundur
C) Əməkdaşlıq oyunudur
D) Aksiomalı sövdələşmədir
E))Tam məlumatın olması oyunudur
**87. Bu nəzəriyyə payın miqdarının tərəflər üçün məqsədəuyğunluğu müəyyən edir:**
A) Cəmi sıfıra bərabər olan oyundur
B) Cəmi sıfıra bərabər olmayan oyundur
C) Əməkdaşlıq oyunudur
D)) Aksiomalı sövdələşmədir
E) Tam məlumatın olması oyunudur
**88. Bu nəzəriyyə həyata keçirilə bilən müqavilələrin təsdiqlərini təqdim edir:**
A) Cəmi sıfıra bərabər olan oyundur
B) Cəmi sıfıra bərabər olmayan oyundur
C)) Əməkdaşlıq oyunudur
D) Aksiomalı sövdələşmədir
E) Tam məlumatın olması oyunudur
**89. İnsanın mümkün fəaliyyətlərini, davranışlarını öyrənmək məqsədilə modellərdən istifadə edən tətbiqi riyaziyyatların bir qoludur – bu:**
A) İctimai seçim nəzəriyyəsidir
B)) Oyunlar nəzəriyyəsidir
C) Razılıq nəzəriyyəsidir
D) Sabit pul nəzəriyyəsidir
E) İctimai rifah nəzəriyyəsidir
**90. "Oyunlar nəzəriyyəsi və iqtisadi davranış" əsərinin müəllifini müəyyən edin:**
A)) C. fon. Neyman və  O. Morqenştern
B) T. Veblen və  C.Kommons

C) U. Hamilton və C.Helbreyt
D) U.Mitçell və K.Errun
E) R.Kouz və D. Nort

**91. Hansı oyun rasional oyunçuların arasında əməkdaşlıq əsasında oynanılır:**

A) Əks maraqlarla olan oyunlar
B)) Eyni maraqlarla olan oyunlar
C) Qarışıq maraqlarla olan oyunlar
D) Cəmi sıfra bərabər olan oyunlar
E) Cəmi sıfra bərabər olmayan oyunlar

**92. Belə oyunlar elə bir şəraitdə olmalıdır ki, oyunçular əməkdaşlığın heç bir mümkünlüyünü görmürlər:**

A)) Əks maraqlarla olan oyunlar
B) Eyni maraqlarla olan oyunlar
C) Qarışıq maraqlarla olan oyunlar
D) Cəmi sıfra bərabər olan oyunlar
E) Cəmi sıfra bərabər olmayan oyunlar

**93. Bu oyunlarda həm əməkdaşlıq, həm də münaqişə mümkündür:**

A) Əks maraqlarla olan oyunlar
B) Eyni maraqlarla olan oyunlar
C)) Qarışıq maraqlarla olan oyunlar
D) Aksiomlu oyunlar
E) Əməkdaşlıq oyunlar

**94. Oyunçuların bir-birlərinin strategiya seçkilərini görə bilmədikləri və sanki eyni anda qərar verirlərmiş kimi oynadıqları oyunlar hansıdır?**

A)) Qüsurlu məlumatlı oyunlar
B) Strateji qarşılaşmalar
C) Tam məlumatlı oyunlar
D) Aksiomlu oyunlar
E) Rasional oyunlar

**95. Hər bir oyunçunun öz qazancını maksimum artırmağa çalışdığı oyunlar hansıdır:**

A) Qüsurlu məlumatlı oyunlar
B) Strateji qarşılaşmalar
C) Tam məlumatlı oyunlar
D) Aksiomlu oyunlar
E)) Rasional oyunlar

**96. Oyunçuların qərarları bir-birlərinin hərəkətlərindən qarşılıqlı olaraq təsirləndiyi çəkişmə:**

A) "Nash tarazlığı"
B) Razılıq nəzəriyyəsi
C) "Dustaqların dilemman" oyunu
D))Strateji qarşılaşmalar
E) Strateji raşılaşmalar

**97. Bu oyunda oyunçular öz fərdi strateqiyalarını və nəticə funksiyalarını digər oyunçular kimi bilməkdədir:**

A)) Tam məlumatlı oyunçular
B) Qüsurlu məlumatlı oyunçular
C) Rasional oyunlar
D) Aksiomlu oyunlar
E) Əməkdaşlıq oyunu

**98. Bu oyunlarda mübadilə iştirakçılar ilə formalaşan birliklər arasında gedir:**

A) Qeyri-kooperativ oyunlar
B)) Kooperativ oyunlar
C) Rasional oyunlar
D) Aksiomlu oyunlar
E) Əməkdaşlıq oyunlar

**99. Bu oyunlarda söhbət çıxış nöqtəsi olan iştirakçı fərdin təhlilindən gedir:**

A)) Qeyri-kooperativ oyunlar
B) Kooperativ oyunlar
C) Rasional oyunlar
D) Aksiomlu oyunlar
E) Əməkdaşlıq oyunlar

**100. Hər oyunçunun strategiyasının digər oyunçuların strategiyasına ən uyğun cavab olan strategiyalar profilidir. Bu:**

A)) "Nash tarazlığı"
B) Razılıq nəzəriyyəsi
C) "Dustaqların dillənməsi" oyunu
D) Razılıq nəzəriyyəsi
E) Gəlirlər nəzəriyyəsi

**101. Beynəlxalq siyasətdə oyunlar nəzəriyyəsinin əhəmiyyətini ilk dəfə kimlər göstərmişdir?**

A) Pareto, Veblen, Şubik
B) Kommons, Mitçell, Şubik

C) Hamilton, Mitçell, Şubik
D)) Morqenştern, Doytç, Şubik
E) Kouz, Qelbreyt, Şubik

**102. Mülkiyyət:**

A) İnsanların əşyaya münasibətidir
B) Əşyanın özüdür
C)) Əşyaların mənimsənilməsi ilə əlaqədar insanların bir-birinə münasibətləridir
D) Əşyanın icarəyə verilməsidir
E) Muzdlu əməkdir

**103. Mülkiyyət hüququ:**

A) Nemət üzərində müstəsna fiziki nəzarət hüququdur
B) Nemətlərin istifadə olunmasında əldə olunan nəticələrə sahib olmaq hüququdur
C) Nemətin kim və necə istifadə etməsi qərarını qəbul etmək hüququdur
D)) Bütün cavablar doğrudur
E) Nemətin məhv edilməsi hüququ

**104. Mülkiyyət tərəfindən qeyri-kommersiya xarakterli funksiyaların yerinə yetirilməsi məqsədilə yaradılan və onun tərəfindən tam və ya qismən müəyyənləşdirilən təşkilatdır:**

A) Hüquqi şəxslərin birliyi
B)) Təsisat
C) İstehlak kooperativi
D) Dövlət müəssisəsi
E) Bunların hamısı

**105. Hansı mülkiyyət formasının yayılması ilə əlaqədar "Firmanın menecer nəzəriyyəsi" meydana gəlmişdir?**

A) Bələdiyyə mülkiyyəti
B) Kollektiv mülkiyyət
C) Kooperativ mülkiyyət
D)) Səhmdar cəmiyyəti
E) İntellektual mülkiyyət

**106. Vətəndaşların maraq ümumiliyi zəminində qeyri - maddi tələbatların ödənilməsi məqsədilə könüllü birliyidir:**

A) Təsisat
B) Hüquqi şəxslərin birliyi

C) İstehlak kooperativi
D) Səhmdar cəmiyyəti
E)) İctimai və dini təşkilatlar

**107. İnstitutsiya baxımından formal qanunlar və qeyri-formal qaydalar hansılardır?**

A) Transaksion xərclər konsepsiyası
B) Mübadilənin şəxsləndirilməsi
C) İtkiləri minimumlaşdırmaq
D) İctimai rifah uyğunsuzluğu
E)) Konstitutsiya qanunvericilik, mülkiyyət hüquqü, ənənələr, adətlər, əxlaqi qaydalar

**108. İqtisadi agentlər arasında iqtisadi nemətlərin, hər şeydən əvvəl iqtisadi resursların mənimsənilməsi üzrə münasibətlər:**

A) Mənimsəmə
B)) Mülkiyyət hüququ
C) İstifadəetmə
D) Sahibkarlıq qabiliyyəti
E) Sahibkar mənfəəti

**109. Mülkiyyət iqtisadi kateqoriya olmaqla yanaşı, həm də:**

A)) Hüquqi kateqoriyadır
B) Fəlsəfi kateqoriyadır
C) Qanuni kateqoriyadır
D) İctimai kateqoriyadır
E) Heç biri düz deyil

**110. Azərbaycan Respublikası Konstitusiyasının hansı maddələrində mülkiyyət hüququ təsbit edilib?**

A)) 29 və 30-cu bəndlərində
B) 25 və 31-ci bəndlərində
C) 27 və 31-ci bəndlərində
D) 26 və 30-cu bəndlərində
E) 26 və 32-ci bəndlərində

**111. Özünü başqa insanın və ya canlının yerində hissetmə bacarığı, başqasının dərdinə şərik olma hissi:**

A) Sosial həssaslıq
B) Özünü dərketmə
C) Sərbəstlik
D)) Empatiya
E) Aleksitimiya

**112. Empatiyanın əksi:**

A) Sərbəstlik
B) Diqqətlilik
C) Emosional intellekt
D)) Aleksitimiya
E) Nüfuzetmə

**113. Çolemana görə emosional intellektə hansı sahələr daxildir?**

A) Özünü dərketmə
B) Özünü idarəetmə
C) Sosial həssaslıq
D) Sərbəstlik
E)) Bunların hamısı

**114. Empatiya terminini elmə kim gətirmişdir:**

A)) E.Titçener
B) U.Helbreytin
C) C.Neyman
D) X.Volf
E) U.Hamilton

**115. Koqnitiv empatiya nəyə əsaslanır:**

A) Emprik psixologiyaya
B) Epifenomenolizmə
C) Proyeksiya mexanizmlərinə
D)) İntellektual proseslərə
E) Erqanomikaya

**116. Doğru olanını seçin:**

A) Empatiya növləri- emosional, psixologiya, fenomen
B)) Empatiya növləri- emosional, koqnitiv, predikativ
C) Empatiya növləri- erqanomika, predikativ, hissiyyat
D) Empatiya növləri- predikativ, erqonomika, həssaslıq
E) Empatiya növləri: sərbəstlik, həssaslıq, emosional

**117. Hüquq obyektinin, hüquq subyektinin, bu subyektin malik olduğu hüquqlar dəstinin habelə onlara riayət olunmasını təmin edən mexanizmin müəyyənləşdirilməsi nədir?**

A) Mülkiyyət hüquqlarının yox olması
B))Mülkiyyət hüquqlarının spesifikləşdirilməsi
C) Mülkiyyət hüquqlarınınstrukturlaşdırılması
D) Mülkiyyət hüquqlarının müstəsnalığı
E) Mülkiyyət hüquqlarının alternativliyi

**118. Mülkiyyət hüquqlarının strukturlaşdırılmasının mümkün üsulu kimi səlahiyyətlərin aşağıdakı növlərindən doğru olanını seçin:**

A) Əşyanı istifadə etmək hüququ

B) Bu əşyanın istifadəsindən gəlir əldə etmək hüququ
C)Əşyanın fiziki formasını və substansiyasını dəyişmək hüququ
D)Göstərilən səlahiyyətləri digər şəxsə vermək hüququ
E))Bunların hamısı

**119. İstər eyni əllərdə cəmlənə, istərsədə bir neçə iqtisadi agentlər arasında bölünə bilən səlahiyyətlər dəsti arasında doğru olanı seçin:**
A) Gəlirə hüquq
B) Vədəsizlik
C) Əşyanın varislik üzrə verilmə hüququ
D) Kapitala hüquq
E))Bunların hamısı

**120. Bu nemətin bağışlanması, satışı, formasının dəyişdirilməsi və ya ləğv edilməsi imkanını nəzərdə tutur:**
A) Əşyanın varislik üzrə verilməsinə hüquq
B) İdarəetmə hüququ
C) Təhlükəsizliyə hüquq
D)) Kapitala hüquq
E) İstifadə etmə hüququ

**121. Bu, səlahiyyət əşyanı borcun ödənilməsinə özgəninkiləşdirmək, əmlakı girov kimi istifadə etmək imkanı verir:**
A)) Cəza şəklində məsuliyyət
B) Yekun hüquqlar
C) Zərərli istifadəyə qadağa
D) Təhlükəsizliyə hüquq
E) Əşyanın varislik üzrə verilməsinə hüquq

**122. Bu səlahiyyətlərin həyata keçirilməsində hansısa vaxt hüdudlarının olmasını bildirir:**
A) Əşyanın varislik üzrə verilməsinə hüquq
B) İstifadə hüququ
C)) Vədəsizlik
D) İdarəetmə hüququ
E) Cəza şəklində məsuliyyət

**123. Bu, gəlirlər axınına zərərli təsirdən müdafiə olunmağı nəzərdə tutur.**
A) Kapitala hüquq
B) Zərərli istifadəyə hüquq
C))Təhlükəsizliyə  hüquq
D) Əşyanın varislik üzrə verilməsinə hüquq
E) Yekun hüquqlar
**124. Cəmiyyətdə qəbul edilmiş mülkiyyət hüquqları və azadlıqların mübadiləsi, özgəninkiləşdirilməsi və mənimsənilməsidir- bu:**
A) Sövdələşmə
B) İdarəetmə
C) Rasionallaşdırma
D)) Transaksiya
E) Razılıq nəzəriyyəsi
**125. Aşağıdakı təsnifatlar arasında transaksiya xərclərinin növünü müəyyən edin:**
A) İnformasiya axtarışı və alternativlərin aşkar edilməsi
B) Danışıqların aparılması və kontraktların bağlanması
C) Mülkiyyət hüquqlarının spesifikləşdirilməsi və müdafiəsi
D) Opportunist davranış
E)) Bunların hamısı
**126. T.Eqqertson D.Nortun yanaşmasına əsaslanaraq xərclərin növlərini müəyyən edin:**
A) İnformasiya axtarışı
B) Üçüncü şəxslərdən qoruma
C) Müqavilənin aparılması
D) Monitorinq
E)) Bunların hamısı
**127.  Nemətlərin alınması zamanı meydana çıxan ölçmənin transaksiya xərclərindən asılı olan növünü müəyyənləşdirin:**
A)) Tədqiq olunan, təcrübi, etibar olunan
B) Tədqiq olunmayan, təcrübi, etibar olunmayan
C) Vacib ölçülü, çəki sistemi, ixtisaslaşdırılmış
D) İxtisaslaşdırılmamış, müxtəlif ölçülü, çəki sistemli

E) Tətqiq olunan, çəki sistemli, müxtəlif ölçülü

**128. Fərdlərin iqtisadi maraqlarının üst-üstə düşməsi, qeyri müəyyənlik, məhdud səmərəlilik nəticəsində meydana çıxır-bu:**

A) Spens modeli
B) Stimullaşdırıcı müqavilə modeli
C)) Opportunist davranış xərcləri
D) Akerlof modeli
E) Bunların hamısı

**129.O. Uilyamson aktivlərin spesifikliyinin hansı tipini ayırır:**

A) Yerləşmənin spesifikliyini
B) Ticarət markası kapitalı
C) Fiziki aktivlərin spesifikliyi
D) Məqsədin spesifikliyi
E)) Bunların hamısı

**130. Spesefik aktivlərə investisiyaların həyata keçirilməsini tələb etməyən trasaksiyaların reallaşdırılması zamanı daha səmərəlidir:**

A) Üçtərəfli idarəetmə
B)) Bazar idarəetməsi
C) İkitərəfli idarəetmə
D) Birtərəfli idarəetmə
E) Bunların hamısı

**131. Müqavilədən sonrakı opportunist davranışa səbəb olur.**

A) Gizli fəaliyyətlər
B) Gizli informasiyalar
C) Subyektiv risk
D) Boyun qaçırma
E)) Bunların hamısı

**132. Birdəfəlik transaksiyaların həyata keçirilməsi zamanı zəruridir: Bunların səmərəliliyi spesifik aktivlərin istifadə edilməsi ilə yüksəlir ki, bu da münasibətlərin fasiləsizliyinin vacibliyini qabaqcadan müəyyən edir:**

A) Bazar idarəetməsi
B) Birtərəfli idarəetmə
C))Üçtərəfli idarəetmə
D) İkitərəfli idarəetmə
E) Müntəzəm idarəetmə

**133. Transaksiyaların bazardan inzibati qərarların əsasında reallaşan firma hüdudlarına keçirilməsini nəzərdə tutan idarəetmə:**
A) Bazar idarəetməsi
B)) Birtərəfli idarəetmə
C) Üçtərəfli idarəetmə
D) İkitərəfli idarəetmə
E) Müntəzəm idarəetmə
**134. Müqavilədən sonrakı opportunist nümunəsi:**
A)) Subyektiv risk
B) Özünü seçmə
C) Gizli niyyət
D) Siqnallar
E) Spesifik aktiv
**135. Subyektiv riskin aradan qaldırılmasının bir üsulu:**
A) Əmək müqaviləsi
B))Stimullaşdırıcı müqavilə
C) Tənzimləyici müqavilə
D) İcarə müqaviləsi
E) Bunların hamısı
**136. Aşağıdakı amillərdən hansı informasiya axtarışı və alternativlərin müqayisəsi xərclərini aşağı salmaq üçün istifadə olunur:**
A) Gizli səciyyələr
B) Subyektiv risk
C)) Siqnallar
D) Gizli informasiya
E) Spesifik aktiv
**137. İnformasiyanın axtarışı və alternativlərin müqayisə edilməsi xərclərinin aşağı salınmasının alətləri hansıdır?**
A) Yarmarkalar
B) Birjalar
C) Siqnallar
D) Marketinq agentləri
E)) Bunların hamısı
**138. Bazarda tərəflərdən biri digərinin əlinin çatmadığı xüsusi informasiyaya malik olur- bu:**
A) İnformasiya axtarışı
B) Alternativlərin müqayisəsi
C) Alternativlərin aşkar edilməsi
D)) İnformasiya asimmetriyası
E) Bunların hamısı
**139. Gizli iqtisadiyyata aiddir:**
A) Qismən bəyan edilən fəaliyyətlər

B) Kriminal gizli sektor
C) Bəyan edilməyən fəaliyyətlər
D) Qeyri-formal fəaliyyətlər
E))Bunların hamısı

**140. Kriminal "istehsal termini" ilk dəfə nə vaxt işlənmişdir:**

A) 1980
B) 2002
C))1993
D) 1994
E) 1992

**141. Dövlətdən gizliliyi məqsədli xarakter daşıyan qeyri-kriminal iqtisadi fəaliyyətləri əhatə edir. Bu:**

A) Kriminal istehsal
B))Yeraltı istehsal
C) Qeyri-formal sektor istehsalı
D) Statistik müşahidə proqramlarının yetərsizliyindən müşahidə olunmayan istehsal
E) Bunların hamısı

**142. Gizli iqtisadi fəaliyyətləri əhatə edir bu:**

A) Yeraltı istehsal
B) Yerüstü istehsal
C)) Kriminal istehsal
D) Qeyri-formal sektor istehsalı
E) Bunların hamısı

**143. Bazara çıxarılmayan və şəxsi istehlak məqsədli təsərrüfat fəaliyyətlərini əhatə edir:**

A)) Şəxsi istehlak məqsədli ev təsərrüfatı istehsalı
B) Statistik müşahidə proqramlarının yetərsizliyindən müşahidə olunmayan istehsal
C) Kriminal istehsal
D) İctimai istehlak məqsədli bazar təsərrüfatı istehsalı
E) Yerüstü istehsal

**144. Dövlətdən gizliliyi məqsədli xarakter daşımayan qeyri-kriminal iqtisadi fəaliyyətləri əhatə edir.**

A) Kriminal istehsal
B) Yeraltı istehsal
C)) Qeyri-formal sektor istehsalı
D) Ev təsərrüfatı istehsalı
E) Bunların hamısı

**145. "Müşahidə edilməyən iqtisadiyyatın ölçülməsi: Mavi kitab" aşağıdakı təşkilatlarının hansı tərəfindən nəşr edilir:**
A) BMT
B) BVF
C) İƏİT
D) MDB
E)) Bunların hamısı

**146. İqtisadiyyatın faktiki qeydə alınmış hissəsi xaricdə qalan və milli statistika xidmətlərini qeydə almaqda çətinlik çəkdikləri bütün iqtisadi fəaliyyətləri özündə birləşdirən anlayış:**
A)) Müşahidə edilməyən iqtisadiyyat
B) Müşahidə edilən iqtisadiyyat
C) Gizli iqtisadiyyat
D) Açıq iqtisadiyyat
E) Bunların heç biri

**147. Əgər qaydanın zamini rolunda qaydanı yerinə yetirilməli hesab edilən istənilən fərd çıxış edirsə, onda institut:**
A) Formaldır
B)) Qeyri-formaldır
C) Normaldır
D) Qeyri-normaldır
E) Fərdidir

**148. Əgər qaydanın icrasına məcburiyyət yalnız (və ya fərdlərin sabit qrupunun) həyata keçirdiyi ixtisaslaşdırılmış fəaliyyətdirsə, onda institut:**
A)) Formaldır
B) Qeyri-formaldır
C) Normaldır
D) Qeyri-normaldır
E) Fərdidir

**149. İnsan davranışının çərçivələrini müəyyən edən başlıca sosial, siyasi və iqtisadi qaydaların məcmusudur:**
A) İqtisadi institut
B) Konstitutsiya
C)) İnstitsional mühit
D) İnstitsional saziş
E) Kooperasiya

**150. Kooperasiya və rəqabətin üsullarını müəyyən edən fərdlər və ya onların qrupları arasında razılaşmalardır:**
A) İqtisadi institut
B) İnstitsional mühit
C)) İnstitsional saziş
D) Müqavilə
E) "Prinsipial" agent

**151. Tərəflər arasında könüllü bağlanan və onların fəaliyyətlərini qarşılıqlı hüquq, öhdəlik və onlara əməl edilməsi mexanizmlərinin müəyyən edilməsi yolu ilə koordinasiya edən sazişdir:**
A) İnstitusional mühit
B) "Prinsipial" agent
C)) Müqavilə
D) İqtisadi institut
E) İnstitusional saziş
**152. İnstitutlar iki əsas funksiyanı yerinə yetirir.**
A) Stimullaşdırıcı və tənzimləyici
B)) Bölüşdürücü və koordinasiya
C) Nəzarətedici və aşkarlıq
D) Tənzimləyici və nəzarətedici
E) Böıüşdürücü və tənzimləyici
**153. Qərarların qəbul edilməsi prosesində məhdud səmərəli fərdin resurslara qənaət etmək üsuludur:**
A) Müqavilə
B))Qayda
C) Saziş
D) Norma
E) Adresat
**154. Aşağıdakılardan hansı qaydanın konponentləridir:**
A) Tətbiq situasiyası
B) Tapşırılan fəaliyyət
C) İcra etməyə görə sanksiyalar
D) Zamin
E)) Bunların hamısı
**155.Qaydalar daxili məcburetmə mexanizminə malikdirbu:**
A))Vərdişlər və ya fərdi
B) Müqavilə və ya öhdəlik
C) Sosial və ya iqtisadi
D) Koordinasiya və ya adresat
E) Formal və ya qeyri-formal
**156. Bağlanma üsuluna görə müqavilə**
A) Könüllü razılaşdırılmış
B) Münasibətli, klassik
C) Neoklassik, institsionalist
D)) Eksplisit, implisit
E) Tam, natamam

**157. Aşağıdakılardan hansı müqavilələrin növlərinə aiddir:**
A) İmplisit (qeyri-aşkar)
B) Münasibətli
C) Neoklassik, klassik
D) Eksplisit (aşkar)
E))Bunların hamısı

**158. Tamdır və mübadilə predmetinin və onun həyata keçirilməsi şərtlərinin səciyyələrinin spesifik xüsusiyyətlərini tamamilə göstərir:**
A) Münasibətli müqavilə
B)) Klassik müqavilə
C) Aşkar müqavilə
D) Qeyri-aşkar müqavilə
E) Neoklassik müqavilə

**159. Yüksək qeyri-müəyyənlik şəraitində bağlana və reallaşa bilər.**
A)) Münasibətli müqavilə
B) Klassik müqavilə
C) Aşkar müqavilə
D) Qeyri-aşkar müqavilə
E) Neoklassik müqavilə

**160. Razılaşmanın icrası dövrü ərzində onların gələcək fəaliyyətlərini müəyyən edən tərəflərin bir-birinə qarşılıqlı öhdəlikləridir:**
A) İmplist müqavilə
B) Natamam müqavilə
C) Tam müqavilə
D)) Eksplisit müqavilə
E) Klassik müqavilə

**161. Müqavilənin bağlanması nəzərdə tutur ki, onda sazişin bütün əhəmiyyətli parametrləri təsbit oluna bilər.**
A) Natamam müqavilə
B) Aşkar müqavilə
C) İmplist müqavilə
D)) Tam müqavilə
E) Eksplist müqavilə

**162. Qarşılıqlı vədlər deyil, məhz kimləsə qarşılıqlı fəaliyyətdə olan fərdin, rəqibin gələcək fəaliyyətinə nəzərən gözləmələridir:**
A)) İmplist  müqavilə
B) Klassik müqavilə
C) Eksplist müqavilə
D) Natamam müqavilə
E) Neoklassik müqavilə

**163.  İcraya  məcburetmə üsuluna görə müqavilə növləri:**
A)) Klassik, neoklassik, münasibətli

B) Neoklassik, eksplist, implist
C) Klassik, natamam, tam
D) Natamam, münasibətli, tam
E) Münasibətli, aşkar, qeyri-aşkar

**164. Firmanın fəaliyyət aktivliyinin artmasına təkan verən xarici şərtlər hansılardır?**

A) Bazarın inhisara alınması
B) Qeyri-mükəmməl rəqabət
C)) Mükəmməl rəqabət
D) Bazarın dövlət tərəfindən tənzimlənməsi
E) Qiymətin dövlət tərəfindən tənzimlənməsi

**165. Firma nədir?**

A) İnsanların birgə təsərrüfat fəaliyyəti üçün birləşməsidir
B)) Bazar iqtisadiyyatında biznes fəaliyyətinin əsas strukturu həlqəsidir
C) Dövlətin təsis etdiyi müəssisədir
D) Gəlir əldə etmək üçün yaradılan təsərrüfatlar
E) Aktiv fəaliyyətdə olan müəssisədir

**166. İqtisadi nəzəriyyədə formalaşmış firma haqqında konsepsiyalar:**

A)) Neoklassik, institusional, bixeviorist, təkamül
B) Sahibkar, dövlət, liderliyə can atmaq
C) İqtisadi artım, mənfəətin maksimumlaşması
D) Herfindal - Xrişman indeksi, menecerial hücüm
E) Təmərküzləşmə indeksi, gözləmə, müdafiə

**167. Firmanın strategiyası hansı tipə ayrılır?**

A)) Hücum və müdafiə
B) Hücum və gözləmə
C) Risk və hücum
D) Gözləmə, bazar, hücum
E) Hamısı doğrudur

**168. Firma haqqında ənənəvi nəzəriyyə:**

A) Firmanın fəaliyyətinin idarə ådilməsi
B) Menecer nəzəriyyəsi
C)) Mənfəətin maksimumlaşdırılması
D) Son faydalılıq nəzəriyyəsi

E) Son hədd xərcləri nəzəriyyəsi

**169. Firmada məhsulun qiyməti son hədd gəlirindən, son hədd gəliri isə son hədd xərclərindən yüksəkdirsə, onda firma mənfəətini maksimallaşdırmaq üçün:**

A) Qiyməti endirməli və məhsul istehsalını azaltmalıdır
B)) Qiyməti azaltmalı və məhsul istehsalını artırmalıdır
C) Məhsul istehsalını azaltmalıdır
D) Məhsul istehsalını artırmalıdır
E) Qiyməti qaldırmalıdır

**170. Firmanın davranış nəzəriyyəsi hansı ölkədə geniş yayılmışdır?**

A) ABŞ-da
B) Almaniyada
C)) Yaponiyada
D) İtaliyada
E) Fransada

**171. Baumol və Uilyamson hansı nəzəriyyənin müəllifləridir?**

A)) Menecerial firma nəzəriyyəsi
B) Ənənəvi firma nəzəriyyəsi
C) Davranış nəzəriyyəsi
D) Artımın maksimumlaşdırılması nəzəriyyəsi
E) Düzgün cavab yoxdur

**172. Ənənəvi firma nəzəriyyəsinə alternativ olan nəzəriyyələr:**

A) Neoklassik, neokeynsçilik, neoliberalizm
B) Merkantilizm, fiziokratizm, marksizm
C)) Menecerial nəzəriyyə, artımın maksimumlaşdırılması, davranış nəzəriyyəsi
D) İnstitutsional-sosioloji, marjinalizm, monetarizm
E) Neoklassik, marjinalizm, monetarizm

**173. Təkmil rəqabətin şərti deyil:**

A) Firmaların sahəyə heç nə ilə məhdudlaşmayan girişi və çıxışı mövcuddur

B) Sahə bazarında bir-birindən asılı olmayan çoxsaylı istehsalçı firmalar fəaliyyət göstərir və digər tərəfdən çoxsaylı istehlakçı mövcuddur
C) Sahə məhsulu differensiasiya olunmayıb
D)) Firma qiymət ayrı-seçkiliyi apara bilmir, yəni firmanın məhsulu bütün istehlakçılara eyni bir qiymətə satılır
E) Hər firmanın təklif etdiyi məhsul təklifin cüzi hissəsini təşkil etdiyindən bazar onun bütün məhsulunu cari bazar qiymətləri ilə qəbul etməyə hazırdır

**174. Göstərilənlərdən hansı təkmil rəqabətin şərtlərinə aid deyil ?**

A) Bazara sərbəst daxilolma
B) Çoxlu sayda satıcı və alıcılar
C) Bazardan sərbəst çıxma
D) İstehlakın diversifikasiyası
E)) İstehsalın diversifikasiyası

**175. Firmanın U.Baumol modelində hansı göstərici maksimumlaşdırılır?**

A) Mənfəət
B) Artım tempi
C)) Satışın həcmi
D) Firmanın təşkili səviyyəsinin dəyişilməsi
E) Kapitalın mərkəzləşdirilməsi

**176. Fəaliyyətinin məqsədi mənfəət əldə edilməsi olmayan və əldə edilən mənfəəti iştirakçılar arasında bölünməyən qurumdur:**

A) Dövlət müəssisəsi
B) Unitar müəssisə
C)) Qeyri-kommersiya təşkilatı
D) İstehsal kooperativi
E) Bunların hamısı

**177. Firmanın resurs məhdudluğu hansı modeldə öz əksini tapır?**

A)) "İstehsal imkanlarının həddi" modelində
B) Merris modelində
C) Uilyamson modelində

D) Klassik sahibkarlıq modelində
E) İstehsal funksiyası modelində

**178. Aşağıdakılardan hansı kommersiya danışıqlarında istifadə olunan iflas dəlilidir:**

A) Qanunlar, qaydalar, yol sənədləri
B) Şahidlər və şahidlərin ifadələri
C)) Faktların saxta hesabatları
D) Eksperimental nəticələrin təsdiqi
E) Bunların hamısı

**179. İştirakçıların maddi və başqa tələbatlarının ödənilməsi məqsədi ilə vətəndaşların və hüquqi şəxslərin könüllü birlikləridir:**

A) İctimai-dini təşkilatlar
B)) İstehlak kooperativi
C) Dövlət müəssisəsi
D) Səhmdar cəmiyyəti
E) Əlavə məsuliyyətli cəmiyyət

**180. Vətəndaşların və hüquqi şəxslərin könüllü əmlak ödənişləri əsasında yaranan və öz fəaliyyətində ictimai faydalı məqsədlər güdən üzvlüyü olmayan təşkilatlardır:**

A) Təsisat
B) Artel
C) Unitar müəssisə
D) Fiziki şəxslər birliyi
E)) Hüquqi şəxslər birliyi

**181. Firmanın strategiyasına aiddir:**

A) İşgüzar strateqiya
B) Portfel strateqiya
C) Funksional strateqiya
D) İnnovasiya strateqiyası
E)) Bütün sadalananlar doğrudur

**182. Firmanın bərabər hüquqlu bazar əlaqələri necə adlanır?**

A) Daimi əlaqələr
B) Uzunmüddətli əlaqələr
C)) Üfüqi əlaqələr
D) Müvəqqəti əlaqələr
E) Qısamüddətli əlaqələr

**183.Ev təsərrüfatları gəlirlərinin yerinə yetirdiyi funksiyaları müəyyənləşdirin:**

A) İstehlak
B) Yığım
D) Bölüşdürücü
E)) Bunların hamısı

C) Həvəsləndirici

**184. Ev təsərrüfatlarının gəlirlərində təcəssüm olunan istehlak şeylərinin həcmi hansı formula ilə ifadə olunmuşdur:**

A)) $Ə_1$ = W- ($F_f$ + $İ_x$) + $İ_d$

B) A = ($K_1$ - $K_q$) / $X_m$

C) AD = ( M + V ) / P

D) $M_1$ = M / Q

E) D = $D_1$ / (1 + r)

**185. Sosial transfertlərin fərqləndirici cəhəti nədən ibarətdir:**

A)) Onların ödənilməsi prosesində ödəyicinin əvəzində bilavasitə heç bir əmtəə və xidmət tələb etməməsidir

B) Ödənilməsi prosesində ödəyicinin əvəzində əmtəə və xidmətlər tələb etməsidir

C) Şəxsi gəlirlərin mənimsənilməsinin iqtisadi cəhətdən düzgün təşkil olunmasıdır

D) Şəxsi gəlirin əsas hissəsinin necə

E) Bunların heç biri

**186. Dövlət özünəqədərki təşkilatlardan hansı əlamətlərinə görə fərqlənir.**

A) İdarəetmə aparatından ibarət olan təsisat və orqanların yaradılması

B) Qohumluq və ya icma əlaqələrinin ərazi əlaqələri ilə əvəz olunması

C) Müntəzəm surətdə vergi qoyulmasının həyata keçirilməsi

D) Gözlənilməsi dövlət orqanları təfərindən təmin olunan hüquq sisteminin məcburi normaların tətbiq olunması

E)) Bunların hamısı

**187. Dövlət termini meydana gələnə qədər dövlət mənasında hansı anlayışdan istifadə olunmuşdur:**

A) Parlament

B))Respublika

C) Krallıq

D) Monarxiya

E) Knyazlıq

**188. Aşağıda adları çəkilən mütəfəkkirlərdən hansıları mütləqiyyəti dövlətin hüquqi formalarından biri kimi əsaslandırırdı:**

A) Russo, Kant
B) Kant, Hegel
C)) Lokk, Kant, Qumbolt
D) Hobbs, Lokk
E) Kant, Yaspers

**189. Aşağıda adları çəkilən mütəfəkkirlərdən hansıları dövləti zəka və mənəviyyat forması hesab edirdi:**

A) XIX-XX əsrlər-Yaspers
B)) XVIII əsr maarifçiləri, Kant
C) XVIII əsrdə Russo, Kant
D) Kant, Ş. Hekel
E) Lokk, Qumbolt

**190. Dövlət mexanizminin ən ümumi xarakterik əlamətlərini müəəyən edin:**

A) İdarəetmə ilə məşğul olan adamlardan ibarətdir
B) Orqan və təsisatların mürəkkəb sistemidir
C) Maliyyə vəsaitləri ilə təmin edilir
D) Vətəndaşların hüquq və mənafelərini etibarlı təmin edir
E)) Bunların hamısı

**191. Dövlət mexanizminin daha səmərəli fəaliyyətini təmin edən prinsipləri müəyyənləşdirin:**

A) Vətəndaşların mənafelərının təmin edilməsi
B) Aşkarlıq və açıqlıq
C) Dövlət orqanlarının peşəkarlığı və səriştəliliyi
D) Vətəndaşların müxtəlif mənafelərinin, dini əqidələrinin, milli mədəniyyətinin, adətlərinin azadlığı
E)) Bunların hamısı

**192. Həmin mərhələdə Şərqdə olduğu kimi Avropada da dövlətin monarxiya və imperiya formaları möhkəmləndi, hakimiyyətin arxaik ictimai və hərbi-feodal strukturu formalaşdı:**

A) II mərhələ
B) I mərhələ
C)) III mərhələ
D) IV mərhələ
E) Heç biri

**193. Dövlət təşəkkülünün hansı mərhələsi orta əsrləri və yeni dövrün başlanğıcını əhatə edir:**
A) I mərhələ
B)) II mərhələ
C) III mərhələ
D) IV mərhələ
E) Heç biri

**194. Dövlətin funksiyasına daxildir:**
A) Sosial
B) Siyasi
C) Müdafiə
D) Ekoloji
E)) Hamısı

**195. Siyasi sistemində dövlətin xüsusi yeri hansı amillərlə şərtənir:**
A) Dövlət bütün ölkə miqyasında yeganə təkhakimiyyətli təşkilatdır
B) Dövlət cəmiyyətin inkişafının əsas istiqamətlərini hamının və hər kəsin mənafeyinə uyğun olaraq müəyyən edir
C) Dövlət ölkə daxilində rəsmi təşkilatdır
D) Dövlət beynəlxalq aləmdə rəsmi təşkilatdır
E)) Bunların hamısı

**196. "Gənc dövlətlərdə sahibkarlıq ruhunun olmamasının əsas səbəbi burada yaşayan insanların anadangəlmə təbii xüsusiyyətləri ilə bağlı olmayıb, ölkədəki mövcud adət - ənənələrin və institutların yaratdığı məhdudiyyətlərlə əlaqədardır". Bu fikir hansı iqtisadçıya aiddir:**
A) R.Kantilyon
B) A.Smit
C) V.Zombart
D)) F.Xayek
E) Y.Şumpeter

**197. İnnovasiya fəaliyyətinin növlərini müəyyənləşdirin:**
A) Texniki hazırlıq və istehsalın təşkili
B) Yeni məhsulların marketinqi
C) İstehsalın layihələşdirilməsi
D) Patentlərin, lisenziyaların alınması
E)) Bunların hamısı

**198. Yüksək səmərəliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtisarının son nəticəsi-bu:**
A) Marketinq
B)) İnnovasiya
C) Lizinq
D) Menecment
E) İntellektual mülkiyyət
**199. Y.Şumpeterin fikrincə, müvazinətə təsir edən amillər hansıdır:**
A)) Kortəbiilik və diskresion
B) Avtomatik və diskresion
C) Dinamik və kortəbii
D) Praktiki və kütləvi
E) Texnoloji və avtomatik
**200. Aşağıdakı əsərlərdən hansı Y.Şumpeterə aiddir:**
A) "İqtisadi inkişaf nəzəriyyəsi"
B) "İqtisadi innovasiya"
C) "İqtisadi tsikllər"
D) "Kapitalizm, sosializm və demokratiya"
E)) Bunların hamısı
**201. Y.Şumpeter iqtisadi artımda hansı amilə daha çox üstünlük vermişdir?**
A)) İnvestisiyaya
B) Əmək məsrəflərinə
C) İqtisadi ehtiyatların səmərəli bölgüsünə
D) Torpağa
E) Kapitala
**202. İnstitusionalizm məktəbinin mühüm istiqamətlərindən biri:**
A) Kəsişən tələb nəzəriyyəsi
B)) "İqtisadi bərabərlik" və "İqtisadi tarazlıq" nəzəriyyəsi
C) Əmtəənin həyat dövrləri nəzəriyyəsi
D) Ölkənin rəqabət üstünlükləri nəzəriyyəsi
E) Mütləq üstünlüklər nəzəriyyəsi

# MÜASİR DÖVRÜN İQTİSADİ NƏZƏRİYYƏLƏRİ

## Testlər

*(Qeyd: "))" - bu işarə düzgün cavabı göstərir)*

**1."Neoklassik sintez" nəzəriyyəsi nədir:**
A) İnvestisiya artımının gəlir artımına olan nisbətidir
B) Səmərəli tələbin ən mühüm tərkib hissəsi olan kapital qoyuluşudur
C) İqtisadi liberalizm ənənələrini davam etdirən baxışlar sistemidir
D)) Pul amili əlavə olmaqla natamam məşğulluq şəraitində tarazlıq nəzəriyyəsidir
E) Dəyərsiz qiymət nəzəriyyəsidir
**2. "Neoklassik sintez" nəzəriyyəsi nədir:**
A) İnvestisiya artımının gəlir artımına olan nisbətidir
B) Səmərəli tələbin ən mühüm tərkib hissəsi olan kapital qoyuluşudur
C) İqtisadi liberalizm ənənələrini davam etdirən baxışlar sistemidir
D))Keyns nəzəriyyəsinin "natamam işsizlik şəraitində" müvazinət nəzəriyyəsi kimi öyrənilməsidir
E) İqtisadi artım probleminin əsaslı surətdə öyrənilməsidir
**3. Təklif nəzəriyyəsinin ən mühüm xidməti nədir:**
A)) İqtisadi artım probleminin əsaslı surətdə öyrənilməsidir
B) Monetarizmlə eyni olan neoklassik sintez makroiqtisadi nəzəriyyədir
C) Nominal əməkhaqqının dəyişməsinin qiymətin səviyyəsindəki dəyişiklikdən geri qalmasıdır
D) Mənfəətin yüksəldilməsini mümkün edir ki, bu da öz növbəsində məşğulluğu stimullaşdırır
E) İqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyini əsaslandırmışdır

**4. P.Samuelson və R.Consun hazırladıqları spesifik istehsal amilləri nəzəriyyəsində nədən bəhs olunur:**
A)) Beynəlxalq ticarətin əsasında əmtəələrin nisbi qiymətlərində olan fərqlər durur
B) Ölkələrin bir qismi mövcud əmtəələr, digər bir qismi isə yeni əmtəələr üzrə ixtisaslaşır
C) Xarici ticarət əmək məhsuldarlığının inkişafını stimullaşdırır
D) Xarici ticarət əmək məhsuldarlığının inkişafını ləngidir
E) Bunların hamısı
**5. P.Samuelsona görə "Neoklassik sintez" nəzəriyyəsi hansı nəzəriyyələrin sintezidir?**
A)) Keynsçi "Səmərəli gözləmə", Neoklassik "İstehsal və bölgü"
B) Keysçi "Natamam işsizlik", Neoklassik "İqtisadi artım"
C) C.Helbreyt "Müvazinətli qüvvələr", U.Rostou "İqtisadi artım mərhələləri"
D) Bem-Baverk "Gözləmələr nəzəriyyəsi", Keynsçi "Səmərəli tələb"
E) Monetarizm "Pulun miqdar nəzəriyyəsi", Keynsçi "Natamam işsizlik"
**6. A.Laffer "Təklif iqtisadiyyatı nəzəriyyəsi" hansı problemin həllini nəzərdə tutmurdu?**
A) Vergilərin azaldılması
B) Təklifin stimullaşdırılması
C) Büdcənin sağlamlaşdırılması
D) Sosial proqramların dondurulması
E)) İnflyasiyanın tənzimlənməsi
**7. Təklif nəzəriyyəsinin nümayəndələrinin qəbul etmədiyi fikir:**
A) Vergilərin azaldılması
B) Təklifin stimullaşdırılması
C) Büdcənin sağlamlaşdırılması
D) Sosial proqramların dondurulması

E)) Büdcə kəsirini

**8. C.R.Xiks və A.Xansen tərəfindən işlənmiş əmtəə və pul bazarının qarşılıqlı asılılıq modeli:**

A)) İS-LM modeli

B) AD-AS modeli

C) "Ford mustanq" modeli

D) "Gəlirlər-xərclər" modeli

E) "Məcmu tələb-məcmu təklif" modeli

**9. C.M.Keyns tərəfindən işlənmiş məcmuu tələb və məcmuu təklif qarşılıqlı asılılıq modeli:**

A) İS-LM modeli

B) "Gəlirlər-xərclər" modeli

C)) AD-AS modeli

D) "Məcmu tələb-məcmu təklif" modeli

E) "Ford mustanq" modeli

**10. ETT-nin inkişaf prosesində əməyin zaman etibarı ilə kapitalla silahlanması son hədd daxilində əmək və kapital arasında əvəz olunması necə müəyyən olunur?**

A) ETT-i R.Solouya görə bitərəflilik

B) ETT-i kapitala qənaətcillik

C) ETT-i əmək qəanətcilliyi

D) ETT-i R.Xarroda görə bitərəflilik

E)) ETT-i C.Xiksə görə bitərəflilik

**11. Aşağıdakılardan hansılar tsiklər nəzəriyyəsinə aiddir?**

A) Keynsçi nəzəriyyələr

B) Monetarist nəzəriyyələr

C) İqtisadi tsiklin sinxronlaşdırılması nəzəriyyəsi

D)) Keynsçi, monetarist və iqtisadi tsiklin sinxronlaşdırılması nəzəriyyələri

E) Marksist nəzəriyyələr

**12. Aşağıdakılardan hansılar tsiklər nəzəriyyəsinə aid deyil?**

A) Keynsçi nəzəriyyələr

B) Monetarist nəzəriyyələr

C) İqtisadi tsiklin sinxronlaşdırılması nəzəriyyəsi
D) Keynsçi, monetarist və iqtisadi tsiklin sinxronlaşdırılması nəzəriyyələri
E)) İqtisadi bərabərlik və iqtisadi tarazlıq nəzəriyyəsi

**13. N.D.Kondratyevin böyük tsikllərin və ya uzun dalğaların təkrarlanmasını əlaqələndirirdi:**
A) Qısamüddətli dövrdə istehsal fondlarına qoyulan dəyişən kapitalın həcmi ilə əlaqədardır
B) Uzunmüddətli istehsal fondlarına qoyulan dövriyyə fondları ilə əlaqədar
C))Uzunmüddətli istehsal fondlarına qoyulan əsas kapitalın yeniləşməsi ilə əlaqədar
D) Ortamüddətli istehsal fondlarına qoyulan dövriyyə və dəyişən kapitalla əlaqədar
E) Qısamüddətli dövrdə istehsal fondlarına qoyulan dəyişən kapitalın həcmi və uzunmüddətli istehsal fondlarına qoyulan dövriyyə fondları ilə əlaqədar

**14. 7-12 ili əhatə edən tsikllər:**
A) Toffer tsiklləri
B) Uzunmüddətli tsikllər
C)) Ortamüddətli tsikllər
D) Qısamüddətli tsikllər
E) Forrester tsiklləri

**15. 40-60 ili əhatə edən tsikllər:**
A) Toffer tsiklləri
B) Qısamüddətli tsikllər
C)) Uzunmüddətli tsikllər
D) Ortamüddətli tsikllər
E) Forrester tsiklləri

**16. 1000-2000 ili əhatə edən tsikllər:**
A) Forrester tsiklləri
B) Juqlyar tsiklləri
C)) Toffer tsiklləri
D) Uzunmüddətli tsikllər
E) Kitçen tsiklləri

**17. 2-4 ili əhatə edən tsikllər:**
A) Toffer tsiklləri
B) Forrester tsiklləri
C)) Qısamüddətli tsikllər
D) Uzunmüddətli tsikllər
E) Ortamüddətli tsikllər

**18. 200 ili əhatə edən tsikllər:**
A) Toffer tsiklləri
B) Uzunmüddətli tsikllər
C)) Forrester tsiklləri
D) Qısamüddətli tsikllər
E) Ortamüddətli tsikllər

**19. Kuznest tsiklləri:**
A) Toffer tsiklləri
B) Forrester tsiklləri
C)) Tikinti tsiklləri
D) Uzunmüddətli tsikllər
E) Qısamüddətli tsikllər

**20. İki konsepsiyaya müvafiq olaraq bazar konyuktura mexanizminin dinamikasını əks etdirən işgüzar tsikl modeli, akselerator və multiplikator prinsipi:**
A) A.Smit - D.Rikardo
B)) P.Samuelson - C.Xiks
C) K.Marks - F.Engels
D) C.Keyns - A.Marşall
E) Xekşer-Olin

**21. İqtisadi tarazlıq nəzəriyyəsinin Qərbi Avropa nümayəndələrini seçin:**
A) A.Smit - D.Rikardo
B) P.Samuelson - C.Xiks
C) K.Marks - F.Engels
D)) U.Cevons - A.Marşall
E) E.Xekşer-B.Olin

**22. "Səmərəli gözləmə" nəzəriyyəsi hansı iqtisadi siyasəti nəzərdə tutmur?**
A) Makro və mikro iqtisadi əlaqələndirməni
B) İqtisadi siyasətin nəticəsinin dəyişməsini
C) Gözləmənin mümkün təsirini
D) Dövlətin iqtisadiyyata məhdud müdaxiləsini
E)) Dövlətin iqtisadiyyata qeyri-məhdud müdaxiləsini

**23. "Səmərəli gözləmə" nəzəriyyəsi hansı iqtisadi siyasəti nəzərdə tutur?**
A) Makro və mikro iqtisadi əlaqələndirməni
B) İqtisadi siyasətin nəticəsinin dəyişməsini
C) Gözləmənin mümkün təsirini
D) Dövlətin iqtisadiyyata məhdud müdaxiləsini
E)) Bunların hamısını

**24. Beynəlxalq ticarətin ən yeni nəzəriyyələri içərisində yanlış olanını göstərin:**
A) Kəsişən tələb nəzəriyyəsi
B) Texnoloji fərq teoremi
C) Əmtəənin həyat dövrləri nəzəriyyəsi
D) Ölkənin rəqabət üstünlükləri nəzəriyyəsi
E)) Mütləq üstünlüklər nəzəriyyəsi

**25. "Rifah iqtisadiyyatının zənginləşdirilməsi" nəzəriyyəsinin Nobel mükafatı laureatı kim olmuşdur?**
A)) S.Amartiya
B) R.Stoun
C) E.Xansen
D) S.Domar
E) M.Fridmen

**26. İnhisarçı rəqabət problemini inkişaf etdirən siyasi iqtisad elminin nümayəndələrini seçin:**
1) S.Amartiya
2) U.Folner
3) N.Kaldor
4) U.Baumol
5) M.Fridmen

A) 1;2;3
B)) 2;3;4
C) 3;4;5
D) 4;5;1
E) 5;4;3

**27. Aşağıdakıdardan hansı beynəlxalq ticarət nəzəriyyələrinə aid deyildir?**
A) Mütləq üstünlük nəzəriyyəsi
B) Müqayisəli xərclər nəzəriyyəsi
C) İstehsal amilləri nəzəriyyəsi
D) İstehsal amilləri nisbəti nəzəriyyəsi
E)) Optimallıq nəzəriyyəsi

**28. Aşağıdakıdardan hansı beynəlxalq ticarət nəzəriyyələrinə aiddir?**
1) Mütləq üstünlük nəzəriyyəsi
2) İqtisadi inkişaf nəzəriyyəsi
3) İstehsal amilləri nəzəriyyəsi
4) İstehsal amilləri nisbəti nəzəriyyəsi
5) Optimallıq nəzəriyyəsi
A) 1;2;3 B)) 1;3;4 C) 1;3;5 D) 2;3;4 E) 3;4;5

**29. Bir ölkə hansı istehsal amili ilə zəngindirsə, istehsalı həmin amildən daha çox tələb edən əmtəələr üzrə müqayisəli üstünlük əldə edər və bu sahədə də ixtisaslaşar. Bu hansı nəzəriyyədir:**
A) Müqayisəli üstünlük nəzəriyyəsi
B) Mütləq üstünlük nəzəriyyəsi
C) İstehsal amilləri nəzəriyyəsi
D)) İstehsal amillərinin nisbəti nəzəriyyəsi
E) Spesifik istehsal amilləri nəzəriyyəsi
**30. R.Vernan tərəfindən irəli sürülmüş nəzəriyyə necə adlanır?**
A) Mütləq üstünlük nəzəriyyəsi
B) Müqayisəli üstünlük nəzəriyyəsi
C)) Məhsulun həyat dövrü nəzəriyyəsi
D) Beynəlxalq rəqabət gücü nəzəriyyəsi
E) Texnoloji üstünlüklər nəzəriyyəsi
**31. E.Hekşer və B.Olinin hansı nəzəriyyəsinə görə hər bir ölkə müqayisəli üstünlüyə malik olduğu mal istehsalı üzrə ixtisaslaşaraq onu ixrac edir?**
A)) İstehsal amillərinin nisbəti nəzəriyyəsi
B) İstehsal amillərinin qiymətlərinin bərabərləşməsi
C) İstehsal amilləri nəzəriyyəsi
D) Mütləq üstünlük nəzəriyyəsi
E) Müqayisəli üstünlük nəzəriyyəsi
**32. Aşağıdakı nəzəriyyələrdən hansı mikroiqtisadi problemlərin araşdırılmasında istifadə olunur:**
A) İstehsal amillərinin nisbəti nəzəriyyəsi
B) İstehsal amillərinin qiymətlərinin bərabərləşməsi
C) İstehsal amilləri nəzəriyyəsi
D)) Mütləq üstünlük nəzəriyyəsi
E) Bunların hamısı
**33. Kapitalizmin transformasiya nəzəriyyəsinə aid deyil:**
A) Xalq kapitalizmi D) Rifah dövləti
B) Kollektiv kapitalizm E)) Mübadilə iqtisadiyyatı

C) Qarışıq iqtisadiyyat

**34. İqtisadi tarazlıq nəzəriyyəsinin əsasını nə təşkil edir:**

1) Son faydalılıq
4) Son məhsuldarlıq
2) Tələb və təklif
5) Mübadilə iqtisadiyyatı
3) Qarışıq iqtisadiyyat

A) 1;2;3 B) 2;3;4 C)) 1;2;4 D) 5;4;3 E) 5;1;3

**35. Aşağıda adları qeyd olunan kateqoriyaların hansı A.Kurnonun maraq dairəsinə aid deyil:**

A) Tələbin funksiyası
D) Xalis inhisar nəzəriyyəsi
B) Tələbin elastikliyi
E) Duapoliya nəzəriyyəsi
C)) Optimal müvazinət

**36.Aşağıda adları qeyd olunan konsepsiyalardan hansı C.Helbreytin maraq dairəsinə aiddir:**

A) Neoklassik sintez nəzəriyyəsi
B) Xalis inhisar nəzəriyyəsi
C)) Müvazinətli qüvvələr nəzəriyyəsi
D) Duapoliya nəzəriyyəsi
E) Optimal müvazinət nəzəriyyəsi

**37. Məhsuldarlıq həddi təliminin banisi kimdir:**

A) A.Kurno
D) C.Tyunen
B) C.Düpü
E)) C.Klark
C) A.Marşall

**38. Rəqabətli bazar həmişə səmərəli bölgünü təmin edir, hər hansı rəqabətli müvazinət isə Pareto-səmərəlidir. Bu:**

A))Rifahın birinci teoremidir
B) Rifahın ikinci teoremidir
C) Səmərəlilik meyarıdır
D) Qismən tarazlıq şəraitidir
E) Ümumi tarazlıq şəraitidir

**39. Pul amili əlavə olunmaqla natamam məşğulluq nəzəriyyəsidir. Bu:**

A) Dəyərsiz qiymət nəzəriyyəsi
B) Səmərəlilik meyarıdır
C)) Neoklassik sintez nəzəriyyəsi

D) Qismən tarazlıq şəraitidir
E) Ümumi tarazlıq şəraitidir
**40. P.Samuelsonun fikrinə görə:**
A)) Maliyyə siyasətinin vəzifəsi "ictimai əmtəələr" təklifi sferası üçün tənzimləyici tədbirləri təmin etməkdir
B) Mübadilə qiyməti tələb və təklif qanununun elə bir səviyyəsinə görə müəyyənləşir ki, bu qiymətdə hər bir ölkənin ixracı onun idxalını ödəyir
C) Ölkələr arasında mənfəətli xarici ticarətin təmin edilməsi üçün ölkələrdə daxili istehsal dəyərləri bir-birindən fərqli olmalıdır
D) Dünya bazarında əmtəə təklifi tələbin ardınca meydana gəlir
E) Xarici ticarət əmək məhsuldarlığının inkişafını stimullaşdırır
**41. Bu nəzəriyyəyə görə, ölkənin ixracının strukturu müəyyən dərəcədə idxalçı ölkədə mövcud olan tələbdən asılıdır, əmtəənin çox az bir hissəsi ixrac üçün istehsal edilir və onların əksəriyyəti ölkə daxilində satılır:**
A) Spesifik istehsal amilləri nəzəriyyəsi
B) Əmtəənin həyat dövrü nəzəriyyəsi
C) Mütləq üstünlüklər nəzəriyyəsi
D)) Kəsişən tələb nəzəriyyəsi
E) Müqayisəli üstünlüklər nəzəriyyəsi
**42. Təklif nəzəriyyəsində son dərəcə mühüm yer tutur:**
A) Spesifik istehsal amilləri nəzəriyyəsi
B)) Laffer səmərəsi
C) Əmtəənin həyat dövrü nəzəriyyəsi
D) Fillips əyrisi
E) Mütləq üstünlüklər nəzəriyyəsi
**43. Qeyri-təkmil bazar informasiyası şəraitində istehsala kapital qoyuluşlarında gözlənilən və real nəticələrindən asılı olaraq optimizmə və ya pessimizmə uyğun iqtisadi fəaliyyəti əks etdirən nəzəriyyə hansıdır?**
A) Keynsçı
B) İfrat yığım
D)) Psixoloji
E) Tarazlıq

C) Monetar

**44. Qiymətlərin yüksəlməsi haqqında informasiyanın düzgün qiymətləndirilməməsi nəticəsində iqtisadi aktivliyin əsassız olaraq sürətləndirilməsini əks etdirən nəzəriyyə hansıdır?**

A)Psixoloji

B)Keynsçı

C)Monetar

D)Marksist

E))Tarazlıq

**45. C.Xansonun tsiklik dəyişmələr ilə mübarizə metodu hansıdır**:

A) İnvestisiya həcmini sabitləşdirmək

B) Fiskal və pul-kredit siyasəti tədbirlərilə xüsusi dəyişməsini tarazlaşdırmaq

C)) İnvestisiya həcmini sabitləşdirmək və fiskal və pul-kredit siyasəti tədbirlərilə xüsusi dəyişməsini tarazlaşdırmaq

D) Milli gəlirin mənfəətin xeyrinə yenidən bölgüsünü təmin etmək

E) İnvestisiya həcmini sabitləşdirmək və milli gəlirin mənfəətin xeyrinə yenidən bölgüsünü təmin etmək

**46. Təklif nəzəriyyəsinin tərəfdarlarının xüsusi əhəmiyyət verdiyi iqtisadi fikir:**

A) İnvestisiya həcmini sabitləşdirmək

B) Fiskal və pul-kredit siyasəti tədbirlərilə xüsusi dəyişməsini tarazlaşdırmaq

C)) Amortizasiyanı sürətləndirmək siyasəti ilə istehsalı stimullaşdırmaq

D) Milli gəlirin mənfəətin xeyrinə yenidən bölgüsünü təmin etmək

E) İnvestisiya həcmini sabitləşdirmək və milli gəlirin mənfəətin xeyrinə yenidən bölgüsünü təmin etmək

**47. "Kəsişən tələb" nəzəriyyəsinin əsası kim tərəfindən qoyulmuşdur:**

A)) Staffan Linder

B) Pol Samuelson

D) David Rikardo

E) Raymond Vernon

C) Con Stüart Mill

**48. "Xalis ticarət"-sənaye inhisarlarını və azad rəqabəti təhlil edən iqtisadçı:**

A) Staffan Linder
B) Pol Samuelson
C) Con Stüart Mill
D)) A.Marşall
E) Raymond Vernon

**49. "Ölkələrin rəqabət üstünlükləri" nəzəriyyəsinin müəllifi kimdir:**

A) Raymond Vernon
B) Ronald Cons
C)) Maykl Porter
D) Adam Smit
E) P. Samuelson

**50. Dünya təsərrüfatına dair müxtəlif problemlər hansı istiqamətə uyğun qruplaşdırılır:**

A) Xarici ticarət münasibətləri, açıq iqtisadiyyatda müvazinət problemləri
B) Beynəlxalq maliyyə və tədiyyə balansı
C) Gömrük müdafiəsinin optimal səviyyəsi ilə bağlı olan problemləri
D) Valyuta kursu rejimi və optimal kurs problemləri
E)) Bütün cavablar doğrudur

**51. İnhisarçı rəqabət nəzəriyyəsinin əsasını hansı nəzəriyyələr təşkil edir:**

A) Xarici ticarət haqqında nəzəriyyələr
B) Beynəlxalq maliyyə nəzəriyyəsi
C) Beynəlxalq iqtisadi inteqrasiya nəzəriyyəsi
D)) Son faydalılıq və istehsal xərcləri nəzəriyyəsi
E) Bütün cavablar doğrudur

**52. Xarici ticarət problemi ilk dəfə hansı nəzəriyyə tərəfindən öyənilmişdir:**

A)) Merkantilist nəzəriyyə
B) Klassik nəzəriyyə
C) Neoklassik nəzəriyyə
D) Monetarist nəzəriyyə
E) Neoliberalist nəzəriyyə

**53. Bu nəzəriyyənin tərəfdarları bazar iqtisadiyyatının təşkilinin ən səmərəli üsulu və təbii qərarlaşmış iqtisadi fəaliyyət sistemi kimi qələmə verirlər:**
A) Merkantilist nəzəriyyə
B) Monetarist nəzəriyyə
C))Təklif iqtisadiyyatı nəzəriyyəsi
D) Neoliberalist nəzəriyyə
E) Neoklassik nəzəriyyə

**54. Asimmetrik qarşılıqlı asılılığın güclənməsi haqqında ideya hansı iqtisadçı tərəfindən öz şərhini tapmışdır:**
A)) İ.Vallerstaynın "İqtisadi dünya" konsepsiyasında
B) F.Aydolonun "Məkan dinamikası və qeyri-ekvivalent inkişaf " kitabında
C) P.Samuelsonun "Neoklassik sintez nəzəriyyəsində"
D) M.Valrasın "Ümumi iqtisadi tarazlıq konsepsiyasında"
E) C.Helbreytin "Müvazinətli qüvvələr" nəzəriyyəsində

**55.F.Aydolon "Məkan dinamikası və qeyri-ekvivalent inkişaf" kitabında hansı iqtisadçının fərziyyəsi inkar edilir:**
A) İ. Vallerstaynın
B) P.Samuelsonun
C) M.Valrasın
D) C.Helbreytin
E)) A.Emmanuelin

**56. Antitrest qanunvericiliyinə qarşı çıxılırdı:**
A) İ. Vallerstaynın "İqtisadi dünya" konsepsiyasında
B) F.Aydolonun "Məkan dinamikası və qeyri-ekvivalent inkişaf " kitabında
C) P.Samuelsonun "Neoklassik sintez nəzəriyyəsində"
D) M.Valrasın "Ümumi iqtisadi tarazlıq konsepsiyasında"
E)) C.Helbreytin "Müvazinətli qüvvələr" nəzəriyyəsində

**57. Müasir kapitalizmdə xüsusi inhisarlar ziddiyyət təşkil etmirlər, çünki dövlət xüsusi inhisarlarla əməkdaşlıq edir. Bu fikirin müəllifi kimdir:**
A) İ. Vallerstayn
B) P.Samuelson
C) M.Valras
D)) C.Helbreyt
E) A.Emmanuel

**58. Doğru olanı seçin:**
A) Neoklassik sintez – R. Cons
B) Müqayisəli üstünlük – A.Smit
C) Mütləq üstünlük- D. Rikardo
D) Mənafelərin ahəngdarlığı - Y.Şumpeter
E)) Ölkələrin rəqabət üstünlükləri – M.Porter
**59. Doğru olanı seçin:**
A)) R.Vernan- Məhsulun həyat dövrü
B) E.Hekşer, B.Olin- İstehsal amilləri nəzəriyyəsi
C) M.Porter-İstehsal amillərinin nisbəti
D) R.Vernan- Ölkələrin rəqabət üstünlükləri
E) P.Samuelson- Kəsişən tələb nəzəriyyəsi
**60. Uyğunluq pozulmuşdur:**
A) D.Rikardo- Müqayisəli üstünlük
B) A.Smit- Mütləq üstünlük
C) Xekşer və Olin- İstehsal amillərinin nisbəti
D)) S.Linder- İstehsal amilləri nəzəriyyəsi
E) M.Porter-Ölkələrin rəqabət üstünlükləri
**61. Təklif nəzəriyyəsinin motefarizmində fərqli cəhətini müəyyən edin:**
1) Vergi dərəcəsini aşağı salmağı
2) Vergi dərəcəsini yüksəltməyi
3) Məhdud pul siyasəti yeritməyi
4) İstehsal amillərinin uzunmüddətli dövlət tənzimlənməsi
5) İstehsal amillərinin qısamüddətli dövlət tənzimlənməsi
A)) 1;3;4  B) 1;5;3  C) 1;2;5  D)3;4;5  E)2;5;3
**62. A.Emmanuelin radikal konsepsiyasında bazis rolunu oynayan təlim:**
A) Merkantilizm
B) Marksizmin ayrı-ayrı müddəaları
C) Xırda burjua siyasi iqtisadı
D) Radikal siyasi iqtisad
E)) Bunların hamısı

**63. Verilmiş nəzəriyyələr uyğun olaraq aiddir:**
1) Kəsişən tələb — A) M.Porter
2) Ölkələrin rəqabət üstünlükləri — B) S.Linder
3) İstehsal amilləri nisbəti — C) Xekşer-Olin
A)) 1-A; 2-B; 3-C
B) 1-B; 2-A; 3-C
C) 1-C; 2-B; 3-A
D) 1-B; 1-C; 3-C
E) 1-B; 2-C; 3-A

**64. Təklif nəzəriyyəsi nümayəndələrinin iqtisadiyyatın dövlət tənzimlənməsi sisteminə münasibəti ondan ibarətdir ki, bu tənzimləmə:**
1) Uzunmüddətli xarakterə malik olmalıdır
2) Uzunmüddətli xarakterə malik olmamalıdır
3) Məcmuu tələbin antisiklik idarə olunmasına yönəldilməməlidir
4) İstehsal amillərinin təklifinin stimullaşdırılmasına yönəldilməlidir
5) Bunların hamısı
A) 1;2;3 B) 3;4;5 C)) 1;3;4 D) 1;2;5 E) 2;3;4

**65. "Səmərəli gözləmə" nəzəriyyəsinin nümayəndələri kimdir:**
1) Y.Şumpeter
2) Q.Keri
3) R.Lukas
4) T.Sarjent
5) N.Uolles
A) 3,2,1; B) 4,3,2; C) 5,4,2; D)) 3,4,5; E) 1,2,5.

**66."Səmərəli gözləmə" nəzəriyyəsinin müəlliflərindən biri yanlışdır:**
A) R.Lukas
B) F.Sarcent
C) N.Uolles
D) C.Mut
E)) M.Pozner

**67. Fond əməliyyatlarında spekulyativ motivlərlə bağlı olaraq optimizm və pessimizm əhval-ruhiyyələrini əks etdirən nəzəriyyə hansıdır?**
A) Tarazlıq
B) Keynsçi
D) Monetar
E) Marksist

C)) Psixoloji

**68. C.Xiksin "Neoklassik sintez" nəzəriyyəsi hansı nəzəriyyələrin sintezidir?**

A)) C.Keyns və neoklassik iqtisadi artım
B) Neoliberalizm və neokeynsçilik
C) Monetarizm və keynsçi səmərəli tələb
D) Neoliberalizm və monetarizm
E) Neoklassik və neoliberalizm

**69. Bazar konsepsiyasında inhisar və rəqabət problemini tədqiq etmişdir:**

A) Y.Şumpeter
B)) E. Çemberlin
C) C. Robinson
D) C. Keyns
E) C.Robinson və E. Çemberlin

**70. İqtisadi nəzəriyyənin müasir istiqamətlərinə hansı istiqamət daxil deyil?**

A) Neoklassik -sosioloji
B) Neokeynsçilik
C)) Klassik
D) Neoliberalizm
E) İnstitusionalizm

**71. Qiffen paradoksu nədə təzahür edir?**

A) Əmtəənin qiyməti azalarsa ona tələb artmaqda
B) Son faydalılığın artmasında
C) Ümumi faydalılığın azalmasında
D)) Əmtəənin qiyməti azaldıqda ona tələbin azalmasında
E) Əmtəənin bütün qiymətlərində tələbin dəyişməzliyində

**72. Qiffen paradoksu bunlara münasibətdə təzahür olunur:**

A) Zinət əşyaları
B)) Aşağı keyfiyyətli məhsullar
C) Kənd təsərrüfatı məhsulları
D)Tamamlayıcı əmtəələr
E) Əvəzləyici əmtəələr

**73. X. Saymonun təklif etdiyi davranış nəzəriyyəsinin əsas anı hesab olunur:**

A) Hüquq və vəzifələrin dəqiq bölgüsü
B) Vaxt məhdudiyyətinin təyin edilməsi
C)) Güzəşt məharəti
D) Büdcə məhdudiyyətinin tətbiq edilməsi

E) Adları çəkilənlərin heç biri ilə

**74. Neoklassik sintezin görkəmli təbliğatçısı və yaradıcısı:**

A) M.Fridman
B) V.Pareto
C) L.Valras
D)) P.Samuelson
E) C.Helbreyt

**75. A.Piqu yazırdı ki;**

A)) Sadə rəqabət şəraitində tamahkar mənafelər təzahür edir və fiskal xarakter daşıyan inhisarlar öz effektivliyini itirir
B) Qeyri-müvazinət vəziyyəti təsadüfi səciyyəlidir, iqtisadiyyatın özü onu aradan qaldırır
C) İqtisadiyyata dövlət müdaxiləsi iqtisadiyyatın təbiətinə ziddir
D) Avtomatik tənzimlənmə təsadüfidir və xüsusi hal kimi səciyyələnməlidir
E) Müasir iqtisadiyyat dövlət müdaxiləsi olmadan səmərəli fəaliyyət göstərə bilməz

**76. C.Robinson yazırdı ki;**

A)) Əmək məhsuldarlığının artımına uyğun əməkhaqqının yüksəlməsi reallaşmadakı çətinliyi aradan qaldırır
B) Qeyri-müvazinət vəziyyəti təsadüfi səciyyəlidir, iqtisadiyyatın özü onu aradan qaldırır
C) İqtisadiyyata dövlət müdaxiləsi iqtisadiyyatın təbiətinə ziddir
D) Avtomatik tənzimlənmə təsadüfidir və xüsusi hal kimi səciyyələnməlidir
E) Müasir iqtisadiyyat dövlət müdaxiləsi olmadan səmərəli fəaliyyət göstərə bilməz

**77. Maliyyə siyasətinin vəzifəsi "ictimai əmtəələr" təklifi sferası üçün tənzimləyici tədbirləri təmin etməkdir –nəzəriyyəsi kimə aiddir:**

A) Y.Tinbergen
B)) P.Samuelson
C) D.Nort
D) U.Mitçel
E) T.Veblen

# İSTİFADƏ OLUNAN ƏDƏBIYYAT


1. Qurani-Kərim. Tərcümə: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı, 1991.
2. M.X.Meybullayevin ümumi elmi redaktəsi ilə, İqtisadi təlimlər tarixi (dərslik). Bakı, 2002.
3. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. Dərslik. Ə.P.Babayevin ümumi redaktəsi ilə rus dilindən Azərbaycan dilinə tərcümə olunub. Bakı, 2013, 547 s.
4. T.S.Vəliyev və A.C. Həsənov. Azərbaycan iqtisadi fikir tarixi, Bakı -1996.
5. Böyük İqtisadi Ensiklopediya. 5 cilddə. Bakı, 2012.
6. Ü.Əliyev. İqtisad elminin aktual problemləri. Bakı, 2013.
7. Q.Manafov. İqtisadi nəzəriyyə: Makroiqtisadiyyat (Metodiki vəsait). Bakı, 2010.
8. F.A.Nəsrullayev. İqtisadi nəzəriyyənin predmeti və metodologiyası. Bakı, 1997.
9. M.X.Meybullayev. İslam iqtisadiyyatı. Bakı, 2001.
10. M.X.Meybullayev. XIX əsrin iqtisadçılarının əsərlərində klassik elmi sistemin inkişafı. Bakı, 2001.
11. M.X.Meybullayev. İqtisadiyyat. Bakı, 2015.
12. Q.S.Əlləzov. Klassik burjua siyasi iqtisadının yaranması və inkişafı. Bakı, 1992.
13. Q.S.Əlləzov. Müasir iqtisadi nəzəriyyələr. Bakı, 1992.
14. Q.S.Əlləzov. İqtisad elminin nəzəri-metodoloji əsaslarının tarixi inkişafı. Bakı, 2009.
15. Ş.S.Qafarov. Pulun diktaturası. Bakı, 2014.
16. M.A.Əhmədov. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı, 2003.
17. F.Əliyev, T.Əliyev. Ev təsərrüfatları gəlirlərinin formalaşması və ondan istifadənin sosial-iqtisadi problemləri. Bakı: Elm və təhsil, 2011.

18. A.M.Əliyeva. Qiyabi təhsil alanlar üçün iqtisadi təlimlər tarixinin öyrənilməsinə dair metodik vəsait. Bakı, 2001.
19. F.İ.Hüseynov. İqtisadi nəzəriyyənin əsas prinsipləri. "İqtisad Universiteti" nəşriyyatı, Bakı, 2015.
20. İqtisadi nəzəriyyə kursu: İqtisadi nəzəriyyənin ümumi əsasları. Mikroiqtisadiyyat. Makroiqtisadiyyat. Milli iqtisadiyyatın əsasları: Dərslik. Ə.P.Babayevin ümumi redaktəsi ilə rus dilindən Azərbaycan dilinə tərcümə olunub. Bakı, 2012.- 1086 s.
21. Z.A.Hüseynova. İqtisadi nəzəriyyə (dərs vəsaiti). Bakı, 2006.
22. F.Rəsulov və Q.İbadoğlu. İqtisadiyyatın əsasları. Bakı: Elm, 2004.
23. Redaktor: Ronen Palan. Qlobal siyasi iqtisad (müasir nəzəriyyələr). "Routlebge" nəşriyyatı, 2002.
24. A.Anikin. Elmin gəncliyi. Bakı, 1987.
25. Mark Blauq. Keynsə qədər 100 böyük iqtisadçı. Bakı, 2009.
26. İbn Xəldun. "Müqəddimə", əsəri. 3 cilddə, türkcə. Zakir Qafuri ucarın tərcüməsi. İstanbul, 1988.
27. Vural Savaş. İktisatın tarihi. Ankara, 2000.
28. Z.Bünyadov. Azərbaycan VII - IX əsrlərdə. Bakı, 1985.
29. Əbu Əli Həsən İbn Əli Xasə Nizamülmük. Siyasətnamə. Bakı, 1987.
30. Под общей научной редакции д.э.н., проф. М.Х.Мейбуллаева. История экономических учений. Баку, 2005.
31. Автор - Составитель - Елена Чайка. История экономических учений. Москва, 2004.
32. K.Marks. “Kapital”. 4 cilddə, Bakı, 1960, 1967, 1968, 1969, 1974.
33. A.Marşall. Siyasi iqtisadın prinsipləri. I-III cildlər, M.1993.

34. Я.Ядыгаров. История экономических учений, М.: 1999.

35. А.Р.Ж.Тюрго. Избранные экономические произведения. М., Соцэкгиз, 1961, стр. 129.

36. Ф.Хаек. Неоинститусионализм. Вопросы экономики , 1999.

37. Блауг М. Экономическая мысль в ретроспективе. М.,1994.

38. Дуглас Н. Институты, институциональные изменения и функционирования экономики. М., 1997.

39. Мировая экономическая мысль. Сквозь призму веков. В 5-х . М., 2004-2005.

40. Всемирная история экономической мысли. В 5-х т, М.,1987, 1988, 1989, 1990, 1994.

41. Институциональная экономика: Новая институциональная экономическая теория: Учебник /Коллектив автор / Под ред. А.А.Аузана -2-е изд. -М.: ИНФРА-М, 2001. - 447 с.

42. Бренделева Е.А. Неоинституциональная экономическая теория. Учебное пособие. М.:"Дело и Сервис" 2006.

43. Коуз.Р. Фирма, рынок и право. М.: Дело, 1993.

44. Норт Д. Институты и экономический рост: историческое введение // THESIS. - 1993a. - Весна. Т. 1. Вып. 2.

| | |
|---|---|
| **Nəşriyyatın müdiri** | ***Kamil Hüseynov*** |
| **Baş redaktor** | ***İsmət Səfərov*** |
| **Redaktor** | ***İsabə Hüseynova*** |
| **Korrektor** | ***Südabə Manafova*** |
| **Kompyuter operatoru** | ***Təranə Baxşəliyeva*** |

i.e.n., dos. **Şəhla Məhəmməd qızı Rzayeva**
i.e.n., dos. **Leyla Zakir qızı Əliyeva**

**İqtisadi fikir tarixi**

---

*Dərs vəsaiti*

***Çapa imzalanıb 8. 02. 2018. Kağız formatı 60x84 1/16.***
***Həcmi ç.v. Sifariş . Sayı 50.***

---

***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***